# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# ƏLLİNCİ KİTAB

## FEVRAL 2012 - APREL 2012

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin 50-ci – yubiley nəşrində dövlət başçısının Xorvatiya, Koreya və Çexiyaya səfərləri, həmçinin Gürcüstan və Qırğız prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, sazişlərdən, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsindən bəhs olunur.

Digər cildlərdə olduğu kimi, bu cilddə də Azərbaycanın uğurla aparılan daxili və xarici siyasətinə, iqtisadi potensialının möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərinə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Bu cilddə, həmçinin ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, kütləvi informasiya vasitələrinə və xarici telekanallara verdiyi müsahibələri də yer almışdır

**ISBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{\textbf{0801000000}}{\textbf{М – 651(07)– 2017}}$$

**ББК - 32**

© Azərnəşr, 2017

## BAKIDA XALQ QƏHRƏMANI KOROĞLUNUN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*21 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 21-də Bakıda xalq qəhrəmanı Koroğlunun xatirəsinə ucaldılmış abidənin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan Dövlət simfonik orkestri dahi bəstəkar Üzeyir Hacıbəylinin «Koroğlu» operasının uvertürasını ifa etdi.*

*Dövlətimizin başçısı abidənin üzərindəki örtüyü götürdü və abidənin önünə əklil qoydu.*

*Dövlət başçısı Azərbaycanın elm, təhsil və mədəniyyət ictimaiyyətinin tanınmış nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Əziz dostlar! Bu gün şəhərimizin tarixində çox əlamətdar və unudulmaz bir gündür. Bu gün Bakının mərkəzində, şəhərimizin gözəl guşəsində biz böyük şəxsiyyət, Azərbaycan xalqının qəhrəman oğlu Koroğlunun abidəsinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Koroğlu bizim xalq qəhrəmanımızdır. Koroğlu vətənpərvərlik, igidlik rəmzidir. Bütün dövrlərdə Koroğlunun xalq qarşısında etdiyi xidmətlər Azərbaycan xalqının xatirəsində yaşamışdır və bu gün də yaşayır.

Müxtəlif dövrlərdə bizim böyük sənətkarlarımız «Koroğlu» mövzusuna müraciət etmişlər. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin keçən əsrin 30-cu illərində yazdığı «Koroğlu» operası bu gün də yaşayır və əbədi yaşayacaqdır. Bütün təntənəli mərasimlərdə «Koroğlu» operasının uvertürası səslənir. Bu bizim Dövlət himnimizlə bərabər, Azərbaycan xalqının ayrılmaz böyük dəyəri kimi bu gün də yaşayır.

Ölkəmizin müxtəlif şəhərlərində Koroğlunun abidələri ucaldılmışdır. Ancaq Bakıda Koroğlunun abidəsi yox idi və bu

boşluğu biz indi aradan qaldırdıq. Mən 2009-cu ildə Bakıda Koroğlunun abidəsinin ucaldılması haqqında müvafiq sərəncam imzalamışam. Bizim istedadlı heykəltəraşımız Tokay Məmmədov gözəl və əzəmətli əsər yaratmışdır. Koroğlu abidəsi üçün müvafiq yerin seçilməsi prosesi başlanmışdı. Mən çox istəyirdim ki, şəhərimizin gözəl yerində gözəl, əzəmətli abidə ucaldılsın və bu gün biz bu tarixi hadisənin şahidiyik.

Gənc nəslin tərbiyə edilməsində «Koroğlu» dastanı çox mühüm bir vasitədir. Gənc nəslimiz vətənpərvərlik ruhunda böyüməli, tərbiyə almalıdır. Müstəqil Azərbaycanın vətəndaşları öz Vətənini, xalqını sevməlidirlər. Koroğlu xalq içərisindən çıxmış, xalq üçün yaşamış gözəl insan, böyük sərkərdə, eyni zamanda, istedadlı insan idi – həm şair, həm aşıq idi. Koroğlu abidəsinin ucaldılması bir tərəfdən tarixi ədaləti əks etdirir, digər tərəfdən də Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu əyani şəkildə göstərir.

Biz öz dahi şəxsiyyətlərimizin xatirəsinə böyük hörmətlə yanaşırıq. Təkcə keçən il Bakıda görkəmli şəxsiyyətlərin – Zivərbəy Əhmədbəyovun, Fikrət Əmirovun abidəsi ucaldılmışdır. Bu gün biz Koroğlunun abidəsinin açılışını qeyd edirik. Yaxın gələcəkdə Bakıda, şəhərimizin gözəl yerlərində Babəkin, Qara Qarayevin, Bülbülün abidələri ucaldılacaqdır. Artıq müvafiq göstərişlər verilmişdir.

Sovet dövründə də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə xalqımızın görkəmli şəxsiyyətlərinin şərəfinə abidələr ucaldılmışdır. Bu gün bu siyasət davam etdirilir. Bu abidələr bir daha onu göstərir ki, Azərbaycan xalqı nə qədər böyük, nə qədər istedadlı xalqdır, bizim nə qədər böyük tarixi şəxsiyyətlərimiz olubdur.

Bu gün ölkəmizdə hər bir sahədə olduğu kimi, milli- mənəvi sahədə də dirçəliş, inkişaf vardır. Biz güclü, müasir dövlət qururuq. Ancaq ənənələrimizə, tariximizə, keçmişimizə çox bağlıyıq. Dünyada qloballaşma prosesləri gedir, istər-istəməz bizə də təsir edir. Bu heç bir ölkədən yan keçə bilməz. Xüsusilə bu dövrdə milli dəyərlərə diqqət daha da böyük olmalıdır.

İnsanlar milli ruhda tərbiyə olunmalıdırlar. Öz Vətəninə, öz keçmişinə, tarixinə, dahi şəxsiyyətlərinə hörmətlə yanaşmalıdırlar.

Bu abidənin açılışı eyni zamanda, bu gözəl parkın abadlaşmasına da şərait yaratdı. Abidənin yaradılması ilə bərabər, Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş vermişdik ki, bu park da abadlaşsın, gözəlləşsin. Bakıda böyük quruculuq işləri aparılır. Bütün parklar, bağlar yenidən qurulur, abadlaşır. İnsanlar üçün gözəl istirahət yerləri yaradılır. Bakı doğrudan da indi dünyanın ən gözəl şəhərlərindən biridir. Bakının tarixi gözəlliyi vardır. Tarixi, qədim binalar şəhərimizə gözəllik verir. Bakının müasir meqapolisə çevrilməsi prosesi də uğurla gedir. Bu iki istiqamət arasında heç bir ziddiyyət olmamalıdır və yoxdur. Həm müasir binalar, həm qədim Bakı bir-birini tamamlamalıdır və tamamlayır. Şəhərimizin gözəlləşməsi hər bir Bakı sakini, hər bir Azərbaycan vətəndaşı üçün çox vacib olan məsələdir. Bakıya gələn hər bir qonaq şəhərin gözəlliyinə heyran olur. Bakı da bizim böyük, milli sərvətimizdir.

Mən bu gün bir daha qeyd etmək istəyirəm ki, Koroğlunun abidəsinin ucaldılması böyük məna daşıyır. Bu həm tarixi şəxsiyyətə hörmətimizin əlamətidir, həm keçmişimizə olan münasibətdir, həm də Koroğlunun etdiyi fədakarlığa görə Azərbaycan xalqının qiymətidir. Bu gözəl əsər əminəm ki, bütün Azərbaycan xalqını sevindirəcəkdir. Koroğlu abidəsi məhz belə olmalı idi. Gözəl, möhtəşəm, qürurlu və əzəmətli.

Bir daha əsərin müəllifinə, görkəmli heykəltəraş Tokay Məmmədova minnətdarlığımı bildirirəm. Əsərin yaradılmasında iştirak etmiş insanlara minnətdarlığımı bildirmək istəyirəm. Bakı sakinlərini və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

**T o k a y M ə m m ə d o v** (*abidənin müəllifi, Azərbaycanın Xalq rəssamı*): Hörmətli xanımlar və cənablar! Bu gün mənim üçün çox əlamətdar bir gündür. «Koroğlu» 30 il işlədiyim bir mövzudur, mənim üçün əziz bir obrazdır, xalqımızın qəhrəmanlıq rəmzidir. Mən dəqiq bilirdim ki, Azərbaycanın

paytaxtı üçün bu heykəl lazım olacaqdır. Nəhayət, 2 il əvvəl möhtərəm cənab Prezident Bakıda Koroğlunun abidəsinin ucaldılması haqqında sərəncam imzaladı və bu işə təkan verildi. Heykəlin qurulmasında çox adamların zəhməti oldu. Bu gün açılış mərasimində mən müəllif kimi, hamıya təşəkkürümü bildirmək istəyirəm. Ən böyük minnətdarlığım Sizədir, hörmətli Prezident!

**N i z a m i   C ə f ə r o v** (*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*): Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Bu gün biz həqiqətən tarixi anların şahidiyik. Möhtərəm Prezidentimiz hər şeyi söylədi. Bu gün çoxlu mübahisələr gedir. Koroğlu doğrudan tarixi şəxsiyyətdirmi, ya deyilmi? Bu mübahisələri davam etdirmək də olar, amma əsas məsələ odur ki, Koroğlu bu xalqın ruhunun məhsuludur, bizim milli mövcudluğumuzun bir dəyəridir. Tarixi şəxsiyyət ola da, olmaya da bilər. Amma onun obrazı istənilən tarixi şəxsiyyətin obrazından daha güclüdür.

Koroğlu sadəcə, qəhrəman, fiziki güc sahibi deyil, ruh adamıdır, aşıqdır, şairdir. Koroğlu sadəcə, qəhrəman deyil, həm də dövlət, cəmiyyət qurucusudur. Koroğlu Çənlibelin müəllifidir. Koroğlu mütəfəkkirdir. Koroğlu filosofdur. Koroğlunun sözü vardır, deyir ki:

«Uca-uca dağlar başı
Çənli də olur, çənsiz də olur.
Çalış ki, bir işə yara,
Sənli də olur, sənsiz də olur».

**A n a r** *(Xalq yazıçısı)*: Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bakımızın minillik tarixində şəhərimizdə ilk dəfə atlı heykəl ucaldılıb. Bu, xalqımızın əfsanəvi qəhrəmanı Koroğlunun heykəlidir. Burada artıq deyildi, Koroğlu həm qəhrəman, həm də sənətkar, aşıq, şair idi. Bir əlində Misri qılınc idi, bir əlində saz. Koroğlu dastanın həm iştirakçısı, həm yaradıcısı idi. Koroğlu obrazı əsrlər boyu xalqımızın yaddaşında, qəlbində

yaşayıb, bizim böyük sənətkarları ilhamlandırıb. Ölməz Üzeyir bəy «Koroğlu» operasını, Tahir Salahov isə rəssamlıqda «Koroğlu» obrazını yaradıb. «Koroğlu» filmi vardır. Bu gün başqa bir görkəmli sənətkarımız Tokay Məmmədov Koroğlunu heykəltəraşlıqda təcəssüm etdirib.

Mən bir daha, cənab Prezident, Sizi təbrik edirəm, heykəlin müəllifi Tokay Məmmədovu təbrik edirəm və bütün bakılıları, bütün azərbaycanlıları təbrik edirəm.

* * *

*Sonra prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya abidə və onun yerləşdiyi Koroğlu parkı haqqında ətraflı məlumat verildi.*

*Bildirildi ki, geniş abadlıq və yaşıllaşdırma işləri aparılmışdır. Ümumi sahəsi 1,3 hektar olan parkın 4620 kvadratmetrlik ərazisinə qranit piltələr döşənmişdir. Burada əhalinin istirahəti üçün nümunəvi şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev Koroğlu parkında görülmüş işlərdən razılığını bildirdi.*

**FİZİKA-RİYAZİYYAT ELMLƏRİ DOKTORU, AKADEMİK SERGEY KAPİTSAYA**

Hörmətli Sergey Petroviç!

İcazə verin, Sizi elmi biliklərin təbliği sahəsində görkəmli nailiyyətlərinizə görə Rusiya Elmlər Akademiyasının Qızıl medalı ilə təltif olunmağınız münasibətilə təbrik edim, Sizə möhkəm cansağlığı və yeni elmi uğurlar arzulayım.

Sizin elmin inkişafına və elmi biliklərin geniş miqyasda təbliğinə verdiyiniz böyük töhfə bütün dünyada, o cümlədən Azərbaycanda yüksək qiymətləndirilir. Ötən il Bakıda «XXI əsr: ümidlər və çağırışlar» devizi ilə keçirilmiş Beynəlxalq Humanitar Forum çərçivəsində Sizinlə görüşümü məmnunluqla xatırlayıram. Sizin Heydər Əliyev Fondunda keçirdiyiniz görüş də Azərbaycan ilə Rusiya Federasiyası arasında humanitar sahədə əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini vermişdir.

Sizi Rusiya Elmlər Akademiyasının yüksək mükafatı ilə təltif olunmağınız münasibətilə bir daha təbrik edir, Sizə elmi yaradıcılığınızda yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *22 fevral 2012-ci il*

# XOCALI SOYQIRIMININ 20-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

XX əsrin ən dəhşətli və qanlı faciələrindən hesab edilən Xocalı soyqırımının 20 ili tamam olur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə aylarla mühasirədə saxlanılan Xocalıya hücum edərək, bir gecənin içində şəhəri yerlə yeksan etmişdir. Bu qanlı aksiya zamanı dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, meyitlər təhqir olunmuş, 1275 nəfər girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl və qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmişdir.

Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik «Böyük Ermənistan» ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətmişlər. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı səhifəsi idi. Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür.

Azərbaycan dövləti erməni faşistlərinin törətdiyi Xocalı faciəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə soyqırımı kimi tanıdılması istiqamətində 20 ilə yaxındır ki, məqsədyönlü və sistemli iş aparır. Son illərdə «Xocalıya ədalət!» beynəlxalq kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə hakimiyyət strukturları ilə birgə səmərəli fəaliyyət

göstərirlər. Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı bu faktı «insanlığa qarşı törədilmiş kütləvi cinayət» hadisəsi  kimi tanımış və üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırmışdır. Pakistan və Meksikanın parlamentlərində bu qətliamın soyqırımı aktı kimi tanınması barədə qətnamə qəbul edilmişdir.

Azərbaycan Respublikası hazırda dünya təhlükəsizlik sistemində və beynəlxalq terrorizmə qarşı mübarizədə mühüm rol oynayır. Harada baş verməsindən asılı olmayaraq, biz hər cür irqi ayrı-seçkiliyi, etnik və dini zəmində düşmənçiliyi bütövlükdə bəşər cəmiyyətinə qarşı cinayət hesab edirik. Dövlətimiz bundan sonra da Xocalı soyqırımına, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına obyektiv qiymət verilməsi və tarixi-hüquqi ədalətin bərpası üçün öz fəaliyyətini davam etdirəcək, bütün siyasi və hüquqi vasitələrlə belə hallara qarşı barışmaz mübarizə aparacaqdır.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir.

Bu ümummilli hüzn günündə bir daha Xocalı faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Sizi əmin etmək istəyirəm ki, Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2012-ci il*

## TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİ İDRİS NAİM ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Türkiyə Respublikasının Daxili İşlər naziri İdris Naim Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Daxili İşlər naziri İdris Naim Şahin Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən daxili işlər orqanları arasında uğurla inkişaf etdiyi vurğulandı, Türkiyənin Daxili İşlər naziri İdris Naim Şahinin Azərbaycana səfərinin bu sahədə əlaqələrin daha da genişləndirilməsi işinə təkan verəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə, həmçinin cinayətkarlığa qarşı birgə mübarizə, bu sahədə koordinasiyanın və informasiya mübadiləsinin önəmi qeyd olundu.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ**

Hörmətli xanım Prezident!

Buenos-Ayres şəhərində baş vermiş dəmiryol qəzası nəticəsində çoxlu sayda insanın həlak olması və xəsarət alması xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Argentina xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *24 fevral 2012-ci il*

## LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ EDQARS RİNKEVİÇS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Latviya Respublikasının Xarici İşlər naziri Edqars Rinkeviçsi qəbul etmişdir.*

*Xarici İşlər naziri Edqars Rinkeviçs Latviya Respublikasının Prezidenti Andris Berzinşin və keçmiş prezident Valdis Zatlersin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, münasibətlərimizin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində önəmi qeyd olundu, Xəzəryanı dövlətlərlə Baltik dənizi ölkələri arasında əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Latviya Respublikasının Prezidenti Andris Berzinşin və keçmiş prezident Valdis Zatlersin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Latviyanın dövlət başçısına və keçmiş prezident Valdis Zatlersə çatdırmağı xahiş etdi.*

## XOCALI SOYQIRIMININ 20-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Bakıda XX əsrin ən dəhşətli və qanlı faciələrindən biri olan Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşündə iştirak etmişdir.*

*Paytaxtın Azadlıq meydanından başlayan, 85 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı.*

*Ön sırada prezident İlham Əliyevin olduğu yürüş iştirakçıları Azadlıq meydanından Xocalı soyqırımının qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başladılar. Ümumxalq yürüşünün iştirakçılarının və onların keçdiyi prospekt, küçələr boyu düzülmüş minlərlə gəncin əllərində qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 20 il bundan əvvəl baş vermiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə obyektiv siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadları yazılmış plakatlar və transparantlar var idi. İzdihamın başı üzərində «Dünya Xocalı soyqırımını tanımalıdır!», «Xocalıya ədalət!», «Xocalını unutmayın», «Rədd olsun erməni faşizmi!», «Xocalı – XX əsrin soyqırımı», «Cinayətkarlar cəzasız qalmayacaqlar!» və s. çağırışlar yazılmış minlərlə plakat və transparant dalğalanırdı.*

*İnsanların hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 20 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silməmişdir. Bircə gecədə yerlə yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.*

*Bütövlükdə bu ümumxalq yürüşünü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı tədbirlərin kulminasiya nöqtəsi* hesab *etmək* olar. *Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin* sonunda *bütün* sivil *bəşəriyyətin gözləri qarşısında törədilmiş* bu *vəhşiliyə laqeydlik, yüzlərlə* dinc *insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin* planetin *hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx* birliyini, onun *öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların* azad olunması *və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək* əzmini *nümayiş* etdirdi.

*Xocalı* soyqırımı *qurbanlarının abidəsinin yanında Fəxri* qarovul *dəstəsi və tər çiçəklər düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil* qoydu, *faciə qurbanlarının xatirəsini* ehtiramla *yad* etdi.

*Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Heydər Əliyev* Fondunun *vitse-prezidenti* Leyla *Əliyeva abidənin önünə tər çiçəklər* qoydular.

*Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri,* diplomatik korpusun *nümayəndələri,* dini konfessiyaların *başçıları, habelə qırğından* xilas *ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.*

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağın Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli hadisələr Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmışdır. O gecə silahlı erməni dəstələri keçmiş* sovet ordusunun *Xankəndidə*

*yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın bu qədim şəhəri üzərinə hücum etmiş və onun dinc əhalisinə amansızcasına divan tutmuşlar. Aylarla blokadada qalaraq zəifləmiş Xocalı şəhərinin müdafiəçiləri sayca onlardan qat-qat çox olan, təpədən-dırnağa qədər silahlanmış ermənilərin hücumunu dəf edə bilməmişlər. Xocalı soyqırımının qanlı statistikası belədir: Hücum zamanı şəhərdə olmuş 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülmüş, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanmış, 1275 nəfər girov götürülmüş və insanı alçaldan işgəncələrə məruz qalmışdır, 150 nəfərin taleyi hələ də məlum deyildir. 8 ailə tamamilə məhv edilmişdir. Bu rəqəmlər insanı dəhşətə gətirir. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə – azərbaycanlı olduqlarına görə amansızcasına öldürülmüş, işgəncələrə məruz qalmış və şikəst edilmişlər.*

*Ermənilərin bu cəza tədbiri hərtərəfli planlaşdırılmış və yeganə bir məqsədlə törədilmişdir – dinc sakinləri milli mənsubiyyət əlamətinə görə qismən və ya tamamilə məhv etmək. Beynəlxalq hüquqa görə belə hərəkətlər «soyqırımı» anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.*

*Xocalı haqqında həqiqətin dünyada bilinməsi, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanmışdır. Ulu öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı «Xocalı soyqırımı günü» elan edilmişdir. 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət!» beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırmışdır. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılmış, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olmuş, bilmişlər ki, onlar öz*

*sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, o cümlədən uşaqları qətlə yetirməkdən çəkinmirlər. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı ermənilərin Xocalıda törətdiyi mənfur əməlləri «insanlığa qarşı kütləvi cinayət» kimi tanımış və üzv dövlətləri bu faciəyə lazımi siyasi-hüquqi qiymət verməyə çağırmışdır. Pakistan və Meksika parlamentləri də bu qırğının soyqırımı aktı kimi tanınması haqqında qətnamələr qəbul etmişlər.*

*Bu il Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın 100 nöqtəsində Xocalı soyqırımının qurbanlarının xatirəsini anma mərasimləri keçirilir. Bu aksiyaların iştirakçılarına fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılır.*

*Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilir, uşaq rəsmləri sərgiləri təşkil olunur. Qardaş Türkiyədə, Böyük Britaniyada və bir sıra digər Avropa dövlətlərində, müsəlman ölkələrinin çoxunda keçirilmiş anım tədbirləri ictimaiyyət arasında böyük əks-səda doğurmuşdur.*

*Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətində deyilir ki, «Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir».*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yəmən arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yəmən xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 fevral 2012-ci il*

# SERBİYA OLİMPİYA KOMİTƏSİNİN SƏDRİ VLADE DİVATSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Serbiya Olimpiya Komitəsinin sədri, «Ana və Vlade Divats Fondu»nun təsisçisi Vlade Divatsın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Ölkələrimiz arasında möhkəm tərəfdaşlıq əlaqələrinin olduğunu vurğulayan prezident İlham Əliyev Serbiya prezidenti Boris Tadiçin Azərbaycana, özünün isə Serbiyaya səfərini məmnunluqla xatırladaraq əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında idman sahəsində də əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd etdi.*

*Ölkəmizə ilk dəfə səfər etməsindən məmnunluğunu bildirən Vlade Divats təmsil etdiyi region üçün Azərbaycanın gördüyü işlərə görə şəxsən prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. O, Azərbaycan ilə Serbiya arasında humanitar sahədə əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi.*

*Sonra Vlade Divats Azərbaycan və Serbiya, həmçinin Balkan ölkələri arasında çoxşaxəli əlaqələrin inkişafına verdiyi dəyərli töhfələrə, Azərbaycan və Balkan xalqlarının yaxınlaşmasında xüsusi xidmətlərinə, Belqraddakı «Taşmaydan» və «Bayraklı» parklarının yenidən qurulması və abadlaşdırılması, görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin abidəsinin ucaldılması, Novi Sad şəhərində «Müqəddəs Petaka» kilsəsinin tikintisi, Novi Pazar şəhərində Mədəniyyət evinin yenidən qurulması, Sarayevo şəhərində «Bakı» küçəsinin və «Dostluq*

*parkının» yenidən qurulması və abadlaşdırılması, Belqraddakı Körpələri, Uşaqları və Gəncləri Müdafiə Mərkəzinin Analar və Uşaqlar Ambulatoriyasına, həmçinin Voyvodina bölgəsində məskunlaşmış qaçqınlara humanitar yardımın göstərilməsi, Monteneqronun Virpazar bölgəsində daşqından əziyyət çəkən insanların humanitar yardımla təmin edilməsi, tanınmış serbiyalı yazıçı Milorad Paviçin «Xəzər lüğəti» kitabının Azərbaycan dilində çap olunmasına hərtərəfli dəstəyin göstərilməsi, dünya şöhrətli serbiyalı alim Nikola Teslanın Bakıda abidəsinin ucaldılması qərarının verilməsi, nümunə ola biləcək müxtəlif mədəniyyətlərin yaxınlaşması, humanizm, xeyriyyəçilik və dini tolerantlığın möhkəmləndirilməsinə töhfələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Ana və Vlade Divats Fondu»nun «Balkanların ləyaqətli dostu» beynəlxalq mükafatına layiq görüldüyünü dedi və mükafatı dövlətimizin başçısına təqdim etdi.*

*Mükafata görə təşəkkürünü bildirən dövlətimizin başçısı bunu Azərbaycan–Serbiya dostluq münasibətlərinin nümunəsi kimi dəyərləndirdi.*

# RUMİNİYA PREZİDENTİNİN TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ YULİAN FOTA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Rumıniya prezidentinin Təhlükəsizlik Məsələləri üzrə müşaviri Yulian Fotanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev özünün Rumıniyaya, Rumıniya prezidenti Trayan Beseskunun isə ölkəmizə səfərlərini məmnunluqla xatırlatdı. Azərbaycan ilə Rumıniya arasında qarşılıqlı faydalı əməkdaşlığın olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, əlaqələrimizin inkişafına dair imzalanan sənədlər ölkələrimizin tərəfdaşlığının strateji əhəmiyyət daşıdığını əks etdirir. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, siyasi, təhlükəsizlik, eləcə də NATO–Azərbaycan əlaqələri çərçivəsində əməkdaşlığının önəmini qeyd etdi.*

*Yulian Fota Rumıniya prezidenti Trayan Beseskunun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Bir il bundan əvvəl ölkəsinin prezidenti ilə Azərbaycana səfər etdiyini məmnunluqla xatırladan qonaq ötən dövr ərzində Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Dövlətimizin başçısı Rumıniya prezidenti Trayan Beseskunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumıniya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## REGİONLARIN 2009–2013-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ ÜÇÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK*

*«Baku Expo» Mərkəzi*

*28 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də «Baku Expo» Mərkəzində «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda iştirak etmişdir.*

*Mərkəzdə Dövlət Proqramının üçüncü ilinin yekunları ilə bağlı təqdimat oldu. Təqdimatda ölkəmizin son illərdə sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar əksini tapmışdır.*

*2011-ci ildə ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirləri, o cümlədən tikilən və əsaslı təmir olunan təhsil və səhiyyə müəssisələri və digər sosial obyektlər barədə ətraflı məlumatların yer aldığı təqdimatda əhalinin elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması, yol-nəqliyyat*

---

* Реэионларын 2009–2013-ъц иллярдя сосиал-игтисади инкишафы Дювлят Програмынын иърасынын цчцнъц илинин йекунларына щяср олунмуш конфрансында Игтисади Инкишаф назири Шащин Мустафайев, Эянъя Шящяр Иъра Щакимиййятинин башчысы Елмар Вялийев, «Атена» сцд заводу вя щейвандарлыг комплекси Идаря Щейятинин сядри Елшад Рясулов, Аьдаш Район Иъра Щакимиййятинин башчысы Рафиг Нифтялийев, Аьсу Район Иъра Щакимиййятинин башчысы Янвяр Сейидялийев, «Нахчыван» автомобил заводу Мәщdуд Мясулиййятли Ъямиййятинин иърачы директору Полад Садыхов, Лерик Район Иъра Щакимиййятинин башчысы Рювшян Баьыров чыхыш етдиляр.

*infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər müxtəlif cədvəl və diaqramlarla diqqətə çatdırıldı.*

*Təqdimatda Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə inşa olunan təhsil və səhiyyə müəssisələri haqqında göstəricilər ətraflı şəkildə əks olunmuşdur.*

*Naxçıvan Muxtar Respublikasına həsr olunan bölmədə ötən il muxtar respublikada sosial-iqtisadi sahədə əldə edilən uğurlardan söhbət açıldı.*

*Sahibkarlığın inkişafına həsr olunan stendlərdə ümumi daxili məhsulun artımında, müxtəlif istehsal və xidmət sahələrində özəl bölmənin payı barədə statistik rəqəmlər yerləşdirilmişdir.*

*Təqdimatda ölkəmizdə və beynəlxalq səviyyədə keçirilən yarışlarda idmançılarımızın qazandığı uğurlar, yeni idman komplekslərinin tikintisi, idmanın inkişafına olan dövlət qayğısı barədə məlumat verildi.*

*Ekoloji məsələlərə həsr olunan bölmədə isə Azərbaycanda həyata keçirilən meşə-bərpa və digər ekoloji tədbirlər barədə məlumatlar əksini tapmışdır.*

*İnformasiya-kommunikasiya texnologiyalarının iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilməsi bu mövzuya həsr olunan təqdimatda statistik rəqəmlər və diaqramlarla nümayiş etdirilmişdir.*

*Ötən il Azərbaycanın «Eurovision–2011» müsabiqəsində qələbəsinə həsr olunan xüsusi guşənin yaradıldığı təqdimatda ölkəmizin turizm potensialının inkişafı sahəsində görülən işlər də əksini tapmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransda giriş nitqi söylədi.*

* * *

– Ölkəmizin uğurlu inkişafı artıq reallıqdır. Bunu Azərbaycan əhalisi bilir və görür. Dünya ictimaiyyəti də Azərbaycanın uğurları haqqında kifayət qədər dolğun məlumat əldə edir. Uğurlarımızın təməlində düşünülmüş siyasət, ölkəmizdə

mövcud olan ictimai-siyasi sabitlik və uğurlu iqtisadi islahatlar dayanır.

İctimai-siyasi sabitlik Azərbaycanda keçən əsrin 90-cı illərində təmin edilmişdir. 90-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən xaos, anarxiya ölkəmizi uçuruma aparırdı. Ölkəmiz üçün həlledici illərdə bütün xoşagəlməz hallara ulu öndər Heydər Əliyevin rəhbərliyi altında son qoyuldu və Azərbaycanın uğurlu inkişafı təmin edildi. Məhz o illərdə yaradılmış və bu gün daha da möhkəmlənən ictimai-siyasi sabitlik ölkəmizə investisiyaların gətirilməsinə şərait yaratmış və ölkəmizin uğurlu inkişafına imkan vermişdir. Əsas iqtisadi islahatlarımız da 90-cı illərin ortalarında başlamışdır. Bu gün bu islahatlar davam edir və keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. İnkişafımızın təməlində siyasətimiz dayanır. Ölkəmizdə siyasət həm ictimai, həm də iqtisadi sahədə bir məqsədi güdür: Azərbaycan xalqının maraqlarını təmin etmək, ölkəmizi gücləndirmək, regionda mövqelərimizi möhkəmləndirmək! Əsas istiqamətimiz bundan ibarətdir.

Müasir dövrdə ölkəmizin sürətli inkişafına nail olmaq üçün kifayət qədər geniş proqramlar icra edilir. Bu proqramların ən önəmlisi və ən vacibi 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramıdır. Bu proqramın qəbul edilməsindən sonra ölkəmizin bölgələri çox sürətlə inkişaf etməyə başlamışdır.

Proqramın qəbul edilməsi 2004-cü ilə təsadüf edir. Proqram haqqında mən ondan əvvəlki illərdə də fikirləşirdim və 2003-cü ilin prezident seçkiləri ərəfəsində bildirmişdim ki, əgər xalq mənə etimad göstərərsə, qəbul edilmiş proqramlar nəticəsində 5 il ərzində – yəni 2008-ci ilə qədər ölkəmizdə 600 minə qədər yeni iş yeri açılacaqdır. O vaxt bəziləri bu rəqəmlərə inanmırdı, şübhə ilə yanaşırdı. Ancaq mən bilirdim ki, bunu etmək mümkündür. Çox şadam ki, qısa müddət ərzində – təxminən dörd il ərzində 600 min yeni iş yeri yaradılmışdır. Bütövlükdə 2004–2008-ci illərdə ölkəmizdə 760 min yeni iş yeri açılmışdır ki, bu da həm işsizliyin aradan qaldırılması, həm də yoxsulluğun aşağı

salınması üçün xüsusi əhəmiyyət kəsb edir. 2004-cü ildə qəbul edilmiş proqram bizim bütün iqtisadi inkişafımıza təkan vermişdir.

İqtisadiyyatımızın böyük hissəsi neft-qaz sektorunda formalaşır. Ancaq neft-qaz sektorunda böyük sayda iş yerlərinin yaradılması mümkün deyildir. Ona görə bizim əsas istiqamətimiz qeyri-neft sektoruna yönəldilmişdir. Bu sektorun inkişafı həm ölkə iqtisadiyyatının şaxələndirilməsinə, həm də işsizliyin aradan qaldırılmasına yönəldilməli idi və belə də oldu.

Bəzi hallarda bizim uğurlu iqtisadi inkişafımızı yalnız neft-qaz amili ilə bağlayırlar. Əlbəttə, neft-qaz amili mühüm rol oynayır və bundan sonra da oynayacaqdır. Ancaq əsas neft ixrac kəmərimiz – Bakı–Tbilisi–Ceyhan neft kəməri yalnız 2006-cı ilin yayında istifadəyə verilmişdir. Proqram isə 2004-cü ildə qəbul edilmişdir və qəbul edildikdən dərhal sonra icra edilməyə başlanmışdır.

2009-cu ilin əvvəlində proqramın yeni dövrü başlamışdır. O proqram Dövlət İnkişaf Proqramı adlandırıldı. Proqramın əsas istiqaməti yenə də bölgələrin inkişafına yönəldilmişdir. 3 ildir ki, ikinci Dövlət Proqramı icra edilir, bütün vəzifələr artıqlaması ilə icra edilir. Birinci proqrama gəldikdə, orada nəzərdə tutulmuş məsələlər təbii ki, öz həllini tapmışdır. Onda əlavə tədbirlər də görülmüşdür. İndi də məhz belə mənzərə müşahidə olunur. Biz bu proqramı daha böyük həcmdə icra edirik və beləliklə, inkişafımıza davam edirik.

Birinci mərhələdə əsas istiqamət biznes imkanlarının genişlənməsinə, sənaye potensialının formalaşmasına yönəldilmişdi. Bu məqsədlə ilk növbədə elektrik enerjisi məsələləri öz həllini tapmalı idi. Ona görə biz bu məsələni prioritet kimi nəzərə almışdıq və qısa müddət ərzində enerji təhlükəsizliyimizi təmin edə bilmişdik. Əvvəlki dövrdə istehsal olunan elektrik enerjisi tələbatımızı ödəmirdi. İndi elə güclü sistem yaratmışıq ki, nəinki öz tələbatımızı ödəyirik, həm də bütün qonşu ölkələrə elektrik enerjisini ixrac edirik.

Ondan sonrakı mərhələdə infrastruktur layihələrinin icrası prosesi başlamışdır. Bu da çox geniş bir istiqamətdir. Biz infrastruktur deyəndə hər şeyi nəzərdə tuturuq. Həm yollar, həm elektrik enerjisi, qazlaşdırma, su ilə təchizat, sosial infrastruktur məsələləri də çox vacibdir. Proqramımızda, yəni indiki proqramda bütün bu məsələlər öz əksini tapır. İstiqamətlərin biri infrastruktur layihələri ilə bağlıdır. Biz bu sahəni dövlət tərəfindən qoyulan vəsait hesabına inkişaf etdirə bilmişik. Digər istiqamət sosial infrastruktur ilə bağlıdır. Birinci proqram qəbul olunandan sonra ölkəmizdə 2300-dən çox yeni məktəb tikilmişdir. Keçən il 200-dən çox məktəb tikilmiş və təmir edilmişdir. Bu il isə 400-dən çox məktəb tikiləcək və əsaslı təmir ediləcəkdir.

Səhiyyə infrastrukturunun yaradılması böyük əhəmiyyətə malik olan bir məsələdir. Azərbaycanda 400-dən artıq müasir tibb ocağı yaradılmışdır. Magistral yolların inkişafı böyük əhəmiyyətə malik idi. Çünki yollarımız çox bərbad vəziyyətdə idi. Yol olmadan inkişaf ola bilməz. Heç bir müəssisə, heç bir turizm obyekti tikilə bilməz. Biznesin inkişafı üçün yol, elektrik enerjisi əsasdır. İnsanların rahat yaşaması üçün isə sosial infrastrukturun yaradılması prosesi sürətlə gedir və hazırda biz bu layihələri daha da sürətlə inkişaf etdiririk. Hazırda böyük su-kanalizasiya layihələri icra olunur ki, bu bütün ölkəni əhatə edir. Bu layihə sırf sosialyönümlüdür. Əgər elektrik enerjisinin təchizatı ilə bağlı verilən göstərişlər həm sosialyönümlü, həm biznesyönümlüdürsə, su layihələri sırf sosial məna daşıyır. İndi imkanımız var ki, sosial infrastrukturun yaradılmasına daha da böyük həcmdə vəsait qoyaq.

Dünyada neftlə zəngin olan kifayət qədər çox ölkələr vardır. Bizdən qat-qat çox neft, qaz hasil edən, ixrac edən ölkələr vardır. Ancaq heç də hər bir ölkədə iqtisadi inkişaf bizdəki kimi sürətli deyildir. Mən bir daha demək istəyirəm ki, uğurlarımızın təməlində düşünülmüş iqtisadi siyasətdir, iqtisadi islahatlardır. Bu islahatlar dünya birliyi tərəfindən qiymətləndirilir. Dünyanın aparıcı iqtisadi qurumları Azərbaycanda gedən prosesləri

dəstəkləyir, qiymətləndirir və bəzi hallarda bizdə gedən prosesləri heyranlıqla müşahidə edir. Böyük reytinq agentlikləri inkişaf etmiş ölkələrin kredit reytinqlərini aşağı salır, Azərbaycanın kredit reytinqlərini qaldırırlar. Böhranlı illərdə ən aparıcı beynəlxalq maliyyə qurumları Azərbaycanda gedən islahatları yüksək qiymətləndirirlər.

2011-ci il də ölkəmizin inkişafı üçün uğurlu il olmuşdur. 2011-ci ilin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, Azərbaycanda qeyri-neft sektoru sürətlə artmışdır. Budur bizim vaxtilə qəbul etdiyimiz proqramların nəticəsi – qeyri-neft sektorunun, qeyri-neft sənayesinin inkişafı. İndi bu ilin birinci ayının yekunları da onu göstərir – qeyri-neft sənayesi 10 faizdən çox artmışdır. Çox güclü sənayeləşmə prosesi gedir. Bu məsələ ilə bağlı bir neçə il əvvəl danışmışdım. Demişdim ki, Azərbaycanda sənayeləşmə prosesi sürətlə getməlidir və biz bunu görürük.

Yaradılan və yaradılmaqda olan yeni sənaye müəssisələri bizim uzunmüddətli inkişaf strategiyamızı müəyyən edəcəkdir. Azərbaycan dövləti öz üzərinə düşən bütün vəzifələri icra edir. Azərbaycandakı kimi, özəl sektora dəstək bəlkə heç bir ölkədə yoxdur, ilk növbədə də siyasi dəstəkdir.

Sahibkarlarla təkcə Bakıda deyil, bölgələrdə də mütəmadi görüşlərim olur. Mənim iştirakımla bölgələrdə 500-ə qədər sənaye müəssisəsi açılmışdır. Mənim iştirakım olmadan da çoxlu müəssisələr açılmışdır. Bütövlükdə 40 mindən çox yeni müəssisə yaradılmışdır. Müəssisə yaradılması iş yerləridir, maaşdır, yerli istehsaldır, idxalı əvəzləmək üçün imkanlardır, ölkəmizin inkişafıdır.

Azərbaycan dövləti sahibkarlara siyasi dəstəkdən başqa, iqtisadi dəstək də verir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu günə qədər, əgər 2012-ci ili də nəzərə alsaq, güzəştli şərtlərlə 900 milyon manat kredit verilmişdir. Onların mütləq əksəriyyəti bölgələrə və demək olar ki, hamısı iqtisadiyyatın real sektoruna yönəldilib. Bu kreditlərin hesabına böyük işlər görülür və mən çox şadam ki, sahibkarlar da dövlətin bu

dəstəyinə çox böyük məsuliyyətlə yanaşırlar. Kreditlərin hamısı vaxtında qaytarılır və hazırda bu il üçün nəzərdə tutulmuş 200 milyon manat kreditin böyük hissəsini əvvəlki illərdə verilən və qaytarılan kreditlər təşkil edir. Bu böyük bir məbləğdir. Əlbəttə ki, sahibkarlara veriləcək kreditlərin həcmi ildən-ilə artacaq və hər bir sahibkara daha da böyük məbləğdə kreditin verilməsi mümkündür.

Uğurlarımızın təməlində iqtisadi siyasət, islahatlar və bir də güclü nizam-intizam dayanır. Nizam-intizam olmadan, biz uğurlara nail ola bilməzdik. Bütün icra orqanlarının rəhbərlərinə demişdim, bu gün də deyirəm ki, sahibkarlarla bir yerdə olun, onlara kömək edin, onların işinə qarışmayın, maneçilik törətməyin. Ölkəmizin inkişafı sahibkalığın inkişafından asılıdır. Biz bu istiqaməti seçmişik və bu istiqamət bizə uğurlar gətirir. Bununla bərabər, indi böhran içində çabalayan inkişaf etmiş ölkələrin təcrübəsini öyrənərək bir daha yəqin edirik ki, sırf bazar iqtisadiyyatı prinsipləri bəzi hallarda işləmir. Avropada biz nəyi görürük? Dövlət öz üzərinə böyük öhdəliklər götürür. Bankları, böyük müəssisələri müflisləşmədən xilas etmək üçün dövlət tərəfindən vəsait qoyulur. Biz bu siyasəti 2004-cü ildən başlamışıq. O vaxt daha çox beynəlxalq maliyyə qurumlarının kreditlərindən asılı idik. Bizə məsləhətlər, tövsiyələr verilirdi ki, dövlət bu işlərə qarışmasın, özəl sektor özü inkişaf etsin, dövlət kənarda dayansın. Necə ola bilər?! Bu bizim ölkəmizdir. İstər dövlət, istər özəl şirkət olsun, bu, Azərbaycan şirkətidir. Necə ola bilər ki, kömək etməyək?! Ona görə bizim dəstəyimiz vacibdir. Həm siyasi sahədə, həm də Azərbaycanda hökm sürən gözəl ictimai ab-hava bu dəstəyi gücləndirdi.

Maliyyə dəstəyi, kreditlərin verilməsi və xüsusilə kiçik sahibkarlar üçün biznes planların hazırlanması da artıq dövlət işi olmuşdur. İqtisadi İnkişaf Nazirliyi çox dəqiq tövsiyə planları hazırlamışdır. Onlar sahibkarların imkanları ilə bağlı olan planlardır. Kimin nəyə imkanı çatır, o həcmdə də özü üçün biznes qura bilər, təki inkişaf olsun. Sahibkarlar kənd təsər-

rüfatında bütün vergilərdən – torpaq vergisi istisna olmaqla– azaddırlar. Bu qərar 1990-cı illərdə o vaxt kənd təsərrüfatını stimullaşdırmağa verilmişdi. İndi kənd təsərrüfatını stimullaşdırmağa o qədər də böyük ehtiyac yoxdur. Ancaq bu qərar qüvvədədir, onu ləğv etmirik ki, sahibkarlara kömək edək.

Gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. Hər hektar taxıl əkini üçün vəsait verilir. Sahibkarlar da öz tərəflərindən öz işləri ilə həm özlərinə, həm də dövlətə qulluq etməlidirlər. Mənim sahibkarlardan tələblərim bundan ibarətdir ki, yaşadıqları bölgələrdə və fəaliyyət göstərdikləri sahələrdə yaxşı işləsinlər, vergiləri vaxtında ödəsinlər. Dövlət qarşısında heç bir borcları olmasın. İş yerləri yaratsınlar, bizneslərini daha da genişləndirsinlər, daha da yaxşı yaşasınlar, daha da zəngin olsunlar.

Sahibkarlar müxtəlif sosial layihələrə qoşulduqda, bu mənim onlara münasibətimi daha da yaxşılaşdırır. Deyə bilərəm ki, son illərdə sahibkarlar bu sahədə də məsuliyyət göstərirlər və sosialyönümlü layihələri icra edirlər. Bölgələrdə xüsusilə məktəb tikintisinə, sosialyönümlü tədbirlərə, yardımlar edirlər. Mən bunu dəstəkləyirəm. Ancaq yenə də deyirəm, belə bir tələb onların qarşısında qoyulmur. Bu, könüllü məsələdir. Etsələr, sağ olsunlar. Etməsələr, edənlərə baxıb onlar da çalışsınlar, bu işlərə öz dəstəklərini versinlər.

Azərbaycan dövləti bundan sonra da ölkəmizin hərtərəfli inkişafı üçün əlindən gələni edəcəkdir. Bizim düşünülmüş proqramımız, siyasətimiz vardır. 2013-cü ilə qədər ikinci Dövlət Proqramı icra ediləcəkdir. Mən əminəm ki, 2009-cu ildə qəbul edilmiş proqram artıqlaması ilə icra ediləcəkdir. Beləliklə, 2013-cü ilin sonuna qədər ölkəmizdə əsas infrastruktur məsələləri öz həllini tapmalıdır və tapacaq. Çünki icrası davam edən və bitmək üzrə olan böyük infrastruktur layihələri artıq bu inamı yaradır. Hesab edirəm ki, gələcək 2 il ərzində biz hamımız çox fəal işləməliyik ki, Dövlət Proqramını vaxtından əvvəl və böyük həcmdə icra edək, ölkəmizin uğurlu inkişafını təmin edək.

Azərbaycana böyük həcmdə investisiya qoyulur. Bu çox müsbət haldır. Biz xarici investisiyaları alqışlayırıq. Uğurlu iqtisadi inkişafımız məhz xaricdən gələn investisiyalar hesabına başlamışdır. «Əsrin müqaviləsi»nın imzalanması Azərbaycanı dünyaya tanıtdırdı və birinci dövrdə xarici şirkətlər qeyri-neft sektoruna vəsait qoymaq istəmirdilər. Onları məcbur etmək də mümkün deyildi. Ancaq biz neftin satışından əldə edilən gəlirləri qeyri-neft sektoruna istiqamətləndirdik və beləliklə, dövlət investisiya yükünü öz üzərinə götürdü. Əgər neft-qaz sektorunda bu vaxta qədər əsas investisiyalar xaricdən gəlirdisə – halbuki indi bu balans da dəyişilir – qeyri-neft sektorunda əsas yük Azərbaycan dövlətinin üzərindədir. Keçən il ölkəmizə 20 milyard dollardan çox investisiya qoyulmuşdur və onlardan 13 milyardı daxili investisiyalardır. Builki Dövlət İnvestisiya Proqramı da çox böyükdür. Ümumiyyətlə, ancaq dövlət xətti ilə bu il ölkə iqtisadiyyatına 7 milyard manat investisiya qoyuluşu gözlənilir. Onlardan 5,7 milyard manatı Dövlət İnvestisiya Proqramı, yəni büdcə hesabına 1,3 milyard dövlət zəmanətli kreditlər hesabına qoyulacaqdır. Bu çox böyük məbləğdir. Bu məbləğ bizə imkan verəcək ki, 2012-ci ildə iqtisadi inkişafımızı, xüsusilə qeyri-neft sektorunun inkişafını yüksək templərlə təmin edə və daha da böyük işlər görə bilək. Ümid edirəm ki, bu il özəl sektorda təxminən o səviyyədə sərmayə qoyulmalıdır.

Bunun üçün imkanlar vardır. İcrada olan və yeni başlayan layihələr belə imkanları yaradır. Bu il də ölkə iqtisadiyyatına qoyulacaq investisiya 20 milyard dollardan aşağı olmamalıdır. Bu investisiyaların nəticəsində ölkəmizin hərtərəfli inkişafını daha da sürətlə təmin edəcəyik. Proqramın icrası və əslində ölkəmizin inkişafı daha da uğurlu olacaqdır.

Bir daha demək istəyirəm ki, bütövlükdə ölkə qarşısında iqtisadi sahədə mən heç bir problem görmürəm. Biz dünya maliyyə və iqtisadi böhranı illərində – 2008–2009-cu illərdə də uğurlu inkişafımızı təmin edə bilmişik. Azərbaycan əhalisi, demək olar ki, o böhranın fəsadlarını hiss etməmişdir. İndi böhranın ikinci mərhələsi haqqında dünyada müzakirələr gedir.

Ancaq Azərbaycanda bu da hiss olunmur. Nəyə görə?! Çünki bizim siyasətimiz düşünülmüş siyasətdir, ağıllı siyasətdir. Biz imkanlarımıza görə öz proqramlarımızı icra edirik. Bizə lazımdır ki, belə vəziyyətdə, belə şəraitdə, sakit şəraitdə Azərbaycan inkişaf etsin.

Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, hədəfimiz inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Bir neçə il bundan əvvəl mən bu sözləri deyəndə ola bilər, bəziləri buna şübhə ilə yanaşırdı. Əminəm, hamı görür ki, bu mümkündür. Ölkəmizin siyasi çəkisi artır. Biz dünya işlərində həlledici sözə malik oluruq. Bizi dünya ictimaiyyəti dəstəkləyir. Biz BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq. Regionda imkanlarımız genişlənir. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. İndi Azərbaycan investisiyalarını öz ölkələrinə cəlb etmək üçün başqa ölkələrdə müəyyən dərəcədə işlər gedir. Öz sərmayəmizlə, öz şirkətlərimizlə xarici bazarlara çıxırıq. Bu barədə hələ mən danışacağam, biz öz şirkətlərimizi nəinki Azərbaycanda, xaricdə də dəstəkləməliyik. Bizim Dövlət Neft Şirkəti beynəlxalq enerji şirkətinə, böyük nüfuza, böyük biznes imkanlarına malik olan şirkətə çevrilibdir. Avropada, başqa qitələrdə SOCAR-ın fəaliyyət dairəsi genişlənir. Bəzi ölkələrin yanacaq balansında Azərbaycanın rolu 20–30 faizə çatıbdır. Biz enerji təhlükəsizliyi məsələlərini uğurla həll edirik. Bugünkü toplantı qeyri-neft sektorunun inkişafına həsr edilibdir. Ancaq biz yaxşı bilirik ki, əgər enerji siyasətində hər hansı birimiz səhv buraxsaydıq, bugünkü uğurlardan danışmaq mümkün olmazdı.

Bizim enerji siyasətimiz qüsursuzdur. Neft strategiyamızın təməlini ulu öndər keçən əsrin 90-cı illərinin əvvəllərində qoymuşdur və bu strategiya davam edir. Yeni məsələlər, yeni çağırışlar ortaya çıxır. Azərbaycan həm neft, həm qaz ixrac edən ölkəyə çevrilir və dünya üçün qaz ixrac edən ölkə kimi, bəlkə daha da önəmlidir. Biz bu məsuliyyətə hazırıq. Ölkə daxilində və strateji tərəfdaşlarımızla birlikdə elə təşəbbüslər irəli sürürük ki, yalnız və yalnız Azərbaycana uğur gətirəcəkdir.

Biz heç bir mövqemizi əldən verməmişik, əksinə, mövqelərimizi möhkəmləndiririk, iradəmizi müdafiə edirik.

Bu gün Azərbaycanın qaz resursları Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün vacib rol oynayır. Gələcək illərdə bu rol daha da artacaqdır. Biz bunu bilirik. Onu da bilirik ki, qaz bərpa olunan enerji növü deyildir. Avropanı qazla təchiz edən bəzi ölkələrin qaz ehtiyatları tükənir. Avropada qaza tələbat getdikcə artacaqdır. Bunu da biz bilirik ki, nə dərəcədə artacaqdır. Yaponiyada baş vermiş dəhşətli qəza nəticəsində bəzi Avropa ölkələrində nüvə enerjisinə qadağa qoyulur, qaza olan tələbat daha da artacaqdır. Belə olan halda, Azərbaycan qazına tələbat xeyli dərəcədə artacaqdır.

Bizim enerji siyasətimiz ondan ibarətdir ki, çoxşaxəli ixrac imkanları yaradaq və əslində yaratmışıq. 4 qaz kəmərimiz var. Əksər qonşulara Azərbaycan qazı nəql edilir. Gələcəkdə daha böyük həcmdə nəql olunacaqdır. Bu sahədə biz qazın sahibi və ixracatçısı kimi, öz siyasətimizi müdafiə edirik. Siyasətimiz istehlakçıların maraqlarına da uyğundur. İndi böyük transmilli layihələr üzərində işləyirik. Bu layihələr həyata keçirilərsə, ölkəmizin uzunmüddətli uğurlu inkişafı təmin ediləcəkdir. Bu layihələrlə Azərbaycan daha da güclü dövlətə çevriləcəkdir. Azərbaycanın sözü daha da əhəmiyyətli olacaqdır. Həm regionda, həm dünyada mövqelərimiz daha da təsirli olacaqdır. Mən bunu istəyirəm. Biz güclü dövlət yaradırıq. Güclü iqtisadiyyat və güclü siyasət əsasında güclü dövlət yaradırıq.

Bizim iqtisadi potensialımız, şaxələndirilmiş iqtisadiyyat, neft-qaz amili, tranzit imkanlarımız – hansı ki biz özümüz yaratmışıq – çox böyük dəyərlərdir. Azərbaycanın güclü olması bölgə üçün, dünya üçün çox vacib məsələdir, siyasətimiz xoşniyyətlidir, əməkdaşlığa yönəldilibdir. Enerji siyasətimiz də düşmənçiliyə yox, dostluğa yönəldilibdir. Enerji siyasətində bir çox hallarda dostlarımıza kömək göstəririk. Çünki buna onların ehtiyacı vardır. İkincisi, ona görə ki, bizim fəlsəfəmiz belədir. Üçüncüsü də, dostluq münasibətləri biznes maraqlarımızı daha artıq dərəcədə təmin edəcəkdir. Bu gün enerji sahəsində

Azərbaycan ilə işləmək istəyənlərin sayı artır. Azərbaycanı, SOCAR-ı özəlləşdirmə layihələrinə dəvət edirlər. Çünki bizə inanırlar, güvənirlər və bizimlə hesablaşırlar.

Bundan sonra da bütün istiqamətlər üzrə müstəqil siyasətimizi davam etdirəcəyik. Azərbaycan bu gün artıq regional müstəvidən çıxıbdır, dünya müstəvisindədir. Biz artıq «Böyük iyirmilik»in toplantılarında iştirak edirik. Bu yaxınlarda Meksikada keçirilmiş «Böyük iyirmilik»in Xarici İşlər nazirlərinin yığıncağında bizim Xarici İşlər naziri iştirak etmişdir. Oraya cəmi 10, yəni «iyirmilik»ə daxil olmayan ölkələr dəvət edilmişdi. Onlardan biri Azərbaycan idi. Reallıq bundan ibarətdir.

Ölkəmizi daha da sürətlə inkişaf etdirmək üçün mən bir daha qayıdıram bizim əsas mövzumuza. Biznes şəraitinin yaxşılaşdırılması davam etdirilməlidir, sahibkarlığa daha da yaxşı şərait yaradılmalıdır. Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Ölkədə hələ də mövcud olan xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılır. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bir gün də dayanmır. Bu mübarizənin artıq yaxşı nəticələri var, daha da yaxşı nəticələri olacaqdır. Biz bu böyük bəlanı ölkəmizdən yığışdırmalıyıq, təmizləməliyik. Elə etməliyik ki, Azərbaycan hər sahədə – həm siyasi, həm iqtisadi, həm korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə sahəsində nümunə olsun və olacaqdır.

Beləliklə, bugünkü toplantının keçirilməsi proqramın icrasına yeni təkan verəcəkdir. İclasda həm sahibkarlar, həm yerli icra orqanlarının rəhbərləri iştirak edirlər. Bu format artıq ənənəvi xarakter daşıyır. Bu gün aparılan müzakirələr və bundan sonra veriləcək qərarlar 2012-ci ildə Dövlət Proqramının icrası üçün yeni imkanlar yaradacaqdır.

## YEKUN NİTQİ

2012-ci ildə Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər əminəm ki, öz həllini tapacaqdır.

Ölkəmiz üçün bu il də uğurlu olmalıdır, xüsusilə qeyri-neft sektorunda böyük inkişaf gözlənilir.

Əvvəlki dövrdə başlanmış və indi davam edən layihələr öz bəhrəsini verməkdədir. 2012-ci ildə də böyük müəssisələr, zavodlar açılacaqdır. Beləliklə, qeyri-neft potensialımız daha da artacaqdır. Sahibkarlığın inkişafı üçün, bir daha demək istəyirəm ki, bütün imkanlar vardır. Burada sahibkarların və icra hakimiyyəti başçılarının çıxışlarında bölgələrdə gedən proseslər haqqında məlumatlar verildi.

Hər bir bölgədə, hər bir rayonda təxminən eyni mənzərəni müşahidə edirik. İnkişaf, abadlıq, quruculuq, sosial layihələrin icrası və ümumiyyətlə, böyük canlanma prosesi gedir. Bu məni çox sevindirir. Mən mütəmadi qaydada bölgələrdə oluram, vəziyyətlə tanış oluram və hər dəfə müsbətə doğru dəyişiklikləri görəndə çox sevinirəm. Ölkəmizin çox böyük imkanları, böyük potensialı vardır. Bu potensialı Azərbaycan xalqının istedadı yaratmışdır və biz elə etməliyik ki, müəyyən olunmuş bütün vəzifələr həm dövlət qurumları, həm də özəl sektor tərəfindən icra edilsin.

Son illərdə özəl sektorun ümumi daxili məhsuldakı çəkisi artır. Ümumiyyətlə, ümumi daxili məhsulumuz çox sürətlə artır. Son 8 il ərzində 3 dəfə artmışdır. Heç bir başqa ölkədə belə nəticə olmamışdır. Çox sevindirici haldır ki, özəl sektorun çəkisi artır, təxminən indi bu pay 83 faiz civarındadır. Bu onu göstərir ki, Azərbaycanda bazar iqtisadiyyatına keçid prosesi artıq çoxdan başa çatmışdır. Mən bir müddət bundan əvvəl demişəm ki, biz artıq keçid dövrümüzü başa vurmuşuq. Azərbaycan indi keçid dövrünü yaşayan ölkə deyildir. Biz sürətli inkişaf dövrünü yaşayan ölkəyik, inkişafda olan ölkəyik və bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkəyə çevrilmək üçün biz siyasətimizi davam etdirəcəyik.

Giriş sözümdə qeyd etdiyim kimi, böyük Dövlət İnvestisiya Proqramı icra ediləcəkdir. 7 milyard manat böyük məbləğdir. Elə etməliyik ki, bu məbləğ böyük səmərə ilə istifadə olunsun və bütün layihələrdə işlər getsin. Heç bir yubanma olmasın, biz

bürokratik əngəlləri gərək tamamilə aradan qaldıraq və eyni zamanda, bu böyük dövlət layihələrinə nəzarət daha da güclü olmalıdır. Çünki nəzarət olan yerdə işin keyfiyyəti də təmin edilir.

Bu il əvvəlki illərdəki kimi, infrastruktur layihələrinə böyük vəsait ayrılacaqdır – xüsusilə yol tikintisinə. Magistral yollarda işlər gedir. Keçən il olduğu kimi, bu il də kənd yollarına eyni qaydada böyük sərmayə qoyulmağa başlanılıb. Əvvəlki dövrlərdə də biz bu sahəyə diqqətimizi əsirgəməmişdik.

Ancaq xüsusilə 2012–2013-cü illərdə bu sahəyə daha da böyük məbləğdə vəsait qoyulacaqdır. Kənd yollarının tikintisi birbaşa yerli icra orqanlarına tapşırılmışdır. Onlar bu işi böyük səmərə ilə və böyük keyfiyyətlə görməlidirlər. Bu, böyük məsuliyyətdir, əvvəlki dövrdə bu işlərlə mərkəzi icra orqanları məşğul idi. Mərkəzi icra orqanlarının digər layihələri vardır. Onlar əsas diqqəti magistral, şəhərlərarası yollara yönəltməlidirlər. O ki qaldı kənd yollarına, yerli icra orqanları bu işləri daha yaxşı bilir. Keçən ildən başlayaraq hər bir bölgədən sifarişlər gəldi, məruzələr edildi və plan tərtib olundu. Gördüyünüz kimi, ilin əvvəlindən həm dövlət büdcəsi, həm Prezidentin ehtiyat fondu hesabına bölgələrə vəsait ayrılır. Qarşıya məqsəd qoyulubdur ki, biz bütün kənd yollarını abadlaşdıraq. Bu, əlbəttə ki, maksimum məqsəddir.

2013-cü ilin sonuna qədər qarşıya real məqsəd də qoyulmuşdur, bütün hesablamalar aparılmışdır, həm maliyyə imkanlarımız, həm texniki imkanlar. Beləliklə, kəndlərdə yaşayan əhalinin 80 faizi 2013-cü ilin sonuna qədər gözəl yollardan istifadə edəcəkdir. İmkanlarımız hələ ki, buna çatır. Daha sürətli inkişafa nail ola bilsək, həm bu il, həm gələn il bu proqrama əlavələr edə bilərik. Qarşıya hədəf qoyulubdur ki, kəndlərdə yaşayan əhalinin 80 faizi mütləq əsaslı təmir edilmiş və tikilmiş yollardan artıq istifadə edəcəkdir. Məqsəd kənd yollarının 100 faiz qaydaya salınmasıdır. Biz bu məqsədə də çatacağıq.

Bölgələrdə qazlaşdırma prosesi gedir. Dövlət Neft Şirkətinə müvafiq göstərişlər verilmişdir. Baxmayaraq ki, Dövlət Neft Şirkəti böyük şirkətdir, ancaq dövlət dəstəyini də əsirgəmirik. Dövlət İnvestisiya Proqramında bölgələrin dövlət büdcəsi hesabına qazlaşdırılması üçün böyük məbləğ nəzərdə tutulubdur. Qarşıya real məqsəd qoyulubdur ki, 2013-cü ilin sonuna qədər Azərbaycanda qazlaşdırma 95 faizə çatsın. Bu, real hədəfdir və biz buna çatsaq, hesab edirəm ki, qazlaşma ilə bağlı bütün məsələləri həll etmiş olarıq. Bu, böyük vəsait tələb edən məsələdir, böyük texniki imkanlar olmalıdır. Həm yeni xətlər çəkilir, həm vaxtilə çəkilmiş, çürümüş xətlər dəyişdirilir. Bu proses həm bölgələrdə, həm Bakıda gedir. Biz iki istiqamət üzrə hərəkət etməliyik. Əvvəlki illərdə yaradılmış, köhnəlmiş infrastrukturun bərpası və yeni infrastrukturun yaradılması paralel şəkildə aparılır. Yeni texnologiyalar, yeni boru kəmərləri, xətləri var ki, onların ömrü çox uzundur və biz onlardan istifadə edirik.

Mən giriş sözümdə qeyd etdim ki, biz birinci proqramın icrası ilə bağlı infrastruktur layihələrinin içərisində daha çox elektrik enerjisi təchizatına fikir vermişik. Baxmayaraq ki, artıq özümüzü elektrik enerjisi ilə tam təmin etmişik, bu gün də bu məsələ aktualdır. Çünki ölkə iqtisadiyyatı artır, strateji inkişaf planımız, baxışlarımız vardır. 10 ildən, 20 ildən sonra iqtisadiyyatımız sürətlə artacaqdır. Yeni müəssisələr, biznes üçün yaradılan yeni şərait gözəl imkanlar açır. Beləliklə, bizdə tələbat daim artacaq, daxili istehlak daim artacaqdır. Mövcud olan enerji gücləri daxili istehlakdan ən azı 10 faiz artıq olmalıdır. Baxmayaraq ki, biz bu gün enerji təhlükəsizliyimizi təmin etmişik və xaricə ixrac edirik, hazırda böyük layihələr icra edilir. Onlardan ən böyüyü Şirvan şəhərində yerləşən 780 meqavat gücündə «Cənub» Elektrik Stansiyasıdır. Bu stansiya bu il istifadəyə verilməlidir. Şüvəlan qəsəbəsində yerləşən 400 meqavat gücündə «Şimal-2» stansiyasının təməli keçən il qoyulmuşdur və gələn il istifadəyə verilməlidir.

Bu il 25 meqavat gücündə Füzuli Su-Elektrik Stansiyası istismara verilməlidir. Gələn il Taxtakörpü Su Anbarında 25 meqavat gücündə su-elektrik stansiyası istifadəyə verilməlidir. Keçən il təməl daşını qoyduğumuz və bu il inşası davam etdirilən yeni layihələrlə bərabər, kiçik çaylarda kiçikhəcmli su-elektrik stansiyalarının tikintisi davam edir. Bərpa olunan enerji növlərinin yaradılması başlamışdır. Mən keçən il Qobustan rayonunda birinci stansiyanın açılışında iştirak etdim. Çox gözəl təcrübədir, bu layihələrin böyük perspektivi vardır. Artıq Azərbaycanda günəş panelləri istehsal edən müəssisə yaradılır. Günəş–külək enerjisindən daha geniş şəkildə istifadə etməliyik və Bakıda 300 meqavat gücündə yeni elektrik stansiyasının tikintisi də nəzərdə tutulur. Bu il texniki layihələndirmə işləri aparılmalıdır. Bu ilin investisiya proqramında ötürücü xətlərin bərpasına vəsait nəzərdə tutulur. Bu sahədə hələ ki, görüləsi işlər çoxdur. Ötürücü xətlərin müəyyən hissəsi nasaz vəziyyətdədir. Bölgələrdə külək əsən kimi, bəzən dirəklər yıxılır və kəndlər işıqsız qalır. Ona görə «Azərenerji»yə göstəriş verilmişdir ki, bu sahəyə xüsusi diqqət göstərilsin və dövlət büdcəsi tərəfindən dəstək veriləcəkdir.

İçməli su və kanalizasiya layihələri icra edilir. Burada bu layihələr haqqında söylənildi. Bir daha demək istəyirəm ki, bu çox böyük sosialyönümlü, böyük vəsait tələb edən layihədir. Yüz milyonlarla manat, bəlkə milyardlarla manat vəsait tələb edən layihədir. Bakı, Bakıətrafı qəsəbələr, bütün şəhərlər, rayon mərkəzləri kanalizasiya, içməli su ilə təmin edilməlidir və bu istiqamətdə atılan addımlar ümidvericidir. Qarşıya böyük hədəflər qoyulub. Amma yenə də deyirəm, bu hədəflər reallığı əks etdirməlidir.

Çox istərdim ki, 2013-cü ilə qədər bütün şəhər və rayonlarımızda bu layihələr başa çatsın, amma yəqin ki, mümkün olmayacaq. Real hədəf ondan ibarətdir ki, gələn ilin sonuna qədər əksər şəhər və rayonlarımızda içməli su, kanalizasiya layihələri başa çatsın. Hesab edirəm ki, biz buna 100 faiz nail olacağıq. Yenə də baxarıq, bu il, gələn il əlavə maliyyə

imkanlarımız yaranarsa, bu vəsaiti içməli su, kanalizasiya layihələrinə yönəltməliyik. Hazırda bütün bölgələrdə, hər bir rayonda içməli su, kanalizasiya layihələri ya başlamışdır, ya da başlamaq üzrədir. Çaylar boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğuların quraşdırılması prosesi davam etdirilməlidir. Mənə verilən məlumata görə, hazırda 188 kənddə belə qurğular quraşdırılıb. Vaxtilə insanlar çaylardan, kanallardan su içirdilər. İndi təmizlənmiş su içirlər və belə insanların sayı 300 mindən çoxdur. Kəndlərdə 340 min əhali bu imkanlara malikdir. Göstəriş verilmişdir ki, bu il və gələn il əlavə tədbirlər görülsün və çaylar boyu yerləşən kəndlərdə əhalini biz maksimum dərəcədə təmiz su ilə təmin etməliyik.

Bu il və gələn il yenə də meliorasiya məsələləri diqqət mərkəzindədir. Bu barədə artıq deyildi. İki böyük layihə icra edilir. Həm bu sahədə ən böyük layihələr və bəlkə də ölkə miqyasında, qeyri-neft sektorunda ən böyük investisiyalar məhz bu sahəyə yönəldilir. Biz iki böyük su anbarı yaradırıq. Əslində böyük göllər yaradırıq – Taxtakörpü və Şəmkirçay anbarları. On minlərlə hektar yeni torpaq sahələri dövriyyəyə daxil ediləcəkdir və beləliklə, kənd təsərrüfatına çox güclü təkan veriləcəkdir. Bunlar çox böyük vəsait tələb edən layihələrdir, gələcəyə qoyulan investisiyalardır. Bu investisiyalar dərhal qayıtmayacaq və qarşıya məqsəd də qoyulmayıb ki, onlar dərhal qayıtsın. Əlavə məhsulun yetişdirilməsi nəticəsində, ilk növbədə fermerlərin cibinə qayıdacaq və ondan sonra dövlətə. Bu da dövlət tərəfindən özəl sektora verilən böyük dəstəkdir. Kənd təsərrüfatı tamamilə özəl sektorun sərəncamındadır. Bu layihələri sahibkarlığın inkişafına atılmış addımlar kimi qiymətləndirsək, səhv etmərik.

Kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir, kifayət qədər ciddi proqramlar qəbul edilibdir. Taxılçılıqla bağlı yeni təşəbbüslər icra edilir. Bir il əvvəlki müşavirədə demişdim ki, biz tezliklə taxılçılıq üzrə iri fermer təsərrüfatlarının yaradılmasına başlamalıyıq. Ancaq bir il keçdi, hələ ki, nəticə yoxdur. Bilirəm ki, bu böyük, ciddi məsələdir.

Yeni torpaq sahələri müəyyən edilməli, infrastruktur layihələri icra olunmalı, suvarma məsələləri öz həllini tapmalıdır. Mən hesab edirəm ki, bu işlərə daha da böyük diqqət göstərilməlidir. Hesab edirəm ki, gələnilki müşavirədə artıq biz birinci uğurlardan danışmalıyıq, əks-təqdirdə mənim göstərişlərimə laqeyd yanaşanlar cəzalandırılacaqlar. Bunu bilin. Bu, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün lazımdır. Bu, vaxtında irəli sürülmüş təşəbbüsdür. Yubanmadan icra edilməlidir və mən bu barədə bütün müvafiq qurumlara göstəriş vermişəm. Bu iş müvafiq qurumlar tərəfindən əlaqələndirilmiş şəkildə aparılmalıdır. Bütün müvafiq qurumlar bu işlərlə məşğul olmalıdır. Ümumi nəzarət Nazirlər Kabinetinə tapşırılır.

Heyvandarlığın inkişafı ilə bağlı böyük addımlar atılır. Bu yaxınlarda Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 10 milyon manat vəsait ayrılmışdır ki, yenidən o, cins mal-qaranın gətirilməsinə nail olsun. Artıq bir neçə ildir ki, bu proses başlamışdır. Mal-qara cinsi yaxşılaşdırılmalıdır. Xaricdən gətirilən mal-qara çox məhsuldardır və biz çalışmalıyıq ki, tədricən böyük heyvandarlıq və südçülük fermer təsərrüfatları yaradılsın, artıq burada Ağcabədidən olan iş adamı bu barədə danışdı. O doğrudan da Azərbaycanın ən böyük südçülük müəssisəsidir. Çox şadam ki, artıq orada heyvandarlıq da, maldarlıq məsələləri də öz həllini tapır. Belə müəssisələr bizə lazımdır. Bir azdan deyəcəyəm, ümumiyyətlə, daxili istehsal tələbatımızı nə qədər təmin edir. Südçülük, heyvandarlıq, taxılçılıq sahələrinə xüsusi diqqət göstərilməlidir.

Keçən ilin sonunda üzümçülüyün inkişafına dair Dövlət Proqramı qəbul edilmişdir. Bu da dövlətin niyyətini göstərir. Keçən il üzümçülüklə bağlı öz fikirlərimi geniş şəkildə bildirdim. Vaxtilə Azərbaycanda üzümçülük nə üçün məhv edildi?! O barədə də danışdım və təkrar etməyə ehtiyac yoxdur. Bu proqram dövlətin prioritetlərini göstərir. Özəl sektor bu işlərlə məşğul olub, məşğul olur və olmalıdır. Yeni üzüm bağları salınır, biz bunu alqışlayırıq.

Proqramın məqsədi ondan ibarətdir ki, özəl sektora necə daha da böyük həcmdə kömək edə bilərik ki, üzümçülük Azərbaycanda inkişaf etsin və XX əsrin 80-ci illərində ulu öndər tərəfindən yaradılmış gözəl ənənə bərpa edilsin. Bu həm ölkə iqtisadiyyatı, həm də ilk növbədə, fermerlər üçün lazımdır. Fermerlər yaxşı bilirlər ki, üzümçülükdə əldə edilən gəlirləri başqa sahədə bəlkə də əldə etmək mümkün deyildir. Bu proqramın da təməlində yenə də sahibkarlığın inkişafı dayanır ki, fermerlər, kəndlilər daha da çox pul qazansınlar, daha da yaxşı yaşasınlar.

Bağçılıqla, xüsusilə müasir texnologiyalar əsasında bağçılıqla bağlı layihələrin icrasına başlanılmışdır. Mən keçən il Quba rayonunda bir təsərrüfatla tanış oldum. İntensiv bağçılıq təsərrüfatıdır. Baxmayaraq ki, Quba zonası, ümumiyyətlə, bağçılıqla məşhurdur, gözəl alma bağları var, amma yeni sistem məhsuldarlığı bəlkə bir neçə dəfə artırır. Bu da əlavə gəlirlər, əlavə məhsul yetişdirilməsi deməkdir. İntensiv bağçılıq da daim diqqət mərkəzindədir.

Bütövlükdə kənd təsərrüfatında müasir texnologiyaları daha geniş şəkildə tətbiq etməliyik. Bu məqsədlə kənd təsərrüfatında böyük inkişafa nail olmuş ölkələrə heyətlər göndərilmişdir, onların təcrübəsi öyrənilmişdir və biz ən müasir texnologiyaları gətirməliyik. Necə ki, inşaatda, yol tikintisində, memarlıqda, başqa sahələrdə biz ən müasir texnologiyaları gətiririk, bu sahəyə də gətirməliyik. Onda məhsuldarlıq, hətta indiki torpaq fondunu nəzərə almaqla, xeyli dərəcədə artacaqdır. Nəzərə alsaq ki, böyük meliorasiya layihələri icra edilir, on minlərlə, bəlkə yüz min hektara qədər yeni torpaq dövriyyəyə veriləcəkdir, görün kənd təsərrüfatının inkişafı üçün nə qədər şərait yaradılacaqdır.

Ərzaq təhlükəsizliyi məsələləri hər bir ölkə üçün vacibdir. Biz bu məsələlərlə bir neçə ildir ki, məşğuluq. Görəndə ki, biz öz daxili istehsalımıza arxalanmalıyıq, bu sahədəki addımlarımız daha da təsirli olmuşdur. Yenə də iqtisadi, maliyyə böhranı, ondan sonra bəzi ölkələrdə quraqlıq ona gətirib çıxartdı

ki, bir neçə il bundan əvvəl taxılla bağlı problemlər yarandı. Ənənəvi təchizatçılar ixracata qadağa qoymuşdular. Baxmayaraq ki, kontraktlar bağlanmışdı, ancaq taxılın idxalı dayanmışdı və biz onda fikirləşməyə başladıq ki, nəinki taxılçılıq sahəsində, hər bir sahədə tələbatımızı daxildə təmin etməliyik. Buna imkan var – bizim gözəl torpağımız, zəhmətkeş insanlarımız, dövlət dəstəyi vardır. Ona görə ərzaq təhlükəsizliyi enerji, nəqliyyat təhlükəsizliyi ilə bərabər, çox ciddi məsələdir.

Biz keçmişdə özümüzü heç vaxt ərzaq məhsulları ilə təmin etməmişdik. Sovet dövründə ümumxalq təsərrüfatı kompleksi var idi və bütün əsas ərzaq məhsulları başqa respublikalardan gəlirdi. Biz qısa müddət ərzində ciddi dönüş yarada bilmişik. Ancaq hələ ki, ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməmişik, baxmayaraq ki, çox ciddi irəliləyiş vardır. Ona görə mən indi bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bunu daim diqqət mərkəzində saxlayırıq və biz bu rəqəmlər əsasında Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlərin verilməsini də müəyyən edirik. Biz daha çox o sahələrə kreditləri verməliyik ki, həmin istehsal daxili tələbatı ödəyə bilsin.

Taxıl istehsalı hazırda tələbatımızın 65 faizini təşkil edir. Görüləcək tədbirlər nəticəsində 2013-cü ilin sonunda 84 faiz olacaqdır. Bu yaxşı rəqəmdir, ancaq son rəqəm deyildir. Ət məhsulları ilə özümüzü 88 faiz səviyyəsində təmin edirik. 2013-cü ildə proqnoz 95 faiz olacaqdır. Quş əti istehsalı hazırda 81 faizdir. Bu yaxınlarda quşçuluğa daha da çox kreditlər verildi. Ona görə də istehsal artdı və 2 ildən sonra, gələn ilin sonuna qədər 92 faiz olmalıdır. Kartof istehsalı artıq 102 faizdir, 114 faiz olacaqdır. Meyvə  117 faiz, yəni ki, ixrac potensialı vardır. Bostan məhsulları 100 faiz, yumurta 77 faiz, gələn ilin sonunda 100 faiz olmalıdır. Şəkər istehsalı 160 faizdir. O da həqiqətdir ki, şəkərin xammalı əsasən xaricdən gətirilir, bununla bərabər, daxili istehsal 160 faizdir, böyük ixrac imkanları vardır. Azərbaycanda duz istehsalı 47 faizdir, 75 faiz olmalıdır. Süd və süd məhsulları hazırda tələbatımızın 70 faizini ödəyir, gələn ilin

sonunda təxminən 80 faiz olacaqdır. Bitki yağı 65 faiz, kərə yağı 50 faizdir. Bu da artmalıdır. Bunlar əsas ərzaq məhsullarıdır, bu rəqəmlər birinci növbədə onu göstərir ki, doğrudan da çox ciddi dönüş yaradılıbdır. İkinci nəticə ondan ibarətdir ki, gələn ilin sonuna aid gətirdiyim rəqəmlər artıq reallığa əsaslanır. Bu bizim niyyətimiz deyil. Veriləcək kreditlər hesabına və işə salınacaq yeni müəssisələrin fəaliyyəti nəticəsində belə olacaqdır. Eyni zamanda, rəqəmlər onu göstərir ki, biz bəzi pozisiyalar üzrə hələ ki, daxili tələbatı ödəyə bilmirik. Ola bilər ki, buna 4-5 il vaxt lazım olacaqdır. Ancaq biz bunu təmin etməliyik. Həm kərə yağı, bitki yağı, həm taxıl – biz bunu təmin etməliyik. İnvestisiya planlarımızı müzakirə edərkən bu cədvəli qarşımıza qoymalıyıq və kənd təsərrüfatının inkişafını bunun əsasında təmin etməliyik.

Hər bir sahədə olduğu kimi, qabağa baxmalıyıq ki, 10 il, 20 il bundan sonra nə olacaqdır. Ümid edirəm ki, 2015-ci ilə qədər əsas ərzaq məhsulları ilə özümüzü 100 faiz təmin edəcəyik. Həm kreditlər veriləcək, həm yeni torpaqlar dövriyyəyə daxil ediləcək və s. Ondan sonra nə olacaq? Ondan sonra biz yeni bazarlar axtarmalıyıq, yeni bazarlar tapmalıyıq və ənənəvi bazarlara daha da böyük həcmdə öz məhsullarımızı çıxarmalıyıq. Mən artıq İqtisadi İnkişaf Nazirliyinin qarşısında belə vəzifə qoydum ki, yeni bazarların araşdırılması prosesi indidən başlanmalıdır. İndidən ki, biz hazırlıqlı olaq. 2015–2016-cı illərdə bizim çox böyük həcmdə ixracyönümlü kənd təsərrüfatı məhsulumuz olacaqdır. Biz onları ixrac etməsək, onda kənd təsərrüfatının inkişafını təmin edə bilmərik. Çünki daxili bazar dolacaq – düzdür, əhali artır, tələbat artır, amma o qədər də böyük həcmdə artmır. Bizdə əhali hər il 1,5 – 1,7 faiz artır. Ona görə yeni bazarlara çıxışımız olmasa, bu, kənd təsərrüfatının inkişafını məhdudlaşdıracaqdır. Yeni bazarlara çıxış üçün işləməliyik, işləyirik və bu məsələdə müvafiq qurumlar əlaqəli şəkildə işləməlidirlər. Biz idxalı əvəzləyəcəyik, ixracyönümlü məhsullarla başqa ölkələrin bazarlarına çıxmalıyıq. Ona görə Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi

İnkişaf Nazirliyi və Xarici İşlər Nazirliyi bu məsələ ilə bağlı gərək müzakirə aparsınlar, lazım olarsa, işçi qrupu yaradılsın.

Bizim dünyadakı tərəfdaşlarımızın sayı artır. Mən giriş sözümdə də dedim, Azərbaycan ilə əməkdaşlıq etmək istəyənlərin sayı artır, biz də istəyirik əməkdaşlığımızı genişləndirək və öz məhsullarımızla yeni bazarlara çıxaq – həm ənənəvi bazarlara, həm yeni bazarlara. Xüsusilə Avropa bazarlarına kənd təsərrüfatı məhsulları ilə çıxmalıyıq. Bunun üçün təkcə bizim istəyimiz kifayət deyil, keyfiyyətli məhsullar yetişdirilməlidir. Bizim kənd təsərrüfatı məhsullarımız – meyvələr, tərəvəzlər keyfiyyətlidir, təbiidir. Bu da çox vacib məsələdir. Kəmiyyət dalınca qaçmamalıyıq, kəmiyyət dalınca qaçanlar keyfiyyəti itirirlər. Elə olmasın ki, bir neçə ildən sonra bizdə də bu meyvə-tərəvəz süni dad versin, necə ki, bəzi ölkələrdə yeyəndə heç bilmirsən hansı meyvədir, ya tərəvəzdir. Ona görə biz bu təbiiliyi, keyfiyyəti mütləq saxlamalıyıq, kəmiyyəti keyfiyyətin hesabına artırmamalıyıq. Emal müəssisələrimiz indi çox müasirdir, xüsusilə son illər ərzində tikilən müəssisələr. Orada bütün sertifikatlar, standartlar olmalıdır. Avropa İttifaqının bazarlarına çıxmaq üçün biz elə müəssisələr yaratmalıyıq ki, bu imkanlar olsun. Bu çox ciddi məsələdir.

İnşaat materiallarının istehsalını daxildə artırmalıyıq və artıracağıq. Hazırda Azərbaycanda sement istehsalı daxili tələbatın 44 faizini təmin edir, 2013-cü ildə 75 faiz, 2014-cü ildə 125 faiz olacaqdır. Azərbaycanda tikilməkdə olan yeni sement zavodları istifadəyə veriləcək və 2 ildən sonra bizdə 25 faiz əlavə ixrac məhsulu olacaqdır. Biz bunu hara satacağıq? İndi sement bazarları üçün mübarizə gedir. Bizə sement satmaq istəyənlər çoxdur. Biz də daxili tələbatımızı təmin edəndən sonra xaricdən sement almayacağıq. Hara satacağıq, bu barədə nə vaxt fikirləşməliyik? Çünki bu, 2014-cü ildə 125 faiz olacaqdır. İndidən işlərimizi elə qurmalıyıq ki, 2014-cü ildə heç bir problem olmasın.

Dövlətin dəstəyi ilə yaradılan böyük müəssisələr işə düşür. Gəncədə alüminium zavodu açıldı, 50 min ton yüksək

keyfiyyətli alüminiumun istehsalı təmin edildi. Açılış zamanı mənə məlumat verildi ki, bu rəqəm 100 minə, 200 minə qalxacaqdır. Alüminium elə məhsuldur ki, istənilən yerə satılır. Bu məhsula görə bazar axtarmaq lazım deyildir. Ancaq biz nə etməliyik? Gəncə alüminium zavodunun yanında texnopark yaratmalıyıq. Özəl sektor bu işə qoşulmalıdır. Dövlət yerlər ayırmalıdır, infrastrukturu təmin etməlidir, özəl sektor isə hazır məhsulları buraxmalıdır. Alüminiumu külçə kimi də sata bilərik, ancaq bu, yarımçıq bir iş olacaqdır. Niyə alüminium məhsullarını xaricdən almalıyıq? Özümüz alüminium istehsal edirik, özümüz də hazır məhsulu istehsal edək, daxildə sataq, xaricdən gələnin qabağını kəsək və sonra xaricə də ixrac edək. Xahiş edirəm ki, bu məsələ ilə ciddi məşğul olun, həm sahibkarlar, həm İqtisadi İnkişaf Nazirliyi. Gəncədə alüminiumyönümlü texnopark yaradılmalıdır.

Kimya sənayesində texnoparkın yaradılması prosesi başlamışdır. Böyük neft-kimya kompleksi tikiləcəkdir. «Azərikimya»ya bütün göstərişlər verilmişdir, Sumqayıtda torpaq sahələri ayrılmışdır. Biz kimya sənayesində də hazır məhsulun buraxılmasına nail olacağıq. Kimya texnoparkının yaradılması artıq başlamışdır. Bütövlükdə texnoparkların yaradılması prosesi gedir. Bu, müsbət prosesdir. Sumqayıt texnoparkı fəaliyyət göstərir, orada 10-a yaxın müəssisə fəaliyyətdədir, minlərlə iş yeri açılmışdır, hazır məhsul da istənilən ölkəyə ixrac edilə bilər. Bir texnopark da Balaxanıda məişət tullantılarının yandırılması zavodunun yanında yaradılacaqdır. Orada da iş yerləri açılacaqdır və bir sahəni də Balaxanı texnoparkı öz üzərinə götürəcəkdir. Dəfələrlə qeyd etdiyim sənayeləşmə prosesinə daha da ciddi təkan veriləcəkdir.

Azərbaycan şirkətlərini xarici bazarlara çıxarmalıyıq. Hazırda Dövlət Neft Şirkəti xaricdə fəal işləyir. Çalışmalıyıq ki, digər dövlət şirkətlərinə də köməklik göstərək. O şirkətlər ki, xarici bazarlarda işləyə bilər. Dövlət Neft Şirkətinin imkanları artıq genişlənir. Hesab edirəm ki, bizim aviaşirkətimiz «AZAL» xarici bazarlara çıxmalıdır, baxmalıdır, bəlkə hansısa başqa

aviaşirkəti almaq olar. Hansısa başqa ölkələrdə iş qurmaq olar. Bu da dövlət dəstəyi hesabına mümkün olacaqdır. «Azərenerji» – düzdür, indi daxildəki layihələrlə məşğuldur və bu da təbiidir. Amma vaxt gələcək daxildə bu layihələr başa çatacaq və onunla paralel olaraq xarici bazarlara çıxmalıdır. Bizim Dövlət Neft Şirkəti bəzi ölkələrdə qaz şəbəkəsini artıq idarəçiliyə götürmüşdür. «Azərenerji» şirkəti də bu istiqamətdə addımlar ata bilər. Xəzər Gəmiçiliyi xarici fəaliyyətini genişləndirməlidir, ölkə daxilində dövlət tərəfindən verilən vəsait hesabına bərələr, tankerlər, gəmilər alınır. Biz eyni sistemi xaricdə də yarada bilərik. Bu barədə də düşünmək lazımdır.

Özəl şirkətlərə də kömək göstərməliyik ki, xarici bazarlara çıxsınlar. Xarici İşlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi birgə işləsinlər və mənə konkret təklif versinlər. Birinci dəfə deyil ki, bu barədə danışıram, hələ ki, real nəticə görmürəm. Mənə konkret təkliflər verilsin. Başqa ölkələrlə hökumətlərarası komissiyalarımız vardır. O komissiyalarda bu məsələ müzakirə edilməlidir. Azərbaycan şirkətləri üçün tərəfdaş olduğumuz ölkələrdə xüsusi güzəştli şərait yaradılmalıdır. Özəl şirkətləri də xarici bazarlara çıxarmalıyıq. Bizim banklar xarici bazarlara çıxmalıdır, çıxır, daha sürətlə çıxmalıdır. Bir yox, iki yox, beş, on bankımız niyə başqa ölkələrdə işləməsin?! Niyə orada böyük mövqelərə nail olmasın?! Dövlət öz tərəfindən dəstək verəcəkdir. Lazım olsa siyasi dəstək də, başqa dəstəklər də.

Azərbaycanda böyük nəqliyyat və logistika mərkəzi yaradırıq. Beş beynəlxalq aeroportumuz, ən müasir təyyarə parkımız var. Heydər Əliyev Beynəlxalq Aeroportu tikilir, yeni aerovağzal binası nadir memarlıq abidəsi olacaq. Ələtdə Beynəlxalq Dəniz Ticarət Limanı tikilir. Bu, Xəzərdə ən böyük liman olacaq. Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycan dövlətinin təşəbbüsü və maliyyə dəstəyi ilə reallaşan layihədir, tikilməkdədir, ümid edirəm ki, yaxın illərdə istifadəyə veriləcək. Beləliklə, Azərbaycan bu bölgədə icra edilən layihələr hesabına dünya miqyasında logistika və nəqliyyat mərkəzinə

çevriləcək. Bizim istəyimiz bundan ibarətdir, buna nail olacağıq və oluruq.

Bizim coğrafi vəziyyətimiz əlverişlidir, ancaq coğrafi vəziyyət infrastruktur olmadan heç nəyi dəyişmir. Bizim bu sahədəki siyasətimiz çox düzgündür – avtomobil yolları, dəmir yolları, hava nəqliyyatı, dəniz nəqliyyatı. Azərbaycan dövləti hər il bərələrin, tankerlərin, təyyarələrin alınmasına, dəmiryol layihəsinin icrasına və s. büdcədən nə qədər vəsait ayırır. Bütövlükdə gələcək haqqında söhbət aparanda mən artıq bir neçə dəfə bu fikri səsləndirmişəm və bir daha demək istəyirəm ki, ikinci Dövlət Proqramı uğurla icra ediləcəkdir. Heç bir şübhəm yoxdur ki, 2013-cü ilə qədər bütün məsələlər öz həllini artıqlaması ilə tapacaqdır. Biz strategiyamızı müəyyən etmişik və növbəti onillik üçün strateji inkişaf planımızı hazırlamalıyıq – 2013–2023-cü illəri əhatə edən strateji inkişaf planı.

Bir daha hədəfi müəyyən etmək istəyirəm. Hədəf ondan ibarətdir ki, növbəti 10 ildə – 2013–2023-cü illərdə Azərbaycan əhalisi yüksəkgəlirli ölkəyə çevrilməlidir. Növbəti 10 ildə qarşıya hədəf qoymalıyıq ki, ümumi daxili məhsul 2 dəfə artsın. Bu çox böyük, çətin hədəfdir. Nəzərə alsaq ki, ümumi daxili məhsulumuz artıq 3 dəfə artmışdır, indi 3 dəfə artmış iqtisadiyyatı daha 2 dəfə artırmalıyıq. Neft və qazın hesabına bunu artırmaq mümkün olmayacaqdır. Çünki neft hasilatının yüksək həddinə çatmışıq, ondan çox artırmaq da lazım deyil. Hesab edirəm ki, hasilatı bu səviyyədə saxlamalıyıq ki, daha da uzun müddət ərzində insanlarımız bundan istifadə etsinlər. Ancaq biz buna qeyri-neft sektorunun hesabına nail ola bilərik. 2013–2023-cü illərdə dövlət və özəl qurumların birgə fəaliyyəti yeni mərhələyə qədəm qoyacaqdır. Dövlət və özəl qurumların birgə fəaliyyət planı işlənməlidir.

Dövlət İnkişaf Proqramını qəbul edəcəyik. 2014–2018-ci illəri əhatə edən beşillik proqram qəbul ediləcək. Eyni zamanda, dövlət və özəl qurumların birgə fəaliyyəti üzrə strateji istiqamətləri yenidən işlənməlidir. Nəzərə almalıyıq ki, özəl sektor 10 il əvvəlki deyil, dayanıqlı, güclü özəl sektordur və

görüləcək tədbirlər nəticəsində daha da güclənəcəkdir. Bu vəzifələr icra olunarsa, özəl sektor daha da güclü olacaqdır. Uğurlarımıza sevinənlərin sayı kifayət qədər çoxdur. Amma istəməyən qüvvələr də, bədxahlar da var. Onları da bir neçə qrupa bölmək olar. Birinci növbədə əsas düşmənlərimiz dünya erməniliyi və onların təsiri altında olan riyakar, korrupsioner, rüşvətxor siyasətçilərdir, həqiqəti görmək istəmir və müxtəlif yerlərdə Azərbaycanı ləkələməklə məşğuldurlar. Bəzi parlamentlərin erməni lobbisinin pulu ilə dolanan üzvləri, bəzi siyasi xadimlər və sair. Onların hamısını biz yaxşı bilirik. Digər qrup isə Azərbaycanın müstəqil siyasətini qəbul etməyənlərdir. Qəbul etmirlər ki, Azərbaycan müstəqil siyasət apara bilər. Bu siyasət, bir daha demək istəyirəm ki, Azərbaycan xalqının maraqlarına xidmət edir. Başqa heç kimin maraqlarına xidmət etmir və etməyəcəkdir. Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Nəticələr və yaxın tarix göstərir ki, biz hətta təkbaşına mübarizədə qalib gələ bilirik.

Üçüncü qrup isə sadəcə olaraq, bizə paxıllıq edənlərdir. İndi Azərbaycanın reallıqları belədir ki, doğrudan da bizim tariximiz inkişaf edir və uğurlar tarixidir. Baxın, biz son müddət ərzində həm siyasi, həm iqtisadi sahədə nə qədər böyük nailiyyətlərə çatmışıq. Bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkələrin reytinqləri aşağı düşdüyü halda, bəzi inkişaf etmiş ölkələr defolt ərəfəsində olduğu halda, «Standard & Poors» Azərbaycanın kredit reytinqini qaldırır.

Dünyanın iqtisadi sahədə ən mötəbər «beyin mərkəzi» olan Davos Dünya İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 55-ci yerə layiq görür, bütün MDB məkanında birinciyik. Bu hansısa qondarma qeyri-hökumət təşkilatı deyil ki, ağzına gələni danışsın. Dünya İqtisadi Forumu dünya şöhrətli beynəlxalq təşkilatdır, bu da onların rəyidir.

Azərbaycan gənc müstəqil ölkədir. Müstəqilliyimizin cəmi 20 yaşı var. Dünyanın ən birinci qurumunun üzvüyük. BMT Təhlükəsizlik Şurasının üzvüyük. Biz bu haqqı çətin müba-

rizədə qazanmışıq. Çünki yolumuzdan dönməmişik, ədalətli olmuşuq və dünya ictimaiyyətinin böyük rəğbətini qazanmışıq. 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. İctimai rəy və beynəlxalq ictimaiyyət deyəndə bu hadisəni yada salmaq lazımdır. Beynəlxalq ictimaiyyət hansısa təşkilatın üzvləri deyil. O təşkilatın önəmindən asılı olub-olmayaraq, o təşkilat və onun üzvləri beynəlxalq ictimaiyyətin rəyini əks etdirmir. Beynəlxalq ictimaiyyət Birləşmiş Millətlər Təşkilatıdır, orada 200-ə qədər ölkə vardır. Onların 155-i Azərbaycanı dəstəkləmişdir. Bu, böyük siyasi uğurumuzdur və biz artıq dünyada gedən bütün proseslərə öz təsirimizi göstəririk, öz sözümüzü deyirik. Biz bu tarixi gündə, o quruma üzv seçilən gün mən demişəm ki, Təhlükəsizlik Şurasında ədaləti bərpa edəcəyik, ədaləti müdafiə edəcəyik və edirik də.

«Böyük iyirmilik»in Xarici İşlər nazirlərinin toplantısına Azərbaycanı dəvət edirlər. Bu onu göstərir ki, ölkəmiz dünya üçün çox əhəmiyyətlidir. «Böyük iyirmilik»ə 20 ölkə daxildir, ona görə də «Böyük iyirmilik» adlandırılır. O qrupa daxil olmayan 10 ölkə dəvət edilmişdi, onlardan biri Azərbaycan idi. Keçmiş Sovet İttifaqından ancaq Azərbaycan oraya dəvət edildi.

Dünyanın ən gözəl şəhərlərindən birində yaşayırıq. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Tarixən belə olub, indi də biz böyük əmək qoymuşuq, şəhərimizi daha da gözəlləşdirmişik. Üstəgəl bizim istedadlı gənclərimizin «Eurovision» yarışmasında uğuru bütün Azərbaycan xalqının, dövlətimizin uğurudur.

Həm BMT Təhlükəsizlik Şurası, həm «Böyük iyirmilik»ə dəvətimiz, dünyanın mötəbər iqtisadi qurumları tərəfindən Azərbaycana yüksək qiymətin verilməsi, «Standard & Poors»un qiymətləndirməsi, «Eurovision» müsabiqəsində qələbə – bunlar bizi istəməyənlərin gözünü deşir. Ona görə də təəccüblənməməliyik ki, haradasa kim nə isə yazdı, kim isə ağzını büzdü. Buna fikir verməməliyik, belə hallar təbiidir. Əsas odur ki, uğurlarımız hərtərəflidir və bu uğurlar hər sahədə davam edəcək. Azərbaycan daha da güclü olacaq. Haqqımızda böhtan dolu mə-

qalələr yazan yazıların müəlliflərinə ən gözəl cavab işimizdir, uğurumuzdur.

Azərbaycan dinamik və güclü ölkədir. Dostlarımızın sayı artır, istəməyənlər də var və olacaqdır. Ancaq onların ayağımıza dolaşması bizi seçdiyimiz yoldan döndərə bilməz. Bizim yolumuz ədalət yoludur, haqq yoludur, inkişaf yoludur, tərəqqi yoludur. Biz bu yolla uğurla gedirik və gedəcəyik.

# PAKİSTAN SENATININ SƏDR MÜAVİNİ MİR CAN CAMALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Pakistan İslam Respublikası Senatının sədr müavini Mir Can Camalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı ölkəmizə verdiyi davamlı dəstəyə və Pakistan parlamentinin Xocalı faciəsini soyqırımı kimi tanımasına görə Pakistan İslam Respublikasına minnətdarlığını ifadə etdi. İqtisadi sahədə əməkdaşlığımıza toxunan dövlətimizin başçısı Azərbaycan–Pakistan Hökumətlərarası birgə iqtisadi komissiyanın fəaliyyətini intensivləşdirməyin zəruriliyini bildirdi, Azərbaycan ilə Pakistanın beynəlxalq təşkilatlarda bir-birilərini daim dəstəkləmələrini nümunə kimi dəyərləndirdi.*

*Mir Can Camali ölkəmizə ilk dəfə 1993-cü ildə səfər etdiyini və ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atdığını ehtiramla xatırlatdı. O, ölkəsinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyini bildirdi, ölkələrimiz arasında əməkdaşlığın iqtisadi və parlamentlərarası əlaqələr sahəsində daha da genişləndirməyin zəruriliyini qeyd etdi.*

# PAKİSTANIN BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ XALİD ŞAMİM VAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Xalid Şamim Vaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi bildirildi, Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Xalid Şamim Vaynın Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

## TÜRKİYƏNİN TRT TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*29 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Türkiyənin TRT televiziya kanalının Bakı təmsilçisi Yüksel Degercana müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, əvvəlcə, qapılarınızı bizə – TRT ailəsinə açdığınız üçün Sizə çox təşəkkür edirəm.**

**Müsahibəmizə Fransa mövzusu ilə başlamaq istəyirəm. Son dönəmdə Fransa mövzusu həddən artıq gündəmdə idi. Xüsusilə Fransa parlamentinin ardından Senatın da qəbul etdiyi uydurma «erməni soyqırımı» iddialarının inkarını cinayət sayan qanun layihəsi Konstitusiya Şurasına getdi və Konstitusiya Şurası bu layihəyə «Dur!» – dedi, rədd etdi. Bu işdə Azərbaycanın və Türkiyənin böyük xidmətləri var. Konstitusiya Şurasının bu qərarını necə dəyərləndirirsiniz? Bu Sizdə hansı duyğuları oyatdı?**

**C a v a b:** İlk növbədə, mən bütün türk xalqını və Azərbaycan xalqını, dünyada bütün ədalətsevər insanları bu qanunun ləğv edilməsi ilə əlaqədar ürəkdən təbrik etmək istəyirəm. Hesab edirəm ki, Fransanın Konstitusiya Məhkəməsi ədaləti bərpa etdi. Bu qanun heç bir tarixi reallığa əsaslanmayan, tarixi həqiqəti təhrif edən yalan üzərində qəbul edilmişdi. Türkiyə və Azərbaycan ictimaiyyəti və dövlət qurumları dərhal öz səylərini göstərdilər. Mən çox şadam ki, bu səylər uğurla nəticələndi və Fransa Konstitusiya Məhkəməsi bir daha onu göstərdi ki, yalan üzərində qurulmuş iddialar heç vaxt qüvvəyə minməyəcəkdir. Qanunun ləğv edilməsi söz azadlığına verilən böyük töhfədir. Təsəvvür edin, əgər bu qanun qüvvəyə minsəydi, onda söz azadlığı, fikir azadlığı haqqında, ümumiyyətlə, söhbət açmaq mümkün olmazdı. Çox şadam ki, bizim birgə səylərimiz və bey-

nəlxalq dəstəyin nəticəsində bu qanun qüvvəyə minmədi və beləliklə, ədalət bərpa edildi.

**S u a l: Türkiyə və Azərbaycan qardaşlığı son dövrdə, xüsusilə Xocalı faciəsinin dünyaya çatdırılması istiqamətində görülən işlərdə bir daha özünü göstərdi. Xüsusilə Bakı və Taksimdə çox böyük yürüşlər və mitinqlər keçirildi. Türkiyənin dörd bir tərəfində Xocalı qətliamında şəhid olanların xatirəsi anıldı və dünyanın 70 ölkəsində çox böyük tədbirlər keçirildi. Xüsusilə Taksim və Bakıdakı böyük yürüşləri, mitinqləri necə dəyərləndirirsiniz? Bu, birlikdən doğan gücün göstəricisidirmi?**

**C a v a b:** Əlbəttə, elədir. Xocalı faciəsi bizim böyük dərdimizdir, böyük faciədir. Erməni faşistləri tərəfindən XX əsrin sonlarında törədilmiş çox böyük cinayətdir, erməni vəhşiliyinin, erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərmişdir. Dinc əhaliyə qarşı bu qədər qəddarlıq, dünya miqyasında bəlkə də görünməmiş qəddarlıq bizim hamımızı dərindən kədərləndirir, hiddətləndirir. 613 günahsız insan – onlardan 106-sı qadın, 63-ü uşaqdır – ermənilər tərəfindən qətlə yetirilmişdir.

Bu il Xocalı faciəsinin 20-ci ildönümünü həm Türkiyədə, həm Azərbaycanda qeyd etdik. Bu nümayişlər, yürüşlər, Türkiyə və Azərbaycan xalqlarının birgə mövqeyi, ilk növbədə qardaşlığımızın nə qədər güclü olduğunu göstərir. Bizim ürəklərimiz bir döyünür. Həm Taksim meydanında, həm Bakıda on minlərlə insan öz etirazını və həlak olan şəhidlərin xatirəsinə ehtiramını ifadə etmək üçün küçələrə çıxmışdılar. Bu, böyük birliyin, ədalətin təzahürüdür. Əminəm ki, Xocalı qurbanlarının qanı yerdə qalmayacaq. Türkiyədə və Azərbaycanda göstərilən həmrəylik və dayanışma təbiidir. Çünki xalqlarımız qardaşdırlar. Biz daim bir yerdəyik. Bütün məsələlərdə Türkiyə və Azərbaycan bir yumruq kimi fəaliyyət göstərir. Əminəm ki, bu birlik gələcək illərdə daha da gücləndiriləcəkdir.

Siz birinci sualda Fransadakı qanuna toxundunuz. Deyə bilərəm ki, Azərbaycan ictimaiyyəti, dövləti, parlamenti

ədalətsiz qanun qəbul olunduğu gündən hərəkətə başlamışdır. Prezident Administrasiyası bəyanatlar vermişdir. Xarici İşlər Nazirliyi çox ciddi bəyanat vermişdir. Fransanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edilmişdir və ona etiraz bildirilmişdir. Azərbaycan parlamenti iki dəfə bu məsələ ilə bağlı öz mövqeyini bildirmişdir. Həm bəyanat qəbul edilmişdir, həm Fransa parlamentinə müraciət qəbul olunmuşdur. Biz Fransadakı dostlarımızla çox sıx təmaslarda olduq. Fransa senatorlarının Azərbaycana gəlməsi və səfər zamanı bu müzakirənin geniş şəkildə aparılması bizim qardaşlıq borcumuzdur.

Bizim Fransa ilə əlaqələrimiz 20 illik tarixə malikdir. Fransada bizim dostlarımız var. Bütün imkanlardan istifadə etməyə çalışdıq ki, ədalət pozulmasın, bərpa edilsin. Siz yaxşı bilirsiniz ki, Fransada qanunlara görə Konstitusiya Məhkəməsinə qanunun çıxarılması üçün senatorlar səs verməli idilər. Əgər onlar bu səsləri yığmasaydılar, Konstitusiya Məhkəməsi bu məsələyə heç baxmazdı və avtomatik olaraq bu ədalətsiz qanun qüvvəyə minərdi. Ancaq senatorlar da çox böyük müdriklik göstərmişlər və bizim birgə səylərimiz nəticəsində bu qanun qüvvəyə minmədi. Onu da qeyd etmək istəyirəm ki, bizim Fransadakı səfirliyimiz Türkiyə səfirliyi ilə bərabər böyük işlər aparmışlar və öz imkanları çərçivəsində sübut etməyə çalışmışlar ki, bu qanun ədalətsizdir, bu, söz azadlığına vurulan zərbədir. Əgər bu qanun qüvvəyə minərdisə, ikitərəfli münasibətlərə çox mənfi təsir göstərə bilərdi. Çox şadam ki, həm ədalət bərpa edildi, həm də Türkiyə–Azərbaycan birliyi artıq dünya müstəvisində öz gücünü göstərdi.

Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, uğurlarımızın əsas mənbəyi birliyimizdir. Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi, bölgədə güclü nüfuza malikdir və bu nüfuz bölgənin kənarına təsirini göstərməkdədir. Biz nə qədər bir yerdə olsaq, gücümüz də o qədər artacaqdır. Bizim aramıza girmək istəyənlər var, biz onları tanıyırıq, qınayırıq və onlara qalib gəlirik. Birliyimiz o qədər sıx olmalıdır ki, orada

heç bir boşluq olmasın, bizi istəməyən bədxah, pisniyyətli qüvvələr öz arzularına çatmasınlar. Onlar arzularına heç vaxt çatmayıblar və çatmayacaqlar. Türkiyə–Azərbaycan birliyi Xocalı soyqırımını anım günlərində, Fransadakı olaylarda özünü göstərdi və bütün başqa məsələlərdə bu özünü göstərir.

**S u a l: Cənab Prezident, keçən il İzmirdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclası keçirildi. Bu çərçivədə də çoxlu sayda qərarlar qəbul edildi, müqavilələr imzalandı. Enerji müqavilələrindən tutmuş, bir çox sahədə bu müqavilələr yavaş-yavaş həyata keçirilməyə başlandı. Transanadolu qaz boru xətti müqaviləsi imzalandı. Bu çərçivədə Türkiyə–Azərbaycan əlaqələrinin iqtisadi və enerji sahəsindəki hazırkı vəziyyətini və Türkiyə–Azərbaycan əlaqələrinin gələcəkdəki vəziyyətini bizə dəyərləndirə bilərsinizmi?**

**C a v a b:** Müstəqillik dövrü ərzində Türkiyə–Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf etmişdir və düşünürəm ki, indiki zamanda bu əlaqələr ən yüksək zirvədədir. Dünyadakı ən birinci dostumuz, müttəfiqimiz Türkiyədir. Əminəm ki, Türkiyə üçün də dünyada bir nömrəli dost, qardaş və müttəfiq Azərbaycandır. Bu, böyük dəyərdir, böyük nemətdir, bu dəyəri qorumalıyıq və möhkəmləndirməliyik.

Keçən il İzmirdə Strateji Əməkdaşlıq Şurasının iclasının keçirilməsi, hesab edirəm ki, Türkiyə–Azərbaycan əlaqələrinin mahiyyətini açan bir vasitə idi. Bu Şura çox önəmli bir qurumdur və birinci toplantı çox uğurlu keçmişdir. Siz qeyd etdiyiniz kimi, çoxsaylı sənədlər, müqavilələr imzalanmışdır ki, onlar da Türkiyə–Azərbaycan əlaqələrini irəliyə aparacaqdır. Əməkdaşlığımızın 20 yaşı vardır, işbirliyimiz bundan sonra əbədiyyətə qədər davam edəcəkdir.

Bu gün biz siyasi əlaqələri möhkəmləndirməklə, iqtisadi sahədə də gözəl imkanlar yaradırıq. Enerji məsələsinə gəldikdə, bu gün Türkiyə–Azərbaycan enerji işbirliyi nəinki bölgə üçün, dünya üçün əhəmiyyətlidir. Birgə təşəbbüslərimiz – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri,

Transanadolu qaz layihəsi, bütün bunlar bizim birliyimizi daha da sıx edəcək, bölgədə və dünyada təsir imkanlarımızı daha da artıracaqdır.

Azərbaycanın çox böyük neft-qaz ehtiyatları vardır. Türkiyə çox böyük iqtisadi gücə malik ölkədir. Türkiyə ərazisindən keçən Azərbaycan nefti və qazı həm Türkiyənin enerji təhlükəsizliyini təmin edəcək, həm də başqa ölkələrə Türkiyə vasitəsilə bizim resurslarımız nəql ediləcəkdir. Biz bu qaynaqları, tranzit imkanlarını, iqtisadi gücü birləşdirərək istənilən məsələdə mövqemizi müdafiə edə biləcəyik. Çünki bu gün dünya və Avropa üçün enerji təhlükəsizliyi məsələləri ön plana çıxır. Gələcəkdə Xəzər hövzəsində yerləşən qaynaqlar böyük rol oynayacaqdır və bu məsələdə birinci sırada yenə Azərbaycandır.

Bizim strateji enerji layihələrimiz digər sahələrə də təsir göstərir, Bakı–Tbilisi–Qars dəmir yolunu biz bərabər tikirik. Ümid edirəm ki, yaxın illərdə biz bu yolu açacağıq. Beləliklə, dünyanı birləşdirəcəyik. Türkiyə–Azərbaycan qitələri birləşdirəcəkdir. Coğrafiyamız belədir, gücümüz də artır, enerji qaynaqlarımız da, siyasi iradə də vardır. Ancaq və ancaq biz gələcəkdə bu işbirliyini gücləndirməliyik.

Gələcəyə gəldikdə şübhə etmirəm ki, Türkiyə və Azərbaycan xalqlarının müdrikliyi imkan verməyəcəkdir ki, biz bu strateji işbirliyindən bir addım kənara ataq. Çünki siyasətimizin təməlində xalqlarımızın iradəsidir. Xalqlarımız bir-birinə bağlıdır və həm Fransadakı olaylar, həm Xocalı soyqırımının yad edilməsi bunu bir daha göstərdi, həm bizə, həm dünyaya. Hər kəs bu birliklə hesablaşmalıdır.

Ümid edirəm ki, gələcək illərdə biz ikitərəfli strateji işbirliyimizi daha da artıracağıq. Gələcəkdə işlər çoxdur, daim təmasdayıq, əlaqə saxlayırıq və çalışırıq ki, beynəlxalq müstəvidə də öz siyasətimizi koordinasiya edək. Xatırlayırsınızsa, İzmirdəki gözəl mərasimlər və tarixi günlər Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsinə təsadüf etmişdir. O vaxt İzmirdə çıxış edərkən söylədim ki, bu bizim yerimizdir və bu

sizin yerinizdir, bizim müştərək yerimizdir. Biz bütün beynəlxalq təşkilatlarda Türkiyəni dəstəkləyirik və Türkiyə də bütün beynəlxalq təşkilatlarda Azərbaycanı dəstəkləyir.

Ona görə mən deyəndə ki, bu işbirliyi və müttəfiqlik nadir xarakter daşıyır, məhz bunları nəzərdə tuturam və bir daha demək istəyirəm ki, bu, böyük sərvətdir. Əsrlər boyu xalqlarımız bir yerdə yaşamışlar, belə yaşamağı bizə vəsiyyət etmişlər və biz də bu vəsiyyətə sadiq olmalıyıq.

**S u a l: Cənab Prezident, söylədiyiniz kimi, həqiqətən biz «bir millət – iki dövlətik» və bunun gələcəkdə də çox mühüm ölçüləri olacaqdır. İki ölkə hakimiyyəti bu əlaqələri daha yaxşı səviyyəyə gətirəcəkdir.**

**Cənab Prezident, Azərbaycanın ən mühüm problemlərindən biri də Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycanın qanayan yarası olduğu qədər də Türkiyənin qanayan yarasıdır. Qarabağ probleminin həllində, cənab Prezident, son mərhələ, son durum necədir? Qısaca, «TRT Xəbər» vasitəsilə bütün dünyaya necə səslənəcəksiniz?**

**C a v a b:** Deyə bilərəm ki, bu məsələ ilə bağlı Türkiyə və Azərbaycan xarici işlər nazirlikləri mütəmadi qaydada əlaqə saxlayırlar və biz bu məsələləri müzakirə edirik. Ona görə, Qarabağ məsələsinin həlli ilə bağlı son duruma gəldikdə Türkiyə hökuməti bütün bu işlərdən xəbərdardır. İctimaiyyətə gəldikdə, bir daha demək istəyirəm ki, bu məsələnin həlli beynəlxalq hüquqdan keçir. Beynəlxalq hüququn kənarında heç bir razılaşma mümkün deyildir. Birincisi, Dağlıq Qarabağ tarixi və əzəli Azərbaycan torpağıdır. «Qarabağ» sözü bizim sözümüzdür. Erməni dilində «Qarabağ» sözü heç bir məna daşımır. Biz bilirik ki, ermənilər oraya necə gəliblər, kim erməniləri oraya yerləşdirib və nə vaxt yerləşdirib. 1923-cü ildə Dağlıq Qarabağa Azərbaycan daxilində muxtar vilayət statusu verilmişdir. Bu, məsələnin tarixi tərəfidir.

O ki qaldı hüquqi tərəfə, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə – Ermənistan da daxil olmaqla – Dağlıq Qarabağın müstəqilliyini

tanımır. Bu da təbiidir, çünki Dağlıq Qarabağ Azərbaycanın içində, ortasında yerləşir. Heç sovet dövründə də Dağlıq Qarabağın inzibati hüdudları Ermənistan Respublikasının inzibati hüdudları ilə bir deyildi. Azərbaycanın içində yerləşən kiçik bir vilayət idi.

Beynəlxalq hüquq tələb edir ki, torpaqlarımız işğaldan azad edilsin, bütün qaçqınlar doğma torpaqlarına qayıtsınlar. Ermənilər bizə qarşı etnik təmizləmə siyasəti aparmışlar. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqına çevrilmişdir və torpaqlarımızın təxminən 20 faizi hələ də işğal altındadır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə tələb edilir ki, erməni qüvvələri Dağlıq Qarabağdan və ətraf bölgələrdən qeyd-şərtsiz çıxsın. Ancaq bu qətnamələr icra edilmir. Ən böyük ədalətsizlik məhz bundadır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurası qətnamə qəbul edir və bir neçə saatdan sonra bu qətnamə icra edilməyə başlayır. Bizə gəldikdə, bu ədalətsizlik 20 ildir ki, davam edir.

Ona görə beynəlxalq hüquq normaları bərpa edilməlidir, qaçqınlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. O ki qaldı Dağlıq Qarabağda yaşayan ermənilərə, onlar orada necə yaşayıblar, elə də yaşayacaqlar. Bizim buna etirazımız yoxdur. Hər bir ölkədə, Ermənistan istisna olmaqla, müxtəlif xalqlar yaşayır, Türkiyədə, Azərbaycanda, demək olar ki, dünyanın əksər ölkələrində. Ermənistan monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır, çünki yaşaya bilmir, onlar başqa milləti yaşatmırlar.

Ona görə Azərbaycan çoxmillətli dövlət kimi, orada yaşayan ermənilərə də şərait yaradacaqdır, kömək edəcəkdir və onlar gələcəkdə Azərbaycan dövlətinin vətəndaşları kimi, bütün hüquqlardan istifadə edəcəklər. Əgər Ermənistan reallığı və Azərbaycanın xeyrinə dəyişən vəziyyəti nəzərə alsa, onda düzgün qərar qəbul edəcək, işğal edilmiş torpaqlardan çəkiləcək, sonra sülh bərpa ediləcək, bütün yollar açılacaq, bütün ölkələr, xüsusilə Qafqazda və bizim coğrafiyamızda

yerləşən ölkələr bir-biri ilə yaxın əlaqədə olacaqdır. Bizim istəyimiz bundan ibarətdir. Bizim Ermənistanın bir qarış torpağında gözümüz yoxdur. Baxmayaraq ki, oralar tarixi Azərbaycan torpaqlarıdır. İrəvan xanlığı, Zəngəzur mahalı, Göyçə mahalı bizim torpaqlarımızdır və Ermənistan bu torpaqlarda dövlət qurub. Azərbaycan torpağında ikinci erməni dövlətinin qurulmasına biz heç vaxt imkan verməyəcəyik. Əgər Ermənistan indiki reallığı, Azərbaycanın artan siyasi çəkisini, iqtisadi gücünü nəzərə alıb düzgün addım atsa, işğal edilmiş torpaqlardan çıxsa, Dağlıq Qarabağda yaşayan ermənilərə də xidmət etmiş olar. Əgər bunu anlamasa və işğalçı siyasətini davam etdirsə, o zaman Ermənistan üçün, Dağlıq Qarabağ üçün nəticələr çox acı ola bilər.

**S u a l: Necə düşünürsünüz, münaqişə nə vaxta həll olunar? Hansı üsullarla, bir az əvvəl «biz bunu hüquqi yolla istəyirik» – dediniz, amma fərqli yollara baş vurula bilərmi?**

**C a v a b:** Biz beynəlxalq hüquqdan kənarda bir çözüm görmürük. Azərbaycan dövləti və xalqı heç vaxt Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Ermənistan bunu nə qədər tez anlasa, o qədər yaxşıdır. Ermənistan əslində mövqeyindən geri çəkilməlidir. Onların mövqeyi Dağlıq Qarabağı müstəqil ölkə kimi görməkdir. Ancaq bu mümkün olmayacaqdır. Azərbaycanın razılığı olmadan bu ola bilməz. Biz isə buna heç vaxt razılıq verə bilmərik. Ona görə, əgər Ermənistan bu mövqedən geri çəkilərsə, o zaman biz tezliklə məsələnin həllinə nail ola bilərik. O zaman ermənilərin Dağlıq Qarabağda yaşaması, yəni normal yaşaması, təhlükəsizlik şəraitində yaşaması mümkün olacaqdır. İndi onlar qorxu içində yaşayırlar. İnsanlar daim qorxu içində yaşaya bilməz. Onlar da gözəl bilirlər ki, bu gün Azərbaycan Ordusu Dağlıq Qarabağda öz suverenliyini asanlıqla bərpa edə bilər, asanlıqla! Sadəcə olaraq, biz istəmirik ki, yenə qan tökülsün, istəmirik yenidən müharibə başlasın. Biz çalışırıq ki, bunu sülh yolu ilə, danışıqlar yolu ilə edək. Kim istəyər ki, yenidən müharibə başlasın?! Ancaq biz bu

vəziyyətlə də barışa bilmərik. Ümumiyyətlə, bu vəziyyət çox davam edə bilməz.

Əgər fikir vermisinizsə, Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri və Xarici İşlər nazirləri bəyanatlar verirlər ki, status-kvo qəbuledilməzdir, status-kvo dəyişilməlidir. Bu bəyanatları onlar yalnız keçən ildən verməyə başlamışlar. Nə üçün?! Çünki hamı yaxşı anlayır ki, status-kvo belə qala bilməz. Gündən-günə güclənən Azərbaycan və gündən-günə zəifləyən, yoxsullaşan Ermənistan. Necə ola bilər ki, bizim torpaqlarımız işğal altında qalsın? Mümkün deyil. Hər gün, hər ay, hər il Azərbaycan əhalisi artır, Ermənistan əhalisi azalır. Erməni rəhbərliyi bu məsələyə reallıq prizmasından yanaşmalıdır. Heç olmasa, bir beş il, on il qabağı proqnozlaşdırmalıdır ki, görsün, burada beş ildən, on ildən sonra güclər nisbəti necə olacaqdır?! Azərbaycan dövləti heç vaxt bu vəziyyətlə barışmayacaqdır. Azərbaycan gəncləri bu vəziyyətlə barışmayacaqlar.

Ermənistanda bəzi hallarda yanlış bir fikir var idi ki, nəsillər dəyişəcək, gənc nəsil yetişəcək, onlar heç Qarabağda olmayıblar, onlar Qarabağa qayıtmaq istəməyəcəklər. Bu tamamilə yanlış bir yanaşmadır. Bəlkə bu, ermənilərə xas olan xüsusiyyətdir, amma Azərbaycan xalqının tarixi yaddaşı vardır. Bakıda, çadır şəhərciyində doğulan, Qarabağdan olan hər bir gənc Qarabağa qayıtmaq arzusu ilə yaşayır. Qarabağ heç vaxt unudula bilməz, heç vaxt! Ona görə, gec-tez biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Mənim buna şübhəm yoxdur. Sadəcə olaraq, mən istəyirəm ki, bu, tezliklə olsun və əgər mümkündürsə, qan tökülmədən olsun.

**M ü x b i r: Çox təşəkkür edirəm, cənab Prezident.**

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN «BEYİN MƏRKƏZLƏRİ»NİN III FORUMUNUN İŞTİRAKÇILARINA

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin «beyin mərkəzləri»nin III forumunun iştirakçılarını səmimi-qəlbdən salamlayır və hər birinizə ölkələrinizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

İslam sivilizasiyası əsrlər boyu sülh və tolerantlığı, bəşəri ideyaları təşviq etmiş və milyonlarla insanı bu ali dəyərlər ətrafında birləşdirmişdir. Uzun illərdir ki, Azərbaycanda islam mədəniyyəti və islam dini ilə yanaşı, başqa dinlərə hörmət, dözümlülük, müxtəlif dinlərə mənsub insanların əməkdaşlıq və sülh şəraitində yaşayışı həyat tərzinə çevrilib.

Ölkəmiz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi, sivilizasiyalar və mədəniyyətlərarası dialoqun təşviqinə qarşılıqlı hörmət və anlaşma əsasında öz töhfəsini verir. Azərbaycanın İƏT-in xətti ilə keçirilən çoxsaylı tədbirlərin məkanına çevrilməsinin həm coğrafi, həm tarixi, həm də elmi-mədəni əsasları vardır. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin III forumunun Bakıda işinə başlaması əlaqələrin ənənəyə çevrilməsi, mütərəqqi ideya və innovasiyaların təqdimatı və mübadiləsi üçün əlverişli mühit yaradacaqdır.

İnanıram ki, forum iştirakçılarının aktual problemlər və çağırışlar, milli təcrübələr ətrafında fəal dialoqunun təşkil edilməsi müxtəlif qitələrdən olan intellektualların səylərini bir araya gətirməklə dünyada sülhə, rifah və əmin-amanlığa xidmət edəcəkdir.

Bir daha sizin hamınızı Azərbaycanda ürəkdən salamlayır və forumun işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 mart 2012-ci il*

## NİZAMİ VƏ XƏTAİ RAYONLARINDA KÖRPƏLƏR EVİ VƏ UŞAQ BAĞÇALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*1 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Bakının Nizami və Xətai rayonlarında körpələr evi və uşaq bağçalarının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev əvvəlcə paytaxtın Nizami rayonundakı 110 saylı körpələr evi və uşaq bağçasına gəldi. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov binada əsaslı təmir və yenidənqurma zamanı görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, bağçanın binası 1965-ci ildə inşa olunub. Son dəfə 1976-cı ildə əsaslı təmir edilib. Müəssisə 12 qrupdan ibarət 220 uşaq üçün nəzərdə tutulub.*

*Dövlətimizin başçısı İlham Əliyev Xətai rayonundakı 251 saylı körpələr evi və uşaq bağçası binasının da yenidənqurmadan sonrakı vəziyyəti ilə yaxından tanış oldu. Burada görülən işlərlə bağlı prezidentə məlumat verildi. Qeyd olundu ki, bu körpələr evi və uşaq bağçasının binası 1984-cü ildə inşa olunub. 120 yerlik bağçada 6 qrup fəaliyyət göstərir.*

*Müəssisənin 3500 kvadratmetrlik həyətyanı sahəsində də abadlaşdırma işləri aparılıb, uşaqların əylənməsi üçün lazımi şərait yaradılıb. İşıqlandırma sistemi yeniləri ilə əvəz edilib.*

*Körpələr evi və uşaq bağçalarının hər ikisində təhlükəsizlik kameraları quraşdırılıb.*

*Görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## II İQTİSADİ SİYASƏT FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi Bakı şəhərində keçirilən II İqtisadi siyasət forumunun açılışı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasından sonra ötən müddət ərzində sosial-iqtisadi quruculuq sahəsindəki ardıcıl uğurları ilə dünyada özünə layiqli yer tutmuşdur. Qısa bir zamanda sürətli inkişaf sayəsində ölkənin iqtisadi vəziyyəti yaxşılaşmış, yoxsulluq səviyyəsi aşağı düşmüş, həyatın ən müxtəlif sahələrində mühüm nailiyyətlər əldə olunmuşdur.

Respublikamız gerçəkləşdirilən effektiv islahatlar nəticəsində öz inkişaf dinamikasını qlobal böhran şəraitində belə, qoruyub saxlaya bilmişdir. Azərbaycanın yeni inkişaf strategiyasının məqsədi əhalinin rifah halının yüksəldilməsi, milli gəlirin səviyyəsinin daha da artırılması və iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsindən ibarətdir. Strategiya ölkənin mövcud potensialının səmərəli reallaşdırılmasına, şaxələnmiş və ixracyönümlü dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına yönəlmişdir.

Müasir çağırışlar kontekstində Dünya Bankının və nüfuzlu beynəlxalq ekspertlərin ölkəmizin perspektiv imkanlarının qiymətləndirilməsi ilə bağlı məsələlərə böyük maraq göstərməsi bu baxımdan təqdirəlayiq haldır.

Ümidvaram ki, forum zamanı aparılan faydalı müzakirələr respublikamızın gələcək inkişafı naminə yeni konsepsiyaların hazırlanıb həyata keçirilməsinə əlverişli zəmin yaradacaqdır.

Hər birinizə işlərinizdə müvəffəqiyyətlər, cansağlığı və xoşbəxtlik arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 mart 2012-ci il*

# ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ HEKTOR TİMERMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Argentina Respublikasının Xarici İşlər naziri Hektor Timermanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Argentina arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının önəmi qeyd edildi, ikitərəfli əlaqələrin enerji, turizm, kənd təsərrüfatı və bir sıra digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcudluğu bildirildi.*

## QƏTƏR ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də ölkəmizə işgüzar səfərə gəlmiş Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl- Tani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Qətər arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və birgə iqtisadi təşəbbüslərlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MALAYZİYANIN KEÇMİŞ BAŞ NAZİRİ MAHATHİR MOHAMAD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Malayziyanın keçmiş Baş naziri Mahathir Mohamadı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Malayziya arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın fəal şəkildə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin «beyin mərkəzləri»nin Bakıda keçirilən III forumunun önəmi qeyd olundu.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Əziz analar və bacılar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm.

Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər. Onlar dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ sayəsində cəmiyyət həyatının fəal iştirakçısı olmaq imkanı əldə etmişlər. Öz tükənməz enerjilərini və zəkalarının gücünü bütünlüklə Vətən, xalq yolunda sərf edən qadınlarımız ötən dövr ərzində çoxsaylı nailiyyətlər qazanmışlar. Milliliklə müasirliyin ahəngdar vəhdəti onların zəngin mənəviyyatının ayrılmaz xüsusiyyətidir. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, Şərq qadınları arasında mədəniyyətin və incəsənətin, elmin və texnikanın ayrı-ayrı sahələrində ilk addımlar da bizim ölkənin qadınları tərəfindən atılmışdır.

Xalqımızın müstəqillik ideyası ətrafında sıx birləşən Azərbaycan qadını bu gün milli dövlət quruculuğu proseslərinin, ictimai-siyasi hadisələrin fəal iştirakçısı olaraq respublikamızın sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına əvəzsiz töhfələr verir. O xüsusən təhsil və səhiyyə sistemlərində dolğun fəaliyyəti ilə maarifpərvər qadın ziyalılarımızın ideyalarını müvəffəqiyyətlə həyata keçirir. Cəmiyyətimizdə qadının daim artan nüfuzu və hazırkı yüksək ictimai mövqeyi Azərbaycanın müasir həyatının diqqətəlayiq hadisəsidir. Qloballaşan dünyada dəyərlər sisteminin sürətli dəyişikliklərə məruz qaldığı indiki vaxtda məhz analarımız milli-mədəni zənginliklərimizin və əxlaqi-mənəvi sərvətlərimizin qorunub saxlanılmasının həqiqi təminatçılarıdır. Gənc

nəslin qədim adət-ənənələrimizə, milli məfkurəyə və dövlətçilik ideallarımıza sədaqət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirməklə onlar üzərlərinə düşən işlərin öhdəsindən hər zaman olduğu kimi, yenə şərəflə gəlirlər.

İnanıram ki, Azərbaycan qadını respublikamızın dinamik inkişafı və tərəqqisi naminə qüvvəsini bundan sonra da əsirgəməyəcəkdir.

Hamınıza cansağlığı, səadət və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin seçkilərdə qələbəniz rusiyalıların Sizə və Sizin ölkədə siyasi və sosial sabitliyin, iqtisadi artımın təmin edilməsinə, demokratik təsisatların daha da inkişaf etməsinə, qanunçuluğun və hüquqi qaydanın möhkəmlənməsinə, cəmiyyətin həyatında mənəvi, əxlaqi dəyər və normaların müdafiəsinə yönəlmiş proqramınıza yüksək etimad göstərmələrinə dəlalət edir.

Ölkələrimiz arasında çoxəsrlik xoş ənənələrə əsaslanan dostluq, mehriban qonşuluq münasibətləri bu gün hərtərəfli və dinamik inkişaf edir. Əminəm ki, bizim birgə səylərimiz sayəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlətlərarası qarşılıqlı fəaliyyət, strateji tərəfdaşlıq xalqlarımızın rifahı, regionda sülh, sabitlik və təhlükəsizlik naminə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Əziz Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoş-bəxtlik və firavanlıq arzulayıram. Dost Rusiyanın tərəqqisi naminə dövləti fəaliyyətinizdə Sizə böyük uğurlar diləyirəm!

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş dəmiryol qəzası nəticəsində insanların həlak olması və xəsarət alması xəbərindən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Polşa xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Pakistan Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan–Pakistan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bir-birinə möhkəm dostluq telləri ilə bağlı olan ölkələrimiz arasındakı mövcud siyasi, iqtisadi və humanitar əlaqələrin daha da genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişaf etdirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Yunanıstan münasibətlərinin, ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı yolunda atdığımız addımlar bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

**İRLANDİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–İrlandiya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İrlandiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Banqladeş arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Banqladeş xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *5 mart 2012-ci il*

# POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2012-ci il*

*Əfqanıstana səfər edən Polşa Respublikasının Prezidenti Bronislav Komorovski martın 5-də yolüstü Bakıda olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasının Prezidenti Bronislav Komorovski ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.*

## ÇİLİNİN KEÇMİŞ PREZİDENTİ, DEMOKRATİYA VƏ İNKİŞAF FONDUNUN SƏDRİ RİKARDO LAQOSLA GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Çili Respublikasının keçmiş Prezidenti, Demokratiya və İnkişaf Fondunun sədri Rikardo Laqosla görüşmüşdür.*

*Dövlətimizin başçısı Rikardo Laqosun Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə təşkil etdikləri yüksək səviyyəli II İqtisadi siyasət forumunda iştirakının önəmini qeyd etdi.*

*Çili Respublikasının keçmiş Prezidenti, Demokratiya və İnkişaf Fondunun sədri Rikardo Laqos forumun sessiyasında Azərbaycanın əldə etdiyi nailiyyətlərlə bağlı göstəricilərin onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi.*

# RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLDAR XALİKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş naziri İldar Xalikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş naziri İldar Xalikovu və bütün Rusiya xalqını prezident seçkilərinin uğurla başa çatması münasibətilə təbrik etdi. Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Tatarıstan Respublikası arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Münasibətlərimizin möhkəmlənməsində qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlət başçısı Tatarıstan Respublikası Baş nazirinin ölkəmizə səfərinin bu münasibətlərin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Tatarıstanın hökumət strukturlarını, biznes, maliyyə və bank sektorunu təmsil edən böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etdiklərini deyən Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş naziri İldar Xalikov əməkdaşlığımızı genişləndirməyin önəmini vurğuladı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

# DÜNYA BANKININ STRATEGİYA VƏ ƏMƏLİYYATLAR ÜZRƏ DİREKTORU TEODOR AHLERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Dünya Bankının Strategiya və Əməliyyatlar üzrə direktoru Teodor Ahlersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dünya Bankının Strategiya və Əməliyyatlar üzrə direktoru Teodor Ahlers Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə təşkil etdikləri yüksək səviyyəli II İqtisadi siyasət forumunda aparılan müzakirələrdə iştirak etməsindən məmnunluğunu bildirdi.*

*Dövlətimizin başçısı yüksək səviyyəli II İqtisadi siyasət forumunun önəmini qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan iqtisadi inkişafının birinci mərhələsini başa vurduqdan sonra gələcək illərdə də qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi əsas prioritet sahələrdən biri olacaqdır.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında bank sahəsində uzun illər davam edən uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi, bu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik bildirildi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*6 mart 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin martın 6-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*President İlham Əliyev Gürcüstan prezidenti Mixeil Saakaşvilini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan prezidentinə raport verdi.*

*Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Gürcüstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Mixeil Saakaşviliyə, Gürcüstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*6 mart 2012-ci il*

*Martın 6-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi və bu səfərlərin əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi vurğulandı.*

*Əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunduğu görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 mart 2012-ci il*

*Martın 6-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

Prezident İlham Əliyev Gürcüstan dövlətinin başçısını Azərbaycanda bir daha salamladı. «Biz tez-tez həm Azərbaycanda, həm Gürcüstanda, həm də digər ölkələrdə görüşürük və müzakirələr aparırıq» – deyən dövlətimizin başçısı bildirdi ki, həmişə ikitərəfli münasibətlərin cari məsələləri ilə bağlı fikir mübadiləsinə ehtiyac vardır.

Görüşdə regiondakı vəziyyət və ikitərəfli layihələrlə bağlı fikir mübadiləsinin aparıldığını, ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edən prezident İlham Əliyev bütün istiqamətlər üzrə, o cümlədən siyasi, iqtisadi, energetika sahələrində ölkələrimiz arasında tam anlaşmanın, əlaqələndirmənin və qarşılıqlı dəstəyin mövcud olduğunu vurğuladı. Azərbaycan dövlətinin başçısı əmin olduğunu bildirdi ki, budəfəki səfər əlaqələrimizin inkişafına, dostluq və qardaşlıq münasibətlərinin gələcək inkişaf yollarını müəyyənləşdirməyə imkan verəcəkdir.

«Doğrudan da hər dəfə Bakıya gəldikdə nəinki tərəqqiyə, Azərbaycanın sıçrayışlı inkişafına heyran qalırsan. Bu, iqtisadi çəkisi, siyasi mövqeyi və inkişaf nümunəsi olması baxımından Azərbaycanın böyük regional lider kimi, həm ölkə daxilində, həm də beynəlxalq arenada keçdiyi yolu göstərir. Bu bizi məmnun edir» – deyən Gürcüstan prezidenti Mixeil Saakaşvili

*Azərbaycan prezidenti İlham Əliyevin sayəsində ölkələrimizin əməkdaşlığının nümunəvi xarakter daşıdığını diqqətə çatdırdı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*6 mart 2012-ci il*

*Martın 6-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə Azərbaycan–Gürcüstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Ümumi hüququn hüquqi şəxsi – Gürcüstanın Milli Statistika Xidməti arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev və Gürcüstanın Milli Statistika İdarəsinin icraçı direktoru Zaza Çelidze imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov və Gürcüstanın İdman və Gənclər ilə İş üzrə naziri Vladimir Vardzelaşvili imzaladılar.*

# GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*6 mart 2012-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvili mətbuata bəyanatlarla çıxış etlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz dost!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Sizi, hörmətli cənab Prezident, Azərbaycanda səmimiyyətlə salamlayıram. Bu gün Siz Azərbaycanda rəsmi səfərdəsiniz. Deyə bilərəm ki, səfər çox uğurlu keçir. Bu gün apardığımız danışıqlar bir daha onu göstərir ki, Gürcüstan–Azərbaycan əlaqələri yüksək səviyyədədir. Sizin səfəriniz bu əlaqələrin inkişafına güclü təkan verəcəkdir. Əlaqələrimizin tarixi də çox zəngindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar və biz bu gözəl ənənələri bu gün də davam etdiririk. Çox şadam ki, iki müstəqil dövlət kimi, Gürcüstan və Azərbaycan uğurla əməkdaşlıq edir.

Bizim tariximizdə çox oxşar məqamlar vardır. Müstəqilliyimizin tarixi də eynidir. 20 ildir ki, biz müstəqil dövlətlər kimi yaşayırıq və bu illər ərzində böyük uğurlara nail olmuşuq. Sizin rəhbərliyiniz altında Gürcüstan inamla inkişaf edir. Gürcüstanda aparılan islahatlar çox böyük qiymətə malikdir və Sizin rəhbərliyinizlə Gürcüstanın inkişafı artıq reallıqdır. Biz bir dost, qardaş kimi buna sevinirik və əminik ki, gələcəkdə də Gürcüstanın inkişafı çox uğurlu olacaq və ölkə qarşısında duran bütün vəzifələr Sizin rəhbərliyiniz altında öz həllini tapacaqdır.

Bu gün Sizinlə ikitərəfli məsələlərin, demək olar ki, bütün aspektlərini müzakirə etdik. Bir daha gördük ki, aramızda heç bir problem yoxdur. Əksinə, birgə təşəbbüslərimiz həm ölkələrimizi zənginləşdirir, ölkələrimizin imkanlarını artırır, həm də başqa regionlara da öz müsbət təsirini göstərir.

Gürcüstan–Azərbaycan əlaqələri regional çərçivədən çıxıbdır və bu gün bizim birgə təşəbbüslərimiz artıq beynəlxalq əhəmiyyətə malikdir. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Qarşılıqlı səfərlər mütəmadi qaydada həyata keçirilir. Azərbaycan şirkətləri Gürcüstana iqtisadi sahədə böyük həcmdə investisiyalar qoymağa başlamışlar. Bu investisiyaların böyük gələcəyi var və keçən ilin göstəriciləri də çox müsbətdir. Aramızda olan mal dövriyyəsi sürətlə artır və əminəm ki, bu il də artacaqdır.

Enerji məsələləri yenidən müzakirə edildi. Bu məsələlər yoluna qoyulubdur. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Supsa neft-qaz kəmərləri bölgənin geosiyasi vəziyyətini köklü şəkildə dəyişmişdir. Bu layihələr həm ölkələrimizin inkişafına xidmət göstərir, həm də enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verir.

Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, biz birgə səylərlə Avropanın enerji təhlükəsizliyini daha da böyük həcmdə təmin edəcəyik – istər neft, istərsə də qaz sahəsində. Azərbaycan Gürcüstanın enerji təhlükəsizliyinə də öz töhfəsini vermişdir.

Bu gün müzakirə etdiyimiz məsələlər arasında nəqliyyat məsələləri də böyük yer tutdu. Bizim müvafiq qurumların rəhbərləri məruzə etdilər. Tranzit məsələləri müzakirə edildi. Humanitar sahədə əməkdaşlıq çox yaxşı səviyyədədir. Bu əməkdaşlığın çox böyük tarixi vardır. Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər humanitar sahədə və bütövlükdə bütün başqa sahələrdə gedən proseslərə müsbət təsir göstərirlər. Onların ölkələrimizdə rahat yaşaması bizim vəzifəmizdir. Soydaşlarımızın istər Gürcüstanda, istərsə də Azərbaycanda problemləri uğurla həll edilir. Bu amil daim ikitərəfli gündəliyin içindədir. Bir sözlə, aramızda dostluq,

qardaşlıq münasibətləri reallıqdır. Bu reallıqdır, bugünkü günün tələbidir. Şübhə etmirəm ki, bundan sonra da uzun illər Gürcüstan və Azərbaycan iki dost və qardaş ölkələr kimi birlikdə olacaqlar. Biz yalnız birlikdə istədiyimizə nail ola bilərik və ölkələr qarşısında duran vəzifələri yalnız birlikdə icra edə bilərik. Beynəlxalq arenadakı fəaliyyətimiz haqqında bir-iki kəlmə söz demək istəyirəm. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Bu dəstək çox əhəmiyyətlidir. Beynəlxalq təşkilatlarda bir-birimizin lehinə səslərimizin verilməsi Gürcüstan–Azərbaycan əlaqələrinin strateji əhəmiyyətini bir daha vurğulayır. Bundan sonra da Azərbaycan beynəlxalq təşkilatlarda Gürcüstanı dəstəkləyəcəkdir. Eyni dəstəyi biz bundan sonra sizdən də görəcəyik.

Bir daha Sizi ölkəmizdə səmimiyyətlə salamlayıram. Siz bizim yaxın dostumuzsunuz. Bizi şəxsi dostluq əlaqələri bağlayır ki, bu da ikitərəfli əlaqələrə müsbət təsir göstərir.

Azərbaycana xoş gəlmisiniz! Sizi ürəkdən salamlayıram. Sizə və Gürcüstan xalqına yeni uğurlar arzulayıram.

## Gürcüstan prezidenti Mixeil Saakaşvilinin bəyanatı

Hörmətli cənab Prezident!

Azərbaycana səfər etmək hər zaman bizim üçün xoşdur. Bu nəinki rəsmi səfərdir, əslində bizi böyük dərəcədə ilhamlandıran bir səfərdir. Bu bizə çox müsbət enerji verir. Bu müsbət enerji əslində bu cür səfərlərdən irəli gəlir və ölkələrimiz arasında əməkdaşlığımızı qidalandırır. Bildirmək istəyirəm ki, Azərbaycan hər zaman çox yaxşı perspektivlərə malik bir ölkə olubdur.

Cənab Prezident, Sizin rəhbərliyinizlə bu gün Azərbaycan nəinki sürətlə inkişaf edən ölkədir, həmçinin regionun lideridir və qlobal səviyyədə tanınan bir dövlətdir. Azərbaycan bir çox beynəlxalq təşkilatlarda öz maraqları əsasında fəaliyyət göstərir. Bu gün Azərbaycan artıq BMT Təhlükəsizlik Şurasının üzvüdür.

Azərbaycan bütün məsələlərdə birmənalı olaraq müsbət rol oynayır. Biz istənilən məsələdə Azərbaycanın yardımını hiss edirik. Ölkələrimizi birləşdirən münasibətlərin gücü bundadır. Bu əslində regiondakı sabitliyin və inkişafın təməl daşıdır. Bu məhz Sizin fəaliyyətiniz, Sizin güclü iradəniz, Azərbaycan xalqının iradəsi əsasında baş verir. Siz həm daxildə, həm xaricdə əsl müstəqil ölkəsiniz. Regionda bir çox dövlətlər üçün nümunə ola bilərsiniz. Azərbaycan bizim üçün, həmçinin digərləri üçün yaxşı bir nümunədir. Əslində biz bunu adi bir hal kimi qəbul etməli deyilik. Biz həmçinin regionda digər hadisələri də görmüşük və hesab edirik ki, məhz bu baxımdan Azərbaycan xüsusi bir istisnadır.

Mən hər zaman qardaşım İlham Əliyevlə görüşməyə məmnunam. Biz bir çox məsələlər üzrə konkret əsaslarla məsləhətləşmələr aparırıq. Böyükmiqyaslı dəmiryol layihəsini həyata keçiririk. Azərbaycan bu layihə çərçivəsində 320 milyon ABŞ dolları məbləğində sərmayə yatıracaqdır. Bu bizi Avropaya birləşdirən birgə marşrutumuz olacaqdır. Burada yüklərin, sərnişinlərin daşınması baş tutacaqdır. Hər il 2 milyon insan Bakı–Tbilisi–Qars dəmir yolu ilə Azərbaycandan gələcək, Gürcüstan ərazisindən keçib Türkiyəyə gedəcək və beləliklə, Avropaya çıxışı əldə edəcəkdir. Nəticədə, Gürcüstan Avropa ilə münasibətlərini daha da genişləndirəcək və Azərbaycan isə buna öz töhfəsini verəcəkdir. Bu baxımdan, münasibətlərimiz qarşımıza qoyduğumuz inkişaf məqsədlərinin mühüm amilidir.

Biz enerji sahəsində əməkdaşlıq aparırıq. Əslində bu əməkdaşlıq çoxşaxəlidir. Gürcüstan da sürətlə inkişaf edir. Bu inkişafın əsas səbəbi məhz qardaş Azərbaycanın yardımıdır. Bu inkişaf Azərbaycandan əldə etdiyimiz yardım sayəsində baş verir. Azərbaycanın müstəqilliyi həm də Gürcüstanın müstəqil olması deməkdir. Biz elektrik enerjisi şirkəti yaratmaq fikrindəyik. Bu şirkət elektrik enerjisini üçüncü ölkələrə ixrac edəcəkdir. Bu da nəticə etibarilə o deməkdir ki, biz yeni su-elektrik stansiyaları tikəcəyik və Azərbaycanın vəsaitləri bir çox sahələrə sərmayə kimi yatırılacaqdır. Bu bizim üçün,

Gürcüstanda yaşayan vətəndaşlarımız üçün bir çox yeni imkanlar açacaqdır. Bu imkanlarımızı – Gürcüstanda mövcud olan enerji sahəsindəki imkanları genişləndirmək fikrindəyik.

Mən həmçinin qeyd etmək istəyirəm ki, biz razılığa gəlmişik. Bu razılıq Poti və Kulevi arasında zavodun tikintisi ilə bağlıdır. Bu il onun tikintisi artıq başlayacaqdır və bu bizim qarşılıqlı faydaya əsaslanan əməkdaşlığımızı nümayiş etdirən layihədir. Azərbaycan Gürcüstanda sərmayə yatırır və şirkətlərimiz ölkələrimizdə müvafiq iş aparırlar. Məsələn, Azərbaycanın ən böyük Dövlət Neft Şirkəti Gürcüstanda fəaliyyət göstərir, artıq bir çox sərmayələri yatırmışdır və fəaliyyətini bundan sonra da genişləndirəcəkdir. Bu fəaliyyət bütün region üçün, regionun əhalisi üçün olduqca vacibdir. Biz çox şadıq ki, bu fəaliyyət artıq regionun hüdudlarından kənara da çıxır. Biz bundan çox məmnunuq.

Beləliklə, Bakı tərəfindən bölgədə böyük infrastruktur layihələri həyata keçirilir. Həmçinin yolların yaxşılaşdırılması – Gürcüstan sərhədinə qədər və Gürcüstan sərhədindən digər ölkələrə doğru – artıq bizim imkanlarımızı genişləndirir. Bakı–Tbilisi magistral yolu dostluğumuzun möhkəmləndirilməsi üçün əlavə mühüm vasitələrdən birinə çevriləcəkdir. Həmçinin təlimlər sahəsində əməkdaşlıq aparmalıyıq. Hesab edirik ki, sərnişinlərimizin sərhədlərdən keçməsi prosedurlarını da asanlaşdırmalıyıq. Onlar bürokratik əngəllərdən azad olmalı və sərhədləri sadə, sərbəst şəkildə keçməlidirlər. Bu əslində hər iki ölkənin xalqının arzusudur ki, yaxşı həyat şəraitləri təmin edilsin.

Biz burada dostluq haqqında danışdıq. Keçirdiyimiz görüşlər zamanı biz onun şahidi olduq ki, razılaşmalarımız, əldə etdiyimiz nailiyyətlər rəqəmlərlə ölçülür. Məsələn, bir il ərzində bizim ticarət dövriyyəmiz 1 milyard ABŞ dollarından artıq olmuşdur. Ticarət balansına gəldikdə hələ ki, bu, Gürcüstan üçün mənfidir. Əslində bu təbiidir. Lakin Gürcüstandan Azərbaycana ixrac da ilbəil artmaqdadır. Bu əslində onu göstərir ki, münasibətlərimiz qarşılıqlı fayda verir və bütün

bunlar Heydər Əliyevin strateji baxışlarına əsaslanır. Dostum İlham Əliyev bunu qeyd etdi və bildirdi ki, bu münasibətlərin tarixi kökləri vardır.

Mən həmçinin Milli Məclisdə də çıxış edəcəyəm və bildirmək istəyirəm ki, əsrlər boyu inkişaf etmiş münasibətlər bizə imkan yaradır görək ki, ölkələrimiz bir-biri ilə nə qədər sıx bağlıdır. Bu baxımdan dostluq, qardaşlıq münasibətləri hər birimiz üçün vacibdir və bu, hiss olunur. Bu bizim aramızda sırf emosional bir bəyanat deyil. İlham Əliyevin rolu hər bir sahədə vacibdir. Azərbaycan bu siyasəti yürüdür. Məhz bu siyasətin sayəsində Gürcüstan öz müstəqilliyini qoruyub saxlamışdır. Azərbaycan, həmçinin öz sərmayələri vasitəsilə bizdə də iş şəraitinin daha da yaxşı şəkildə formalaşdırılmasına imkan yaradır. Bununla belə, geosiyasi vəziyyət hələ ki, mürəkkəbdir. Burada çox müxtəlif istiqamətlər vardır. Lakin dostlar bu cür anlarda hər zaman əl-ələ verib bir yerdə olmuşlar. Biz güclü şəkildə əməkdaşlıq aparırıq ki, bütün bu maneələri aradan qaldıraq.

Bir daha Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Bu xoş qəbula və həmçinin bütün bu uğurlu, gözəl nəticələrə görə Sizə minnətdaram. Əslində bu, vətəndaşlarımız üçün, gələcəyimiz üçün olduqca vacibdir. Sağ olun.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*6 mart 2012-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Gürcüstan prezidenti Mixeil Saakaşvili martın 6-da Heydər Əliyev Fondunda olmuşdur.*

*Gürcüstan dövlətinin başçısını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.*

*Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycan mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Fondla tanışlıq zamanı Gürcüstan prezidentinə məlumat verildi ki, ümummilli liderin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin ulu öndər haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Gürcüstan prezidenti Mixeil Saakaşvili Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Ali qonağa xatirə hədiyyəsi təqdim olundu.*

*Prezident Mixeil Saakaşvili Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*6 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*«Bizim şəxsi və dövlətlərarası münasibətlərimiz gözəl tarixə malikdir və dostluğa, qardaşlığa, qarşılıqlı dəstəyə əsaslanır» – deyən prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu münasibətlərin gözəl gələcəyi vardır.*

*Prezident İlham Əliyev səfər çərçivəsində müzakirə olunan məsələlərə toxunaraq dedi ki, danışıqlarda ikitərəfli münasibətlərin gündəliyi, regional və beynəlxalq məsələlər müzakirə olunub.*

*Gürcüstan ilə Azərbaycan arasında münasibətlərin gələcəyi ilə bağlı tam qarşılıqlı anlaşmanın olduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, bu münasibətlərin möhkəm əsası vardır. Bundan əlavə, xalqlarımız arasında sıx qonşuluq tarixi mövcuddur və müstəqillik illərində bu münasibətlər daha da möhkəmlənib.*

*«Budəfəki danışıqlar zamanı ikitərəfli münasibətlərin gələcək prioritetləri müəyyənləşdirilib və əminəm ki, əməkdaşlığın müsbət nəticələri gələcəkdə daha da çoxalacaq» – deyən prezident İlham Əliyev iki ölkə arasında nəqliyyat və enerji təhlükəsizliyi ilə bağlı layihələrdən danışdı. Bildirdi ki, bu istiqamətlərdə səylər nə qədər sıx əlaqələndirilsə, həmin layihələrin uğuru bir o qədər çox olacaqdır.*

*Azərbaycanın və Gürcüstanın beynəlxalq təşkilatlarda bir-birini daim dəstəklədiyini deyən dövlətimizin başçısı ikitərəfli münasibətlərin nadir xarakter daşıdığını bildirdi.*

*Gürcüstana və gürcü xalqına böyük hörmətlə yanaşdığını deyən prezident İlham Əliyev vurğuladı ki, Gürcüstan böyük ənənələri, zəngin mədəniyyəti və qədim tarixi olan ölkədir. Azərbaycanın Gürcüstanın əldə etdiyi uğurlara sevindiyini deyən dövlətimizin başçısı qeyd etdi ki, uğurlu inkişaf yalnız səylərin sıx birləşməsi nəticəsində mümkündür. «Azərbaycan və Gürcüstan iki dost və iki qardaşdır. Belə olub, belədir və belə də olacaq» – deyə prezident İlham Əliyev vurğuladı.*

*Gürcüstan prezidenti Mixeil Saakaşvili ölkələrimiz arasında mövcud münasibətlərdən danışdı, xalqlarımızın bir-birinə olan hörmət hisslərinin tarixdən qaynaqlandığını diqqətə çatdırdı.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmiz qarşısındakı xidmətlərini yüksək qiymətləndirən prezident Mixeil Saakaşvili onunla görüşlərini xatırlatdı.*

*Hər səfərində Azərbaycanda böyük dəyişikliklərin şahidi olduğunu, ölkəmizdə gedən inkişafın onu sevindirdiyini deyən Gürcüstan prezidenti Azərbaycanın gözəl perspektivə malik ölkə olduğunu bildirdi. Gürcüstan dövlətinin başçısı Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini ölkəmizin gələcək uğurlarından xəbər verdiyini dedi. Vurğuladı ki, Azərbaycandakı inkişaf Heydər Əliyev siyasətinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində mümkün olub.*

*«Bu gün Gürcüstanın belə sürətlə inkişaf etməsini Azərbaycanın dəstəyi olmadan təsəvvür etmək mümkün deyil» – deyən prezident Mixeil Saakaşvili Azərbaycanın Gürcüstana çətin məqamlarda köməyini xatırlatdı və gürcü xalqının bunu heç vaxt unutmadığını vurğuladı.*

*«Əminəm ki, Azərbaycan sonadək güclü və müstəqil dövlət olacaqdır» – deyən prezident Mixeil Saakaşvili Azərbaycan–Gürcüstan dostluğunun gələcək nəsillərə ötürüləcəyinə inandığını diqqətə çatdırdı.*

**KONQO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DENİ SASSU-NQESSOYA**

Hörmətli cənab Prezident!

Brazzavil şəhərindəki hərbi anbarda baş vermiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Konqo xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2012-ci il*

## NİDERLAND KRALLIĞININ İNFRASTRUKTUR VƏ ƏTRAF MÜHİT NAZİRİ XANIM MELANİ ŞULTZ VAN HAEGENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Niderland Krallığının İnfrastruktur və Ətraf Mühit naziri xanım Melani Şultz van Haegenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Melani Şultz van Haegen Niderlandın Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. Niderlandlı nazir ölkəsinin Bakıda, Azərbaycanın isə Haaqada səfirliyinin fəaliyyət göstərməsinin əlaqələrimizin genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Niderland Krallığının infrastruktur və ətraf mühit nazirinin iş adamlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi və səfərin ölkəmizi yaxından tanımaq üçün qonaqlara yaxşı fürsət yaradacağını dedi. Dövlətimizin başçısı səfirliklərin fəaliyyətə başlamasından sonra ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Niderland Krallığı arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən su təsərrüfatı, infrastruktur, ekologiya, nəqliyyat və digər sahələrdə inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Niderland Krallığı Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.*

## ***bp***-nin İDARƏ HEYƏTİNİN SƏDRİ KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də bp-nin İdarə Heyətinin sədri Karl-Henrik Svanberqi qəbul etmişdir.*

*Görüşdə bp-nin ölkəmizdəki uzunmüddətli uğurlu fəaliyyətinin önəmi qeyd olundu, həyata keçirilən layihələrin icrası ilə bağlı məsələlər müzakirə edildi, Azərbaycan ilə bp arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA AZƏRBAYCANLI GƏNCLƏR BİRLİYİNİN TƏSİS QURULTAYININ İŞTİRAKÇILARINA

Əziz gənclər!

Sizi – Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayının iştirakçılarını səmimi-qəlbdən salamlayır və xoş arzularımı çatdırıram.

Müstəqil dövlət kimi, 20 illik yol keçmiş Azərbaycan Respublikası qısa dövr ərzində milli dövlətçiliyini möhkəmləndirmiş, iqtisadi qüdrətini və siyasi nüfuzunu artırmış, dünya birliyinin layiqli üzvünə çevrilmişdir. Yeni ideyaları və quruculuq həvəsi ilə seçilən Azərbaycan gəncliyi qazanılan bütün uğurlara öz töhfəsini vermiş, ölkəmizin ictimai-siyasi, sosial-mədəni inkişafında fəal rol oynamışdır.

Azərbaycanın gələcəyi gənclərimizin təhsilindən, yeniliyi tətbiq etmək bacarığından, vətənpərvərliyi və milli-mənəvi dəyərlərə sədaqətindən asılıdır. Gənclərin hərtərəfli inkişafı, sosial problemlərinin həlli və cəmiyyətdə layiqli yer tutması üçün əlverişli şəraitin yaradılması dövlət siyasətinin başlıca istiqamətlərindəndir. Respublikamızda gənclərlə bağlı son illərdə mühüm qanunlar, xüsusi dövlət proqramları qəbul olunmuş və hazırda uğurla icra edilir.

Gənclərimizin təhsilə, elmə və müasir informasiya-kommunikasiya texnologiyalarına artan marağı, vətənpərvərliyi və yüksələn ictimai fəallığı gələcəyə daha böyük ümidlərlə baxmağa əsas verir. Sevindirici haldır ki, harada yaşamasından və ictimai statusundan asılı olmayaraq, hər bir azərbaycanlı gənc öz doğma Vətəni ilə qürur duyur, milli maraqların qorunması naminə səyini əsirgəmir.

Düşünürəm ki, Dünya Azərbaycanlı Gənclər Birliyi gənc nəslin mütəşəkkilliyinin artırılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, diasporun möhkəmləndirilməsi və mədəni irsimizin təbliği istiqamətində gənclərimizin fəaliyyətini daha yaxşı əlaqələndirməyə imkan verə-

cəkdir. İnanıram ki, bu mötəbər məclisin keçirildiyi gün Azərbaycan gənclər hərəkatının tarixinə əlamətdar hadisə kimi daxil olacaqdır.

Sizi bir daha təbrik edir, qurultayın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 mart 2012-ci il*

## FRANSANIN MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA NAZİRİ FREDERİK MİTTERANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Mədəniyyətlə bağlı keçirilən çoxsaylı tədbirlərə toxunan prezident İlham Əliyev əlaqələrimizin sürətli inkişafında bu tədbirlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteranın ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Ölkəmizə səfərindən məmnunluğunu bildirən Frederik Mitteran dedi: «Cənab Prezident, qəbula görə Sizə minnətdaram, atanız Heydər Əliyevin layiqli davamçısı kimi, Sizinlə görüşümdən böyük şərəf duyuram».*

*Nazir Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəniyyət sahəsindəki fəaliyyətini yüksək qiymətləndirərək onun təşəbbüsü ilə Fransada keçirilən təqdimat tədbirlərinin Azərbaycanın tanınmasında böyük rol oynadığını qeyd etdi. Bakıda keçiriləcək «Fransa inciləri. Fransız incəsənəti Renessansdan bu günədək» sərgisinin də Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə təşkil olunduğunu vurğulayan Frederik Mitteran ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın bir sıra istiqamətlərdə genişləndirilməsinin zəruriliyini bildirdi.*

# TOFİQ BƏHRAMOV ADINA RESPUBLİKA STADİONUNDA HƏYATA KEÇİRİLMİŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*Prezident sarayı*

*9 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Tofiq Bəhramov adına Respublika stadionunda həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Tofiq Bəhramov adına stadionda görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, ümumi sahəsi 85 min 700 kvadratmetr olan stadionda əsaslı təmir və yenidənqurma işlərini Koreya Respublikasının «Samhoa» şirkəti həyata keçirir. 29 min 870 tamaşaçı yeri olan stadionda daha 2500 yer artırılacaq və nəticədə tamaşaçı yerlərinin sayı 31 min 200-ə çatacaqdır. Burada «ailə otağı» adlanan 16 xüsusi otaq inşa olunacaqdır.*

*Stadiondakı oturacaqların tamamilə yenidən qurulacağı qeyd olundu. Bunun üçün bütün oturacaqların alt hissələrinin təzədən betonlandığı bildirildi. FİFA-nın və UEFA-nın standartlarına uyğun olaraq stadionun hasarı boyu hər biri 250 nəfərlik yeni sanitariya qovşaqları inşa edilir. Stadionda əlavə olaraq üç yarımstansiyanın inşa ediləcəyi nəzərdə tutulur. Həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 mart 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin martın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçi və xanımı Tatyana Yosipoviçi qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Xorvatiya Respublikasının Prezidentinə raport verdi.*

*Xorvatiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Xorvatiya Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident İvo Yosipoviçə, Xorvatiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*
*12 mart 2012-ci il*

*Martın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç və xanımı Tatyana Yosipoviç ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin təkbətək görüşü keçirildi.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Dövlətlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Xorvatiya prezidenti İvo Yosipoviçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*
*12 mart 2012-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında münasibətlərin inkişafında çox mühüm rol oynayacaqdır. Biz ikitərəfli əməkdaşlığa aid bir çox məsələləri müzakirə etdik. Bu çox səmimi və açıq müzakirələr oldu. Əminəm ki, səfərinizin nəticələri çox uğurlu olacaq və əməkdaşlığımız genişlənərək bir çox sahələri əhatə edəcəkdir.

Bu gün müzakirə etdiyimiz kimi, aramızda çox fəal siyasi dialoq mövcuddur. Siyasi münasibətlərimizin səviyyəsi əladır. Səfəriniz bunun yaxşı göstəricisidir. Hesab edirəm ki, həyatımızın digər sahələrinə də nəzər yetirməliyik. Bu gün biz iqtisadi əməkdaşlığı, sərmayə imkanlarını müzakirə etdik. Fikrimcə, ikitərəfli münasibətlərimizin uğurlu inkişafı regionlarımız arasında da daha yaxşı əlaqələrin qurulmasına yardım edəcəkdir. Azərbaycan Xəzər dənizi regionunda olduqca mühüm rol oynayır. Siz öz regionunuzda aparıcı dövlətlərdən birisiniz. Bir sözlə, ölkələrimiz arasında sıx əlaqələr birmənalı olaraq regional əməkdaşlığa çox yaxşı təsir göstərəcəkdir.

Əminəm ki, səfərinizin nəticələri uğurlu olacaq və ölkələrimiz bir-birinə daha yaxın olacaqdır.

Dəvətimizi qəbul etdiyinizə və Azərbaycana gəldiyinizə görə Sizə çox minnətdarıq. Bu haqda biz əvvəlki görüşlərimizin

birində razılığa gəlmişdik. Ümidvaram ki, Sizin maraqlı və məhsuldar səfəriniz olacaqdır.

Ölkəmizə xoş gəlmisiniz!

**İ v o  Y o s i p o v i ç**: Cənab Prezident, səmimi qəbula və qonaqpərvərliyə görə minnətdaram. Mən və nümayəndə heyətimiz burada olmağımızdan çox məmnunuq. Buna səbəb təkcə siyasi əməkdaşlıq deyil, o cümlədən iqtisadi və mədəni sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olmasıdır. Bir sözlə, nümayəndə heyətimiz gələcək iqtisadi əməkdaşlığımızı təfərrüatı ilə müzakirə etməyə hazırdır. Sizin regionda sərmayə qoymaqla bağlı böyük planlarınızdan məlumatımız vardır. Cənub-Şərqi Avropa regionu ilə Qafqaz regionu arasında yaxşı əməkdaşlıq imkanları mövcuddur. Ölkələrimizin kəşməkəşli tarixi olubdur. Tarixi baxımdan təcrübəmiz oxşardır. İkitərəfli münasibətlərimiz qarşılıqlı anlaşmaya əsaslanır. Bu gün biz üç saziş imzalayacağıq. Bu da vacibdir və iqtisadi əməkdaşlığımıza şərait yaradacaqdır.

Qonaqpərvərliyinizə görə minnətdaram. Tam əminəm ki, nəinki bu görüş, o cümlədən bu gün keçirəcəyimiz digər görüşlər də səmərəli olacaqdır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*12 mart 2012-ci il*

*Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Xorvatiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında minalara qarşı fəaliyyət və minalardan təmizləmə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) direktoru Nazim İsmayılov və Xorvatiya Respublikası Xarici və Avropa İşləri üzrə nazirinin müavini Yoşko Klisoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin viza tələblərindən azad edilməsi haqqında Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikası Xarici və Avropa İşləri üzrə nazirinin müavini Yoşko Klisoviç imzaladılar.*

*«Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikası Baş nazirinin birinci müavini, İqtisadiyyat naziri Radimir Çaçiç imzaladılar.*

## XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*12 mart 2012-ci il*

*Martın 12-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Əvvəlcə, cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Çox şadam ki, Siz ölkəmizə böyük nümayəndə heyəti ilə gəlmisiniz, həmçinin biznes dairələrinin də nümayəndələri vardır. Bu gün bizim onlarla görüşümüz olacaqdır. Əminəm ki, bu səfər münasibətlərimizin gələcək inkişafında və həmçinin ikitərəfli əlaqələrin genişlənməsində mühüm rol oynayacaqdır.

Ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Bildirmək istəyirəm ki, mən artıq bu haqda Sizə öncədən məlumat verdim ki, məhz Sizin regionunuzda Xorvatiya birinci ölkədir ki, Azərbaycan öz səfirliyini açdı. Bu da onu göstərir ki, ölkələrimiz arasında münasibətlər yaxşı inkişaf edir. Şadam ki, münasibətlərimizin çox yaxşı dinamikası və potensialı mövcuddur. Siyasi münasibətlərimiz əladır. Biz beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlıq edirik. Azərbaycan NATO ilə həyata keçirilən proqramlarda fəal iştirak edir, Avropa İttifaqı ilə əməkdaşlıq edir. Mən Sizi Avropa İttifaqına üzvlük məsələniz münasibətilə təbrik etmək istəyirəm. Hesab edirəm ki, hətta Avropa İttifaqının üzvü olan Xorvatiya yenə də

Azərbaycana, Azərbaycanın Avropa təsisatlarına inteqrasiyasında dəstəyini davam etdirəcəkdir.

Bu gün biz ikitərəfli münasibətlərimizə, siyasi və iqtisadi əlaqələrimizə aid olan məsələləri müzakirə etdik. İnanıram ki, bizim nümayəndə heyətləri bundan sonra da müzakirələri davam etdirəcəklər. Aramızda çox güclü münasibətlər mövcuddur. Qeyd edək ki, bu günə qədər iqtisadi əməkdaşlığımız kifayət dərəcədə olmamışdır. Həmçinin bizim ticari dövriyyəmizin balansına gəldikdə də məhz bunu demək olar. Hesab edirəm ki, məhz enerji sektoru bizim qarşılıqlı ticari dövriyyəmizin də artmasına zəmin yaradır. Əminəm ki, biznes dairələri arasında bu məqsədlərə nail olmaqda bizə yardımçı olacaqdır. Biz həmçinin bu baxımdan Azərbaycan şirkətlərini Xorvatiyada sərmayələr yatırmağa həvəsləndiririk. Hesab edirəm ki, nümayəndə heyətinin digər üzvləri ilə də bu məqsədlə məsləhətləşmələr aparılacaqdır.

Bizim çox geniş iqtisadi və siyasi əməkdaşlığımız mövcud olacaqdır. Bu, əsasən planlarımızın həyata keçirilməsindən sonra baş verə bilər. Bəzi ənənəvi fəaliyyət sahələrinə gəldikdə, biz müzakirə apardıq, Azərbaycanın Xəzər Dəniz Gəmiçilik Şirkəti Xorvatiyadan gəmilər almaq fikrindədir. Əslində öncədən bilirik ki, sizin belə imkanlarınız vardır. Bu da münasibətlərimizin yeni bir ölçüsüdür. Həmçinin hesab edirəm, biz bundan sonra da düşünməliyik ki, səylərimizi hansı digər sahələrdə göstərə bilərik. Azərbaycan yeni sərmayə bazarlarını – istər dövlət sərmayəsi, istər özəl sərmayə bazarlarını axtarır. Biz həmçinin Xorvatiya şirkətlərinin Azərbaycanda investorlar və podratçılar, bizim tərəfdaşlar qismində işləməsini alqışlayardıq. Bu gün keçiriləcək tədbirdə Azərbaycanın biznes imkanları da təqdim olunacaqdır. Burada məhz Dövlət İnvestisiya Proqramının həyata keçirilməsinə dair məlumat veriləcəkdir.

Bir sözlə, bütün bu komponentlər bizim ümumi ideyalarımıza və ölkələrimiz arasındakı tərəfdaşlığa dəstək verəcəkdir. Bu tərəfdaşlıq, əslində nəinki ölkələrimiz, həmçinin yerləş-

diyimiz regionlar üçün vacibdir. Qafqaz və Xəzər regionu, Balkanlar regionu sıx iqtisadi-siyasi əməkdaşlıq və inteqrasiya üçün yaxşı imkanlara malikdir. Bu baxımdan Azərbaycan çox mühüm rol oynaya bilər.

Bu gün biz, həmçinin regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Mən cənab Prezidentə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar haqqında məlumat verdim. Artıq 20 ildir ki, Azərbaycan torpaqları işğal altındadır. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycan torpaqlarından dərhal çıxmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Ermənistan tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz həmçinin ATƏT-in Minsk qrupunda həmsədrlik edən ölkələrə bildirdik ki, bu status-kvo qəbul edilməzdir. Biz ümidvarıq ki, torpaqlarımızın işğalına son qoyulacaq və təcavüzkar məcbur ediləcək ki, bu işğala son qoysun.

Biz enerji əməkdaşlığımızı da müzakirə etdik. Əslində bu bizim ticari dövriyyəmizə böyük töhfə verir. Biz həmçinin qaz sektorunda da gələcək əməkdaşlığımızı müzakirə etdik. Əminəm ki, nümayəndə heyətinin üzvləri bu müzakirələri davam etdirəcəklər. Çünki Azərbaycan özünün təbii qazını daşıma marşrutlarını şaxələndirir və bu baxımdan Avropa bazarları bizim üçün çox cəlbedicidir.

Bir daha, cənab Prezident, Sizə və nümayəndə heyətinizə minnətdaram. Sizi salamlayıram və çox sağ olun ki, Azərbaycana səfərə dəvətimizi qəbul etdiniz. Əminəm ki, Sizin səfəriniz maraqlı və məhsuldar olacaqdır.

## Xorvatiya prezidenti İvo Yosipoviçin bəyanatı

Çox sağ olun, cənab Prezident!

Hörmətli nümayəndə heyətinin üzvləri, hörmətli qonaqlar!

Xorvatiya tərəfi səmimi qəbula görə çox minnətdardır. Biz özümüzü dostlarımızın arasında hiss edirik. Ölkələrimiz arasında olan siyasi münasibətlər qeyd edildiyi kimi, əladır. İndi bizim qarşımızda duran vəzifə iqtisadi əməkdaşlığımızın inkişaf etdirilməsi ilə bağlıdır. Bu səbəbdən Azərbaycana belə bir mühüm nümayəndə heyəti ilə gəlmişik. Cənab Çaçiç bizim hökumətin üzvüdür, Baş nazirin birinci müavinidir. O, iqtisadi məsələlərlə xüsusi olaraq məşğul olur. Həmçinin çox məmnunam ki, bu gün biz sərmayədarlarımızın, bizim podratçıların, müəssisə rəhbərlərinin forumunda iştirak edəcəyik. Onlar istəyirlər ki, əməkdaşlıq etsinlər və onların bəziləri artıq Azərbaycan hökuməti və Azərbaycan müəssisələri ilə əməkdaşlıq barədə danışıqlar aparırlar.

Sizin burada qeyd etdiyiniz bütün məsələlər bizim çox məhsuldar danışıqlarımızı və söhbətimizi əks etdirir. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, biz iqtisadi əməkdaşlığımızı regional yanaşma baxımından inkişaf etdirməliyik. Biz enerji, gəmi tikintisi, kənd təsərrüfatı, hərbi müdafiə sənayesi, istehkam əməliyyatları sahələrində və bir çox digər sahələrdə əməkdaşlıq edə bilərik.

Siz hazırkı dünyada münaqişələr məsələsinə də toxundunuz. Dağlıq Qarabağ münaqişəsi tək deyildir, belə münaqişələr çoxdur. Xorvatiyada da müharibə zamanı biz torpaqlarımızın zəbt olunması ilə üzləşdik. Çox şadam ki, məhz Sizin yanaşmanız məsələnin daha çox sülh yolu ilə həllinə yönəlib. Bilirəm ki, sülh olmadan yaxşı münasibətlər – ticari, iqtisadi münasibətlər mümkün deyildir. Nümayəndə heyətlərimiz, həmçinin fərdi qaydada bir çox məsələləri – nəinki iqtisadi əməkdaşlığı, digər məsələləri də müzakirə edəcəklər.

Bu gün imzaladığımız üç saziş gələcək əməkdaşlığımız üçün olduqca vacibdir. İnanırıq ki, onlar münasibətlərimizə töhfə verəcək və biz turizm sahəsində əməkdaşlıqda çox maraqlıyıq. Bu gün nəinki Avropadan, Şərqi Avropadan, Şərqdən də turistlərin gəlişini müşahidə edirik. Çox şad olardıq ki, azərbaycanlı dostlarımızı da Xorvatiyada görək.

Müzakirə etdiyimiz olduqca mühüm məsələlər nəinki iqtisadi əməkdaşlığa, o cümlədən mədəni əməkdaşlığa da aiddir. Mədəni sahədə qarşılıqlı anlaşma həm siyasi, həm iqtisadi münasibətlərin inkişafı üçün də vacibdir.

Mən Sizin məhz regiondakı sərmayələrlə bağlı bəyanatınızla çox maraqlandım. Bu bizim üçün çox vacibdir. Çünki hər iki ölkənin müxtəlif sahələrdə potensialı mövcuddur. Mən həmçinin Sizin məhz sosial sahəyə daha məsuliyyətlə yanaşmağınızla bağlı bəyanatınızla da maraqlandım. Bu da çox vacibdir, çünki Xorvatiya sosialyönümlü ölkədir. Əslində biz məhz insanları nəzərə alan iqtisadiyyatın inkişaf etdirilməsində maraqlıyıq.

Qonaqpərvərliyə görə çox sağ olun. Münasibətlərimizin daha da yaxşılaşdırılmasına və iqtisadi əməkdaşlığın inkişafına yönəltdiyiniz səylərə görə təşəkkürümüzü bildiririk.

*** * ***

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**D r a q a n   N i k o l i ç** (*Xorvatiya televiziyası*): **Mənim sualım Xorvatiya prezidenti cənab Yosipoviçədir. Sualım belədir: Azərbaycanın enerji baxımından Avropa İttifaqı üçün və həmçinin Xorvatiyaya qaz təchizatı baxımından potensialını nəzərə alaraq bilmək istəyirəm ki, məhz Azərbaycan qazının alınması ilə bağlı hər hansı bir müzakirə olubmu?**

**İ v o   Y o s i p o v i ç:** Biz nəinki bu məsələni, ümumiyyətlə, bütövlükdə enerji ilə bağlı olan vəziyyəti müzakirə etdik.

Baş nazirin birinci müavini cənab Çaçiç də bu müzakirələrdə iştirak etdi. Biz istəyirik ki, əməkdaşlıq edəcəyimiz bu sahələri genişləndirək. Bilirik ki, məhz bu sahədə Avropaya təchizatlar artıq başlayır. Biz bu layihələrdə iştirakda çox maraqlıyıq. Nümayəndə heyətlərimiz, xüsusən də onun bəzi üzvləri bu gün hökumətin üzvləri ilə görüşəcəklər. Bildirmək istəyirəm ki, Baş nazirin birinci müavini cənab Çaçiç bu gün Azərbaycanın İqtisadiyyat naziri ilə görüşəcəkdir. Bütün bunlar bizim üçün əhəmiyyətlidir.

**Ş a i q  M ə m m ə d o v** *(Azərbaycan televiziyası):* **Mənim sualım hər iki prezidentədir. Azərbaycan Xorvatiyada məhz hansı konkret sahələrdə sərmayələr qoya bilər?**

**İ l h a m  Ə l i y e v:** Biz bu məsələni cənab Prezident ilə müzakirə etdik. Hesab edirəm ki, nümayəndə heyətimizin üzvləri bunu geniş şəkildə müzakirə edəcəklər. Mən cənab Prezidentə məlumat verdim ki, hazırda Azərbaycan öz maliyyə imkanlarını şaxələndirir. Biz artıq planlaşdırırıq və demək olar ki, ölkəmizin hüdudlarından kənarda sərmayələri qoymağa başlamışıq. Bizim ölkələrimizin və müəssisələrin yaxşı reputasiyası vardır. Mən cənab Prezidentə bildirdim ki, biz hər zaman öz sərmayə planlarımızı məhz bu sərmayələr üçün planlaşdırdığımız ölkələrin hökumətləri ilə əlaqələndiririk. Mən həmçinin cənab Prezidentə məlumat verdim ki, bizim sərmayələr, adətən, mühüm sosial layihələrlə bağlı olur. Çünki yaxşı biznes imkanlarına malik olmaq üçün bizim potensial investorlar – şirkətlərimiz ictimai rəy tərəfindən də dəstəklənməlidir. Bu məhz o səbəbdən irəli gəlir ki, Azərbaycan şirkətləri yaxşı nüfuza malikdirlər. Çünki onlar icmaların, əhalinin sosial tələbatlarını da nəzərə almalıdırlar. O yerlərdə ki, sərmayələrimizi qoyacağıq, təbii ki, planlarımızı da əlaqələndirəcəyik, sərmayə sektorları ilə bağlı məsləhətləşmələr aparacağıq.

Hesab edirik ki, enerji sektoru maraqlı ola bilər. Bu sahədə bizim təcrübəmiz vardır. Digər ölkələrin də enerji sektoruna qoyduğumuz sərmayələr onu göstərir ki, biz çox məsuliyyətli

investorlarıq və sərmayələrimiz nəinki şirkətlərimizə öz sərmayələrini şaxələndirməyə kömək edir, o cümlədən ölkələrimizə də xidmət edir.

Digər bir mühüm sahə kənd təsərrüfatı ilə bağlıdır. Birmənalı olaraq burada turizm sahəsi də vardır. Biz bunu müzakirə etdik və qarşımızda həyata keçirilmə prosesində olan planlarımız vardır. Balkanlar regionuna gəldikdə, qeyd etdim ki, Xorvatiya bu regionda ilk ölkədir ki, səfirliyimizi açmışıq. Biz məhz bu sahəyə də öz sərmayələrimizi yönəltmək istəyirik.

Mən ilk növbədə, həyata keçirilməli prioritetləri açıqladım. Lakin hesab edirəm ki, biznes-forum çərçivəsində bu məsələlər müzakirə olunacaqdır. Bu tədbir bizə digər sahələr haqqında da – hansı sərmayə imkanlarının, hansı qanunvericilik imkanlarının mövcudluğu barədə məlumat əldə etməyə imkan verəcəkdir. Əminəm ki, bu biznes-forum bir çox məsələlərə aydınlıq gətirəcək və bizim qarşılıqlı maraqlara əsaslanacaqdır.

**İ v o Y o s i p o v i ç:** Mənim əlavə etməyim üçün bir məsələ yoxdur. Biz elə bu məsələləri müzakirə etdik. Qeyd etdiyim kimi, Xorvatiya şirkətləri vardır ki, onlar Azərbaycan ilə əməkdaşlıq edir, xüsusən də gəmi tikintisi sahəsində. Hazırda bir Xorvatiya şirkəti ölkədə fəaliyyət göstərir. Ümidvaram ki, ona daha çox imkanlar açılacaqdır. Hesab edirəm ki, həm Azərbaycan şirkətləri üçün Xorvatiyada, həm də xorvat şirkətləri üçün Azərbaycanda yaxşı şərait yaradılacaqdır və hər iki tərəf məhz bunu etiraf edə bilər. Azərbaycan da biznes tərəfdaşları üçün bu cür imkanlar yaradır. Çox sağ olun.

## AZƏRBAYCAN–XORVATİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*12 mart 2012-ci il*

*«Hilton Baku» otelində Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti İvo Yosipoviçin iştirakı ilə Azərbaycan–Xorvatiya biznes-forumu keçirilmişdir.*

*Dövlətimizin başçısı Xorvatiya prezidenti İvo Yosipoviçi qarşıladı.*

*Forum iştirakçıları dövlət başçılarını hərarətlə qarşıladılar.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, dostlar!

Bu gün burada olmağımdan çox məmnunam. Böyük məmnunluq hissi ilə Xorvatiya prezidentini Azərbaycanda salamlayıram. Prezidentin səfəri çox uğurla başlayıb. Bu gün səhər-səhər bizim çox yaxşı müzakirələrimiz baş tutdu. Çox məhsuldar danışıqlarımız oldu. Nümayəndə heyətləri fəal şəkildə işləyiblər. Əminəm ki, bu səfər ölkələrimiz arasındakı münasibətləri möhkəmləndirəcək, bir-birimizlə daha yaxşı tanış olmağa, fəal şəkildə əməkdaşlıq etməyə imkan yaradacaqdır. Biz bir çox məsələləri geniş müzakirə etdik. Regional və beynəlxalq məsələləri nəzərdən keçirdik. Təbii ki, müzakirələrimizin müəyyən bir hissəsi iqtisadi əməkdaşlığa aid idi. Mən cənab Prezidentə bildirdim və mən çox məmnunam ki, onu bu səfərdə Xorvatiyanın çoxsaylı biznesmenləri müşayiət edir. Bu gün keçirilən biznes-forum əslində biznesi birgə aparmaq üçün bir çox imkanlar açır.

Əminəm ki, bu gün keçirilən sessiyada artıq iqtisadi inkişafımızla bağlı təqdimatlar edilibdir. Mən iqtisadiyyatın cari təsviri ilə vaxtınızı almaq istəməzdim. Onu qeyd etmək istəyirəm ki, müstəqilliyimizin 20 ili ərzində biz, demək olar ki, ümumi daxili məhsulun özəl sektordakı payını sıfırdan təxminən 83 faizə çatdırmağa nail olmuşuq. Əslində biz iqtisadi

sahədə fundamental xarakterli islahatlar aparmışıq. Bu islahatlar sayəsində iqtisadiyyatımızı şaxələndirmişik.

Əminəm ki, birgə iş aparmaq üçün qarşımızda bir çox imkanlar vardır. Bu sözlər hər iki ölkənin biznes dairələrinə aiddir. Bu gün biz cənab Prezident ilə Azərbaycanın Xorvatiyada sərmayələri haqqında danışdıq. Biz bütün bu məsələləri nəzərdən keçirdik və müəyyən etdik ki, sərmayələrimiz üçün hansı sahələr daha cəlbedici ola bilər. Təbii ki, bu, Xorvatiya hökuməti ilə əməkdaşlıq şəraitində aparılmalıdır və biz məqsədləri vaxtında müəyyən etməliyik. Qeyd etdik ki, Xorvatiya şirkətləri də Azərbaycanda işləməkdə, sərmayə qoymaqda maraqlıdırlar. Bizim çox yaxşı sərmayə mühitimiz var. Azərbaycan hələ Sovet İttifaqı vaxtlarında iqtisadiyyatını inkişaf etdirmiş, müstəqillikdən sonra məhz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə birinci yeri tutmuşdur. Son bir il ərzində Azərbaycan 20 milyard ABŞ dolları həcmində sərmayə cəlb etmişdir. Onun 7 milyard dollarını xarici sərmayələr təşkil edir. Bu onu göstərir ki, Azərbaycan sərmayə baxımından hələ də cəlbedici bir məkandır. Son illər ərzində əsas sərmayələr məhz neft və qaz sektoruna yatırılmışdır. Bütün bunlar maliyyə vəsaitlərini toplamaq imkanı yaratdı. İndi isə sərmayələri qeyri-neft sektoruna qoymağı planlaşdırırıq. Bir sözlə, bizim bu şaxələndirmə işimiz Azərbaycanda davamlı inkişafın təmin edilməsinə yönəlibdir.

Təbii ki, bizim biznes imkanlarımız sosial problemlərin də həllinə imkan yaradır. Bunun nəticəsində birincisi, maliyyə vəsaitləri formalaşır və ikincisi isə iş yerləri açılır. Təbii ki, işsizliyin və yoxsulluğun azaldılması iqtisadi siyasətimizin əsas hədəflərindən biridir. Biz yoxsulluğu 5 dəfə – 7,6 faizə qədər azaltmağa nail olmuşuq. Hazırda işsizlik səviyyəsi 5,6 faiz səviyyəsindədir. Təbii ki, özəl sektorumuza və biznes strukturumuza gəldikdə, biz onlara imtiyazlı kreditlər ayırırıq. Bütün bunlar iqtisadiyyatımızın şaxələndirilməsi məqsədini daşıyır.

Qeyd etdiyim kimi, müstəqilliyimizin ilk illərində əsas ümidlərimiz məhz enerji sektoru ilə, neft və qazla bağlı idi. Azərbaycan neft və qaz hasil edən ölkə kimi, bu sahədə bir çox səylər göstərdi və bu bizə iqtisadiyyatımızı şaxələndirmək imkanı yaratdı. Bir neçə il bundan öncə biz iqtisadi siyasətimizdə yeni bir istiqaməti – «qara qızıl»ın insan kapitalına çevrilməsini özümüz üçün strategiya kimi seçdik və hazırda bu sahədə artıq uğurlar müşahidə olunur. İndi biz informasiya texnologiyaları sahəsinin inkişafı üçün sərmayələr qoyuruq. Biz kosmos sənayesi yaradırıq. Ümid edirik ki, biz cari ilin sonuna qədər ilk telekommunikasiya peykimizi buraxacağıq. Kənd təsərrüfatı sahəsinə sərmayələrin qoyulmasında maraqlıyıq. Bunun üçün iqlim şəraitimiz və münbit sərmayə mühitimiz vardır. Xarici və yerli sərmayələr qorunur ki, bu da sərmayədarları cəlb edir.

Bütün bunlar bu dəyişikliklərin ilk vaxtlarında ona görə edilirdi ki, biz etimad yaratmalı idik. Biz bu məqsədlə çox çalışmalı idik. Bir səhv addım bütün səylərimizi heçə endirə bilərdi. Çünki etimad səviyyəsi çox əhəmiyyət kəsb edirdi. Məmnunluq hissi ilə bildirmək istəyirəm: bizim xarici tərəfdaşlarımız və sərmayədarlarımız hiss edirlər ki, onların sərmayələri qorunur, hökumətimizin imzaladığı əsas beynəlxalq müqavilələr parlament tərəfindən ratifikasiya edilir və qanun qüvvəsini alır. Bu da çox vacibdir ki, proqnozlaşdırılan sərmayə mühiti mövcud olsun. Biz belə bir ölkəyik. Həmçinin Azərbaycan hüdudlarından kənarda da sərmayə qoymağa başlayıb. Əslində bu, mühüm məsələlərdən biridir. Çünki əvvəllər elə bir mövqedə idik ki, biz sərmayələri qəbul edirdik. İndi isə biz özümüz sərmayə qoyuruq.

Bu gün biz cənab Prezident və nümayəndə heyəti ilə biznesi necə təşkil etmək və birgə necə səmərəli şəkildə iş aparmaq məsələlərini müzakirə etdik. Bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır. Hesab edirəm ki, onlar bir-birini əvəzləyə, tamamlaya bilər və beləliklə, bu tərəfdaşlıq xalqlarımız üçün faydalı ola bilər.

Biz bu gün, həmçinin regional vəziyyəti müzakirə etdik. Balkan regionu ilə bizim region arasında əməkdaşlıq məhz birgə səylərimiz sayəsində baş tuta bilər.

İqtisadiyyatımızın mühüm bir hissəsini hələ ki, neft və qaz təşkil edir və gələn illər də belə qalacaq. Lakin 10 il əvvəlki vəziyyətlə müqayisədə indi bu sektordan daha az asılıyıq. İndi neftin qiymətlərinə o qədər bağlı deyilik. İqtisadiyyatımız son 8 il ərzində sürətlə inkişaf edib, 3 dəfədən çox artıb. Biz 3 dəfə artmış ümumi daxili məhsulumuzu 2023-cü ilə qədər – bundan sonrakı 10 il ərzində qeyri-neft sektoru hesabına daha 2 dəfə artırmaq fikrindəyik. Təbii ki, enerji sektoru maliyyə vəsaitlərinin formalaşdırılmasında bizə yardımçı oldu və dünyada özümüzü təqdim etməyə imkan yaratdı. Çünki 20 il bundan öncə çox az sayda insan Azərbaycan haqqında bilirdi və onlar məlumatlı deyildilər ki, burada hansı imkanlar, hansı biznes imkanları və sərmayə mühiti vardır. Böyük xarici şirkətlərlə apardığımız əməkdaşlıq bunu nümayiş etdirmək imkanı yaratdı və göstərdi ki, biz etibarlı tərəfdaşıq.

Hazırda bizim enerji siyasətimiz yeni mərhələyə qədəm qoyur. Əvvəlki illərdə bütün planlaşdırdığımız işlərin icrasına nail olduq. Müasir boru kəmərləri infrastrukturunu qurduq və tikdik. Əslində, biz öz enerji resurslarımızı dünyanın bütün istiqamətlərinə çıxarırıq. Bu gün Xorvatiya tərəfi bizə məlumat verdi ki, onların qəbul etdiyi neftin əksər hissəsi məhz Azərbaycan neftidir. Təbii ki, bu məsələ bizim müzakirə mövzumuz olaraq qalacaqdır.

Biz qaz sahəsində də əməkdaşlıq qura bilərik. Hazırda yeni sərmayə proqramları ilə bağlı danışıqlar aparırıq. Burada milyardlarla dollar həcmində investisiyalar nəzərdə tutulur – 20 milyarddan artıq. Burada qaz yataqlarının işlənilməsi və boru kəmərlərinin tikintisi nəzərdə tutulur. Belə olan halda biz tərəfdaşlarımızı qarşıdan gələn 5-6 il ərzində böyük həcmdə qazla təchiz edə biləcəyik. Bu gün qazın hasilatı və ixracı bizim üçün kifayət dərəcədə deyildir. Bizim böyük potensialımız vardır. Qeyd etmək istəyirəm ki, qarşıdakı ən azı 100 il ərzində

Azərbaycan Avropa bazarında mühüm qaz təchizatçısı olacaqdır. Bilirik ki, Avropanın da qaza ehtiyacı artır. Xorvatiyanın gələcəkdə Avropa İttifaqına üzv olacağını nəzərə alaraq, hesab edirik ki, o da bu təşəbbüsün bir hissəsi ola bilər. Hazırda Avropa İttifaqı ümumi enerji strategiyası üzərində işləyir. Bu da bizim həyatımızı daha da asanlaşdırardı. Çox yaxşı olardı ki, ümumiləşdirilmiş bir strategiya olsun. Bunu nəzərə alaraq, Azərbaycan gələn illər ərzində enerji təhlükəsizliyinə mühüm töhfə verəcəkdir. Enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin mühüm amilidir. Bilirik ki, bundan sonra enerjiyə tələbat artacaqdır. Avropa İttifaqı ölkələrində atom-elektrik stansiyalarının bağlanması ilə bağlı qərarların qəbul edilməsini nəzərə alaraq, adi enerji mənbələrinə ehtiyac artacaqdır. Ötən il biz Avropa İttifaqı ilə «Cənub Qaz Dəhlizi» haqqında memorandum imzaladıq. Bu baxımdan Azərbaycan məhz «Cənub Qaz Dəhlizi»nin mühüm təchizatçısı və başlanğıcı ola bilər.

Biz Qara dəniz, Aralıq dənizi regionları ölkələri ilə əməkdaşlıq edə və Avropa qaz bazarına çıxış əldə edə bilərik. Yaxın zamanlarda bu barədə danışıqlara başlaya bilərik. Bu sahədəki əməkdaşlığımız irəliyə doğru aparıla bilər. Bütün bunlar ikitərəfli əməkdaşlığımıza aid olan məsələlərdir. Mən sadəcə, bu biznes-forumda iştirak etdiyinə görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Biz çox şadıq ki, Xorvatiyadan bir çox qonaqlarımız buraya gəliblər.

Əminəm ki, görüşlərimizin nəticəsi uğurlu olacaq. Hesab edirəm ki, gələcəkdə bütün planlarımızın praktiki surətdə həyata keçirilməsinin şahidi olacağıq.

*Ölkəmizə səfərindən məmnun qaldığını deyən Xorvatiya prezidenti İvo Yosipoviç hazırda Azərbaycan ilə Xorvatiya arasında yaxşı siyasi münasibətlərin olduğunu qeyd etdi. Bu münasibətlərin iqtisadi əməkdaşlığımıza da şamil olunmasının vacibliyini vurğulayan Xorvatiya prezidenti məhz iqtisadi əlaqələrin güclənməsinin bütün sahələrdəki əlaqələrə müsbət təsir göstərəcəyinə əminliyini ifadə etdi.*

**İ v o  Y o s i p o v i ç:** Xorvatiya sizin enerji daşıyıcılarını, daha doğrusu, neftinizi böyük bir həcmdə idxal edir. Hesab edirəm ki, siz bu baxımdan sərmayələrinizi qoya bilərsiniz. Xorvatiya isə həm Azərbaycanda, həm də digər ölkələrdə xidmətlər sahəsində çalışır. Qeyd edirəm ki, burada böyük firmaların təmsilçiləri vardır. Onlar nəinki yerli, hətta beynəlxalq səviyyədə böyük uğurlar əldə ediblər.

Bu gün səhər biz gəmi tikintisi məsələsini nəzərdən keçirdik. Puladan gəlmiş nümayəndə Azərbaycan ilə bu sahədə əməkdaşlığı genişləndirmək fikrindədir. Bu bizim dünyada tanınmış şirkətdir ki, əczaçılıq sənayesi sahəsində öz nəticələrini göstərib. Tikinti, ərzaq məhsulları sahələrində də fəaliyyətlər göstərilir. Lakin istehkam sahəsi də olduqca vacibdir. Əfsuslar olsun ki, bizim bu sahədə keçmişimizdən irəli gələn məsələlər vardır və onlar öz həllini gözləyir. Bizim bu sahədə də mütəxəssislərimiz vardır. Onlar da öz işlərində bir çox uğurlar qazanmışlar. Hesab edirəm ki, biz sizə öz yardımımızı göstərə bilərik. Söhbət təkcə mütəxəssislərdən, bunu necə yerinə yetirməkdən getmir. Elə sənaye obyektlərimiz var ki, müvafiq avadanlıqlar da istehsal edir.

Biz Aralıq dənizinə çıxan ölkəyik, çox maraqlı turizm məkanıyıq. Nəinki Avropadan, Asiyadan, dünyanın bütün ölkələrindən Xorvatiyaya turistlər gəlir. Nəyə görə məhz sizin ölkədən də bizə daha çox adam gəlməsin?!

**İ l h a m  Ə l i y e v:** Ölkəmiz haqqında söylədiyiniz xoş sözlərə görə çox sağ olun. Mən bu gün səhərki görüşümüz çərçivəsində bildirdim ki, biz ölkənizdə sərmayə imkanlarını nəzərdən keçirəcək, ümumi təşəbbüslərlə çıxış edəcəyik. Məqsədimiz nəinki biznes əlaqələri qurmaq, dostluğu da gücləndirməkdir. Bu yalnız o vaxt edilir ki, biznes dairələri, həmçinin sosial məsuliyyəti də dərk edirlər.

Təşkil edilmiş bu tədbirə görə çox sağ olun. Biznes dairələri əmin ola bilərlər ki, biz onları hər zaman dəstəkləyəcəyik.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ
*12 mart 2012-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Xorvatiya prezidenti İvo Yosipoviç və xanımı Tatyana Yosipoviç martın 12-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Xorvatiya dövlətinin başçısını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Prezident İvo Yosipoviç və xanımı ulu öndər Heydər Əliyevin arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillər və eksponatlarla tanış oldular.*

*Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.*

*Prezident İvo Yosipoviç və xanımı Tatyana Yosipoviç fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdılar.*

*Qonaqlara fondun xatirə hədiyyəsi təqdim olundu.*

*Xorvatiya prezidenti və xanımı Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldılar.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK
*12 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç və xanımı Tatyana Yosipoviçin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Mərasimdə çıxış edən Azərbaycan prezidenti İlham Əliyev Xorvatiya prezidentinin ölkəmizə ilk səfəri çərçivəsində görüşlərin, danışıqların, imzalanan sənədlərin və keçirilən biznes-forumun mövcud ikitərəfli münasibətlərin dərinləşməsində mühüm rol oynayacağına əminliyini bildirdi.*

*Dövlətimizin başçısı son illər iki ölkə arasında əlaqələrin daha da intensivləşməsində qarşılıqlı diplomatik nümayəndəliklərin açılmasının əhəmiyyətini vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Bu gün energetika, enerji resurslarının nəqli, turizm, ekologiya, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya, yol və infrastruktur obyektlərinin tikintisi, gəmiqayırma, kimya sənayesi və digər sahələrdə əməkdaşlığımızın inkişafı üçün geniş perspektivlər vardır. Biz həmçinin qarşılıqlı sərmayə yatırımının təşviqinə və ticarət dövriyyəsinin artırılmasına xüsusi əhəmiyyət veririk.

Azərbaycan ilə Xorvatiya arasında gəmiqayırma sahəsində əməkdaşlığın uğurlu təcrübəsi artıq mövcuddur. Belə ki, Xorvatiyanın Pula şəhərində yerləşən Ulyanik tərsanəsində inşa edilmiş və hazırda Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin istismar etdiyi bir çox gəmi-bərələr hələ 27 il əvvəl ümummilli lider Heydər Əliyevin göstərişi əsasında Bakıya göndərilmişdir. Bu ənənə bu gün də davam edir və 2011-ci ilin mayında Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi ilə Ulyanik tərsanəsi arasında yeni gəmi- bərələrin tikilməsinə dair müqavilə imzalanmışdır.

Ölkələrimiz beynəlxalq və regional təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edir. Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlar ilə əlaqələr mühüm yer tutur. BMT, ATƏT, NATO, Avropa İttifaqı, Avropa Şurası çərçivəsində əməkdaşlığımız məmnunluq doğurur. Bu

baxımdan Avropa İttifaqına yeni üzv olacaq Xorvatiya ilə münasibətlərimiz həm ikitərəfli, həm də regional çərçivədə mühüm əhəmiyyət kəsb edir. Artıq regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır və Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün öz töhfəsini verməyə hazırdır. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi– tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır.

*Prezident İlham Əliyev Azərbaycanın qəti mövqeyinin münaqişənin beynəlxalq hüquq normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsindən ibarət olduğunu bildirdi.*

**İvo Yosipoviç:** Azərbaycan kimi, Xorvatiya da Avroatlantik zonaya tam inteqrasiya dövründə ölkə ərazisinin bir hissəsi üzərində nəzarəti müvəqqəti itirməklə bağlı acı təcrübəyə malikdir. Xorvatiya bu mənada Azərbaycanın vəziyyətini yaxşı anlayır. Biz sizin səbir nümayiş etdirməyinizi və Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək cəhdlərinizi yüksək qiymətləndiririk. Mən bunları hansısa mücərrəd inanclara görə deyil, oxşar təcrübəyə əsaslanaraq deyirəm.

Bu gün Azərbaycan özü ilə fəxr etmək üçün çox səbəbləri olan ölkədir. Biz bu səbəbləri yaxşı bilirik. Biz ikitərəfli potensialımızdan istifadə edərək əməkdaşlığımızı daha da intensivləşdirmək istəyir və arzu edirik ki, həm siz, həm də biz bundan faydalanaq. Bu gün keçirdiyim bütün görüşlər və

danışıqlar məni inandırdı ki, bu bizim ümumi arzumuzdur. Bu gün biz arzularımızın reallığa çevrilməsi üçün hüquqi baza yaradan bir sıra sənədlər imzaladıq. Bizim Baş nazirin birinci müavini də maraqlı və çox şey vəd edən danışıqlar aparıb. Mən düşünürəm ki, bu danışıqlar Avropa enerji infrastrukturu sahəsində əməkdaşlıq üçün başlanğıc nöqtəsi rolunu oynaya bilər.

## CƏNUB BÖLGƏSİNƏ SƏFƏR

*13 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Astara rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, ulu öndərin abidəsinin yerləşdiyi Heydər Əliyev parkında son dövrlərdə geniş abadlıq-quruculuq işləri aparılıb. Parkın ərazisi genişləndirilərək 2,5 hektara çatdırılıb. Burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.*

## Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının inzibati binasının açılışı mərasimi

*Martın 13-də prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ümumi sahəsi 700 kvadratmetr olan ikimərtəbəli binanın tikintisinə ötən ilin mayında başlanılmışdır. Binada ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Burada həmçinin ulu öndər Heydər Əliyevin və Azərbaycan prezidenti, YAP-ın sədri İlham Əliyevin həyat və fəaliyyətlərini, Astara rayonuna səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılmışdır. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı və xidməti otaqlar da vardır.*

*Qeyd edildi ki, hazırda YAP Astara rayon təşkilatının üzvlərinin sayı 5 min 831 nəfərdir.*

*Binada yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Martın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astara Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*İdmançılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Məlumat verildi ki, son illər Astarada idmanın müxtəlif növlərinin inkişafına xüsusi diqqət göstərilir. Müasir olimpiya kompleksinin istifadəyə verilməsi isə gənclərin idmana olan maraq və həvəsini daha da artıracaqdır.*

*Dövlətimizin başçısı Astara Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidenti kompleksdə yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, ərazisi 5 hektar olan kompleksin tikintisinə 2006-cı ildə başlanılmış, inşaat işləri yüksək səviyyədə aparılmışdır. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən və prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs edən fotoguşələr yaradılmışdır.*

*Qeyd edildi ki, kompleksin 936 nəfərlik böyük idman zalında mini futbol, voleybol, basketbol, tennis yarışları keçirmək üçün hər cür şərait vardır. Məşq zalları, eləcə də 172 tamaşaçı yeri olan üzgüçülük hovuzu da beynəlxalq standartlara cavab verir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, rayonun idman məktəbinin yetirmələri Cəbrayıl Həsənov və Sona Əhmədli İstanbulda sərbəst güləş üzrə keçirilən dünya çempionatında bürünc medal qazanmışlar. Cəbrayıl Həsənov 2012-ci ildə Londonda keçiriləcək Yay Olimpiya oyunlarına lisenziya qazanmışdır. Bundan başqa, Azərbaycan Şahmat Federasiyasının qərarı ilə rayonun şahmat məktəbində bir həftə ərzində 150 idmançı arasında respublika çempionatı keçirilmişdir. 2012-ci ilin «İdman ili» elan edilməsi ilə bağlı rayonda görüləcək işlər barədə geniş proqram hazırlanmışdır. Yeni tikilmiş Olimpiya İdman Kompleksi isə «İdman ili»nə ən böyük hədiyyədir.*

*Dövlətimizin başçısı Olimpiya İdman Kompleksinin ərazisində inşa olunmuş 4 kottecdə yaradılan şəraitlə də tanış oldu. Bildirildi ki, ikimərtəbəli kotteclərdə eyni vaxtda 40 nəfər qala bilər.*

*Azərbaycan prezidenti kompleksin açılışı mərasimində astaralıları salamladı.*

**İlham Əliyev:** Əziz dostlar, əziz astaralılar! Bu gün Astara rayonunun həyatında çox əlamətdar bir gündür. Astarada gözəl Olimpiya İdman Kompleksi açılmışdır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu Olimpiya İdman Kompleksində idmanla məşğul olmaq üçün bütün şərait vardır. Mən vaxtilə olimpiya mərkəzinin

inşası ilə bağlı göstəriş vermişdim. Ondan sonra Astarada olarkən tikintinin gedişi ilə tanış olmuşdum. Keçən il də mən Astarada idim. Bu gün də bu möhtəşəm olimpiya mərkəzinin açılışında biz bərabər iştirak edirik. Əminəm ki, Astara idmançıları və Astara sakinləri bu imkanlardan səmərəli şəkildə istifadə edəcəklər. Çünki burada bütün şərait yaradılıb, idman zalları, açıq meydançalar, üzgüçülük hovuzu, trenajor zalları – bir sözlə, gözəl, müasir İdman Kompleksi yaradılıbdır.

İdmana Azərbaycanda çox böyük diqqət göstərilir. Bizim dövlət siyasətimiz də idmanın inkişafına yönəldilibdir. Azərbaycan dövlətinin idmana münasibətini görmək üçün sadəcə olaraq, uğurlarımıza fikir vermək kifayətdir. Son illər idmançılarımız bütün beynəlxalq yarışlarda böyük qələbələr qazanırlar. Dünya çempionatlarında, Olimpiya oyunlarında, Avropa çempionatlarında milli bayrağımız dalğalanır. Bu çox sevindirici haldır. İldən-ilə idmançılarımızın uğurları, medalların sayı artır və ölkəmizin idman şöhrəti yüksəklərə qaldırılır.

Bu il Azərbaycanda «İdman ili» elan edilibdir. Bu da çox gözəl göstəricidir. Bu onu göstərir ki, Azərbaycan dövləti idmanın inkişafına nə qədər diqqət yetirir. «İdman ili» çərçivəsində müxtəlif tədbirlər keçiriləcəkdir. Bu il ilk istifadəyə verilən Astara Olimpiya İdman Kompleksidir.

Əminəm ki, bu il idmançılarımız bizi yenə də öz uğurları ilə sevindirəcəklər. Bu il Olimpiya oyunları ilidir. İdmançılarımız bu oyunlara çox fəal hazırlaşırlar və ümid edirik ki, Olimpiya oyunlarında da bizim böyük uğurlarımız olacaqdır. Belə fikirləşməyə əsas verən bizim əvvəlki dövrlərdə Olimpiya oyunlarındakı çıxışlarımızdır. İldən-ilə Olimpiya oyunlarında medalların sayı artır və Azərbaycan idman dövləti kimi, özünü dünyaya, dünya idman ictimaiyyətinə təqdim edir.

Ölkəmizdə müxtəlif beynəlxalq yarışların keçirilməsi artıq gözəl bir ənənəyə çevrilibdir. Azərbaycanda istənilən beynəlxalq idman yarışının keçirilməsi mümkündür. Avropa, dünya çempionatlarının keçirilməsi artıq bizim yaxşı ənənəmizdir və

bütün bu böyük yarışlar yüksək səviyyədə keçirilir. Bu amili və bütövlükdə ölkəmizin uğurlu inkişafını nəzərə alaraq Azərbaycan 2020-ci ilin Olimpiya oyunlarının Bakıda keçirilməsi üçün müraciət etmişdir və bu müraciətə baxılır. Mən hesab edirəm ki, ölkəmizin paytaxtı Bakı Olimpiya oyunlarının keçirilməsi üçün də bütün imkanlara malikdir. Bizim gözəl infrastruktur imkanlarımız vardır. İnsanların Olimpiya oyunlarının Azərbaycanda keçirilməsinə böyük dəstəyi vardır. Beynəlxalq qurumlar tərəfindən keçirilmiş rəy sorğuları da bunu göstərir. Ölkə vətəndaşlarının 95 faizi Olimpiya oyunlarının Azərbaycanda keçirilməsinə öz dəstəyini vermişdi.

Bizim kifayət qədər idman qurğularımız var. Tikilməkdə olan, tikilmiş və nəzərdə tutulan böyük idman qurğuları. Artıq bu məsələ də gündəlikdədir. Bizim gözəl idmançılarımız, idman uğurlarımız vardır.

Azərbaycanda təhlükəsizlik tədbirləri çox yüksək səviyyədə təmin edilir. Ölkəmizdə hökm sürən sabitlik, ictimai-siyasi asayiş Olimpiya oyunlarının keçirilməsi üçün də mühüm amil kimi özünü göstərir. Bakıda Olimpiya oyunlarının keçirilməsi üçün tam hazırıq və bizim bu istəyimiz ölkəmizin gücünü göstərir.

Biz 20 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Bu 20 il ərzində Azərbaycan böyük və şərəfli yol keçib. İstənilən sahədə biz böyük uğurlara nail ola bilmişik. İqtisadi sahədə dünyada misli görünməmiş inkişafı yaşayırıq və bu, bütün statistik göstəricilərdə özünü əks etdirir.

Ölkəmizdə sosial məsələlərin həlli çox uğurla aparılır. Sosial infrastrukturun yaradılması prosesi uğurla gedir. Bunu Astara rayonunun timsalında görə bilərik. Astarada son illər ərzində 20-dən çox məktəb tikilibdir. Bu gün biz Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmirdən sonra açılışını qeyd edəcəyik. Gözəl, möhtəşəm Olimpiya İdman Mərkəzi yaradılıbdır, kənd yolları qaydaya salınır. Azərbaycanda sosial məsələlərin həlli də müsbət istiqamətdə inkişaf edir.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. 20 il müstəqillik dövründə Azərbaycan özünü dünyaya etibarlı tərəfdaş və inamlı dost kimi təqdim edə bilmişdir. Məhz bunun nəticəsidir ki, dünya birliyi, dünya ictimaiyyəti Azərbaycana böyük etimad göstərərək bizi BMT Təhlükəsizlik Şurasına üzv seçdi. 155 ölkə gənc, ancaq qüdrətli və müstəqil Azərbaycan dövlətinə öz səsini verdi. Bu, beynəlxalq müstəvidə əldə edilmiş ən böyük uğurdur. Bu uğur bir də onu göstərir ki, bizim xarici siyasətimiz düzgün siyasətdir. Bizim xarici siyasətimiz həm ölkənin maraqlarının təmin edilməsi üçün aparılır, həm də ölkəmizin beynəlxalq imici çox müsbətdir. Əks təqdirdə 155 ölkə bizə səs verməzdi.

Bir sözlə, 20 il ərzində ölkəmizdə istənilən sahədə böyük nailiyyətlər vardır. Haqlı olaraq bu nailiyyətlərdən danışırıq. Gələcək fikirlərimiz gələcək inkişafa istiqamətləndirilib. Əlavə nə etməliyik? Ölkəmizi bundan sonra necə inkişaf etdirməliyik? Bu məsələlərlə bağlı kifayət qədər dəqiq planlar, proqramlar və fikirlərimiz var. Bu barədə mən dəfələrlə müxtəlif tədbirlərdə fikirlərimi ifadə etmişəm. Son müddət ərzində sahibkarlarla görüşdə də ölkəmizin ümumi iqtisadi inkişafı, uzunmüddətli iqtisadi inkişafı və onun perspektivləri haqqında öz fikirlərimi söyləmişəm.

Bir daha demək istəyirəm ki, ölkəmiz dinamik şəkildə inkişaf edir, çox gözəl beynəlxalq imici vardır. Biz indi ölkə iqtisadiyyatımızın şaxələndirilməsi ilə məşğuluq və bu sahədə də uğurlar əldə edə bilmişik. Ən ucqar bölgələrdə, ən ucqar kənddə inkişaf vardır. Hər bir rayonun inkişafı, əslində ölkəmizin inkişafını gücləndirir. Ölkənin inkişafı bölgələrin inkişafı olmadan mümkün deyil. Biz hazırda qeyri-neft sektorunun, kənd təsərrüfatının, turizmin, qeyri-neft sənayesinin inkişafı üçün çox əhəmiyyətli addımlar atırıq.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsi artıq başa çatmaq üzrədir. Gələn il bu proqram da yekunlaşacaq və beləliklə, son 8–10 ildə nəzərdə tutduğumuz məsələlər öz həllini tapacaqdır. Çalışmalıyıq ki, 2013-cü ilin

sonuna qədər bütün bölgələrdə qazlaşdırma layihələri maksimum dərəcədə başa çatsın. O cümlədən Astara rayonunda bu proses sürətlə gedir. Artıq kəndlər də qazlaşdırılır. Su-kanalizasiya layihələrinin həyata keçirilməsi hər bir rayon, hər bir şəhər üçün çox aktual məsələdir, o cümlədən Astara üçün də aktualdır. Bu məsələ də öz həllini tapır.

Avtomobil yollarının tikintisi. İndi Bakı–Astara magistral avtomobil yolu inşa edilir. Ümid edirəm ki, biz yaxın illərdə bu yolun açılışını qeyd edəcəyik. Kənd yolları çəkilir. Keçən dəfə Astarada olarkən bir neçə kəndi birləşdirən kənd yolunun açılışında iştirak etdim. Bu gün yenə də Astara rayonunda digər kəndləri birləşdirən yolun açılışında iştirak edəcəyəm. Biz çalışırıq ki, hər bir yaşayış məntəqəsində normal yaşamaq və işləmək üçün yaxşı şərait, infrastruktur, sosial infrastruktur olsun. Yəqin xatırlayırsınız ki, ölkəmizdə ilk modul tipli elektrik stansiyalarının tikintisi də məhz Astaradan başlamışdı. 90 meqavat gücündə olan birinci elektrik stansiyası məhz Astarada tikilmişdir. Bu stansiya indi həm Astara, həm bütün bölgə üçün vacib enerji mənbəyidir.

Bu çox gözəl hadisədir. Mən ürəkdən sevinirəm ki, bu gün Astarada da idmanla məşğul olmaq üçün çox gözəl şərait yaradılıbdır. Bu gözəl, Olimpiya Mərkəzi məhz əvvəlki dövrlərdə düzgün seçilmiş strategiya və taktikanın nəticəsində mümkün olmuşdur. Əgər biz iqtisadi gücü yaratmasaydıq, heç bir sosial infrastruktur, yaxud da ki, idman qurğusunun tikilməsinə imkanımız çatmazdı. Əgər biz güclü iqtisadiyyat yaratmasaydıq, bu gün ölkəmizin dünyadakı mövqeləri bu qədər güclü olmazdı. Əldə edilmiş bütün uğurlar məhz Azərbaycan xalqının xidmətidir.

Biz tam şəkildə müstəqil siyasət aparırıq, heç kimdən asılı deyilik və bundan sonra da heç kimdən asılı olmayacağıq. Biz müstəqilliyin qədrini bilirik. Müstəqillik sadəcə olaraq, dövlət atributu deyildir. Müstəqillik müstəqil siyasət aparmaq imkanlarıdır. Bu gün Azərbaycan bölgədə sabitləşdirici rolu oynayır. Dünya birliyi tərəfindən Azərbaycanın fəaliyyəti

təqdirlə qarşılanır. Ölkə daxilində proseslər çox müsbət istiqamətdə gedir. Bizim imkanımız var ki, belə gözəl idman qurğuları yaradaq və hər bir bölgənin, xüsusilə cənub zonasının inkişafı ilə bağlı əlavə konkret addımlar ataq.

Mən Astarada dəfələrlə olmuşam. Hər dəfə rayonda, şəhərdə olarkən yenilikləri görəndə çox sevinirəm. Keçən il də Astarada olmuşam. Keçən il həm yolun, həm Gənclər evinin açılışını qeyd etmişdik. Astara gözəlləşir, müasir gözəl şəhərə çevrilir. Mən bu uğurlarla bağlı və 34-cü Olimpiya İdman Kompleksinin açılışı münasibətilə bütün astaralıları ürəkdən təbrik edirəm. Arzu edirəm ki, hər bir gənc və hər bir vətəndaş bu kompleksin imkanlarından istifadə etsin, hər bir insan özünü rahat hiss etsin, hər bir ailədə sosial vəziyyət, dolanışıq yaxşı olsun, imkanlar artsın, ölkəmiz inkişaf etsin, insanlar rifah içində yaşasınlar.

Əziz dostlar, bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə və bütün astaralılara cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

## Astara Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimi

*Martın 13-də Azərbaycan prezidenti İlham Əliyev Astara Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın təmirdən əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, 1983-cü ildə tikilmiş üçmərtəbəli xəstəxana binası sonralar yararsız hala düşmüşdü. Ayrılan dövlət vəsaiti hesabına 90 çarpayılıq xəstəxana əsaslı şəkildə təmir olunaraq yenidən qurulmuş və ən müasir tibbi avadanlıqlarla təchiz edilmişdir.*

**İlham Əliyev:** Sizi gözəl hadisə münasibətilə təbrik edirəm. Çox şadam ki, Mərkəzi Rayon Xəstəxanası artıq gözəl görkəm alıbdır. Əvvəlki şəkillərə baxanda təsəvvür etmək çətindir ki, burada xəstələrə necə qulluq edilib. İndi isə bütün

gözəl imkanlar, şərait vardır. Vəsait ayrılmış və ondan səmərəli şəkildə istifadə olunmuşdur. Gözəl, müasir tibb mərkəzi yaradılıb. Mən indi baş həkimə deyirəm ki, bütün xəstələr – həm şəhərdən, həm də yaxın kəndlərdən olan xəstələr burada müalicə olunmalıdır. Əməliyyat şöbələri, reanimasiya, doğum şöbələri vardır. Bu da çox vacibdir.

Əlbəttə ki, həkimlərin peşəkarlığından da çox şey asılıdır. Burada gözəl avadanlıqlar quraşdırılıbdır. Gərək burada təlim kursları təşkil olunsun ki, xəstələrə gözəl qulluq edilsin. Astara Rayon Mərkəzi Xəstəxanasının istifadəyə verilməsindən sonra, demək olar ki, bütün bölgədə müasir tibb infrastrukturu yaradılmış olur. Çünki əvvəlki dövrlərdə Lənkəranda Müalicə-Diaqnostika Mərkəzi yaradılmışdır. Salyan Rayon Mərkəzi Xəstəxanası tikilmişdir. Biləsuvarda, Cəlilabadda diaqnostika mərkəzləri tikilmişdir. Yadımdadır ki, Lerikdə də xəstəxana açılmışdır. Bölgənin bütün əhalisi bu gözəl şəraitlə təmin edilir. Bir rayondan başqa rayona getmək üçün ehtiyac qalmır. Astara rayonunun sakinləri də mütləq tibbi xidmətdən istifadə etməlidir. Maarifləndirmə işləri də aparılmalıdır. Hər bir vətəndaş vaxtaşırı diaqnostikadan keçməlidir. Burada da şərait vardır. Ultrasəs və digər avadanlıqlar vardır. Həkimlər, tibb bacıları da xəstələrə yaxşı qulluq etməlidir.

**A l i y ə  H ə s ə n o v a** *(xəstəxananın həkimi):* Cənab Prezident! İcazə verin Sizi bütün astaralılar adından səmimi-qəlbdən salamlayım, rayonumuza «Xoş gəlmisiniz!» – deyim.

Bu gün sərəncamınız əsasında əsaslı təmir edilmiş və yenidən qurulmuş bu şəfa ocağının, gözəlliyi ilə göz oxşayan istirahət parkının açılışına toplaşmışıq. Əvvəllər xəstəxanamız bərbad vəziyyətdə idi. Müasir tibb avadanlığına ciddi ehtiyac duyulurdu. Xəstələrin burada stasionar müalicəsi üçün heç bir şərait yox idi. Ona görə də əhali məcbur olub xeyli vaxt və vəsait sərf edib rayondan kənarda yerləşən tibbi mərkəzlərə üz tuturdu. Buna görə də Azərbaycanın cənub qapısı, ulu öndər Heydər Əliyevin dediyi kimi, Azərbaycanın cənub mirvarisi

olan Astarada belə bir xəstəxananın yaradılmasına sərəncam verdiniz.

Bu gün açılışına gəldiyiniz bu xəstəxanada biz səhiyyə işçiləri əhaliyə daha yaxşı tibbi xidmət göstərəcəyik. Buna görə biz Sizə çox minnətdarıq.

İcazə verin bu fərəhli anlardan istifadə edərək Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanın Əliyevaya da dərin minnətdarlığımızı çatdıraq. Azərbaycanın birinci xanımı dünyanın mötəbər məclislərində ölkəmizi şərəflə təmsil edir. Dünya Mehriban xanımın timsalında Azərbaycan qadınının parlaq simasını görür. Biz səhiyyə işçiləri, bütün astaralılar Mehriban xanımla fəxr edirik. Bu gün biz astaralılar, xüsusilə gənclər ətrafınızda sıx birləşməklə, işıqlı ideyalarınızın həyata keçirilməsi üçün hər an Sizinləyik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən bir daha sizi təbrik etmək istəyirəm. Doğrudan da bu, gözəl hadisədir. Çünki insanların sağlamlığı hər şeydən üstündür, hər şeydən. Hər bir insan müəyyən dövrdə həkimlərə müraciət edir. Azərbaycanda hər bir yerdə gözəl tibbi xidmət göstərmək imkanı olmalıdır. Bizdə gözəl, peşəkar həkimlər vardır. Tibb məktəbi də güclüdür. Son illər səhiyyə sisteminin təkmilləşməsinə böyük vəsait ayrılıbdır. Ancaq vaxtilə tikilmiş xəstəxanalar əfsuslar olsun ki, sonra bərbad vəziyyətə düşmüşdür. Bunu oradakı şəkillərdən də görmək olar. Təsəvvür etmək çətindir ki, burada necə xidmət göstərmək olar? Ən gözəl həkim burada, belə şəraitdə xəstəyə kömək edə bilməzdi. Bizim borcumuz və vəzifəmizdir ki, belə gözəl tibb ocaqları yaradaq. Ona görə də indi səhiyyə obyektlərinin yaradılması, yeni xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri tikilməsi işi geniş vüsət alıbdır.

Çox şadam ki, Astarada da belə gözəl xəstəxana qapılarını artıq xəstələrin üzünə açır. Əminəm ki, burada ən yüksək səviyyədə tibbi xidmət göstəriləcəkdir. İcra başçısı mənə deyir ki, əvvəlki dövrdə müalicə üçün xaricə üz tuturdular. İndi xaricdən müalicə üçün buraya gələcəklər. Xəstəxananı yaxşı

vəziyyətdə saxlayın. Ən önəmlisi odur ki, müasir səviyyədə tibbi xidmət göstərilməlidir. Bunu etmək üçün indi bütün imkanlar vardır.

**Kijəbə–Ojakəran və Kijəbə–Qəcimardə avtomobil yolunun açılışı mərasimi** *Astara rayonuna səfəri çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev martın 13-də Kijəbə–Ojakəran və Kijəbə–Qəcimardə avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, Azərbaycan prezidentinin müvafiq sərəncamı ilə Kijəbə–Ojakəran və Kijəbə–Qəcimardə avtomobil yolunun 10 kilometrlik hissəsi əsaslı təmir olunmuşdur. Bu yoldan Kijəbə qəsəbəsinin və 9 kəndin 12 minə yaxın əhalisi, eyni zamanda, rayon mərkəzindən 25 kilometr məsafədə yerləşən Pəlikəş inzibati ərazi dairəsi üzrə nümayəndəliyin 13 kəndində yaşayan 7 minə yaxın sakini istifadə edir. Qəsəbənin girişində Bayraq Meydanı tikilmiş, dirəyinin hündürlüyü 25 metr olan Dövlət bayrağı ucaldılmışdır. Ərazidə istirahət parkı da salınmışdır. Qəsəbəyə gedən yol genişləndirilmiş, yolboyu abadlıq işləri görülmüşdür.*

*Bildirildi ki, qəsəbədə dəfələrlə olan ulu öndər Heydər Əliyevin göstərişi ilə keçən əsrin 60-cı illərinin sonunda burada kənd təsərrüfatı sahələrinin suvarılmasında müstəsna əhəmiyyət kəsb edən Lovayın Su Anbarı tikilib istifadəyə verilmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə ayrılan vəsait hesabına isə həmin su anbarının təmirinə başlanılmış və hazırda işlər davam etdirilir. Anbarın tutumu 6,3 milyon kubmetr, dərinliyi 17 metrdir. Burada yerləşən 4 aqreqatlı nasos stansiyasının köməyi ilə 1250 hektar əkin sahəsi suvarma suyu ilə təmin edilir.*

**İ l h a m Ə l i y e v:** Mən Astarada tez-tez oluram. Sizin də bayramınız mübarək olsun. Təbrik edirəm.

**S a k i n:** Çox sağ olun. Minnətdarıq Sizə.

**İ l h a m Ə l i y e v:** Bu bayram günündə çox yaxşı tədbirlər keçirdik. Həm Olimpiya Mərkəzinin, həm də Mərkəzi Xəstəxananın əsaslı təmir olunmuş binasının açılışında iştirak etdim. Xəstəxana çox bərbad vəziyyətdə idi. Demək olar ki, yox idi. İndi gözəl tibb ocağı yaradılıbdır. Yol tikintisi də çox vacib məsələdir. Keçən ilin aprel ayında da Astarada idim, başqa kənd yolunun açılışında iştirak edirdim. Bu gün, bir ildən sonra isə Kijəbə qəsəbəsini başqa kəndlərlə birləşdirən yolun açılışında iştirak edirəm. Yol həyatdır. Yol olmadan inkişaf ola bilməz.

**S a k i n:** Bu gözəlliyə, yaratdıqlarınıza görə bütün Astara əhalisi adından Sizə minnətdarıq. Bu gün bayramımız ikiqat olacaqdır. Sizin gəlişinizi də, çərşənbə bayramını da qeyd edərik. Sizə bu bayram günündə uğurlar arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizə də uğurlar arzulayıram. Mənim arzumdur ki, hər bir kənddə, hər bir qəsəbədə işlər yaxşı getsin, yaşamaq üçün, işləmək üçün bütün şərait olsun. Qazlaşdırma gedir. İndi sizin kəndə qaz çəkilibdir, işıq vardır.

**S a k i n:** 24 saat təbii qazla təminatımız vardır. İşıq da 24 saat yanır.

**İ l h a m Ə l i y e v:** Ərkivan kəndində əvvəl elektrik stansiyası tikdik. İndi yol vardır. Su layihəsi də icra edilir. Şəhərdə su-kanalizasiya layihəsi artıq başlamaq üzrədir. Qalan işlər indi sizdən asılıdır. Kənd təsərrüfatının inkişafı üçün də kreditlər, gübrələr, əlavə texnika verilir. Soyuducu anbarlar, taxıl anbarları tikilir. Biz istəyirik ki, bu inkişafa daha da güclü təkan verək. Hər bir bölgədə, hər bir kənddə yaxşı şərait olsun, rifah artsın, iş yerləri açılsın və gözəl abadlıq işləri görülsün. Bu qəsəbə bir azdan sonra şəhərə oxşayacaqdır.

Keçən dəfə də Astaranın bir neçə kəndində olmuşdum. Burada həm yol tikintisi ilə bağlı kəndlərdə olduq, sonra kiçik su-elektrik stansiyasının təməlini qoyduq. Orada da işlər gedir. Yaxın zamanlarda o da istismara veriləcək. Astaranı mən indi yaxından tanıyıram. Prezident kimi, 5-ci dəfədir ki, gəlirəm. Əvvəlki dövrdə ulu öndərlə bərabər burada olmuşam. Hər dəfə

burada yenilik, inkişaf görəndə ürəyim açılır. Sizin qədər mən də sevinirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

**S a k i n l ə r:** Çox sağ olun. Biz Sizinlə fəxr edirik. Bütün Azərbaycan xalqı kimi, Astara ictimaiyyəti də həmişə Sizinlədir. Çalışarıq etimadınızı doğruldaq. Dövlətimizin bu gözəl qayğısına biz də işimizlə cavab verək.

## MASALLI RAYONUNA SƏFƏR

*13 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Masallı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Masallı şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ümummilli liderin adını daşıyan park yenidən qurulub. Burada 2011-ci ildə Heydər Əliyev Muzeyinin bazasında Heydər Əliyev Mərkəzi yaradılıb. Parkda rayon sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait vardır.*

### Su-kanalizasiya sisteminin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev martın 13-də «Milli su təchizatı və kanalizasiya xidmətləri» üzrə ikinci layihə çərçivəsində yenidən qurulacaq Masallı şəhər su-kanalizasiya sisteminin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı ikinci layihə çərçivəsində görülən işləri əks etdirən stendlərə baxdı.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Məmmədsadıq Quliyev Azərbaycan prezidentinə məlumat verdi ki, Masallıda su təchizatı sisteminin təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Tikintisi 1990-cı ildə dayandırılan təmizləyici kanalizasiya qurğusu da yararsız vəziyyətdədir.*

*Qeyd olundu ki, yeni layihə əsasında Masallı şəhərində adambaşına düşən suyun həcmi gün ərzində 180 litr hesablanmışdır. Bu isə 2030-cu il üçün supaylayıcı şəbəkəyə 24 saat ərzində su verməklə ildə 2 milyon 400 min kubmetr su tələbatı deməkdir. Masallı şəhərinin su təchizatını yaxşılaşdırmaq üçün Viləşçay su anbarı əsas mənbə kimi qəbul olunmuşdur. Yeni layihə*

*çərçivəsində həcmi 5 min kubmetr olan su anbarının inşası da təklif edilmişdir. İçməli su Viləşçay anbarının çıxışından təxminən 400 metr məsafədə yerləşən təmizləyici stansiyaya öz axını ilə daxil olacaqdır. Həmin stansiyanın maksimal gücü gündəlik 22 min kubmetr təşkil edəcəkdir. Bu da Masallı və Cəlilabad rayonlarının içməli su ilə təchizatını təmin etmək üçün kifayətdir. Həmin qurğudan gündəlik 6 min 566 kubmetr su eyni ərazidə yerləşəcək yeni anbara veriləcəkdir və buradan su öz axını ilə boru xətti vasitəsilə supaylayıcı şəbəkəyə ötürüləcəkdir.*

*Layihə ilə tanışlıqdan sonra prezident İlham Əliyev Masallı şəhərinin yeni su-kanalizasiya sisteminin təməlini qoydu.*

*Dövlətimizin başçısı gilizi təmələ buraxdı və beton qarışığı tökdü.*

*Azərbaycan prezidenti müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Masallı Mədəniyyət Evində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıq

*Martın 13-də Azərbaycan prezidenti İlham Əliyev Masallı Mədəniyyət Evində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlət başçısı Mədəniyyət evinin təmirdən əvvəlki vəziyyətini və təmir işlərinin gedişini əks etdirən stendə baxdı. Məlumat verildi ki, 1956-cı ildə inşa olunmuş Mədəniyyət evi əsaslı şəkildə təmir edilməmişdir. Rayonun bu əsas mədəniyyət ocağının təmirinə ötən ilin avqustunda başlanılmışdır.*

*Qeyd edildi ki, 358 yerlik tamaşaçı salonundan və digər yardımçı otaqlardan ibarət üçmərtəbəli Mədəniyyət evinin bütün infrastrukturu hazırda tamamilə yenidən qurulur. Mədəniyyət evi təmirdən sonra yenidən rayonun əsas mədəni-kütləvi tədbirlər mərkəzinə çevriləcəkdir.*

*Mədəniyyət evində aparılan əsaslı təmir işlərinin gedişi ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Prezident İlham Əliyev martın 13-də Masallıya səfəri çərçivəsində Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına məlumat verdi ki, Mərkəzin tikintisinə 2011-ci ildə başlanılmışdır.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətlərinin müxtəlif məqamlarını əks etdirən fotoguşələr yaradılmışdır.*

*Bildirildi ki, Mərkəzin oyun zalı müasir avadanlıqla təchiz edilmişdir. Mərkəzdə rəsm qalereyası da gənclərin ixtiyarına verilmişdir. Burada gənc rəssamların sərgiləri təşkil olunacaq və digər tədbirlər keçiriləcəkdir.*

*Qeyd edildi ki, tir otağı iki hissədən ibarətdir. Birinci hissədə 10 metrlik məsafədən atəş açmaq üçün pnevmatik tir otağı yaradılmışdır.*

*Diqqətə çatdırıldı ki, otağın ikinci hissəsi interaktiv atıcılıq tiridir. Burada 30-a qədər müxtəlif proqramlardan istifadə etmək imkanı yaradılmışdır. Onlardan ikisi olimpiya idman növüdür.*

*Prezident İlham Əliyev Gənclər Mərkəzinin konfrans zalında Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan gənclərin nümayəndələri ilə görüşdü və çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün biz Masallıda Gənclər Mərkəzinin açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Çox gözəl Mərkəzdir. Son illər ərzində Azərbaycanda gənclər evlərinin, gənclər mərkəzlərinin tikintisi geniş vüsət almışdır. Bir il bundan əvvəl də mən cənub bölgəsində idim. Biz onda Astarada Gənclər Mərkəzinin açılışını qeyd etdik, bu gün isə Masallıda qeyd edirik.

Bütövlükdə hər bir bölgədə gənclər üçün gözəl evlər tikilir. Ən önəmlisi ondan ibarətdir ki, gənclər bu evlərdən səmərəli şəkildə istifadə etsinlər. Burada daim fəaliyyət olmalıdır və gənclər öz asudə vaxtlarını burada keçirməlidirlər. Ümid edirəm ki, yaxın illərdə ölkəmizin hər bir şəhərində gənclər evləri olacaqdır.

Gənclər siyasəti Azərbaycanda uğurla aparılır. Müstəqilliyimizin ilk illərində ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasəti bu gün uğurla davam etdirilir. Gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Mən çox şadam ki, Azərbaycan gəncləri çox fəaldırlar, vətənpərvərdirlər. Gənclər bu gün və xüsusilə gələcəkdə ölkəmizin inkişaf istiqamətlərini müəyyən edəcəklər.

Bu gün də gənclər siyasəti Azərbaycanda çox önəmli bir sahəni əhatə edir və bu istiqamətdə əlavə konkret tədbirlər görülür. Keçən il «Azərbaycan Gəncliyi» Dövlət Proqramı qəbul edilmişdir. Proqramın qəbul olunması zərurət idi və dövlətimizin bu sahəyə diqqətini göstərir. Müzakirə zamanı mənim gənclərlə görüşlərim əsnasında proqrama əlavələr, dəyişikliklər edildi. Çox istəyirdim ki, gənclər bu proqramın qəbul edilməsində fəal iştirak etsinlər və belə də oldu. Çox geniş ictimai müzakirələr aparıldı. Mənim gənclərlə görüşlərim mütəmadi xarakter daşıyır və xüsusilə poqramın qəbul edilməsi ərəfəsində bu görüşlərə böyük ehtiyac var idi.

Biz çox dəqiq, konkret və işlək proqram qəbul etdik. Proqram hansısa bir niyyətin ifadəsi, şüar naminə atılan addım deyil, konkret xarakter daşımalıdır, konkret xarakter də alıbdır. İcrası artıq başlanmışdır. Orada vacib məsələlərdən biri Gənclər Fondunun yaradılması idi. Bu fond təsis edildi və dərhal Prezidentin ehtiyat fondundan Gənclər Fondunun fəaliyyətinin genişləndirilməsi üçün 5 milyon manat vəsait ayrıldı. Mənim tərəfimdən göstəriş verildi ki, bu vəsaitdən səmərəli istifadə olunsun, müxtəlif proqramlar icra edilsin, layihələr, qrantlar verilsin ki, gənclərin fəaliyyətini biz belə maliyyə resursları ilə də dəstəkləyək. Bir daha demək istəyirəm ki, Azərbaycan

gəncliyi çox fəaldır və bu çox vacibdir. Çünki siz gələcəkdə ölkəmizin inkişafını müəyyən edəcəksiniz.

Ölkəmizin müstəqillik həyatı cəmi 20 il təşkil edir. Bu, tarix üçün böyük bir dövr deyil, ancaq bu 20 il ərzində ölkəmiz sürətlə inkişaf etdi. Ölkədə bütün təsisatlar quruldu, dövlətçilik əsasları yaradıldı. Bizim əcdadlarımız əsrlər boyu müstəqillik eşqi ilə yaşamışlar. Əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq. Ona görə, müstəqillik bərpa olunduqdan sonra ölkəmizin hansı istiqamətlər üzrə inkişafı ən vacib məsələlərdən biri idi. O illərdə bugünkü Azərbaycanın reallıqları formalaşırdı. Ulu öndər Heydər Əliyevin strateji baxışları və gələcəyə atılmış addımlar bugünkü reallıqları da mümkün etmişdir.

20 il ərzində ölkəmiz inkişaf etdi, müstəqillik möhkəmləndirildi, siyasi və iqtisadi islahatlar aparıldı və bu gün Azərbaycan bölgədə söz sahibidir. Bölgədə bizim iştirakımız olmadan heç bir layihə, heç bir təşəbbüs uğurla nəticələnə bilməz. Azərbaycanla hesablaşırlar. Azərbaycanın mövqeyi bir çox hallarda həlledici rol oynayır. Bütün bunlara biz cəmi 20 il ərzində nail ola bilmişik. Gələcək 10 il, 20 il üçün bizim konkret planlarımız, strategiyamız vardır. Əslində mən daha da qabağa baxmağa çalışıram. 50 ildən sonra ölkəmiz necə, nəyin və hansı resursların hesabına inkişaf edəcəkdir?! Prezident kimi, mənim və bu gün iqtidarda olan hər bir şəxsin vəzifəsi ondan ibarətdir ki, dayanıqlı inkişafımızı təmin edək.

Bu gün iqtisadi uğurlarımız reallıqdır. Azərbaycan siyasi cəhətdən də çox sabit ölkədir. Bölgədə də mövqelərimiz gündən-günə möhkəmlənir. Təbii resurslarımız da, insan resurslarımız da var və istedadlı insanlarımız da kifayət qədər çoxdur. Amma gələcəkdə biz necə inkişaf edəcəyik və siz gələcəkdə ölkəmizi necə idarə edəcəksiniz – bu məni düşündürən məsələlərdir. Vətəni sevən hər bir insan gələcəyi düşünməlidir.

20 illik tariximiz çox uğurludur. İyirmi ildə biz, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü dünyaya təqdim etdik.

Dünya birliyi bizə hörmətlə yanaşır. Keçən ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasına bizim seçilməyimiz tarixi hadisədir, tarixi uğurdur. Xarici siyasət sahəsində bu, 20 il ərzində bəlkə də ən böyük uğurumuzdur. Çünki çətin, gərgin mübarizədə dünya ictimaiyyəti bizə öz dəstəyini verdi. Güclü rəqiblərimiz var idi və 16 turdan sonra Azərbaycan o səsi haqlı olaraq qazandı, çünki bəri başdan, ilk turdan biz öndə idik. 155 ölkə bizi dəstəklədi. Budur, «beynəlxalq ictimaiyyət», «beynəlxalq aləm», «beynəlxalq ictimai rəy» deyəndə biz məhz bunu nəzərdə tuturuq. Bu doğrudan da tarixi nailiyyətdir. Növbəti 2 il dünyanın ən mötəbər qurumu olan Təhlükəsizlik Şurasında biz öz siyasətimizi aparacağıq, beynəlxalq hüququ müdafiə edəcəyik. Bunlar 20 il ərzində görülən işlərdir. Bu barədə çox danışmaq olar. İqtisadi sahədə, sosial sahədə inkişaf, bölgələrin inkişafı – hər şey göz qabağındadır. Bundan sonrakı dövr üçün də bizim kifayət qədər aydın fikirlərimiz və planlarımız vardır. Gələcəkdə Azərbaycan nəyin hesabına inkişaf edəcək – bu gün biz bu barədə düşünməliyik, düşünürük və siz də düşünməlisiniz. Bu sizdən, Azərbaycan gənclərindən asılı olacaqdır. Gələcəkdə ölkənin müqəddəratı sizin əlinizdə olacaqdır və siz elə etməlisiniz ki, müstəqillik daim və daim güclənsin. Biz müstəqil siyasətimizdən bir addım belə, kənara ata bilmərik. Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir və biz müstəqilliyi qorumalıyıq.

İyirmi il, əlbəttə ki, həm qısa bir dövr, həm də böyük bir dövr kimi qəbul edilə bilər. İyirmi il ərzində çox iş görmək olar və biz bu işləri görmüşük. Ancaq tarix qarşısında bu 20 il bir andır. Elə etməliyik ki, müstəqilliyimiz əbədi olsun. Biz elə etməliyik ki, bölgədə mövqelərimiz daim güclənsin. Biz elə iqtisadiyyat qurmalıyıq ki, gələcəkdə neftdən, qazdan asılı olmasın. Bizim elə istedadlı insanlarımız olmalıdır ki, gələcəkdə Azərbaycan da dünyada elmi-texniki sahədə gedən proseslərə öz töhfəsini verə bilsin. Hələ ki, biz buna nail ola bilmirik. Nə edə bilərik?! Biz dünyanın ən qabaqcıl təcrübəsini Azərbaycana gətirə bilərik və gətiririk. Biz dünyada inkişaf

istiqamətlərini bilirik. Dünya iqtisadiyyatı hansı yolla inkişaf edəcək, biz bunu bilirik və bu sahələr bizim üçün də prioritetdir. İnformasiya-kommunikasiya texnologiyaları, müasir texnologiyalar, insan zəkasına əsaslanan yeniliklər! Bu amillər dünyanın gələcəyini müəyyən edəcəkdir. Biz bu sahədə indi elə hazırlıq işləri görməliyik ki, istedadlı insanlarımız gələcəkdə texnoloji tərəqqiyə öz töhfələrini verə bilsinlər. Gələcək bununla bağlıdır, neftlə, qazla, təbii resurslarla bağlı deyil. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu ölkələr təbii resurslarla zəngin ölkələr deyil. Əfsuslar olsun ki, təbii resurslarla zəngin olan ölkələrin tam əksəriyyəti inkişaf etmiş ölkələr deyil. Biz bu mənfi təcrübəni də dərindən öyrənmişik. Azərbaycanda neft-qaz sektorunda elə vəziyyət yaranıb ki, ölkəmizdə təbii sərvətlər insanların rifah halının yaxşılaşdırılmasına xidmət edir. Son 8 ildə yoxsulluq səviyyəsi aşağı düşərək 7,6 faiz təşkil etmişdir.

Azərbaycanda təbii resurslar və o resurslardan əldə olunan gəlirlər ədalətli şəkildə bölünür. Ancaq bu bizim üçün bir mərhələdir, bir sınaq idi və biz bu sınaqdan şərəflə çıxdıq. Öz enerji resurslarımızı Azərbaycan vətəndaşının sərəncamına verdik və öz enerji siyasətimizlə bu gün bölgədə və Avropada gedən proseslərə də təsir edirik. Amma gələcək ancaq biliklə bağlıdır. O ölkələr gələcəkdə üstünlük əldə edəcək ki, orada elmi-texniki tərəqqi, texnoloji yeniliklər vardır. Çalışmalıyıq ki, o ölkələrin sırasına düşək. Bu mümkündür. Mümkün olmayan heç nə yoxdur. Mən tam əminəm ki, Azərbaycanda ən yüksək həyat səviyyəsinə çatmaq, ölkəmizi inkişaf etmiş ölkəyə çevirmək üçün imkan vardır. Bizim yaxın tariximiz göstərir ki, biz istənilən məqsədə çata bilirik. Baxmayaraq ki, bu bəzi hallarda çox çətin olur, bəzi hallarda o hədəf bizə əlçatmaz kimi görünür. Ancaq biz buna qadirik. Əminəm ki, biz düşünülmüş siyasətlə xalqımızın gələcəyini də təmin edə biləcəyik.

Mən Prezident kimi, bu vəzifələri çox aydın görürəm. Ölkədə gedən inkişaf istiqamətlərini müəyyən edən şəxs kimi, mən bu ideyalara dərindən inanıram. Əlbəttə ki, bundan sonra

da çalışacağam ki, ölkəmizin hərtərəfli inkişafı üçün əlimdən gələni edim. Çox istəyirəm ki, bizdən sonra gələn nəsil, bax, bu müsbət meyilləri daha da gücləndirsin.

Gənclər ilk növbədə bilikli olmalıdır. Əminəm ki, siz hamınız bu barədə fikirləri bölüşürsünüz. Bilik, savad, istedad, yenilik, müasirlik – hesab edirəm ki, gənclər üçün əsas istiqamətlər bunlardır. Ancaq təkcə bilikli olmaq kifayət deyildir. Gənclər nə qədər bilikli olsalar, bir o qədər də vətənpərvər olmalıdırlar. Çünki vətənpərvərlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Vətən sevgisi, Vətənə və xalqa olan bağlılıq – inkişafı bu amillər stimullaşdırır. Ölkəmizdə gedən quruculuq-abadlıq işlərinin təməlində də məhz bu amil dayanır – Vətən sevgisi!

Biz istəyirik ki, ölkəmiz daha da yaxşı olsun, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanın şöhrəti daha da artsın.

Ona görə, gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə olunmalıdırlar. Bu gün bu barədə biz bəlkə daha da geniş danışmalıyıq. Çünki dünyada gedən qloballaşma prosesi, ondan sonra bəzi təsir dairələrinin fəaliyyəti və sair narahatedici məqamlar vardır. Ona görə gənclərimizin uşaq yaşlarından milli ruhda böyüməsi çox vacibdir.

Əlbəttə ki, bu hər bir ailədə hökm sürən ab-havadan asılıdır. Azərbaycan ailələri safdır, ailə dəyərləri bizim üçün çox əzizdir. Elə də olmalıdır. Bundan sonra da elə olmalıdır. Ancaq istər-istəməz qloballaşma meyilləri bizdən də yan keçə bilməz. Qloballaşmanın müsbət tərəfləri də, çox mənfi tərəfləri də vardır. Mənfi tərəflərindən biri milli duyğuların elə bil ki, müəyyən dərəcədə əriməsi, yaxud da ki, onların kənara qoyulması məsələsidir. Ona görə, gənclər milli ruhda tərbiyə almalıdırlar. Bu sadəcə olaraq, gözəl sözlər deyil, bu bir zərurətdir və biz elə etməliyik ki, Azərbaycan gənci vətənpərvər olsun, Vətənə bağlı olsun. Nəzərə alsaq ki, Azərbaycan kimi ölkədə yaşamaq doğrudan da böyük şərəfdir və böyük xoşbəxtlikdir.

Gənclər fiziki cəhətdən sağlam olmalıdırlar. Biz buna nail olmaq üçün çalışırıq. Bu gün Astarada olimpiya mərkəzinin, yeni xəstəxananın açılışını qeyd etdik. Bu, sağlamlıqla bağlı olan məsələlərdir. Masallıda əvvəlki dövrdə də oxşar tədbirlər olmuşdur. Ətraf rayonlarda sosial məsələlərin həlli, insanların sağlamlığı ilə bağlı olan tədbirlər çox gözəl tədbirlərdir. Fiziki sağlamlıq insana keyfiyyətli həyat bəxş edir. Adam özünü gümrah, fiziki cəhətdən sağlam hiss edəndə daxili əminlik də, əzmkarlıq da güclənir, işə olan zövq də artır. Ona görə fiziki sağlamlıq çox vacib məsələdir. Mən hər bir gəncə bunu tövsiyə edirəm. Öz təcrübəmdən istifadə edib tövsiyə edirəm. İnsanın sağlamlığı üçün fiziki fəallıqdan, idmanla məşğul olmaqdan yaxşı vasitə ola bilməz.

Gənclərimiz ölkədə gedən proseslərdə çox fəal iştirak etməlidirlər. Mən çox şadam ki, biz bunu görürük. İstəyərdik ki, gənclərimiz daha da fəal olsunlar. İctimai həyatda, iqtisadi dirçəlişdə, hər bir bölgədə proseslərin düzgün istiqamətdə getməsini müəyyən edən işlərdə gənclərin fəaliyyətindən çox şey asılıdır. Gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və gənclik dövrü çox gözəl dövrdür. Əfsuslar olsun ki, bu dövr də başa çatır. Söhbət ondan getmir ki, sənin neçə yaşın var. Əgər özünü yaxşı hiss edirsənsə, gənc hiss edirsənsə, yaşdan asılı olmayaraq fəallıq və əzmkarlıq daim səninlə olacaqdır.

Ona görə mən gənclərin ictimai və iqtisadi həyatda fəaliyyətini çox yüksək qiymətləndirirəm. Bizim kadr siyasətimizdə də mən bütün qurumlara tövsiyə etmişəm ki, gənclərə üstünlük versinlər. İndi pensiya islahatı ilə bağlı, yəqin bilirsiniz, yeni yanaşmalar tətbiq olunur ki, gənclərə yol açılsın. Hər bir dövrün öz gözəlliyi, öz xüsusiyyətləri vardır. Pensiya dövrünün də gözəl xüsusiyyətləri vardır. Biz elə etməliyik ki, pensiyaya çıxan insanların layiqli həyatını təmin edək. Keçən il 900 minə qədər pensiyaçının pensiyası 40 faizdən çox artmışdır. Sosialyönümlü bu tədbirlər gənclərə yol açmaq məqsədini güdür. Gənclərimiz biliklidir, savadlıdır və onlar ölkəmizin inkişafında daha da fəal rol oynaya bilərlər və oynamalıdırlar.

Xaricdə yaşayan gənclər də Azərbaycan gəncliyinin ayrılmaz hissəsidir. Dünən Bakıda Dünya Azərbaycanlı Gənclərinin təsis qurultayı keçirilmişdir. Bu çox gözəl hadisədir. Xaricdə yaşayan gənclər Azərbaycanın təbliğində öz rollarını oynayırlar. Ümumiyyətlə, gənclərimiz ölkəmizin inkişafı üçün çox dəyərli işlər görürlər. Azərbaycanın dünyadakı mövqelərinin möhkəmləndirilməsində, Azərbaycan haqqında həqiqətlərin dünya birliyinə çatdırılmasında gənclər ön sıradadırlar. Ölkəmizin reallıqlarını dünyaya çatdırmaq üçün ən fəal insanlar gənclərdir.

Xocalı faciəsinin soyqırımı kimi tanınmasında ilk sıralarda yenə də gənclərdir. Azərbaycanın idman, musiqi şöhrətini yüksəklərə qaldıran gənclərdir. Müstəqilliyimizin keşiyində dayanan, bu gün səngərdə düşmənlə üz-üzə dayanan yenə də gənclərdir. Gənclərimiz böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Bütün bunlar reallıqdır və gənclərə olan münasibət məhz bu amillər üzərində qurulmalıdır. Cəmiyyətdə gəncləri daha da fəal ictimai həyata cəlb etmək üçün əlavə tədbirlər görülməlidir.

Biznesdə gənclər çox fəaldırlar. Mən bölgələrdə və Bakıda indi iqtisadi inkişafla bağlı daim tədbirlərdə, açılışlarda oluram və görürəm ki, ən müasir müəssisələrdə gənclər işləyir, ən müasir texnologiyaları tələb edən dünya səviyyəli biznes qurumlarında gənclərdir, qabaqda gedən gənclərdir. Çünki onlar bu yeniliklərə daha da meyillidirlər və müasir inkişaf meyillərini də onlar yaxşı bilirlər. Misal üçün, bizim ailədə mən əvvəlki nəslin nümayəndəsiyəm. Kompüterlə bağlı olan hər hansı bir məsələni həll etmək üçün mən uşaqlarıma müraciət edirəm, onlardan soruşuram. Bu da təbiidir və onlar bu işləri çox yaxşı bilirlər. Mənim dövrümdə nə kompüter, nə informasiya-kommunikasiya texnologiyaları var idi. Ancaq uşaqlarımız, gənclərimiz, yeniyetmələrimiz bütün bu işləri yaxşı bilirlər. Belə də olmalıdır. Əminəm ki, Azərbaycanda nəsillərin dəyişməsi prosesində də biz nümunə ola bilərik. Ardıcıllıq olmasa, bu inkişaf meyilləri pozula, qırıla bilər. Müsbət təcrübə

əsasında yaradılmış bu ardıcıllıq inkişafımızın səbəblərindən biridir. Bizdən sonra gələn nəsillər bizdən də bilikli, savadlı, bacarıqlı olmalıdırlar. Belə olmasa, inkişaf olmaz. Mən istəyirəm ki, daim inkişaf olsun. İnkişafın hüdudları ola bilməz. Qürur hissi ilə deyə bilərik ki, ölkə iqtisadiyyatı inkişaf edir, quruculuq işləri aparılır, Azərbaycan dünyada daha da güclü dövlət kimi tanınır.

Hər birimiz daim işləməliyik və hər gün, hər an fikirləşməliyik ki, ölkə üçün biz nə edirik, nə edə bilərik?! Mən bir daha sizi ürəkdən salamlayıram. Sizə xoş arzularımı bildirmək istəyirəm. Mən Azərbaycan gənclərinə inanıram, onları dəstəkləyirəm. Çox şadam ki, gənclərimiz ölkəmizin şöhrətini yüksəklərə qaldırırlar. Sağ olun.

**Nigar Əliyeva (***Bakı Dövlət Universitetinin III kurs tələbəsi***):** Mən Prezident təqaüdçüsüyəm. Masallı rayonunun Bala Təklə kəndinin sakiniyəm. Möhtərəm cənab Prezident, Masallı gəncləri adından Sizi salamlayıram. Doğma Masallımıza xoş gəlmisiniz! Bizimlə belə səmimi ünsiyyət saxladığınıza və dəyərli vaxtınızı bizə sərf etdiyinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Mən 2009-cu ildə 670 balla Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuşam. Sizin gənclərə göstərdiyiniz xüsusi qayğının, diqqətin və onların uğuruna verdiyiniz qiymətin nəticəsi olaraq Prezident təqaüdünə layiq görülmüşəm. Üç ildir ki, böyük səylə çalışaraq bu böyük fəxrli adı qoruyub saxlayıram. Sizin gənclərə göstərdiyiniz hər bir dəstək onların inamının, gələcəyə ümidinin mənbəyidir.

Cənab Prezident, bu gün Sizin rəhbərliyiniz altında Azərbaycanımız yüksək səviyyədə inkişaf edir. Bu inkişaf Masallıda da özünü büruzə verir və verməkdədir. Çox təqdirəlayiq bir haldır ki, Sizin təşəbbüsünüzlə bu gün rayonumuzda müasir standartlara uyğun Gənclər Mərkəzi inşa olunub. Sevinirəm ki, bu Mərkəzin açılışında mən də iştirak edirəm. Əminəm ki, bu Mərkəzin fəaliyyəti nəticəsində gənclərimizin dünyagörüşü, intellektual səviyyəsi daha da yüksələcək və onlar hərtərəfli

inkişaf edəcəklər. Xüsusilə istərdim ki, ucqar kəndlərdə yaşayan gənc qızlarımız bu Mərkəzə cəlb olunsun və buradakı proqramlardan, informasiya texnologiyalarından istifadə etsinlər. İnanıram ki, gənclərimiz bu Mərkəzin imkanlarından maksimum istifadə edib asudə vaxtlarını səmərəli keçirəcəklər

Hörmətli cənab Prezident, bu gün Sizin gəlişiniz bizim üçün tarixi hadisədir. Çünki bu gün bizim milli adət-ənənələrimizi özündə əks etdirən çərşənbə axşamıdır. Bu bayram münasibətilə Sizi və görüşümüzün bütün iştirakçılarını təbrik edirəm.

**İlham Əliyev**: Sağ olun. Daha kimin sözü var?

**Yalçın Əliyev** *(Yeni Azərbaycan Partiyası Lənkəran şəhər təşkilatı Gənclər Birliyinin sədri):* Hörmətli cənab Prezident, mən də öz növbəmdə Sizi Yeni Azərbaycan Partiyası Lənkəran şəhər təşkilatı gənclər birliyinin çoxsaylı üzvləri adından salamlayıram. Bu gözəl Gənclər Mərkəzini biz gənclərə bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Son dövrlər Azərbaycanımızın bütün sahələrində olduğu kimi, gənclər siyasəti sahəsində də çox böyük irəliləyişlər göz qabağındadır. Biz gənclərə olan diqqət hər zaman hiss olunur.

Son dövrlərdə Azərbaycanımızın, gənclərimizin daha çox inkişafı, gənclərimizin beynəlxalq aləmdə Azərbaycanımızı təmsil etməsi bizi hədsiz sevindirir. Cənab Prezident, Azərbaycan gənci olaraq ölkəmizin ərazi bütövlüyünün bərpası naminə həyata keçirdiyiniz siyasəti dəstəkləyirik, hər zaman Sizin ətrafınızda sıx birləşdiyimizi bəyan edirik.

**Könül Mustafazadə (***Lerik Rayon Mərkəzi Xəstəxanasının həkimi***):** Möhtərəm cənab Prezident, mən Gəncə şəhərində anadan olmuşam. Azərbaycan Tibb Universitetini bitirib Rusiyanın Moskva şəhərində mama-ginekologiya ixtisası üzrə ordinatura keçmişəm. Vətənimizə qayıdandan sonra Səhiyyə Nazirliyinin müqaviləsi əsasında bir illiyə Lerik rayonuna göndərilmişəm. Sözün açığı, ilk anda bunu eşidəndə inanmadım, bir qədər təşvişə də düşdüm. Çünki Lerikin ucqar bir rayon olduğunu düşünürdüm və burada üzləşə biləcəyim məişət və iş şəraiti məni bir qədər narahat edirdi. Lakin rayona

gəldikdə, buranın inkişafını gördükdə müsbət mənada xeyli təəccübləndim. Lerik rayonunda Sizin təşəbbüsünüz və diqqətinizlə aparılan geniş abadlıq və quruculuq işlərinin şahidi oldum. Bölgəmizdə gedən inkişaf məni bir gənc kimi, olduqca sevindirdi.

Cənab Prezident, rayonda yaradılmış şəraitə, iş yerlərinin təklifinə baxmayaraq, bir neçə sahədə kadr çatışmazlığı problemi hələ də qalmaqdadır. Gənclərimiz, xüsusən mənim kimi xaricdə təhsil alıb Vətənimizə dönən mütəxəssislərimiz regionlarımızda işləməyə meyil göstərmirlər. Şəxsi təcrübəmdən deyə bilərəm ki, bu heç də pis başlanğıc deyil. Bu problemin də bir neçə səbəbləri var. Fikrimcə, gənclərimizin regionlara cəlb edilməsi yönündə aparılan təbliğat işləri bir qədər gücləndirilməlidir. Digər tərəfdən, gənc mütəxəssislərimiz bir qədər stimullaşdırıla bilərlər. Onların məişət problemləri həll edilsə, yaşayış yeri ilə təmin edilsələr, bu məsələ aradan qalxar. Regionlarımızda da müvafiq şərait yaradılarsa, gənc mütəxəssislərimiz təkcə paytaxtda deyil, bölgələrimizdə də öz ixtisaslarına uyğun işlə təmin edilə bilərlər. Diqqətinizə görə çox sağ olun.

**İ l h a m   Ə l i y e v:** Sağ olun. Mən sizinlə razıyam və dediyiniz məsələlər «Azərbaycan Gəncliyi» Dövlət Proqramında da öz əksini tapıbdır. Biz əlavə tədbirlər görməliyik ki, gənc mütəxəssisləri daha da stimullaşdıraq. Lerik Rayon Mərkəzi Xəstəxanasının açılışını səhv etmirəmsə, 2 il əvvəl qeyd etmişdik və çox gözəl xəstəxanadır, gözəl yerdə də yerləşir – düz şəhərin mərkəzində. Mən Lerikdə dəfələrlə olmuşam. Siz Gəncədə doğulmusunuz, Rusiyada oxumusunuz, gəlmisiniz Azərbaycana, Lerikə. Mən təsəvvür edirəm ki, siz oraya hansı fikirlərlə gedirdiniz. Amma gəlib Leriki görəndə, əlbəttə ki, o fikirlər dəyişdi.

Lerikin inkişafı ilə bağlı bizim addımlarımız Lənkəran–Lerik yolunun tikintisindən başlandı. Bu yol çox bərbad vəziyyətdə idi. Ümumiyyətlə, oranın çətin relyefi var. Orada tez-tez uçqunlar, sürüşmələr olur. Vaxtilə o yolu getmək üçün bir neçə saat vaxt

lazım idi. Biz yolu çəkəndən sonra rahatlıq yarandı. İkincisi, Lerikdə heç sovet dövründə qaz olmamışdı. Lerik bir neçə rayondan biridir ki, sovet dövründə qaz çəkməmişdilər, çünki iqtisadi cəhətdən səmərəsiz idi və bizim oraya qaz çəkməyimiz də sırf sosial məna daşıyırdı. Çünki bu qaz xəttinə çəkilən xərclər heç vaxt qaz pulunun ödənilməsi ilə qayıtmayacaqdı. Ancaq onu da etdik və Lerikin mərkəzində və bəzi ətraf kəndlərində artıq qaz vardır.

Orada sosial infrastrukturun yaradılması üçün əlavə tədbirlər görüldü, məktəblər təmir edildi. Ümumiyyətlə, Lerik şəhəri gözəlləşdi və deyə bilərəm ki, belə təcrübələr çoxdur. Bizim regional inkişaf proqramımızın əsas məqsədi ondan ibarət idi ki, insanlar yaşadıqları bölgələrdən miqra-siya etməsinlər, böyük şəhərlərə getməsinlər. Çünki Azərbay-canın bölgələri çox gözəldir. Hər bir bölgənin öz spesifikası, öz iqlim şəraiti vardır. Hər bir bölgə öz gözəlliyi ilə başqa bölgədən fərqlənir və seçilir. Hər bir bölgədə normal iş üçün, yaşamaq üçün şəraitin yaradılması bizim prioritet məsələ-mizdir. Yaşamaq üçün nə lazımdır? Birinci növbədə, iş yeri, sonra işıq, qaz, su, yaşayış yerləri və təhlükəsizlik. Bölgələrdə gedən quruculuq işləri məhz bu məqsədi güdür. Bu gün mən Astarada xəstəxananın açılışında iştirak etdim. O xəstəxana əslində var idi, amma heç ona xəstəxana demək mümkün deyildi. Oradakı fotoşəkillər göstərir ki, bu xəstəxana bərbad vəziyyətdə idi. Yenidən quruldu. Olimpiya kompleksləri, məktəblər, iş yerləri…

Bundan sonrakı dövrdə bölgələrə daha da böyük həcmdə investisiyalar qoyulacaqdır. İndi kənd yolları layihəsi başlanmışdır. Bu, Masallıya da aiddir. Biz Astarada kənd yolunun açılışını qeyd etdik. Kəndlərdə yaşayan əhalinin 80 faizi artıq bu layihələrin icrası nəticəsində gələn ilin sonuna qədər təmir edilmiş yollardan istifadə edəcəkdir. Bu inkişaf hərtə-rəflidir və mən gənc mütəxəssislərin bölgələrdə işləməsini alqışlayıram. Bölgələrdə elə şərait yaratmalıyıq ki, gənc mütəxəssislər ürəklə gedib orada işləyə bilsinlər.

Bir misalı da gətirə bilərəm. Bir neçə il əvvəl dövlət xətti ilə istedadlı gənclərimizi xarici ali məktəblərə göndərməyə başlamışıq. Hər il Azərbaycan dövlət büdcəsindən bu məqsədlər üçün 15 milyon manat vəsait ayrılır. Biz bu proqrama başlayanda sual yarandı ki, bəs biz uşaqları göndərəcəyik, onları orada oxutduracağıq, birdən onlar qayıtmadılar, orada qaldılar?!

Dedim ki, biz ölkəmizdə elə şərait yaratmalıyıq ki, onlar qayıtsınlar. Bizim gənclərimiz Vətənə çox bağlıdırlar. Əgər xarici ali məktəblərdə oxuyan gənc öz ölkəsində gözəl şərait görərsə, mütləq qayıdacaq. Ona görə, heç bir şərt qoymadan biz bu proqrama başladıq və bu gün mən çox şadam ki, xaricdə təhsil almış gənclərin böyük əksəriyyəti Vətənə qayıdır, Vətəndə işləyir və öz ölkəsinin inkişafına töhfə verir.

**U ğ u r  Q u r b a n z a d ə** (*Lənkəran Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının sədri*)**:** Möhtərəm cənab Prezident, əvvəlcə, Sizə minnətdarlığımızı bildiririk ki, bu gözəl Gənclər Mərkəzini bizim istifadəmizə verdiniz.

Cənab Prezident, Siz həmişə öz fəaliyyətinizdə gənclərlə işə xüsusi önəm vermisiniz. Ümumiyyətlə, son illər Azərbaycanda elm-təhsil sahəsində müxtəlif proqramlar, tədbirlər həyata keçirilmişdir. Biz gənclər və tələbələr də bu proqramlarda yaxından iştirak edir, üzərimizə düşən məsuliyyəti dərk edirik. Bununla yanaşı, bəzi problemlər də var – təhsil almağımızda bəzi maneçiliklər, çatışmazlıqlar var. Onları Sizin diqqətinizə çatdırmaq istəyirəm. Bölgəmizin ən böyük ali təhsil ocağı olan Lənkəran Dövlət Universitetində 1547 tələbə təhsil alır. Onların təqribən 60 faizə qədəri digər rayonlardan gələn tələbələrdir. Tələbələrimizin yataqxana çatışmazlığı problemi var ki, onlar məcburiyyət qarşısında kirayədə qalırlar. Bu da onların maddi və təhsil durumuna mənfi təsir göstərir. Tələbələrimizin, gənclərimizin daha yüksək səviyyədə təhsil almaları, yataqxana probleminin həlli üçün yeni tələbə şəhərciyinin salınmasına böyük ehtiyac var. Bu problem müsbət həll edilsə, cənab Prezident, bu, tələbələrə Sizin böyük bir töhfəniz olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Biz bu məsələ ilə məşğul olacağıq. Bu təkliflərə baxılacaq və imkan daxilində biz bunu etməliyik və edəcəyik. Bütövlükdə yataqxana problemi çox ciddi problemdir, xüsusilə Bakı şəhərində. Bildiyiniz kimi, erməni işğalından əziyyət çəkən soydaşlarımız müharibə zamanı o yataqxanalarda yerləşdirilmişlər. «Məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması Dövlət Proqramı»nın əsas istiqamətləri ondan ibarət idi ki, ilk növbədə çadır şəhərciklərində yaşayan soydaşlarımızı biz oradan köçürək. 2007-ci ildə buna nail olduq. Bir dənə də çadır şəhərciyi yoxdur. Sonrakı mərhələdə uşaq bağçaları boşaldılmalıdır. Çünki Bakının əksər uşaq bağçalarında məcburi köçkünlər yerləşib. Uşaq bağçalarına da böyük tələbat vardır. Bu tələbat, mənə verilən məlumata görə, cəmi 17 faiz ödənilir. Ancaq 17 faiz valideyn öz övladını uşaq bağçasına yerləşdirə bilir.

İndi uşaq bağçalarının təmiri ilə çox ciddi məşğul olmağa başlamışıq və tələbat daha da artır. Mən tez-tez yeni təmir olunmuş uşaq bağçalarına baş çəkirəm və orada müəllimlərlə görüşürəm. Deyirlər ki, tələbat həddindən artıq çoxdur. Xüsusilə, təmir edilmiş, gözəl şəraiti olan bağçalara.

Soydaşlarımızı tədricən uşaq bağçalarından köçürməliyik. Amma hara köçürməliyik? Evlərə köçürməliyik. Biz onlar üçün yaxşı şərait yaradıb, onları oradan köçürməliyik. Fin evlərində yaşayanlar var. Məktəblərdə, hərbi hissələrdə və yataqxanalarda yaşayan qaçqınlar var. Ona görə bu proses gedir. Bu il yataqxanalardan qismən köçkünlər evlərə köçürüləcəklər və bu proses getdikcə, yeni yataqxanalar da tikiləcəkdir. Bakı üçün bu daha da aktualdır, nəinki bölgələr üçün. Amma bir halda ki, siz məsələni qaldırırsınız, biz bu məsələyə ayrıca baxıb Lənkəran üçün də qərar verəcəyik.

**G ö v h ə r  A ğ a z a d ə (***Mübariz İbrahimov adına Biləsuvar rayon məktəb-lisey kompleksinin 11-ci sinif şagirdi***):** Möhtərəm cənab Prezident, Siz Mübariz İbrahimova, onun qəhrəmanlığına yüksək qiymət verdiniz və onu Azərbaycan qəhrəmanlığının zirvəsi ilə – Milli Qəhrəman adı ilə mükafat-

landırdınız. Məktəbimizin qarşısında Mübariz İbrahimovun şərəfinə abidə ucaldılıb. Oxuduğu məktəbə onun adı verilib. Yaşadığı kənddə onun ev-muzeyi yaradılıb. Ümumiyyətlə, rayonumuzda keçirilən bütün tədbirlərdə Mübariz İbrahimovun xatirəsi xüsusilə anılır. Onu demək istəyirəm ki, bu gün Mübariz İbrahimov kimi vətənpərvərlik ruhunda böyüyən gənclərimizin sayı çoxdur. Biz gənclər hər birimiz Sizin qaldırdığınız bayraq altında torpaqlarımızı düşməndən azad etməyə hazırıq.

Bu gün təkcə Azərbaycanın qəhrəman oğulları deyil, həmçinin onlarla yanaşı qızlarımız da torpaqlarımızı düşməndən azad etmək uğrunda mübarizəyə qalxmağa qadirdir.

Bizim güclü ordumuz vardır. Bunu bir fakt da təsdiq edir ki, Azərbaycanın təkcə hərbi büdcəsi Ermənistanın bütünlüklə dövlət büdcəsindən çoxdur. Lakin müharibə bəşəriyyətə fəlakət və bədbəxtlikdən başqa bir şey gətirmir. Ona görə də biz sülh tərəfdarıyıq və düşünürük ki, Dağlıq Qarabağ problemi sülh yolu ilə öz həllini tapacaqdır. İnanırıq ki, dünya ictimaiyyəti də ədalət tərəfində olacaq və biz tezliklə öz torpaqlarımızı geri qaytara biləcəyik.

**İ l h a m Ə l i y e v:** Sağ ol. Mübariz İbrahimov Azərbaycan xalqının böyük oğludur, böyük qəhrəmandır. Onun xatirəsi hər birimiz üçün çox əzizdir. Mən prezident kimi, onu ölümündən sonra Milli Qəhrəman adı ilə təltif etmişəm. O, ədalətsizliyə dözə bilmədi və əslində düşməni, işğalçını məhv etmək üçün ölümə getdi. Onun qəhrəmanlıq nümunəsi məhz bundan ibarətdir. O, işğalçıya qarşı vuruşa gedəndə dəqiq bilirdi ki, döyüşdən qayıtmayacaqdır. Bir neçə düşməni məhv etdi və özü də qəhrəman kimi həlak oldu. Erməni vəhşiliyi təkcə Xocalı soyqırımında özünü göstərmədi. Erməni vəhşiliyi məhz Mübariz İbrahimovun meyitinin qaytarılmamasında da özünü göstərmişdir.

Həyatın da, müharibənin də qanunları vardır. Ancaq erməni faşistləri heç bir qanuna, heç bir mənəvi prinsiplərə riayət etmirlər. Ermənilər Mübariz İbrahimovun nəşini bizə qaytarmaq

istəmirdilər. Böyük səylər göstərdik, böyük işlər görüldü. Böyük çətinliklə nail olduq ki, Mübariz İbrahimovu qaytaraq və qəhrəman kimi dəfn edək. Bu gün Mübariz kimi oğullarımız çoxdur. Mübariz kimi Vətəni sevən, Vətən üçün canından keçməyə hazır olan minlərlə, on minlərlə gənclərimiz vardır.

Mən də istəmirəm ki, qan tökülsün, müharibə olsun. Kim istəyər ki?! Bizim görüləcək işlərimiz çoxdur. Ölkəmiz inkişafdadır. Hər bir Azərbaycan vətəndaşının həyatı bizim üçün əzizdir və doğmadır. Ancaq işğal ilə də barışmaq mümkün olmur. Prezident kimi, çalışıram ki, bu məsələ öz həllini siyasi yollarla tapsın. Mübariz döyüşçü kimi, başqa yolla öz qəhrəmanlığını göstərdi və mən onun hərəkətlərinə böyük hörmətlə yanaşıram. O, düşmən əsgərlərini məhv etdi. Ermənilərdən fərqli olaraq dinc əhaliyə əl qaldırmadı. O, başqa ölkənin ərazisinə gedib döyüş aparmadı. Budur fərq.

Əfsuslar olsun ki, keçən əsrin 80-ci illərinin sonlarında başlanmış və 90-cı illərin əvvəllərində başa çatmış Azərbaycana qarşı müharibə bu işğala imkan yaratdı. Dağlıq Qarabağı Ermənistana birləşdirməklə bağlı birinci cəhd 1987-ci ilin noyabr ayında olmuşdur. Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri bu məsələni qaldırmışdılar ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Nə qədər Heydər Əliyev Azərbaycanda rəhbər vəzifədə işləyirdi və ondan sonra Moskvada Siyasi Büroda idi, onlar buna cürət etmirdilər. Ulu öndər vəzifədən uzaqlaşdırılandan iki həftə sonra bu məsələ qaldırıldı. O vaxtkı sovet rəhbərliyi bu separatçı meyillərə təkan verdi və Azərbaycana, azərbaycanlılara qarşı böyük qarayaxma kampaniyası başlandı. Mən yaxşı xatırlayıram, ermənilər o vaxt bütün təbliğat resurslarını işə salmışdılar. Sovet rəhbərliyində təmsil olunan ermənilər öz fəaliyyətlərini genişləndirmişdilər. Onların Azərbaycanı qaralamaq, ləkələmək və Azərbaycan haqqında mənfi rəy yaratmaq cəhdləri geniş vüsət almışdı.

Əfsuslar olsun ki, onlar buna nail ola bilmişlər. Birincisi, Azərbaycanın o vaxtkı rəhbərliyi yerində deyildi və bu böyük

məsuliyyəti dərk etmirdi. Azərbaycanın maraqlarını müdafiə edə bilmədi və istəmədi, satqınlıq, yaltaqlıq etdi, mərkəz qarşısında baş əydi. Bizim dərdimiz bundan ibarətdir. 80-ci illərin sonlarında, 90-cı illərin əvvəllərində ölkəyə rəhbərlik etmiş insanlar satqınlıq etdilər, xəyanət etdilər, satıldılar, əyildilər. Ermənilər isə xarici dəstək hesabına və Azərbaycandakı hərc-mərclikdən istifadə edərək torpaqlarımızı zəbt etdilər.

Bu, məsələnin tarixi hissəsidir. İndi isə biz çalışırıq ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Bir çox amillər bizim mövqemizi gücləndirir və müdafiə edir. İlk növbədə, tarix. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Burada iki fikir ola bilməz. Ermənilər də bunu yaxşı bilirlər. Əlbəttə ki, beynəlxalq ictimaiyyət də artıq bunu bilir. Çünki biz beynəlxalq ictimaiyyətə real həqiqətləri çatdıra bilmişik.

Beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. BMT Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Azərbaycan BMT-yə Dağlıq Qarabağla birlikdə üzv olmuşdur və BMT Baş Məclisinin, Təhlükəsizlik Şurasının qətnamələri bizim mövqemizi hüquqi cəhətdən də möhkəmləndirir. Yəni bir tərəfdən, tarix və tarixi həqiqət, digər tərəfdən, beynəlxalq hüquq bizim mövqemizi gücləndirir.

Siyasi aspektə baxdıqda görərik ki, indi Azərbaycan ilə Ermənistan idmanda deyildiyi kimi, fərqli çəki dərəcələrindədir, müqayisəedilməz dərəcədə fərq var. Azərbaycan siyasi cəhətdən çox uğurlu və dünya birliyində layiqli yer tutan bir ölkədir. Ermənistan isə siyasi uğursuzluğa düçar olmuşdur. Onlar 20 illik müstəqilliyi faktiki olaraq əldən verdilər. Bu işğalçı siyasət nəticəsində məcbur oldular ki, öz real müstəqilliklərini əldən versinlər. Orada gedən siyasi proseslər kənar qüvvələrin təsiri altında baş verir. «Ermənistan iqtisadiyyatı» anlayışı, ümumiyyətlə, yoxdur. Olan-qalan da xarici biznes qruplarının əlindədir və dünyada heç bir nüfuza malik olmayan bir ölkədir.

Siyasi tərəf də bizim mövqemizi gücləndirir. İqtisadi sahədən heç danışmağa dəyməz. Ordu quruculuğu, siz də qeyd etdiniz, ordumuz son illər ərzində xeyli dərəcədə inkişaf etmişdir. Bütün bu amillər torpaqlarımızın azadlıq olunacağı günü yaxınlaşdırır. Hesab edirəm ki, hər ay, hər gün biz torpaqlarımızın azad olunması gününə yaxınlaşırıq. Ermənilərin güclü xarici diasporu vardır və bu, real qüvvədir, əsas düşməndir. Ermənistan bizim üçün rəqib deyil, rəqib də ola bilməz. Bizim əsas düşmənimiz, bir daha tam məsuliyyətlə deyirəm ki, erməni lobbisidir və onların nəzarəti altında olan qüvvələrdir. Azərbaycana qarayaxma, ləkələmə kampaniyası, xarici mətbuatda uydurmalar, iftiralar erməni lobbisinin fəaliyyətidir. Onlar üçün də bir nömrəli düşmən Azərbaycandır. Nəyə görə? Çünki onlar da bilirlər ki, real qüvvə kimdir və nədir. Dünya erməniliyi tərəfindən son illər ərzində elə bil ki, yeni yanaşma müəyyən edilibdir. İndi bir nömrəli düşmən Azərbaycandır. Çünki ən böyük təhlükəni Azərbaycandan görürlər. Bilirlər ki, torpaqlarımız azad olunmayana qədər biz sakitləşməyəcəyik, gec-tez ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bilirlər ki, qısamüddətli və uzunmüddətli perspektivdə Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər. Biz özümüzü gücləndiririk ki, daha da qüdrətli olaq və işğal olunmuş torpaqlarımız bizi daha da səfərbər edir. Gün gələcək ki, biz Azərbaycan bayrağını Xankəndidə, Şuşada qaldıracağıq. Mən buna tam əminəm.

Mən də istəyirəm ki, bunu sülh yolu ilə edək. Amma bunu sülh yolu ilə etmək üçün biz bütün amillərdən istifadə etməliyik. Ermənistanın təcrid edilmiş vəziyyətini daha da dərinləşdirməliyik. Biz Ermənistanı bütün beynəlxalq layihələrdən təcrid edə bilmişik. Ermənistana yeni nəfəs verə biləcək razılaşmanın qüvvəyə minməməsində Azərbaycanın rolu olubmu? Bəli, olub. Bunu hamı bilir. Nəyə görə? Çünki bizim əsas təsir mexanizmlərimiz məhz iqtisadi amildir, nəqliyyat, enerji amilidir. Biz bundan sonra da maksimum dərəcədə

çalışacağıq ki, Ermənistanı bütün beynəlxalq layihələrdən təcrid edək.

Neft-qaz kəmərləri, böyük dəmiryol layihəsi Ermənistandan kənar keçir. Gələn ilin əvvəlində Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi Ermənistanın rəsmən dalan ölkəyə çevrilməsi deməkdir. Bu yollardan biz istifadə edirik, siyasi gücümüzü artırırıq. Biz BMT Təhlükəsizlik Şurasının üzvüyük, orada öz sözümüzü deyirik. Biz digər beynəlxalq təşkilatlarda fəal iştirak edirik. Bizimlə dostluq, əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz Avropanı enerji resursları ilə təmin edirik və daha böyük həcmdə edəcəyik. Avropanın enerji təhlükəsizliyi müəyyən dərəcədə bizdən asılı olacaqdır. Bu bizim əlimizdə olan gözəl amillərdir, vasitələrdir. Bu siyasəti biz çox düşünülmüş şəkildə aparırıq, həm bölgədə, həm dünyada, bütün qitələrdə. Baxın, ermənilər qondarma «soyqırımı»nın tanınması ilə əlaqədar 1960-cı illərdən fəaliyyətə başlamışlar. 50 il ərzində bu yolu keçiblər. Biz təzə başlamışıq. Artıq iki ölkə Xocalı soyqırımını tanıyır – Pakistan və Meksika. Bu proses davam edəcəkdir. Biz Xocalı soyqırımının tanınmasında bundan sonra da fəal işlər aparacağıq. Əminəm ki, bu faciəni soyqırımı kimi tanıyan ölkələrin sayı artacaqdır.

Beləliklə, hələ ki, qeyri-hərbi vasitələrdən istifadə edərək biz özümüz üçün daha da əlverişli vəziyyəti yaradacağıq. İndi həm də informasiya mübarizəsi gedir. Bu da çox vacib mübarizədir. Bəlkə 10 il bundan əvvəl bundan söhbət getmirdi, amma indi informasiya mübarizəsi müharibə növüdür. Burada qeyd etdiyim kimi, gənclər ön sıralardadırlar və daha da fəal işləməlidirlər ki, real vəziyyət haqqında dünyada daha da geniş məlumat olsun.

**Sevinc Şirzadova** (*Lənkəran Dövlət Universitetinin III kurs tələbəsi*)**:** Cənab Prezident, bizimlə bu gün görüşdüyünüz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Bu gün bizim həyatımızda ən əlamətdar bir gün olaraq qalacaqdır. Mən özüm Astara rayonunda yaşayıram, amma hazırda Lənkəran

Dövlət Universitetinin riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə III kurs tələbəsiyəm. Ulu öndərimiz Heydər Əliyev universitetimiz haqqında demişdir: «Lənkəran Dövlət Universiteti bölgənin elm, təhsil ocağı olmaqla yanaşı, həm də ən böyük mədəniyyət mərkəzlərindən biridir». Doğrudan da tələbələrimiz burada təkcə təhsil almır, həm də mədəni, ictimai həyatda fəal iştirak edirlər. Tələbələrimizin ictimai fəallığında Heydər Əliyev mərkəzlərinin əvəzsiz rolu vardır.

**İ l h a m  Ə l i y e v:** Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Hər bir şəhərdə Gənclər evi yaradılacaqdır. «Azərbaycan Gəncliyi» Dövlət Proqramı əminəm ki, uğurla icra ediləcəkdir. Gənclər Fondunun fəaliyyətinə mən çox böyük ümidlər bəsləyirəm. Mən artıq nazirə də göstərişlər verdim ki, bu fond doğrudan da çox gözəl bir mexanizm olmalıdır. Nazirliyin büdcəsində də gənclər siyasətinə vəsait ayrılır. Bu ayrı, fond ayrı. Burada gənclər öz təkliflərini irəli sürməlidirlər, öz layihələrini təqdim etməlidirlər. Hesab etdim ki, 5 milyon manat birinci töhfədir. Çünki artıq Azərbaycanın dövlət büdcəsi formalaşmışdır. Büdcədə əlavə mənbələr yoxdur. Vaxt itirməmək üçün mən qərara gəldim ki, Prezidentin ehtiyat fondundan ilkin ödəmələr ayrılsın. Ancaq o demək deyil ki, siz bu 5 milyonla bütün bu işləri görəcəksiniz. Bu, birinci addımdır.

Bütün bölgələrdən, hər bir rayondan mən gənclərdən təkliflər gözləyirəm. Hansı layihələri onlar icra edə bilərlər. Hansı layihələrə maddi dəstək lazımdır. Bu layihələr həm gənclər, həm onların yaşadıqları şəhərlər, həm də ölkə üçün faydalı layihələr olmalıdır. Biz ölkə qarşısında duran problemlərin uğurla həll edilməsi üçün hansı əlavə tədbirləri görməliyik.

Mən Prezident kimi, bütün bölgələri gəzirəm. Çalışıram ki, hər bir kəndə gedim, orada da soruşum vəziyyət necədir. Amma nə qədər istəsəm də bu, fiziki cəhətdən mümkün deyildir. Ona görə yerlərdən məlumatlar, məsələn, harada nə çatışmır, harada nə əlavə olunmalıdır, harada yerli icra orqanları pis işləyirlər,

insanları incidirlər, insanlara laqeyd münasibət göstərirlər və sair barədə məlumatlar, o cümlədən gənclərdən də gəlməlidir.

Fondun fəaliyyəti çox geniş olmalıdır. Yaxın zamanlarda fondun əsas istiqamətləri haqqında məlumat veriləcəkdir. Ancaq mən çox istərdim ki, bu vəsaitdən səmərəli şəkildə istifadə olunsun. Həm gənclər bu vəsaitdən faydalansın, həm ölkəmiz. Beləliklə, ölkəmizin uzunmüddətli, uğurlu və dayanıqlı inkişafı təmin edilsin.

Bir daha sizi salamlayıram. Xahiş edirəm ki, mənim xoş arzularımı yaşadığınız şəhərlərin, kəndlərin gənclərinə çatdırasınız.

## MASALLIDA «MASERA» MMC-nin SOYUDUCU ANBAR VƏ İSTİXANA KOMPLEKSLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*13 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Masallıda «Masera» MMC-nin soyuducu anbar və istixana komplekslərinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Masallıda 1,2 min tonluq soyuducu anbar kompleksi və 2 hektar ərazidə illik 0,7 min ton tərəvəz məhsulları istehsal etmək gücünə malik olan istixana kompleksi tikilmişdir. Layihəyə 5 milyon manat investisiya qoyulmuşdur ki, bunun da 1 milyon manatını Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti təşkil edir.*

*Qeyd edildi ki, soyuducu anbar və istixana komplekslərinin inşası zamanı «Aqrolizinq» ASC-dən də ümumi dəyəri 2,4 milyon manat olan avadanlıq və köməkçi vasitələr lizinq yolu ilə alınmışdır. Komplekslərin tikintisinə 2011-ci ildə başlanılmışdır. Layihənin icrası nəticəsində 60 nəfər daimi, 20 nəfər isə mövsümi işlə təmin olunmuşdur.*

*Dövlətimizin başçısına istixana kompleksində məhsulun yetişdirilməsi texnologiyası barədə məlumat verildi. İstixanada müasir standartlara cavab verən pomidor sortları yetişdirilir. Mövsüm ərzində hər hektardan 350–400 ton məhsul götürülə bilər. Burada pomidorla yanaşı, digər məhsulların da yetişdirilməsi mümkündür.*

*«Masera» MMC-nin soyuducu anbar və istixana kompleksləri ilə tanış olan prezident İlham Əliyev kənd təsərrüfatının daha da inkişaf etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

# SALYAN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*13 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də cənub bölgəsinə səfəri çərçivəsində Salyan rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Salyan şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin abidəsi ətrafında aparılmış abadlıq-quruculuq işləri ilə tanış oldu. Dövlətimizin başçısı son bir ildə rayonda həyata keçirilmiş abadlıq-quruculuq işlərini əks etdirən stendlərə baxdı.*

## Uşaq Texniki Yaradıcılıq Mərkəzinin açılışı mərasimi

*Martın 13-də Azərbaycan prezidenti İlham Əliyev Salyanda Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş Uşaq Texniki Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Salyan Uşaq Texniki Yaradıcılıq Mərkəzi 1985-ci ildən uyğunlaşdırılmamış binada fəaliyyət göstərirdi. Ötən ilin martından Heydər Əliyev Fondunun təşəbbüsü ilə Mərkəz üçün yeni binanın tikintisinə başlanılmışdır. Bütün lazımi infrastrukturun yaradıldığı Mərkəzin yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq işləri görülmüş, ağac və gül kolları əkilmişdir.*

*Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətlərini, həmçinin ümummilli liderin və dövlətimizin başçısının Salyan rayonuna səfərlərini əks etdirən fotoguşələr yaradılmışdır.*

*Prezident İlham Əliyev Mərkəzin əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxdı, sərgi salonunda uşaqların əl işləri ilə tanış oldu.*

*Qeyd edildi ki, birinci mərtəbədə kitabxana, emalatxana və xidməti otaqlar vardır. Burada iki otaq rayon uşaq kitabxanası üçün nəzərdə tutulmuşdur. İkinci mərtəbədə Mərkəzin fəaliyyətinə həsr olunan fotolar və uşaqların müxtəlif müsabiqələrdə qazandıqları diplomlar nümayiş etdirilir. Əyləncəli fizika, gənc şahmatçılar, modelçilik, ibtidai texniki modelləşdirmə, bacarıqlı əllər, gənc dizayner, ingilis dili dərnəkləri də uşaqların intellektual inkişafı üçün nəzərdə tutulmuşdur. Ümumilikdə Mərkəzdə 1772 uşaq 10 dərnəkdə məşğul olacaqdır.*

*Mərkəzdə yaradılmış şəraitdən məmnunluğunu bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Salyan Rayon İcra Hakimiyyəti və Heydər Əliyev Mərkəzi bina kompleksində aparılmış tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 13-də Salyan Rayon İcra Hakimiyyəti və Heydər Əliyev Mərkəzi bina kompleksində aparılmış tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Kompleksin texniki göstəricilərini əks etdirən stendlərə və eskiz layihələrinə baxan prezident İlham Əliyevə məlumat verildi ki, Salyan Rayon İcra Hakimiyyəti və Heydər Əliyev Mərkəzi müasir memarlıq üslubunda, orijinal layihə əsasında inşa olunur. Kompleksin tikintisinə ötən ilin dekabrında başlanılmışdır. Üçmərtəbəli binanın qarşısında ulu öndərin əzəmətli abidəsi ucaldılacaqdır. Abidənin ətrafında fəvvarə kompleksləri tikiləcəkdir.*

*Diqqətə çatdırıldı ki, Heydər Əliyev Mərkəzində ümummilli liderin həyat və fəaliyyətinə həsr olunan stendlərdə ulu öndərin Salyana səfərlərini əks etdirən fotolar, dahi şəxsiyyətə məxsus sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar*

*toplanacaqdır. Mərkəzin kitabxanasında ümummilli lider haqqında yazılmış kitablar və digər mətbu nəşrlər saxlanılacaqdır.*

*Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında 78 xidməti otaq olacaqdır. Burada əməkdaşların səmərəli fəaliyyəti üçün lazımi şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «Kür» otelinin əsaslı yenidənqurmadan sonrakı vəziyyəti ilə tanışlıq

*Martın 13-də Azərbaycan prezidenti İlham Əliyev Salyan rayonuna səfəri çərçivəsində «Kür» otelinin əsaslı yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, oteldə əsaslı yenidənqurma işlərinə 2009-cu ildə başlanılmışdır. Dördmərtəbəli oteldə 57 nömrə vardır. Nömrələr yüksək xidmət standartlarına cavab verir.*

*Diqqətə çatdırıldı ki, otelin nəzdində şadlıq sarayı, restoran, bar-kafe və mağaza tikilmişdir.*

*Qeyd edildi ki, oteldə quraşdırılmış liftlər «Gilan» MMC-nin Qəbələ lift zavodunda istehsal olunmuşdur. Burada mərkəzləşdirilmiş havalandırma sistemi, transformator quraşdırılmış, su hovuzu tikilmişdir. Otelin ətrafı abadlaşdırılmışdır.*

## Əsaslı təmir və bərpa edilmiş Cümə məscidi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 13-də Salyan rayonuna səfəri çərçivəsində əsaslı təmir və bərpa edilmiş Cümə məscidi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məscidin ərazisində aparılan abadlıq və yenidənqurma işləri barədə məlumat verildi.*

*Prezident İlham Əliyev bu dini ocağın əvvəlki və indiki vəziyyətini əks etdirən stendlərə baxdı.*

*Dövlətimizin başçısı Babazanan dağında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən müxtəlif dövrlərə aid əmək alətləri, bəzək əşyaları və digər tapıntılarla tanış oldu.*

*Sonra prezident İlham Əliyev Cümə məscidində yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, tarixi abidə olan Cümə məscidi 1865-ci ildə tikilmişdir. Sovet hakimiyyəti illərində məscidin 21 günbəzindən 6-sı sökülmüş və dini məbəddən anbar kimi istifadə olunmuşdur. Sonralar məsciddə rayon rəsm qalereyası yerləşmişdir. 1992-ci ildən isə yenidən məscid kimi fəaliyyət göstərir.*

*Diqqətə çatdırıldı ki, 2003-cü ildə Kür çayının daşması ilə əlaqədar yaranan qrunt sularının təsiri nəticəsində daha 9 günbəzi uçmuş məscid yararsız vəziyyətə düşmüşdür. 2010-cu ilin fevralından Mədəniyyət və Turizm Nazirliyi tərəfindən məsciddə təmir-bərpa işlərinə başlanılmış, ötən ilin iyununda başa çatdırılmışdır. Hazırda məscid 18 günbəz, 12 sütun və 1 minarədən ibarətdir. Məsciddə ibadət üçün hər cür şərait yaradılmışdır. Yeraltı sulardan mühafizə məqsədi ilə abidənin ətrafında drenaj sistemi quraşdırılmışdır.*

*Bildirildi ki, Cümə məscidi Nazirlər Kabinetinin qərarı ilə 2001-ci ildən yerli əhəmiyyətli tarixi abidə kimi, dövlət tərəfindən mühafizə olunur.*

*Məsciddə yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## Kürsəngi–Yolüstü kəndarası avtomobil yolunun açılışı mərasimi

*Martın 13-də Azərbaycan prezidenti İlham Əliyev Salyan rayonuna səfəri çərçivəsində Kürsəngi–Yolüstü kəndarası avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidentinə Kürsəngi–Yolüstü kəndarası avtomobil yolunda görülən işlər barədə məlumat verildi. Bildirildi ki, bu yol Kürsəngi, Birinci Varlı, Yolüstü və Yeni Uluxanlı kəndlərinin ərazisindən keçir. Bundan başqa, bu yol daha iki kəndin – Peyk və İkinci Varlı kəndlərinin 10 mindən çox əhalisinin yol probleminin həllinə də təsir göstərəcəkdir. Yolun ümumi uzunluğu 23,5 kilometr, eni 10 metrdir. Kürsəngi–Yolüstü yolu Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına təmir edilmişdir.*

**İ l h a m Ə l i y e v:** Gözəl bayram günündə sizi yeni yolun açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Çox gözəl yoldur, beş kəndi birləşdirir. Bu kəndlərdə on mindən çox əhali yaşayır. Rayon İcra Hakimiyyəti məsələ qaldırmışdı ki, bu yolun tikintisinə ehtiyac var. Dərhal göstəriş verdim, vəsait ayrıldı və gözəl yol çəkildi.

**S a k i n l ə r:** Allah köməyiniz olsun. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Əminəm ki, siz bu yoldan rahat istifadə edəcəksiniz. Çünki yol tikintisi əsas məsələlərdən biridir. İndi magistral yollar çəkilir. Salyan–Bakı, əslində Bakı–Astara magistral yolu, kənd yolları yenidən qurulur. Bu da çox vacibdir. Son müddət ərzində, keçən il, bu il və gələn il kənd yollarına böyük vəsait qoyulur və qoyulacaqdır.

Bu gün səhər Astarada bir neçə kəndi birləşdirən yeni yolun açılışında iştirak etdim. İndi isə Salyanda yolu açırıq. Hər bir bölgədə yeni kənd yollarının tikintisinə dair, demək olar ki, hər həftə, hər ay mənim tərəfimdən sərəncamlar imzalanır. Çünki indi biz əsas böyük yol layihələrini başa vururuq. Onların icrası başa çatır. Kənd yolları indi əsas istiqamətdir.

Yaxşı yaşamaq üçün yol, işıq, qaz, içməli su, yaşayış şəraiti, iş yerləri lazımdır. Biz bütün bu işlərlə məşğuluq. Bundan sonra da məşğul olacağıq. Əminəm ki, «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın ikinci mərhələsi gələn ilin sonuna qədər uğurla başa çatacaqdır və bütün sosial-iqtisadi məsələlər öz həllini tapacaqdır.

**S a k i n:** Allah qoysa, Allah Sizin kimi Prezidenti bizə çox görməsin. Sağ olun, var olun.

**İ l h a m  Ə l i y e v:** Salyan rayonu da inkişaf edir. Rayon mərkəzi, şəhər gözəlləşir, abadlaşır. Mən keçən il Salyanda olmuşam. Əvvəlki dövrlərdə də olmuşam. Bu mənim prezident kimi, Salyana, deyəsən beşinci, ya altıncı səfərimdir. Bu gün gördüklərim məni sevindirir – gözəl binalar, gözəl yollar, iş yerləri, ticarət yerləri. Şəhərin abadlaşması çox müsbət haldır. Kəndlər də abadlaşmalıdır. Qazlaşdırma prosesi gedir. Yəqin ki, gələn ilin sonuna qədər Salyan rayonunun bütün kəndləri qazlaşdırılacaq. İçməli su layihələri icra edilir. Elektrik enerjisi ilə bağlı problemlər yoxdur. Kənd yollarının tikintisi gedir. Mərkəzi Rayon Xəstəxanası yenidən qurulmuşdur. Olimpiya İdman Kompleksi, böyük elektrik yarımstansiyası tikilmişdir. Növbəti illərdə rayonun uğurlu inkişafı üçün əlavə tədbirlər görüləcəkdir.

Mən istəyirəm ki, Salyan Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilsin. Buna imkan vardır. Burada abadlıq-quruculuq işləri gedir. Bu çox sevindiricidir. Bununla paralel olaraq bütün infrastruktur layihələri icra edilməlidir.

Bu gün biz qədim məscidin bərpasından sonra açılışını qeyd etdik. Mənə Salyanın qədim şəhər olduğunu təsdiqləyən tapıntılar göstərildi. Bildiyiniz kimi, burada böyük arxeoloji ekspedisiya işləyibdir. Aşkara çıxarılan tapıntılar alimlərin dediyinə görə 2800 il bundan əvvəlki dövrə aiddir və burada yaşayış yerinin olmasını təsdiqləyir. Mən göstəriş verdim ki, Salyanda gözəl muzey kompleksi yaradılsın. Bu tapıntılar, bu eksponatlar orada nümayiş etdirilsin. Salyan turizm mərkəzi və tarixi yaşayış yeri kimi də yeni inkişaf dövrünü yaşamağa başlasın. Əvvəlki dövrdə turizmin inkişafı ilə bağlı burada tədbirlər görülmürdü. Ancaq bu tapıntıların aşkarlanması əminəm ki, bizə bu sahədə də işlərin görülməsinə imkan yaradacaqdır.

Salyan məsafə baxımından Bakıya yaxın olan şəhərdir. Bakıdan geri qalmamalıdır. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Salyan da hər cəhətdən Bakıya yaxın

olmalıdır. Mən Tahir Kərimovu bu rayona təyin edəndə bu göstərişi vermişəm. Əminəm ki, o, salyanlıların və mənim etimadımı bundan sonra doğruldacaqdır.

**Əlipənah Nəzərov** *(rayon sakini):* İcazə verin, Sizi bu ərazinin 40 minlik əhalisi adından salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim. Açılışına toplaşdığımız bu yol 40 ildən artıqdır ki, baxımsız, bərbad vəziyyətdə idi. Uşaqlar, xəstələr həddən artıq əziyyət çəkirdilər. Bu yol bizi həm rayon mərkəzi, həm də Bakı şəhəri ilə birləşdirirdi. Sizin sərəncamınızla, göstərişinizlə bu yol qısa müddətdə bərpa olunub, abadlaşdırılıb. Prezidentimiz tərəfindən bizə – kənd camaatına əsl Novruz bayramı hədiyyəsidir. Belə bir xalq deyimi var, axır çərşənbədə kim kimin görüşünə gəlirsə, o adamlar uzun müddət görüşürlər. Biz də Sizinlə axır çərşənbə günündə görüşdüyümüzə, bu gün bizim yanımıza gəldiyinizə görə arzu edirik ki, belə görüşlər tez-tez olsun.

Cənab Prezident, fürsətdən istifadə edərək qarşıdan gələn bayram münasibətilə Sizi, ailənizi, nəvələrinizi təbrik edirəm. Bayramınız mübarək! Sizə uzun ömür, cansağlığı arzu edirik. Amin!

**İlham Əliyev:** Çox sağ olun. Mən əminəm ki, bundan sonra hələ tez-tez görüşəcəyik. Mən Salyanda tez-tez oluram. Bir məqamı da xatırlatmaq istəyirəm ki, mən 2003-cü ilin prezident seçkiləri kampaniyasını məhz Salyandan başlamışdım. Ulu öndər də seçki kampaniyasını 1998-ci ildə məhz Salyandan başlamışdı. Bu gün isə sizinlə bərabər bu gözəl hadisəni qeyd edirik.

Salyanın gələcək inkişafı ilə bağlı gözəl planlar var. Bu gün Tahir Kərimov mənə təqdimat göstərdi. O təqdimatda şəhərin inkişafı, Salyanın müasir şəhərə çevrilməsi planları çox böyükdür, çox təsirlidir. Mən əminəm ki, biz salyanlıların dəstəyi ilə bu məqsədlərə çatacağıq. Salyan Azərbaycanın, bu bölgənin ən gözəl şəhərlərindən birinə çevriləcək. Bakı artıq dünya gözəlidir. Dünya miqyasında seçilən bir şəhərdir. Bütün şəhərlərimiz gözəlləşməlidir. Bütün şəhərlərdə, kəndlərdə yaxşı

yaşayış şəraiti, iş yerləri olmalı, infrastruktur layihələri icra edilməlidir. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Hər bir kəndin sakinləri də yaxşı yaşamalıdırlar.

Mən bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər hər bir kəndin problemləri həll edilərsə, ölkə qarşısında duran bütün problemlər həll olunacaqdır. Çünki Azərbaycan əhalisinin təxminən yarısı kəndlərdə yaşayır. Biz kənd camaatının rahat yaşaması, kəndlərdə iş yerlərinin açılması üçün böyük işlər görürük. Fermerləri dəstəkləyirik və dəstəkləyəcəyik. Kreditlər, güzəştli şərtlərlə texnika, gübrələr verilir, yollar çəkilir. Gələcək illər üçün də bizim böyük planlarımız var. Əminəm ki, belə gözəl görüşlər Salyan rayonunda hələ çox olacaqdır. Çünki açılışlar gözlənilir, böyük uğurlara nail ola bilmişik. Gələcəkdə də bizi böyük uğurlar gözləyir.

Sizi bir daha salamlayıram. Təbrik edirəm.

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

İsveçrədə baş vermiş ağır avtomobil qəzası nəticəsində əksəriyyəti uşaqlar olan həmvətənlərinizin həlak olması xəbəri məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Belçika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2012-ci il*

## ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ GUİDO VESTERVELLE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Guido Vestervelleni qəbul etmişdir.*

*Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlərin geniş sahələri əhatə etdiyini və yaxşı əməkdaşlığımızın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Xarici İşlər naziri Guido Vestervellenin ölkəmizə səfərinin tərəfdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Guido Vestervelle ölkəmizdə keçirdiyi görüşlər barədə prezident İlham Əliyevə məlumat verdi. Diplomatik əlaqələrimizin bu il 20 ilinin tamam olduğunu vurğulayan Almaniyanın Xarici İşlər naziri Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlığın əhəmiyyətini qeyd etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SERBİYA PREZİDENTİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜŞAVİRİ BİSERKA YEFTİMİYEVİÇ-DRİNYAKOVİÇ VƏ İQTİSADİ VƏ REGİONAL İNKİŞAF NAZİRİ NEBOYÇA ÇİRİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Serbiya Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə müşaviri xanım Biserka Yeftimiyeviç-Drinyakoviçi və İqtisadi və Regional İnkişaf naziri Neboyça Çiriçi qəbul etmişdir.*

*Xanım Biserka Yeftimiyeviç-Drinyakoviç Serbiya prezidenti Boris Tadiçin salamlarını dövlətimizin başçısına çatdırdı. O dedi ki, Serbiya prezidenti Azərbaycanın Şərqi Avropa və Balkan regionunda yürütdüyü konstruktiv siyasətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirir. Serbiya prezidentinin Bakıya və Azərbaycan prezidentinin Belqrada səfərlərinin əlaqələrimizin daha da genişləndirilməsi baxımından faydalı olduğunu deyən qonaq əməkdaşlığımızın möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Serbiya prezidenti Boris Tadiçlə keçirdiyi görüşləri məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafında bu görüşlərin vacib rol oynadığını dedi. Prezident İlham Əliyev Azərbaycan ilə Serbiya arasında əlaqələrin tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğuladı.*

*Prezident İlham Əliyev Serbiya prezidenti Boris Tadiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar arzulayıram.

Novruz bayramı xalqımızın ən sevimli bayramlarındandır. Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüzillərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliyimizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq Yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir.

Dövlət müstəqilliyimizin bərpasından ötən illər ərzində azad ölkəmizin öz taleyini arzularına uyğun qurmağa müvəffəq olması belə əziz günlərdə insanlarımıza əsl bayram əhval-ruhiyyəsi bəxş edir. Hal-hazırda həyatımızın bütün sahələrində baş verən müsbət dəyişikliklər hər birimizdə dövlətimizin gələcək illərdə də yüksək zirvələr fəth edərək dünyanın qabaqcıl ölkələri səviyyəsinə çatacağına böyük inam, dərin qürur hissi və ruh yüksəkliyi yaradır. Novruz bayramının qəlblərdə quruculuq əzmini artıran yeniləşdirici ab-havası bizi müasir güclü dövlət və sosial rifah cəmiyyətini tam bərqərar etmək məqsədlərimizə sürətlə yaxınlaşdırır.

Bu günlər bütün əzizlərimizin, həmçinin Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü yolunda canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bir daha ehtiramla yad olunur. İnanıram ki, yurdumuzun hərtərəfli inkişafı yolunda əldə etdiyimiz hər yeni zəfər şəhidlərimizin ruhunu şad edəcəkdir.

Ölkəmizin hüdudlarından kənarda, qürbətdə olub ürəyi hər an Vətən məhəbbəti ilə döyünən, milli həmrəylik duyğusu ilə

azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşən soydaşlarımıza bayram salamlarımı yetirirəm.

Xalqımızın bu baharı da öz gəlişilə qoy hər evə, hər ocağa bol ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *16 mart 2012-ci il*

## «BAKIELEKTRİKŞƏBƏKƏ» ASC-nin «GƏNCLİK» YARIMSTANSİYASININ, TƏDRİS MƏRKƏZİNİN VƏ «İÇƏRİŞƏHƏR» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*16 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da «Bakıelektrikşəbəkə» ASC-nin «Gənclik» yarımstansiyası, Tədris Mərkəzinin və «İçərişəhər» yarımstansiyasının açılışı mərasimlərində İştirak etmişdir.*

*«Bakıelektrikşəbəkə» ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev yeni inşa olunan «Gənclik» yarımstansiyası ilə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində paytaxt və ətraf qəsəbələrin dayanıqlı elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Elektrik enerjisi sahəsində görülən işlərin nəticəsi olaraq artıq «Bakıelektrikşəbəkə»də dairəvi təchizat sxeminin tətbiqinə başlanılıb. Dairəvi sxemin tətbiqi paylayıcı və ötürücü şəbəkənin etibarlılığı və dayanıqlığını artırmaqla yanaşı, operativliyi də təmin edir. Bu sistemin başlıca üstünlüklərindən biri də istənilən vaxtda istehlakçıları elektrik enerjisi ilə tam təmin etmək imkanlarına malik olmasıdır. Son bir neçə ildə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində «Bakıelektrikşəbəkə» dairəvi təchizat sxeminin formalaşdırılmasına nail olub.*

*Yaxınlıqdakı ərazidə yerləşən bir sıra obyektləri elektrik enerjisi ilə qidalandıracaq «Gənclik» yarımstansiyası «Səngəçal»–«Xırdalan» sistem yarımstansiyaları arasında yaradılmış 110 kilovoltluq ikişüalı, Bakı-II dairəvi elektrik sxeminin tərkib hissəsidir. Qeyd olundu ki, Gənclik meydanı və ətraf ərazilərdəki idarə və müəssisələrin enerji təminatını yaxşılaşdırmaq məqsədi ilə tikilən 35/10 kilovoltluq «Gənclik» yarımstansiyası paylayıcı şəbəkə üçün müstəsna əhəmiyyətə*

*malikdir. Bu yarımstansiyaların şəbəkələrinin genişləndirilməsi obyektlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Ərazidə yerləşən idarə və müəssisələrin enerji mənbəyi olan «Gənclik» yarımstansiyası 215 və 96 saylı yarımstansiyalar arasında uzlaşaraq, 35 kilovoltluq elektrik əlaqəsinə malikdir ki, bu da qovşağın etibarlılığına və 35 kilovoltluq dairəvi sxemin yaradılmasına xidmət edir. Yarımstansiyanın ətrafında yenidənqurma, abadlıq və yaşıllaşdırma işləri görülübdür.*

*Prezident İlham Əliyev «Bakıelektrikşəbəkə» ASC-nin Tədris Mərkəzində yaradılan şəraitlə tanış oldu. Dövlət başçısı Mərkəzin birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkənin elektrik enerjisi sənayesinin inkişafındakı xidmətlərini əks etdirən fotolardan ibarət guşəyə baxdı.*

*Sonra «Bakıelektrikşəbəkə» ASC tərəfindən yeni inşa olunan 110 və 35 kilovoltluq yarımstansiyaların slaydları nümayiş etdirildi. Bakı şəhərində ilk dəfə olaraq 110 kilovoltluq dairəvi elektrik sisteminin yaradıldığı bildirildi.*

*Mərkəzin tədris otaqları müasir əyani vəsaitlər, avadanlıqlar və kompüter texnologiyası ilə tam təmin edilib. Burada istehlakçıların dünya standartlarına uyğun elektrik enerjisi ilə təmin etmək üçün tətbiq edilən avadanlıqdan yüksək peşəkarlıqla istifadə etmələri üçün şəbəkə işçilərinə müvafiq kurslar təşkil olunacağı bildirildi. Kursların keçirilməsinə qabaqcıl ölkələrin mütəxəssisləri və yerli kadrlar cəlb olunacaqdır. Tədris Mərkəzində şəbəkə işçiləri ilə yanaşı, ali məktəbi bitirən məzunlar da ixtisaslarını artıracaqlar. Kursları bitirənlərə xüsusi sertifikatlar veriləcəkdir.*

*«Bakıelektrikşəbəkə» ASC-nin Tədris Mərkəzində yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev yüksəkgərginlikli kabellərin diaqnostika və sınağı zamanı tətbiq edilən səyyar elektrotexnika laboratoriya kompleksi ilə də tanış oldu.*

Sonra dövlət başçısı «İçərişəhər» yarımstansiyasının açılışında iştirak etdi. Bu yarımstansiya barədə də Prezidentə məlumat verildi. Qeyd olundu ki, «İçərişəhər» yarımstansiyası «Müşfiq»–«Xırdalan» sistem yarımstansiyaları arasında yaradılmış 110 kilovoltluq ikişüalı, Bakı-I dairəvi elektrik sxeminin tərkib hissəsidir. «İçərişəhər» yarımstansiyası «Siemens» şirkətinin əməkdaşları tərəfindən quraşdırılan eleqaz izolə sistem şinli yarımstansiyadır. «İçərişəhər» yarımstansiyası şəhərin mərkəzi hissələrini, yarımstansiyasının ətrafındakı obyektlərin, yaşayış sahələrinin enerji təchizatını təmin etməklə yanaşı, həm də dairəvi sxemin yaradılmasında texniki əhəmiyyət kəsb edən və hazırda uğurla istismar olunan güc yarımstansiyasıdır.

Yarımstansiyanın bütün elektrik avadanlığı, rele mühafizəsi və avtomat qurğuları SCADA məsafədən idarəetmə sisteminə qoşulmaqla sadə, asan və operativ idarə olunur. Yarımstansiyada elektrik avadanlığı, materialların yanğından və partlayışdan mühafizəsi üçün yanğın əleyhinə siqnalizasiya sistemi də quraşdırılmışdır.

Dövlət başçısı 40 meqavatlıq transformatoru işə saldı. Yarımstansiya ilə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLAYE TİMOFTİYƏ**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Moldova xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2012-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimiz və xalqlarımız arasındakı mövcud dostluq əlaqələri istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının həyata keçirdiyi proqramlar çərçivəsində əməkdaşlığımıza daim öz töhfəsini verməkdədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimiz, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə fəal əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da öz inkişafını müvəffəqiyyətlə davam etdirəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2012-ci il*

## BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*İçərişəhər*

*19 mart 2012-ci il*

*Azərbaycan xalqının ən əziz bayramı olan Novruz yurdumuza qədəm qoyur. Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən bu bayram münasibətilə martın 19-da Bakıda ümumxalq şənliyi keçirilmişdir. Qədim Qız qalasının qarşısındakı meydan yenə də izdihamlı idi. Ətrafdakı binalar al-əlvan plakatlarla bəzədilmişdi. Meydanda Novruzun rəmzi olan nəhəng səməni də var idi.*

*Novruz xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Xalqımızın mənəvi dünyasını, milli düşüncə tərzini, məfkurəsini, qədim mifik görüşlərini, folklorunu, milli varlığını Novruz qədər bütün zənginliyi ilə özündə ifadə edən ikinci bir bayram təsəvvür etmək çətindir.*

*Novruz bütün türk dünyasına xas olsa da, Azərbaycanda daha möhtəşəm qeyd edilir. Xalqımızın böyüklüyü ondadır ki, heç bir qadağa ona Novruzu unutdura bilməmişdir. Ən çətin zamanlarda belə, öz bayramını qoruyub yaşatmış, milli adət-ənənələrini unutmamış, onları bu günümüzə gətirib çatdırmışdır.*

*Hələ respublikamıza rəhbərliyinin birinci dövründə ulu öndər Heydər Əliyev sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşırdı. Novruzun qədim köklərə malik olduğunu, xalqımızın qəlbində əbədi yaşadığını vurğulayan ulu öndər Heydər Əliyev bu bayramın imperiyanın sərt rejimi dövründə respublika miqyasında yüksək səviyyədə keçirilməsinə nail ol-*

muşdur. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra xalqımız nəcib adətlərin, milli dəyərlərin, xeyirxahlığın, insana, təbiətə məhəbbətin tərənnümçüsü olan Novruzu daha böyük təntənə ilə qeyd etməyə başlamışdır. Novruz çətinliklərdən keçərək öz haqqına qovuşdu. Novruza ümumxalq mahiyyəti verən Heydər Əliyev bayramlarda xalqla bir yerdə olur, insanları təbrik edir, ona milli birlik və həmrəylik tövsiyə edirdi. Novruzu xalqımızın əziz bayramı kimi səciyyələndirən Heydər Əliyev bu xidməti ilə də xalqın qədim adət-ənənələrinə son dərəcə bağlılığını göstərmişdir.

Təbiətlə əlaqədar olan bu gözəl bayramımızın indi dövlət səviyyəsində qeyd edilməsi həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiramın əlamətidir. Novruzu milli-mənəvi dəyərlərimizin təcəssümü adlandıran prezident İlham Əliyevin hər il bayram şənliklərinə qatılması, əhali ilə bayramlaşması, Bakının qədim meydanındakı tonqalı alovlandırması bayram ovqatını daha da artırmaqla yanaşı, xalqla iqtidar arasında sıx vəhdəti də sübut edir. Novruz gələcəyə inam hissi aşılayır, könüllərdə ən ali duyğuları oyadır, insanları daha xeyirxah, mərhəmətli və mehriban olmağa çağırır – deyən prezident İlham Əliyev onun insanlarda qurub-yaratmaq əzmi aşılayan bayram olduğunu da qeyd etmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində xalqımızın bu əziz el bayramı da artıq YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. 2010-cu il fevralın 23-də isə BMT Baş Məclisi 21 mart tarixini Beynəlxalq Novruz günü elan etmişdir. Bu layihə Azərbaycan dövlətinin təşəbbüsü ilə həyata keçirilmişdir.

Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Novruz şənliklərində iştirak etmək üçün Qız qalasının qarşısındakı meydana gəldilər.

Meydana toplaşmış minlərlə şəhər sakini, paytaxtın qonaqları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Milli geyimli uşaqlar Azərbaycan prezidentinə və xanı-

*mına bayram xonçası təqdim etdilər. Uşaqlar prezident İlham Əliyevi və Mehriban xanım Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Dövlətimizin başçısı ümumxalq şənliyində çıxış etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar! Hörmətli xanımlar və cənablar! Mən sizi və bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə səadət, uğurlar arzulayıram.

Novruz Azərbaycan xalqının ən sevimli bayramlarından biridir. Xalqımız əsrlər boyu bu gözəl bayramı qeyd edir. Müstəqil Azərbaycan ancaq 20 ildir ki, Novruzu dövlət bayramı kimi qeyd edir. İyirmi il ərzində bu bayram doğrudan da həm rəsmi bayram kimi qeyd edilir, həm geniş şəkildə, bütün ölkəmizdə hər bir Azərbaycan vətəndaşı baharın gəlişinə sevinir, hər bir Azərbaycan ailəsi bu bayram günlərində bir yerdə olur. Bir neçə il əvvəl Azərbaycanda Novruz bayramının 5 gün qeyd edilməsi ilə bağlı imzaladığım sərəncamın da məqsədi ondan ibarət idi ki, Novruz günlərində hər bir Azərbaycan ailəsi bu bayramı qeyd etsin. Şənbə və bazar günlərini də əlavə etsək, bu il bayram günləri 7 gündür.

Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə sadiqdir. Dövlətimiz bu dəyərlər üzərində qurulubdur. 20 il ərzində milli dəyərlərə münasibətimiz, milli ənənələrimizə hörmətimiz bizi daha da gücləndirdi. Bu gün müstəqil Azərbaycan bu əsaslı və güclü milli təməl üzərində öz gələcəyini qurur. Biz müasir dövlət qururuq, dünyaya inteqrasiya edirik, dünya proseslərində uğurla, fəal iştirak edirik. Ancaq çox güclü milli-mənəvi dəyərlərimiz bizim üçün əsasdır.

Biz ümumbəşəri dəyərlərə sadiqik, ümumbəşəri dəyərləri bölüşürük. Milli dəyərlər isə bizim üçün həm keçmişimizə olan münasibət, hörmət, həm də gələcəyə atılan addımlardır. Mən çox şadam ki, Azərbaycanda gənclər də milli-mənəvi dəyərlər əsasında tərbiyə olunurlar. Gənclər milli ruhda böyüyürlər. Milli ruhun yüksək səviyyədə olması bizi – azərbaycanlıları bir xalq kimi, daim yüksəklərə qaldıracaqdır.

Əsrlər boyu xalqımız müstəqillik arzusu ilə yaşamışdır. Biz müxtəlif ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq milli mənliyimizi heç vaxt itirməmişik. Hər zaman milli dəyərlər, Azərbaycan dəyərləri bizi daha da gücləndirirdi. Xalqımız üçün ən çətin anlarda bir millət kimi özümüzü qorumaq üçün milli dəyərlərimiz, ənənələrimiz, milli bayramlarımız, ana dilimiz öz rolunu oynamışdır.

Bundan sonra müstəqil dövlət kimi, Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir. Müstəqilliyimizin qısa tarixi bunu deməyə əsas verir. İyirmi il tarix baxımından kiçik bir dövrdür. Ancaq bu illər ərzində ölkəmiz çox uğurlu yol keçmişdir. Müstəqilliyimizi bərpa etdikdə Azərbaycanda gedən xoşagəlməz proseslər faktiki olaraq müstəqilliyimizi əlimizdən ala bilərdi. Ölkədə hökm sürən xaos, anarxiya, səriştəsizlik, siyasi rəhbərliyin xəyanəti ölkəmizi uçurum kənarına qoymuşdu. Ulu öndər Heydər Əliyevin Azərbaycana gəlməsi, Azərbaycan xalqının ona göstərdiyi etimad və inam vəziyyəti köklü şəkildə dəyişdirə bilmişdir. Ölkəmiz 1993-cü ildən bu günə qədər inkişaf yolunu yaşayır, beynəlxalq mövqelərimiz möhkəmlənir, daxildə vəziyyət müsbət istiqamətdə inkişaf edir. Azərbaycan dünya miqyasında ləyaqətli ölkə kimi özünü tanıtdıra bilmişdir.

İyirmi il ərzindəki uğurlar deməyə əsas verir ki, ölkəmiz bundan sonra da inkişaf edəcək və Azərbaycan dünya miqyasında daha da böyük yerə malik olacaqdır. Keçən ilin oktyabr ayında biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına seçildik. Bu, deyə bilərəm ki, 20 illik müstəqil həyatımızın və uğurlu siyasətimizin məntiqi nəticəsi

olmuşdur. Təsadüfi deyildir ki, BMT Təhlükəsizlik Şurasına seçilməyimiz müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf etmişdir. Bu təsadüfdə çox böyük məna, böyük rəmzi xarakter vardır. Çünki 20 ildə ölkəmiz o qədər inkişaf edib və dünyaya özünü o qədər tanıtdıra bilib ki, dünya birliyi bizə inandı, bizi dəstəklədi. 155 ölkənin Azərbaycana inanması və Azərbaycanı çox fəal şəkildə müdafiə etməsi bizim böyük uğurumuzdur, Azərbaycan dövlətinin böyük nailiyyətidir.

Biz artıq BMT-də fəal işə başlamışıq. Biz BMT Təhlükəsizlik Şurasında ədaləti müdafiə edəcəyik. Dünyada buna böyük ehtiyac vardır. Biz beynəlxalq hüququ müdafiə edəcəyik. Bəzi hallarda beynəlxalq hüquq işləmir, beynəlxalq hüquq normaları tapdalanır və bu baxımdan Azərbaycan öz təcrübəsini də ortaya qoyacaqdır. 20 ilə yaxındır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr icra edilmir və bu ədalətsizlik bu gün də davam edir. Bəzi hallarda qəbul edilmiş qətnamələr dərhal – saatlar içərisində icra edilməyə başlayır. Bizə gəldikdə isə, 20 ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalıb. Bu ədalətsizlikdir, beynəlxalq hüququn pozulmasıdır və böyük dövlətlərin beynəlxalq hüququn pozulmasına laqeyd münasibətinin təzahürüdür. Çalışacağıq ki, bu ədalətsizliyə öz imkanlarımızla və bizi dəstəkləyən ölkələrin fəal iştirakı ilə son qoyaq. Beynəlxalq hüquq normaları bərpa edilməlidir. Bizim əzəli torpağımız olan Dağlıq Qarabağ və ətraf bölgələr işğalçılardan azad edilməlidir. Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verilməyəcəkdir. Azərbaycan suverenliyini, ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcəkdir.

Bu mötəbər quruma seçilməyimiz ölkədə gedən proseslərin məntiqi nəticəsidir. Uğurlu siyasi və iqtisadi islahatlar aparmaqla ölkənin dayanıqlı inkişafına nail ola bilmişik. Bu gün Azərbaycan ilə əməkdaşlıq etmək istəyən ölkələrin, dostlarımızın sayı sürətlə artır. Bizim başqa ölkələrdə diplomatik nümayəndəliklərimizin də sayı artmaqdadır. Azərbaycan

bu gün nəinki region işlərində, dünya miqyasında müstəqil siyasəti ilə seçilən ölkədir. Biz 20 ildir, sözün əsl mənasında, müstəqil həyat yaşayırıq. Azərbaycan xalqının taleyi Azərbaycan xalqının əlindədir, xüsusilə böyük dövlətlərin maraqlarının kəsişdiyi bir bölgədə müstəqil siyasət aparmaq böyük siyasi iradə, cəsarət və müdriklik tələb edir.

Azərbaycan xalqı həmişə olduğu kimi, özünə xas olan bu gözəl xüsusiyyətlərini ölkəmiz üçün ən çətin anlarda nümayiş etdirir. Biz bundan sonra da müstəqillik yolu ilə uğurla gedəcəyik. Bu gün qarşımızda bütün imkanlar, bütün üfüqlər açıqdır. Beynəlxalq mövqelərimiz möhkəmdir. Daxildə siyasət sabitdir, ictimai-siyasi vəziyyət çox yaxşıdır. Ölkədə böyük sosial proqramlar icra edilir. Bu proqramlar haqqında danışmaq üçün bir neçə saat vaxt lazım olacaqdır. Sadəcə, iki məqamı qeyd etmək istəyirəm. Keçən il 900 minə yaxın pensiyaçının orta pensiyası əhəmiyyətli dərəcədə, təqribən 40 faizə yaxın artırılmışdır. Bu gün Azərbaycanda orta pensiyanın səviyyəsi orta maaş səviyyəsinin 40 faizini təşkil edir. Bu, inkişaf etmiş ölkələr üçün xas olan nəticədir.

Bu yaxınlarda sovet dövrü əmanətlərinin qaytarılması ilə əlaqədar müvafiq sərəncam imzalanmışdır. Bu da çox ciddi siyasi addımdır. Çünki müstəqil Azərbaycan dövləti keçmiş əmanətlərin qaytarılması işində hüquqi cəhətdən heç bir öhdəlik daşımır. Hesab etdim ki, bu, ədalətli olar və dövlət büdcəsində böyük məbləğ nəzərdə tutulur ki, biz gələn ilin sonuna qədər bütün əmanətlərin qaytarılmasına nail olaq. Bir daha demək istəyirəm ki, bu çox ciddi sosial və siyasi addımdır və bizim nə qədər güclü sosial siyasət aparmağımızı əyani şəkildə göstərir.

Biz nə sosial, nə xarici siyasət sahələrində uğurları güclü iqtisadi baza olmadan əldə edə bilməzdik. Buna görə biz əsas istiqaməti bu sahəyə yönəltdik. Son 8 il ərzində iqtisadiyyatımız 3 dəfə, büdcəmiz təxminən 15 dəfə artmışdır. Böyük valyuta ehtiyatlarımız vardır. Biz öz hesabımıza yaşayırıq, heç kimdən asılı deyilik. Əksinə, biz artıq yeni iqtisadi strategiyamızı icra edərkən xarici ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu bizə gələcəkdə həm iqtisadi, həm də siyasi cəhətdən böyük iqtisadi və siyasi dividentlər gətirəcəkdir və artıq gətirir. Biz bu siyasəti davam etdirəcəyik, maliyyə resurslarımızı şaxələndirilmiş şəkildə lazım olan layihələrə istiqamətləndirəcəyik.

İqtisadi sahədə əldə edilmiş nailiyyətlər bölgələrdə də öz təsirini göstərir. Hər bir bölgədə canlanma, inkişaf, quruculuq var, abadlıq işləri gedir. Bölgələr, rayonlar arasında sağlam rəqabət aparılır. Mən tez-tez bölgələrdə oluram və görürəm ki, hər bir yerdə quruculuq işlərinə böyük həvəs vardır. Hər bir rayonda sakinlər istəyirlər ki, onların şəhərləri, kəndləri daha da gözəl, daha da abad olsun.

Bir sözlə, ölkəmizdə ümumi ruh yüksəkliyi, ümumi quruculuq meyilləri çox güclüdür və bu onu göstərir ki, Azərbaycan cəmiyyəti sağlamdır. Bu sağlamlığın əsas mənbəyi milli dəyərlərimizdir. Biz bu dəyərlərə sadiqik və daim bu dəyərləri uca tutacağıq. Müasir dünyaya inteqrasiyamız da çox uğurludur. Biz müstəqil dövlət kimi, ümumi işlərə öz töhfəmizi veririk, regional proseslərdə fəal iştirak edirik.

Bu gün enerji, nəqliyyat layihələrinin icrasında Azərbaycan bölgədə söz sahibidir. Bizim təşəbbüsümüzlə icra edilən layihələr nəinki bölgə üçün, Avropa üçün, dünya üçün əhəmiyyətlidir. Biz bunu bilirik. Biz gücümüzü yaxşı bilirik. Bilirik ki, Azərbaycanın maraqlarını nəzərə almadan bölgədə heç bir təşəbbüs uğurla nəticələnə bilməz. Biz bu təşəbbüsləri enerji layihələrinin icrası ilə başlamışıq. Sonra bu, nəqliyyat sektoruna təsirini göstərməyə başlamışdır. Nəticə etibarilə bu gün siyasi sahədə də istənilən təşəbbüs, bölgədə irəli sürülən təşəbbüs Azərbaycan ilə razılaşdırılmalıdır. Yaxın tarixin mənzərəsi mənim sözlərimi çox gözəl şəkildə təsdiqləyir.

Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı və qarşılıqlı hörmət, bir-birinin işlərinə qarışmamaq əsasında münasibətləri qururuq. Heç bir ölkənin daxili işlərinə qarışmırıq. Əlbəttə, heç vaxt imkan vermərik ki, kimsə bizim daxili işlərimizə qarışsın. Baxmayaraq ki, belə cəhdlər vardır və istisna edilmir ki, bundan

sonra da olacaqdır. Halbuki, Azərbaycanın uğurlu inkişafı və bizim güclü iradəmiz artıq bu səylərin səngiməsinə gətirib çıxarmalıdır. Ümid edirəm ki, belə də olacaqdır.

Seçdiyimiz yol inkişaf yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz. Heç bir qüvvə bizi seçdiyimiz yoldan çəkindirə bilməz. Çünki bu yol Azərbaycan xalqının rifahını təmin edən yoldur. Bu yol Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün seçilib, tərəqqi, demokratiya yoludur. Ölkəmizin bu böhranlı illərdə uğurlu inkişafı bir daha onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur.

Bu gün keçmişdə bəzən bizə tövsiyələr verən beynəlxalq maliyyə qurumları da artıq razılaşmağa məcburdurlar ki, seçdiyimiz yol düzgün yoldur. Avropada böhran davam edir. İqtisadi-maliyyə böhranının ikinci dalğası yaşanır. Bəzi ölkələr defolt ərəfəsindədir. Bəzi ölkələrdə kredit reytinqləri əhəmiyyətli dərəcədə aşağı salınır. Amma Azərbaycanın kredit reytinqləri yüksəlir. Həmin reytinq agentlikləri Avropa ölkələrinin reytinqlərini aşağı salırlar, bizim reytinqlərimizi artırırlar. Bunu görməmək mümkün deyildir. Bəzi antiazərbaycan qüvvələri nə qədər çalışsalar da, bizdə gedən inkişafı görməmək, bunu inkar etmək mümkün deyildir.

Bu inkişaf həm statistikada, həm də abadlaşan şəhərlərdə, gözəlləşən rayonlarımızda və gözəlləşən Bakıda özünü göstərir. Bakı bizim paytaxtımız, əziz şəhərimizdir. Hər bir azərbaycanlı üçün yaşadığı yerdən asılı olmayaraq, Bakı mərkəzdir. Bu gün Bakı doğrudan da paytaxta layiq olan bir şəhərdir. Bakının tarixi gözəlliyi bu gün müasir infrastruktur layihələrinin tamamlanması ilə zənginləşdirilir.

Bakının kənd və qəsəbələrinin sosial-iqtisadi inkişaf Proqramı keçən ildən icra edilir və əminəm ki, gələn il uğurla başa çatacaqdır. Bütün qəsəbələrdə sosial infrastruktur layihələri icra ediləcəkdir. Bakı gözəlləşir, tarixi binalar bərpa edilir. Bakı bu gün parklar, bağlar, bağçalar şəhəridir. Bakı bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biridir.

Şəhərimizin inkişafı ilə bağlı gələcək planlarımız vardır. İlk növbədə, biz tarixi keçmişimizə böyük hörmətlə və ehtiyatla yanaşmalıyıq. «İçərişəhər» Dövlət Qoruğu çox böyük həssaslıqla, ehtiyatla və məhəbbətlə, tarixilik gözlənilməklə yenidən bərpa edilir. Bütün dini abidələrimiz, məscidlərimiz, ictimai yerlər, küçələr abadlaşdırılır. Müasir Bakını təcəssüm etdirən bulvarımız genişləndirilir. Bulvarın tarixi uzunluğu 3,5 kilometr məsafəni əhatə edir. Yeni bulvar tikilir. Yeni bulvar yəqin ki, bir-iki aydan sonra artıq açılacaqdır. Yeni bulvarın uzunluğu 2 kilometrə yaxındır. Bu, gözəl bir bulvar olacaqdır. Yeni bulvardan sonra Dövlət Bayrağı Meydanı başlayır. Dövlət Bayrağı Meydanında tikilən dənizkənarı gəzinti yerləri – əslində o da bulvarın davamıdır – 7,5 kilometrdir. Biz tarixi bulvarımızı bir neçə dəfə artırırıq. Nəticə etibarilə bir-iki aydan sonra vətəndaşlarımız və şəhərimizin qonaqları təqribən 13-15 kilometr məsafədə bu bulvardan istifadə edəcəklər.

Bayraq Meydanında möhtəşəm abadlıq işləri aparılır və yaxın zamanlarda hər bir Azərbaycan vətəndaşı bu imkanlardan istifadə edəcəkdir. Orada indi son tamamlama işləri aparılır. Yeni parklar salınır. Şəhərimizin tarixini əks etdirən, paytaxtımızın rəmzlərindən biri olan funikulyor yenidən qurulur. Gözəl Xalça Muzeyi tikilir. «Bakı Venesiyası» yenidən qurulur və kanallar genişləndirilir. Əminəm ki, orada zövqoxşayan bir mənzərə yaranacaqdır. Parklar abadlaşır. Bütün parklarda quruculuq işləri aparılır. Bu yaxınlarda Koroğlu parkı yenidən qurulubdur. İndi Dədə Qorqud parkında böyük işlər gedir, süni göllər yaradılır.

Bunları biz insanların rahat yaşaması üçün edirik. Bakıda işləmək və yaşamaq üçün bütün imkanlar vardır. Mən istəyirəm ki, Bakı dünya miqyasında ən gözəl şəhərlərdən birinə çevrilsin. Əminəm ki, gün gələcək və biz deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Belə də olmalıdır. Azərbaycan vətəndaşları ən gözəl şəraitdə yaşamalıdırlar. Həm böyük şəhərlərdə, həm kəndlərdə. Hər bir kənd üçün indi konkret proqramlar var və onlar icra edilir.

Əziz dostlar, bu gözəl bayram günlərində hava da bizimlə həmrəydir. Bu qış çox sərt keçmişdir və mən şəxsən xatırlamıram ki, Xəzər dənizi nə vaxtsa donsun. İndi məndən yaşda daha da böyük olanlar xatırlayırlar ki, 1953-cü ildə Xəzər dənizi donmuşdu. Bu, fövqəladə hal idi və biz hamımız səbirsizliklə bu gözəl günəşli günləri gözləyirdik. Bu da çox rəmzi xarakter daşıyır ki, məhz bayram günündə Günəş də bizimlə bərabərdir. Arzu edirəm ki, bundan sonra bütün dövrlərdə daim Azərbaycan səmasında Günəş saçsın! Daim bizim yolumuzu Günəş işıqlandırsın. Bizim yolumuz haqq yoludur, ədalət yoludur, inkişaf yoludur.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı və uğurlar arzulayıram.

## KOREYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*25 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Seul şəhərində keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün martın 25-də Koreya Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Seulda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün martın 25-də Koreya Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Seul şəhərinin Gimpo Beynəlxalq Aeroportunda fəxri qarovul dəstəsi düzülmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyevi Koreya Respublikasının yüksək səviyyəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ İŞTİRAK

*Seul*

*26 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Koreya Respublikasının paytaxtı Seulda Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdir.*

*Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. 50-dən çox ölkənin dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən nüvə terrorçuluğuna qarşı mübarizə, nüvə materiallarının və nüvə qurğularının mühafizəsi, nüvə materiallarının qanunsuz dövriyyəsinin qarşısının alınması, həmçinin Fukusima Atom-Elektrik Stansiyasında baş verən hadisə fonunda nüvə təhlükəsizliyi problemləri müzakirə olundu.*

*Cənubi Qafqazın əsas dövləti olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sammitdə iştirakı ölkəmizə beynəlxalq aləmdə verilən dəyərin göstəricisidir.*

*Sammit çərçivəsində martın 26-da Koreya Respublikasının Prezidenti Li Men Bak adından nümayəndə heyətləri başçılarının şərəfinə qəbul təşkil olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.*

## NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ ÇIXIŞ

*Seul*

*27 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 27-də Koreya Respublikasının paytaxtı Seul şəhərində keçirilən Nüvə Təhlükəsizliyi Sammitində çıxış etmişdir.*

*Sammitin ikinci günü nüvə təhlükəsizliyi sahəsində milli tədbirlərin təhlilinə və fiziki nüvə təhlükəsizliyinin möhkəmləndirilməsində beynəlxalq əməkdaşlığa həsr* olundu. *Zirvə görüşündə dünya liderləri nüvə* terrorizminin *qarşısının alınması üzrə uzunmüddətli və səmərəli beynəlxalq əməkdaşlıq məsələsində yeni səylər haqqında fikir mübadiləsi apardılar. Çıxışlarda* bildirildi *ki, ölkələrin rəhbərlərinə elə* bir qurumun *təşkili* vacibdir ki, burada *ən yaxşı təcrübəni bölüşmək və götürülən öhdəliklərin reallaşmasına kömək göstərmək mümkün* olsun. *Sammit iştirakçıları məsələ ilə bağlı* son iki *ildə əldə edilən irəliləyişə* baxmayaraq, *nüvə* terrorizmi *təhlükəsinin hələ də mövcud olduğunu və* bu *təhlükənin qarşısının alınması üçün dünyanın düzgün istiqamətdə irəlilədiyini bildirdilər.*

*Sammitin birinci plenar iclasında çıxış edən Azərbaycan prezidenti İlham Əliyev nüvə təhlükəsizliyinin bu gün dünya üçün,* o *cümlədən* Azərbaycan *üçün mühüm məsələ olduğunu* dedi. *Dövlətimizin başçısı ölkəmizin nüvə təhlükəsizliyi ilə bağlı* dünyada *qəbul edilən qərarlara hörmətlə yanaşdığını diqqətə çatdırdı.* Prezident *İlham Əliyev* bildirdi *ki, Azərbaycan* bu *qərarları yerinə yetirir,* beynəlxalq birliyin bu *istiqamətdə səylərini dəstəkləyir və* bundan sonra da *dəstəkləyəcəkdir. Dövlətimizin başçısı* regionda *nüvə təhlükəsizliyi məsələsinə* toxunaraq bildirdi ki, *1976-cı ildə Ermənistanda tikilən* atom-elektrik Stansiyası *köhnəlib, müasir* standartlara cavab vermir

və seysmik zonada yerləşir. Bütün bunlar Ermənistandakı atom-elektrik stansiyasını təhlükə mənbəyinə çevirmişdir.

Prezident İlham Əliyev sammitin müasir dünyada nüvə təhlükəsizliyinə dair çağırışlarla bağlı müzakirələrin aparılması baxımından səmərəli nəticələr verəcəyinə əminliyini vurğuladı.

Zirvə görüşündə nüvə terrorizmi təhlükəsinin qarşısının alınması üçün daha ciddi tədbirlərin görülməsi və yeni öhdəliklərin götürülməsi niyyəti ilə 50-dən çox ölkənin dövlət və hökumət rəhbərinin Seulda danışıqlar masası arxasında bir araya gəlməsinin bu sahədə yeni, daha real addımların atılacağına ümidlər yaratdığı və bunun nəticəsi kimi, dünya əhalisinin özünü nüvə terrorizmindən təhlükəsiz hiss edəcəyi vurğulandı. Müzakirələrdə atom energetikası obyektlərində terror təhlükəsinin qarşısının alınması, yüksək zənginləşdirilmiş uran və plutonium kimi xammalın istifadəsini minimuma endirməklə bağlı məsələlər də müzakirə olundu. Diqqət yetirilən əsas məsələlərdən biri də nüvə enerjisindən və radioaktiv materiallardan məkrli məqsədlərlə istifadənin qarşısının əvvəlcədən alınması oldu.

* * *

Günün ikinci yarısında sammitin ikinci qapalı plenar iclası keçirildi. Sammitdə yekun kommunike qəbul olundu və növbəti nüvə təhlükəsizliyi sammitinin 2014-cü ildə Niderlandda keçirilməsi qərara alındı.

Daha sonra Koreya Respublikasının Prezidenti Li Men Bakın və xanımı Kim Yun-Okun adından nümayəndə heyətlərinin başçıları və onların xanımlarının şərəfinə nahar verildi.

Prezident İlham Əliyev naharda iştirak etdi.

## NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ NİTQ

*27 mart 2012-ci il*

Hörmətli cənab Prezident!

Hörmətli həmkarlar!

Əvvəlcə bu mühüm tədbiri təşkil etdiyinə və sammitdə iştirak üçün Azərbaycana göndərdiyi dəvətə görə Koreya Respublikasının Prezidentinə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan qlobal nüvə təhlükəsizliyinə mühüm əhəmiyyət verir və Beynəlxalq Nüvə Terrorçuluğu Aktlarının Aradan Qaldırılması Konvensiyası və Nüvə Materiallarının Fiziki Qorunması kimi mühüm beynəlxalq sazişlərə qoşulmuşdur.

Azərbaycan nüvə təhlükəsizliyini təmin edən norma və standartların formalaşdırılması işində Beynəlxalq Atom Enerjisi Agentliyinin oynadığı rolu vacib hesab edir. Ölkəmiz nüvə təhlükəsizliyinin müxtəlif aspektləri ilə bağlı Agentliklə uğurlu əməkdaşlıq qurmuşdur. Biz mövcud uğurlu əməkdaşlığı 2008-ci ildə təsis etdiyimiz Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi vasitəsilə daha da genişləndirmək əzmindəyik.

Nüvə silahının yayılma təhlükəsini və coğrafi mövqemizi nəzərə alaraq, Azərbaycan ərazisindən nüvə qaçaqmalçılığı üçün tranzit marşrutu kimi istifadə edilməsi hallarının qarşısının alınmasına xüsusi əhəmiyyət verir. Azərbaycan beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edərək yüksək standartlara əsaslanan möhkəm qanunverici baza vasitəsilə ixraca nəzarət üçün güclü sistem yaratmışdır. Bu sistem nüvə qaçaqmalçılığının qarşısının alınmasında özünü etibarlı mexanizm kimi doğruldur.

Əfsuslar olsun ki, qonşu Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin davamlı işğalı səbəbindən beynəlxalq səviyyədə tanınmış cənub sərhədimizin 130 kilometrinə və Ermənistan ilə olan sərhədimizin böyük hissəsinə heç bir nəzarət mövcud deyildir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində həmin ərazilər 20 ildir ki, Ermənistanın işğalı altındadır. Həmin torpaqlarda Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışdır. Ermənistan BMT Təhlükəsizlik Şurasının bütün işğalçı qüvvələrin Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnaməsinə məhəl qoymur.

Azərbaycan coğrafi şəraitini və ətraf mühit üçün baş verə biləcək transsərhəd fəsadları nəzərə alaraq, mülki məqsədlər üçün nüvə qurğularının təhlükəsizliyini və etibarlılığını möhkəmləndirmək məqsədilə göstərilən səyləri tam dəstəkləyir. Bu yaxınlarda sunami nəticəsində Fukusima Atom-Elektrik Stansiyasında baş vermiş dəhşətli qəzaya çox ciddi şəkildə yanaşılmalıdır. Azərbaycan Ermənistanın 1976-cı ildə fəaliyyətə başlamış və hazırda köhnəlmiş Metsamor Atom-Elektrik Stansiyasından olduqca narahatdır. Metsamor stansiyası bütöv region və yaxınlıqda olan qonşular üçün potensial fəlakət mənbəyidir. O, son illərini yaşayan reaktorun soyudulması üçün zəruri olan su resurslarının çatışmadığı yüksək dərəcəli seysmik zonada yerləşir. Avropa İttifaqı Şərqi Avropa və keçmiş Sovet İttifaqında tikilmiş 66 sovet reaktoru arasında Metsamor reaktorunu «ən köhnəlmiş və ən etibarsız» hesab etmişdir. Hesabatda Metsamor «bütöv region üçün təhlükə» adlandırılır.

Bununla belə, biz nüvə enerjisi qurğusunu tikməyi arzulayan tərəfə səlahiyyətləri verəcək regional nüvə təhlükəsizliyini və etibarlılığını müəyyənləşdirən rejimlərin tətbiq edilməsini təklif edirik. Bu halda öz qonşularından razılığın alınması, həmin sahələrin etibarlılığı və təhlükəsizliyi barədə məlumatların şəffaf şəkildə mübadiləsi, yoxlamaların qəbulu və risklərə görə kompensasiyanın ödənilməsi kimi prosedurlar nəzərdə tutula bilər.

Azərbaycanın qoşulduğu Nüvə Terrorçuluğuna Qarşı Qlobal Mübarizə Təşəbbüsü və Prinsiplər Toplusu çərçivəsində beynəlxalq razılaşmanın və əməkdaşlığın daha da möhkəmləndirilməsinə çalışaraq, biz may ayında BMT Təhlükəsizlik Şurasında sədrliyimiz zamanı yüksək səviyyəli

müzakirələrin keçirilməsini planlaşdırırıq. Bu, antiterrorçuluq və nüvə terrorçuluğuna qarşı mübarizə kimi, geniş məsələlər ətrafında müzakirələr üçün münasib fürsət olacaqdır.

* * *

*Zirvə görüşündə dünya liderləri nüvə terrorizminin qarşısının alınması üzrə uzunmüddətli və səmərəli beynəlxalq əməkdaşlıq məsələsində yeni səylər haqqında fikir mübadiləsi apardılar. Çıxışlarda bildirildi ki, ölkələrin rəhbərlərinə elə bir qurumun təşkili vacibdir ki, burada ən yaxşı təcrübəni bölüşmək və götürülən öhdəliklərin reallaşmasına kömək göstərmək mümkün olsun.*

*Sammit iştirakçıları məsələ ilə bağlı son iki ildə əldə edilən irəliləyişə baxmayaraq, nüvə terrorizmi təhlükəsinin hələ də mövcud olduğunu və bu təhlükənin qarşısının alınması üçün dünyanın düzgün istiqamətdə irəlilədiyini bildirdilər.*

*Müzakirələrdə atom energetikası obyektlərində terror təhlükəsinin qarşısının alınması, yüksək zənginləşdirilmiş uran və plutonium kimi xammalın istifadəsini minimuma endirməklə bağlı məsələlərə də toxunuldu.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Koreya Respublikasına işgüzar səfəri martın 27-də başa çatmışdır.*

*Seulun Gimpo Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Koreya Respublikasının yüksək vəzifəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏKKİ SALLA**

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Seneqal arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Seneqal xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 mart 2012-ci il*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*30 mart 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin martın 30-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevi və xanımı Raisa Atambayevanı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Qırğız Respublikasının Prezidentinə raport verdi.*

*Qırğız Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Qırğız Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Almazbek Atambayevə, Qırğız Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*30 mart 2012-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və xanımı Raisa Atambayeva ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin təkbətək görüşü keçirildi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Dövlətlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.*

*Qırğız prezidenti Almazbek Atambayevin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulandı.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 mart 2012-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Qırğız Prezidentini ölkəmizdə salamlayan Azərbaycan prezidenti İlham Əliyev bu səfərin əlaqələrimizin və ikitərəfli münasibətlərimizin inkişafına verilən əhəmiyyətin çox yaxşı göstəricisi olduğunu vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Əminəm ki, münasibətlərimizin çox gözəl gələcəyi vardır. Biz bu gün artıq ikitərəfli münasibətlər, regional siyasət məsələləri barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, qarşılıqlı münasibətlərimizdə yol verilmiş vaxt itkisinin əvəzini tez bir zamanda çıxacağıq. Çünki bizim razılaşmaların konkret işlərə transformasiyası göz qabağındadır. Bu mənada Sizin səfərinizin müstəsna əhəmiyyəti vardır. Çünki bu, ilk səfərdir. Bizim iqtisadi, enerji və əlbəttə ki, siyasi sahələrdə qarşılıqlı münasibətlərin gələcək inkişafına dair böyük planlarımız mövcuddur. Mənə çox xoşdur ki, Siz bizim ölkəyə səfərə gəlmisiniz. Bu, uzun fasilədən sonra Azərbaycan ilə bir daha tanış olmaq üçün imkandır. Başlıcası isə, çox ümidverici mərhələyə qədəm qoyan ikitərəfli münasibətlərimizin inkişafı yollarını müəyyənləşdirməkdir. Buna görə bir daha Sizi və nümayəndə heyətinizin bütün üzvlərini salamlayıram. Ümid edirəm ki, səfərin nəticələri çox uğurlu olacaq, ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Bir daha xoş gəlmisiniz!

*Qırğız prezidenti Almazbek Atambayev münasibətlərimizin inkişafından çox müsbət nəticələr gözlədiyini söylədi. Ümidvar*

*olduğunu bildirdi ki, münasibətlərin inkişafı baxımından itirilən 20 ili qarşıdakı iki ildə fəal işləməklə qaytarmaq mümkün olacaqdır.*

**A l m a z b e k A t a m b a y e v**: Yadımdadır ki, hörmətli Heydər Əliyev «Manas» dastanının 1000 illik yubileyi ilə bağlı Bişkekdə olanda demişdir: «Dinimiz bir, dilimiz bir, kökümüz də birdir». Ona görə də münasibətlərimizi tamamilə başqa səviyyəyə qaldırmalıyıq. Görürəm ki, biz bunu reallığa çevirə biləcəyik. Mən çox şadam və fəxr edirəm ki, Azərbaycan bu dərəcədə dəyişmişdir. Mən burada 21 il əvvəl də olmuşam. Dünən və bu gün isə gördüm ki, tamamilə başqa Azərbaycandır. Ona görə ki, bizdən fərqli olaraq prezidentlər sarıdan sizin bəxtiniz gətirmişdir. 1993-cü ildən başlayaraq yaxşı bünövrə qoyulub və Azərbaycan belə tərəqqi edir, yüksəlir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*30 mart 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Qırğız sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan və Qırğız prezidentlərinin Birgə Bəyanatı»nı Azərbaycan prezidenti İlham Əliyev və Qırğız prezidenti Almazbek Atambayev imzaladılar.*

*«Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qırğız Respublikasının Narkotiklərə Nəzarət üzrə Dövlət Xidməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Qırğızıstanın Narkotiklərə Nəzarət üzrə Dövlət Xidmətinin sədri Vitali Orozaliyev imzaladılar.*

*«Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatına qəbul olunması üzrə Protokol»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qırğız Xarici İşlər naziri Ruslan Kazakbayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə riayət edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qırğız Xarici İşlər naziri Ruslan Kazakbayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında*

*Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qırğız Xarici İşlər naziri Ruslan Kazakbayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mülki müdafiə (mühafizə), fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qırğız Xarici İşlər naziri Ruslan Kazakbayev imzaladılar.*

## QIRĞIZ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*30 mart 2012-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin birgə mətbuat konfransı olmuşdur.*

*Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi Azərbaycan torpağında bir daha ürəkdən salamlayıram. Sizin prezident kimi ilk rəsmi səfərlərinizdən birini Azərbaycana etməyinizi çox yüksək qiymətləndiririk. Bu, dostluq və qardaşlıq əlamətidir. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında münasibətlərdə yeni səhifə açacaqdır. Bizim qardaş xalqlarımız əsrlər boyu həmişə sülh və dostluq şəraitində yaşamış, həmişə bir-birinə böyük sevgi və rəğbətlə yanaşmışlar.

Bu gün iki müstəqil dövlət kimi, Qırğızıstan və Azərbaycan əcdadlarımızın ənənələrinə sadiqdirlər. Bu gün biz münasibətlərimizin inkişafının yeni mərhələsinə başlayırıq. Biz həmişə çalışmışıq ki, ölkələrimiz arasında münasibətlər dinamik və səmərəli inkişaf etsin. Lakin təəssüf ki, müəyyən vaxt itirilmişdir. Siz Qırğız Respublikasına rəhbərlik edəndən sonra biz münasibətlərimizin inkişaf dinamikasını, bu münasibətləri inkişaf etdirmək üçün real, ciddi əzmkarlıq göstərildiyini görürük. Ən başlıcası, biz öz vədlərimizə və razılaşmalarımıza

sadiqik. Bir neçə ay bundan əvvəl olmuş ilk görüşümüz artıq münasibətlərimizin fəallaşmasına gətirib çıxarmışdır, bizim strukturlar və şirkətlər arasında artıq əlaqələr mövcuddur. Sizin Azərbaycana səfəriniz ikitərəfli əlaqələrin inkişafına bizim necə yanaşmağımızın sübutudur.

Bu gün biz həm siyasi baxımdan, həm iqtisadi sahədə, həm də investisiya siyasətində münasibətlərimizin qarşıdakı onilliklər üçün inkişafının yollarını müəyyən edirik. Bu gün münasibətlərimizin inkişafının əsas istiqamətlərini müəyyən etdik. Biz qarşılıqlı siyasi əlaqələri möhkəmlətməkdə davam edəcək, beynəlxalq təşkilatlarda fəal işləyəcək, bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcək və beləliklə, birliyimizi daha da möhkəmlədəcəyik.

Bu gün biz iqtisadi sahədə münasibətlərimizin əsas inkişaf yollarını müəyyən etdik, razılaşdıq ki, Qırğızıstan–Azərbaycan Hökumətlərarası Komissiyanın birinci iclası gələn ay keçiriləcəkdir. Bizim strukturlara fəaliyyət istiqamətləri barədə konkret tapşırıqlar verildi, iqtisadi, investisiya, energetika sahələrində potensial əməkdaşlığın konkret layihələri nəzərdən keçirildi.

Əlbəttə, humanitar əməkdaşlıq çox mühüm rol oynayır. Dillərimizin, mədəniyyətlərimizin, tarixi keçmişimizin ümumiliyi bizim əlaqələri möhkəmləndirir. Biz münasibətlərimizi geniş miqyasda, səmərəli və dinamik inkişaf etdirmək və tərəfdaşlıq münasibətlərinə transformasiya etmək əzmindəyik. Əminəm ki, bu gün barəsində razılığa gələcəyimiz məsələlər konkret nəticələr verəcəkdir. Ona görə ki, çox müsbət ikitərəfli əzmkarlıq və başlıcası, müəyyən etdiyimiz qərarları yerinə yetirməyə sadiqlik vardır.

İmzalanmış sənədlər də niyyətlərimizə dəlalət edir. Bu gün imzalanmış sənədlərin sayı ölkələrimizin müstəqilliyinin 20 ili ərzində imzalanmış sənədlərin sayından çoxdur. Bu da əvvələn, münasibətlərimizdə itirilmiş vaxtın göstəricisi, həmçinin ölkələrimiz arasında münasibətləri qurmaq əzmimizin göstəricisidir.

Əminəm ki, münasibətlərimizin böyük gələcəyi vardır. Bundan sonra da ikitərəfli planda, regional münasibətlərdə fəal işləyəcəyik. Həmçinin türk dünyasının birliyini daha da möhkəmlətmək, inteqrasiya proseslərində fəal iştirak etmək, planetimizdə yaşayan türk xalqlarının yaxınlaşdırılmasına yönəldilmiş bütün təşəbbüsləri dəstəkləmək barədə razılığa gəldik. Burada bizim baxışlarımız tamamilə üst-üstə düşür və bizə çox xoşdur ki, türk dünyası prezident Atambayevin şəxsində xalqlarımızın birliyinin, ümumi tarixlə, ümumi mədəniyyətlə birləşən müstəqil dövlətlərin yaxınlaşmasının çox fəal təbliğçisini və tərəfdarını qazanmışdır.

Əminəm ki, Sizin səfəriniz çox uğurlu, səmərəli olacaq, yaxşı nəticələr verəcəkdir. Siz dediniz ki, Azərbaycanda 21 il əvvəl olmusunuz. Bu həm də bizim ölkənin bugünkü reallıqları ilə tanış olmaq və mənim artıq dediyim kimi, münasibətlərimizin inkişafının gələcək istiqamətlərini müəyyən etmək üçün bir fürsətdir.

Sizə və nümayəndə heyətinizin üzvlərinə ən xoş arzularımı bildirir, Azərbaycanda vaxtınızın yaxşı keçməsini diləyirəm.

## Qırğız prezidenti Almazbek Atambayevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Əvvələn, dünəndən bəri bizə göstərilən bu səmimi, qardaş münasibətə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu həqiqətən əsl qardaşlıq münasibətidir. Mənim üçün bu bəlkə də taleyin qismətidir, lakin çox əlamətdardır. Fəxr edirəm ki, Qırğızıstanın 20 ildə Azərbaycana ilk dəfə rəsmi səfərə gəlmiş birinci prezidentiyəm. Sizin haqlı olaraq qeyd etdiyiniz kimi, biz 20 ili itirmişik. Düşünürəm ki, bu 20 ilin əvəzini çox tez bir vaxtda çıxacağıq. Sizin dediyiniz kimi, bu gün 20 il ərzində imzalandığından daha çox sayda, özü də real sənəd imzalanmışdır. Gələn ay biz hökumətlərarası komissiyanın iclasını keçirəcəyik, özü də komissiyanın qarşısında real

vəzifələr qoyulmuşdur – energetika, investisiyalar, investisiya fondunun yaradılması və digər sahələr də. Bilirsiniz, düşünürəm ki, biz bu itirilmiş vaxtın əvəzini çıxacağıq.

Sizin haqlı olaraq qeyd etdiyiniz kimi, bizim ümumi tariximiz vardır. Bunu çox vaxt unudanlar onu da xatırlamalıdırlar ki, Sibirdən başlamış Qara dənizə qədər nəhəng bir ərazidə yaşayan xalqlar həmişə gah xaqanlıq – türk, qırğız, uyğur xaqanlığı, gah Qızıl Orda, gah Rusiya imperiyası, gah Sovet İttifaqı adı altında birləşməyə çalışmışlar. Ona görə ki, bütün bu ərazidə qardaş xalqlar yaşayır. Elə həmin Rusiyada məncə, əhalinin təxminən 20 faizi türkdillidir. Rusiyanın tarixi, istər hərbi, istərsə mədəni tarixi Turgenev, Aksakov, Kuprin və başqa xeyli türk mənşəli görkəmli şəxsiyyətlərlə zəngindir. Buna görə düşünürəm ki, bu birləşmə, keçmişi unutmamaq çox aktualdır. Çünki deyiblər: Əgər kim keçmişə tapançadan atəş açsa, gələcək onu top atəşinə tutacaqdır.

Mən bugünkü görüşlərə çox şadam. Çox şadam ki, olduqca mühüm siyasi və iqtisadi sənədlər imzalanmışdır.

Bildirmək istəyirəm ki, biz hörmətli İlham Heydər oğlunu bu ilin avqust ayında Qırğızıstana rəsmi səfərə dəvət etmişik. Möhtərəm Prezident səfərə gəlməyi vəd etmişdir. Yəqin ki, Türkdilli Ölkələrin Sammitini də həmin vaxtda keçirəcəyik.

Düşünürəm ki, münasibətlərimiz əslində tamam başqa mərhələyə keçir. Hər iki nümayəndə heyətinin üzvləri bunu danışıqlar zamanı gördülər. Mənə belə gəlir ki, Allahın köməyi ilə ölkələrimiz arasında tamamilə başqa münasibətlər yaranacaqdır və biz bu 20 il ərzində itirdiklərimizin əvəzini çıxacağıq.

Sonda demək istəyirəm ki, mən Bakıda əslində bir dəfə olmuşam – 1991-ci ildə, 21 il bundan əvvəl. İndi Bakını tanıya bilmirəm. Bu tamam başqa ölkədir. Bu ölkənin nümayəndəsi «Eurovision» müsabiqəsində qalib gəlmişdir. Bakıya baxdıqca yalnız yaxşı mənada həsəd aparmaq və fikirləşmək olar ki, bizim Bişkek də belə olmalıdır. Biz bunu öyrənəcəyik. Çox şey öyrənəcəyik. Əlbəttə, düşünürəm ki, prezidentlər sarıdan –

hörmətli Heydər Əlirza oğlu sarıdan, İlham Heydər oğlu sarıdan Azərbaycanın bəxti çox gətirmişdir. Azərbaycan çox inamla, güclü addımlarla irəliləyir. Bizim birlikdə görməli olduğumuz işlər vardır. Düşünürəm ki, bu dəfə artıq bu fəaliyyət xəttindən çəkilməyəcək və fəal işləyəcəyik.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**Bermet Kurmanbekov (***Qırğız Respublikası İctimai Teleradio Yayım Korporasiyası***): Mənim sualım Almazbek Şarşenoviçədir. Bundan əvvəl Qırğızıstanda neft emalı zavodunun istifadəyə verilməsi haqda Sizinlə Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev arasında razılıq əldə edilmişdi. Həmin məsələ bu gün müzakirə edildimi? Bu təşəbbüs nə dərəcədə reallaşdırıla billəndir?**

**Almazbek Atambayev:** Bəli, müzakirə edilmişdir. Azərbaycanın Baş nazirinin birinci müavini hörmətli Yaqub Abdulla oğlu mənə vəd etmişdir ki, aprel ayında Bişkekdə biz Qırğızıstanda neft emalı zavodunun tikilməsi haqda qəti qərar qəbul etməyə çalışacağıq. Biz bu məsələdə də Azərbaycan prezidentinin çox güclü dəstəyini hiss edirik. Bu iş məhz Azərbaycan prezidentinin təşəbbüsü ilə başlanmışdır. Allah qoysa, 2–2,5 milyon ton gücündə neft emalı zavodu tikilməsi haqda qərar qəbul ediləcəkdir. Qırğızıstan üçün bu, real müstəqilliyə doğru çox böyük addım olacaqdır. Əgər Qırğızıstanda yanacaq-sürtkü materialları, benzin, dizel yanacağı, aviasiya ağ nefti istehsal edilərsə, bu, irəliyə doğru nəhəng addım olacaqdır. Biz bu işə Azərbaycan prezidenti və Azərbaycanın digər rəhbərləri tərəfindən göstərilən dəstəyə görə çox minnətdarıq.

**Albina Atlıxanova (***Azərbaycan Dövlət Teleqraf Agentliyi***): Mənim sualım Qırğız prezidentinədir. Cənab Prezident, Siz Azərbaycan ilə Qırğız arasında konkret hansı**

**sahələrdə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsini perspektivli hesab edirsiniz?**

**A l m a z b e k A t a m b a y e v:** Bilirsinizmi, həqiqətən 20 il itirilmişdir. Görünür, qismət belə imiş, Allah belə istəmişdir. Lakin bu gün biz bütün istiqamətlər üzrə irəliləmək üçün neft emalı zavodundan başlamış, bank, turizm sahələrinə, Azərbaycan–Qırğız İnvestisiya Fondunun yaradılmasına qədər qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etdik. Bizim öyrənməli olduğumuz məsələlər, birlikdə sərmayə qoya biləcəyimiz sahələr vardır. Sirr deyildir ki, Azərbaycan Gürcüstandan başlamış, Avropaya qədər çox ölkələrdə milyardlarla sərmayə qoymuşdur. Buna görə mən dedim ki, Qırğızıstana da bir milyard sərmayə qoyulsa yaxşı olardı. Düşünürəm ki, hörmətli İlham Heydər oğlu bu fikri dəstəkləyər. Bizim aviasiya yolları da daxil olmaqla, olduqca çoxlu tətbiq sahələri vardır. Ola bilsin ki, biz İssık-Kulda Tamçi aeroportunun tikilməsinin mümkünlüyünü müzakirə edəcəyik. Fikrimcə, qarşıda bizi çox fəal, səmərəli iş gözləyir və birgə işləməli olduğumuz məsələlər vardır.

**B a l b a k T u l e b a y e v** *(«Ayat-press» qəzeti)*: **Mənim sualım prezident İlham Heydər oğlunadır. 1992-ci ildən türkdilli ölkələrin sammitləri keçirilir. Türkdilli Ölkələrin Dövlət Başçıları Şurası yaradılmışdır. Bu ölkələr bəzi məsələlərdə – mədəniyyət, təhsil, parlamentlərarası əlaqələr məsələlərində çox fəaldırlar. Lakin siyasi məsələlərdə onlar zəiflik göstərirlər. Məsələn, Oş hadisələrində, Ermənistan–Azərbaycan məsələsində. Bu baxımdan dövlətimizin başçısının səfəri güclü birliyin yaradılması üçün başlanğıc ola bilərmi?**

**İ l h a m Ə l i y e v:** Mən hesab edirəm ki, Qırğız prezidentinin türk dünyasının səylərini birləşdirmək üzrə fəal mövqeyi birliyimizi möhkəmlədəcəkdir. Biz öz tərəfimizdən həmişə çalışmışıq ki, türk dünyasının birliyini real təşəbbüslərlə möhkəmlədək. Bu istiqamətdə Bakıda müxtəlif tədbirlər, o cümlədən türkdilli ölkələrin dövlət başçılarının həm Bakıda, həm də Naxçıvanda sammitləri keçirilmişdir. Çalışmışıq ki, birliyimizi

konkret məzmunla zənginləşdirək. Məsələn, Azərbaycanı Türkiyə ilə bağlayan enerji xarakterli layihələr bu gün region çərçivəsindən kənara çıxır və dünya miqyaslı ən mühüm enerji layihələridir. Azərbaycan həm də Qazaxıstandan və Türkmənistandan olan dostlarımız üçün neft, neft məhsulları, digər yüklər üzrə tranzit xidmətlərini həyata keçirir. Biz Azərbaycanı Türkiyə ilə və beləliklə, Avropanı Asiya ilə birləşdirəcək Bakı–Tbilisi–Qars dəmir yoluna yüz milyonlarla dollar sərmayə qoyuruq. Bu dəmir yolu bütün türkdilli dövlətlərə xidmət edəcəkdir. Bu, türk dünyasının birliyini möhkəmlədən investisiya siyasətimizin konkret istiqamətləridir.

Siyasi baxımdan da az iş görülməmişdir. Türkdilli dövlətlərin sammitlərində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həmişə birmənalı mövqe, bu münaqişənin tənzimlənməsində Azərbaycanın haqq işinə dəstək, bu münaqişənin tənzimlənməsi ilə əlaqədar beynəlxalq qərarlara, beynəlxalq təşkilatların qətnamələrinə dəstək ifadə edilmişdir.

Biz qardaş dövlətlərin bizim üçün ən vacib məsələyə – artıq 20 ildən bəri davam edən erməni işğalına son qoyulması, münaqişənin tezliklə tənzimlənməsi məsələsi ilə bağlı mövqeyindən razıyıq. Bildiyiniz kimi, Ermənistan ərazimizin 20 faizini işğal altında saxlamaqda davam edir, bir milyondan çox azərbaycanlını öz tarixi vətənlərindən qovmuş, etnik təmizləmə siyasəti aparmışdır və bu gün də beynəlxalq təşkilatların, o cümlədən ən mühüm təşkilat olan BMT-nin qərarlarını yerinə yetirmək istəmir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmiş, lakin onlar yerinə yetirilməmişdir.

Türkdilli dövlətlərin qarşılıqlı dəstəyi bütün məsələlərdə əksini tapmalıdır. Bu, iqtisadi, siyasi dəstək, beynəlxalq qurumlarda qarşılıqlı fəaliyyət, beynəlxalq təşkilatlarda bir-birinin xeyrinə səsvermə deməkdir. Biz türkdilli dövlətlərin, həmçinin islam dünyasının həmrəyliyi mövqeyinə həmişə sadiq olmuşuq. Bu istiqamətdə də iş aparır, təşəbbüslər göstəririk.

Bizim təşəbbüsümüzlə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin çoxsaylı tədbirləri keçirilmişdir. 2009-cu ildə Bakı islam dünyasının mədəni paytaxtı seçilmişdi. 2018-ci il üçün bu Fəxri ada Azərbaycanın digər qədim şəhəri – Naxçıvan layiq görülmüşdür.

Biz bu istiqamətdə fəal iş aparırıq və Qırğız prezidentinin şəxsində öz tarixi köklərinə sadiq olan bir insanı görmək mənə çox xoşdur. Mən bunu Almazbek Şarşenoviçə şəxsi söhbətimizdə də demişəm. İndi də açıq demək istəyirəm ki, bu, ikitərəfli münasibətlərimizin inkişafı, həmçinin türk dünyasının birliyini möhkəmlətmək işində əlavə nikbinlik yaradır. Türk dünyası çox böyük potensiala – insan resurslarına, yaxşı demoqrafik şəraitə malikdir. Zəngin təbii ehtiyatlarımız – neft, qaz, metallar, su ehtiyatımız var. Biz Xəzər dənizi vasitəsilə bütün türk dünyasını birləşdirən çox geniş coğrafi əraziyə malikik. Buna görə də mövqelərimizin güclənməsi yalnız birliyimizin möhkəmlənməsi ilə bağlı ola bilər. Bugünkü səfər də birliyimizi möhkəmlətmək işinə töhfədir. Biz bu səfərə həm də bu baxımdan yanaşırıq və bu müsbət meyilləri gələcəkdə də davam etdirmək ümidindəyik.

**Ceyhun Əliyev (*ATV telekanalı*): Sualım Qırğız prezidentinədir. Cənab Prezident, bu gün ölkələrimiz arasında imzalanmış sənədlərin ikitərəfli əlaqələrin gələcək inkişafı baxımından rolunu necə qiymətləndirirsiniz?**

**Almazbek Atambayev:** Hesab edirəm ki, bunlar dönüş yaradan sənədlərdir. Qırğızıstan Azərbaycanın ərazi bütövlüyünün tərəfdarıdır. Köklərimizə nəzər salmaq da təsadüfi deyildir, çünki son 20 ildə Qırğızıstanda iki dəfə – 1990-cı ildə və 2010-cu ildə separatçılıq cəhdləri olmuşdur. Bu cəhdlər məhz onunla bağlı idi ki, insanlar öz köklərini unutsunlar. Qırğızlar da, özbəklər də türkdürlər. Keçmişi xatırlamaq yalnız sülh işinə xidmət edir. Biz hər cür separatçılığın əleyhinəyik, ölkələrimizin ərazi bütövlüyünün tərəfdarıyıq. Hesab edirəm ki, bu sənədlər həm iqtisadi, həm də siyasi baxımdan imzalanmış həlledici sənədlərdir.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*30 mart 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və xanımı Raisa Atambayeva martın 30-da Heydər Əliyev Fondunda olmuşlar.*

*Qırğız Respublikasının başçısını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Prezident Almazbek Atambayev və xanımı ulu öndər Heydər Əliyevin arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldular.*

*Fondla tanışlıq zamanı qonaqlara məlumat verildi ki, ümummilli liderin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə*

*tanış oldular, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.*

*Prezident Almazbek Atambayev fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim olundu. Qırğız Respublikasının Prezidenti və xanımı Heydər Əliyev Fondunun fəaliyyətindən bəhs edən filmə tamaşa etdilər.*

*Qonaqlar Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldılar.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*30 mart 2012-ci il*

*Martın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin və xanımı Raisa Atambayevanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Qırğız prezidenti Almazbek Atambayevin Azərbaycana səfərinin çox böyük əhəmiyyət daşıdığını deyən prezident İlham Əliyev bildirdi ki, bu səfərlə əlaqələrimizin tarixində yeni səhifə açılır. Prezident İlham Əliyev onu da bildirdi ki, hər iki xalqın əməkdaşlıq əlaqələrinin çoxəsrlik tarixi vardır. «Bizim ölkələri tarixi köklər bağlayır» – deyən Azərbaycan prezidenti ölkələrimizin müstəqillik tarixinin də eyni olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, Qırğızıstanın inkişafında Azərbaycan daim onun yanında olacaqdır. Prezident İlham Əliyev səfər çərçivəsində imzalanan sənədlərin əhəmiyyətindən danışdı, son illərdə münasibətlərdə yaranan boşluğu doldurmaq üçün siyasi iradənin olduğunu vurğulayaraq dedi:*

– Biz bir yerdə olmalıyıq. Bizim gücümüz birlikdədir. Bunun üçün eyni tarixi köklər vardır. Həm siyasi, həm də iqtisadi sahədə ümumi maraqlarımız mövcuddur. Biz beynəlxalq strukturlarda, BMT, İslam Əməkdaşlıq Təşkilatı, İƏT, MDB çərçivəsində fəal şəkildə qarşılıqlı fəaliyyət göstəririk, bir-birimizi dəstəkləyirik. İqtisadi sahədə bizim hələ fəxr edəcəyimiz bir şey yoxdur, əmtəə dövriyyəsi çox aşağı səviyyədədir. Ancaq yaxşı perspektivlər vardır. Bizim bu gün haqqında danışdığımız investisiya layihələri, Azərbaycan investisiyaları ilə bağlı layihələr, o cümlədən enerji, bank, turizm sahələrindəki layihələr iqtisadi əlaqələrimizi möhkəmləndirməyə kömək edəcəkdir. Gələn ay artıq hökumətlərarası komissiyanın iclası keçiriləcəkdir. Yaxşı nəticə-

lərə və danışdığımız məsələlərin səmərəli və tezliklə həllinə ümid edirik.

*Azərbaycan etibarlı tərəfdaşdır. Qırğızıstan üçün dost ölkədir – deyən prezident İlham Əliyev bildirdi ki, investisiyalarla mövcud əlaqələri daha da möhkəmləndirmək olar. Dövlətimizin başçısı Almazbek Atambayevin Qırğızıstanın inkişafındakı rolunu qeyd etdi, bu ölkənin gələcəkdə mühüm uğurlara imza atacağına ümidvar olduğunu bildirdi.*

*Qırğız prezidenti Almazbek Atambayev Azərbaycanda qardaş və dost ölkənin başçısı kimi səmimi qəbul olunduğundan məmnunluğunu bildirdi. Bakının çox sürətlə inkişaf etdiyini deyən Qırğız prezidenti Heydər Əliyev Fondunun fəaliyyəti ilə tanışlığından məmnun qaldığını vurğuladı və fondun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli uğurlu fəaliyyətini yüksək qiymətləndirdi. Mən bu gün hiss edirəm ki, vədlərinə sadiq olan sanki öz qardaşımı tapmışam – deyən Almazbek Atambayev prezident İlham Əliyevin uğurlu siyasi fəaliyyətindən danışdı və səylərin birləşdirilməsinin əhəmiyyətinə toxunaraq dedi:*

– Düşünürəm ki, bizim buradan öyrənə biləcəyimiz çox şey var. Bir məsələni deyə bilərəm ki, biz daha tez-tez bir yerdə olacağıq. Çünki bir yerdə olanda həmişə asan olur. Zənnimcə, biz gələcəkdə birgə səylərlə çox iş görəcəyik. Belə bir səmimi qəbula, bu cür qardaşlıq münasibətlərinə görə minnətdaram.

## BAKIDA BEŞULDUZLU «JW MARRİOTT ABSHERON» OTELİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*1 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 1-də Bakıda «JW Marriott Absheron» otelinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidenti və xanımı oteldə yaradılmış şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, köhnə «Abşeron» mehmanxanasının yerində tikilən yeni «JW Marriott Absheron» oteli dünya şöhrətli «Marriott İnternational» şirkətinin ölkəmizdəki ilk otelidir. Bakıda beynəlxalq səviyyəli bu cür otellərin tikilməsi ölkəmizdə turizmin inkişafının istər yerli, istərsə də xarici şirkətlər üçün yaradılan əlverişli investisiya mühitinin bariz göstəricisidir.*

*Qeyd edildi ki, oteldə otaqların layihələndirilməsi və tərtibatı zamanı Azərbaycanın təbiəti, memarlıq abidələri, eləcə də Xəzər dənizinin elementləri öz əksini tapmışdır. Oteldə yüksək kateqoriyalı «Executive studio», «Executive Deluxe», «Executive Premier» və «President luxe» də daxil olmaqla, ümumilikdə 243 geniş otaq vardır.*

*Oteldə Şərq mətbəxinin təamlarının təklif edildiyi «Fireworks Oriental Kitchen», İtaliya mətbəxinin nümunələri olan «OroNero Bar&Ristorante» restoranları, «Razzmatazz Cocktail&Lounge» barı və «Zest Lifestyle» kafesi vardır. Burada, həmçinin Azadlıq meydanı tərəfdən xüsusi girişi olan restoranlar, bar və kafe fəaliyyət göstərir.*

*Bildirildi ki, otelin binasının üst üç mərtəbəsini əhatə edən «Abşeron Spa» mərkəzində qonaqlar Bakının və Xəzər dənizinin füsunkar mənzərəsini seyr etmək imkanına malik olacaqlar.*

*Mərkəzdə altı prosedur otağı, daxili hovuz, buxar otağı və sauna vardır.*

*Qeyd edildi ki, işgüzar görüşlər və konfransların keçirilməsi üçün oteldə təbii Günəş işığı ilə işıqlandırılan 13 iclas zalı vardır. Otelin mirvarisi hesab olunan 1208 kvadratmetrlik sütunsuz «Şərq» zalında böyük tədbirlərin, sərgilərin və digər mərasimlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı otelin terrasında da yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, otelin həyətindən bulvara çıxan yeraltı keçid də tikilir.*

*«JW Marriott Absheron» oteli Azərbaycanın böyük turizm potensialına malik olmasını və tezliklə respublikamızın dünyanın elit turizm mərkəzlərindən birinə çevriləcəyini bir daha təsdiqləyir.*

**İlham Əliyev**: Bu gün şəhərimizin tarixində çox əlamətdar bir gündür. Bakıda gözəl, möhtəşəm «Marriott» oteli açılır. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, «Marriott» oteli dünya standartlarına cavab verir. Qonaqların istirahəti, müxtəlif tədbirlərin keçirilməsi üçün bütün şərait vardır. Otelin xarici görünüşü də, daxili dizaynı da çox gözəldir. Burada bütün işlər böyük zövqlə görülübdür. Əminəm ki, bu otel nəinki Azərbaycanın, bütün bölgənin ən gözəl otellərindən birinə çevriləcək. Şübhə etmirəm ki, burada xidmət də yüksək səviyyədə olacaqdır. Çünki «Marriott» dünya şöhrətli otellər şəbəkəsidir. «Marriott»un Azərbaycana gəlməsi Azərbaycanda gedən inkişafın əlamətidir.

Çox şadam ki, otel öz tarixi «Abşeron» adını da saxlayıb. Çünki keçən əsrin 80-ci illərində burada «Abşeron» otelinin tikilməsi o dövr üçün böyük hadisə idi. Bir tərəfdə «Abşeron», digər tərəfdə «Azərbaycan» otellərinin tikilməsi bizim əsas meydanımızın hüdudlarını da müəyyən etmişdi. İndiki dövrdə artıq həyat yeni inkişaf dinamikası tələb edir. Mən çox şadam ki, Bakının bugünkü mənzərəsində yenə bizim əsas meydanımız olan Azadlıq meydanı iki gözəl otellə əhatə olunub və beləliklə, bu gözəl meydan tamamlanır.

Otelin tikintisi Azərbaycana investorlar tərəfindən göstərilən diqqətin də əlamətidir. Dünya şöhrətli otellər şəbəkələrinin Azərbaycana gəlməsi və fəaliyyətə başlaması Azərbaycanda gözəl investisiya iqliminin təzahürüdür. Biz bütün sahələrdə investisiyaları alqışlayırıq və çox şadam ki, hazırda turizm sektoruna, otelçilik sektoruna sərmayə qoyulur. Təkcə son bir il ərzində şəhərimizdə dörd beşulduzlu otel istifadəyə verilibdir. Bu dördüncüsüdür və yaxın aylarda Bakıda daha iki beşulduzlu otel açılacaqdır. Hesab edirəm ki, bu, bölgənin tarixində nadir bir hadisədir. Bir il, il yarım ərzində bir şəhərdə beşulduzlu altı otel yaradılır və bu şəhərin adı Bakıdır. Bakı bu inkişafa layiqdir. Çünki Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Gəncləşən, müasirləşən Bakı da dünya miqyasında artıq özünə yer tutubdur.

Otelin ətrafı da abadlaşdırılır. Qonaqlar burada tikilmiş yeraltı keçid vasitəsilə bulvara çıxacaqlar. Bakının tarixi bulvarı buradan, bu nöqtədən başlayır. Tarixi bulvarımızın uzunluğu 3,5 kilometr təşkil edir. Sovet İttifaqı zamanında məsafə baxımından ən böyük bulvar Bakı bulvarı idi. Ancaq müasir Azərbaycanın inkişafı tələb edirdi ki, biz bulvarın da uzunluğunu artıraq. Hazırda yeni bulvarın tikintisi, Bayraq Meydanında dənizkənarı zolaqların tikintisi nəticəsində ay yarım bundan sonra Bakı bulvarının – köhnə, yeni və Bayraq Meydanındakı bulvarın uzunluğu 14-15 kilometrə çatacaqdır.

Bu məqsədlə bulvar üçün yeni kiçik avtobuslar sifariş edilibdir. Bulvardan Bayraq Meydanına qədər dəniz taksiləri işləyəcəkdir. Qısa müddətdə bu qədər inkişaf, bu qədər investisiyalar ölkəmizin yüksəliş dinamikasını göstərir.

Ölkəmizin bölgələri də inkişaf edir. Bölgələrdə də beşulduzlu otellər tikilir. Şahdağ qış-yay xizək mərkəzi bu ilin sonunda açılacaqdır. Bu da dünya miqyasında ən gözəl xizək kurortu olacaqdır. Hazırda orada da bir neçə beşulduzlu otel tikilir. Gələcəkdə Azərbaycana turistlərin gəlişi nəticəsində ölkəmiz dünyanın turizm xəritəsində də öz yerini tapacaqdır. Bu gün bölgənin iqtisadi, siyasi mərkəzi, qitənin enerji mərkəzi

Azərbaycandır. Çox istəyirəm ki, Azərbaycan bölgənin və dünyanın turizm mərkəzlərindən birinə çevrilsin. Buna imkanlar vardır.

Bizim çox gözəl ölkəmiz, çox gözəl insanlarımız var. Azərbaycan vətəndaşları çox qonaqpərvərdirlər. Xarici qonaqlara həmişə böyük hörmət və diqqət vardır. Gözəl iqlimimiz var, təhlükəsizlik şəraiti çox yaxşıdır. Gecə-gündüz insanlar təhlükəsiz şəraitdə gəzə, dincələ bilirlər. Şəhərin infrastrukturu yeniləşir və artıq gözəl, möhtəşəm otellərimiz vardır. İstənilən beynəlxalq tədbiri Azərbaycanda keçirmək üçün çox gözəl şərait vardır.

Mən dünyanın müxtəlif yerlərində olmuşam. Müqayisə aparmaq üçün kifayət qədər imkanlarım vardır. Həmişə çalışmışam ki, biz dünyada ən gözəl təcrübəni Azərbaycanda tətbiq edək. Deyə bilərəm ki, dünya miqyasında çox kiçik bir ərazidə bu qədər gözəl otellərin tikintisinə nadir hallarda rast gəlmək olar. Bakıda biz bunu görürük. Bakıda yaşamaq, işləmək, dincəlmək üçün bütün şərait vardır.

«Marriott» oteli memarlıq baxımından da çox gözəldir. Biz buna da daim fikir verməliyik. Şəhərimizin özünəməxsus memarlıq ənənələri vardır. Qədim şəhərimizin, burada XIX əsrdə tikilmiş binaların və müasir binaların memarlığı çox gözəldir. Əsas məsələ ondan ibarət idi ki, bu stillərin arasında olan fərqlər ümumi mənzərəni pozmasın, əksinə, ümumi mənzərəyə gözəl məqamları əlavə etsin. Mən hesab edirəm ki, biz buna nail ola bilmişik. Çünki Bakıda qədim binalar, müasir binalar bir-biri ilə harmoniya təşkil edir. Bütün işlər böyük zövqlə görülür. Əlbəttə ki, şəhərimizin hər bir guşəsində aparılan quruculuq-abadlıq işləri daim mənim diqqətimin mərkəzindədir.

Biz Bakını bağlar, parklar, bulvarlar şəhərinə çeviririk. Bakı bizim gözəl şəhərimizdir və bu gün tam məsuliyyətlə deyə bilərəm ki, dünyanın ən gözəl şəhərlərindən biridir.

Sual yarana bilərdi ki, nə üçün şəhərdə bir il yarım ərzində beşulduzlu altı otel tikilir? Bu otellər necə işləyəcək? Kifayət

qədər qonaq olacaq, yoxsa yox? Əminəm ki, olacaqdır, bu beşulduzlu altı otel bizə kifayət etməyəcəkdir. Çünki ölkəmizin, şəhərimizin inkişafı o qədər sürətlə gedir, Bakıya gəlmək istəyənlərin sayı o qədər sürətlə artır ki, gələcəkdə də otellərin tikintisinə böyük ehtiyac vardır.

Şəhərimizin tarixi, gözəl yerləri vardır. Bu yerlər, demək olar ki, artıq tutulub, Azadlıq meydanı, Azneft meydanı, şəhərimizin yuxarı hissəsində beşulduzlu otellər tikilir. Bu otellər arasında sağlam rəqabət aparılacaqdır. İki il əvvəl Bakıda bəlkə bir və ya iki beşulduzlu otel var idi, bir növ monopoliya yaradılmışdı. İndi sağlam rəqabət şəraitində hər bir brend öz imkanlarını ortaya qoyacaq.

Mən bu gün çox şadam ki, bu gözəl, müasir, möhtəşəm, böyük zövqlə tikilmiş otel fəaliyyətə başlayır. Əminəm ki, burada çalışan insanlar da hazırlıqlı, peşəkar insanlardır. Əminəm ki, siz də qonaqlara gözəl xidmət göstərəcəksiniz.

Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm və sizə uğurlar arzulayıram.

## ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma gününüz münasibətilə Sizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Vatikan münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz ümumbəşəri dəyərlərin təntənəsi, insanlar arasında qarşılıqlı anlaşma və həmrəyliyin bərqərar olması naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali missiyanızda uğurlar arzulayır, həmməzhəblərinizə əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 aprel 2012-ci il*

**DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Danimarka münasibətlərinin inkişafı, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi və genişlənməsi bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 aprel 2012-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Tümen yaxınlığında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən sarsıtdı.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 aprel 2012-ci il*

## RUSİYA FEDERASİYASININ NƏQLİYYAT NAZİRİ İQOR LEVİTİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Rusiya Federasiyasının Nəqliyyat naziri İqor Levitini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat sahəsində uğurla inkişaf etdiyi vurğulandı, Rusiya Federasiyasının Nəqliyyat naziri İqor Levitinin Azərbaycana səfərinin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

## FİNLANDİYANIN XARİCİ İŞLƏR NAZİRİ ERKKİ TUOMİOYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Finlandiya Respublikasının Xarici İşlər naziri Erkki Tuomioyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Finlandiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Litvanın Xarici İşlər naziri Audronyus Ajubalisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Litva Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu. Görüşdə Azərbaycan–Avropa İttifaqı çərçivəsində Litva ilə əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVRONEST PARLAMENT ASSAMBLEYASININ HƏMSƏDRİ KRİSTİAN VİGENİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Avronest Parlament Assambleyasının həmsədri Kristian Vigeninin başçılıq etdiyi Avropa Parlamenti Assambleyası Bürosunun nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Avronest Parlament Assambleyasının böyük nümayəndə heyətinin ölkəmizə səfərindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Avronestin Avropadan kənarda ilk sessiyasının Bakıda keçirilməsini tərəfdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Avronest Parlament Assambleyası ilə ölkəmizin əməkdaşlıq etməkdə maraqlı olduğunu deyən dövlətimizin başçısı nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində aparılacaq müzakirələrin əməkdaşlığımızın genişləndirilməsi baxımından səmərəli olacağına əminliyini ifadə etdi.*

*Avronest Parlament Assambleyasının həmsədri Kristian Vigenin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etmələrinin əhəmiyyətini qeyd etdi. O, nümayəndə heyətinin üzvlərini prezident İlham Əliyevə təqdim etdi. Kristian Vigenin bildirdi ki, Avronest nümayəndə heyətinin ölkəmizə səfəri təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığa verdiyi böyük önəmin göstəricisidir.*

*Görüşdə Avronest Parlament Assambleyasının Azərbaycan ilə Avropa Parlamenti və Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

## AVROPA İTTİFAQININ GENİŞLƏNMƏ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğun ifadə edildiyi görüşdə son illər ölkəmizdə bütün sahələrdə həyata keçirilən islahatların və əldə olunan iqtisadi inkişafın önəmi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji, təhlükəsizlik və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVRONEST PARLAMENT ASSAMBLEYASININ İKİNCİ SESSİYASININ RƏSMİ AÇILIŞINDA İŞTİRAK

*Milli Məclis*

*3 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Azərbaycan Respublikası Milli Məclisinin binasında Avronest Parlament Assambleyasının (PA) ikinci sessiyasının rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Sessiyanı Milli Məclisin Sədri Oqtay Əsədov açdı.*

– Hörmətli cənab Prezident!

Hörmətli sessiya iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Avronest Parlament Assambleyasının ikinci plenar sessiyasında mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Sessiyada iştirak edən həmkarlarıma səmərəli və uğurlu iş arzulayıram.

Avronest Parlament Assambleyasının Avropa İttifaqının hüdudlarından kənarda ilk sessiyasının Bakıda keçirilməsi parlamentimiz üçün çox tarixi bir hadisədir. İlk dəfədir ki, Azərbaycan Milli Məclisi Avropa Parlamentinin və tərəfdaş dövlətlərin bu qədər nümayəndəsini birlikdə qəbul edir. Ümidvaram ki, toplantıda aparılacaq fikir mübadiləsi, veriləcək tövsiyələr, qəbul ediləcək qərarlar təşkilatımızın məqsədlərinin həyata keçirilməsinə köməklik göstərəcəkdir.

Hörmətli həmkarlar, Avronest Parlament Assambleyasının ikinci sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti, hörmətli cənab İlham Əliyev iştirak edir.

Çıxış üçün söz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə verilir.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən bütün qonaqları bu gün Azərbaycanda salamlamaq istəyirəm və Avronest Parlament Assambleyasının sessiyasına uğurlar arzulayıram. Çox məmnunam ki, Avropa İttifaqının hüdudlarından kənarda ilk bu cür toplantı Azərbaycanda keçirilir və mən bu qərara görə öz tərəfdaşlarımıza minnətdaram. Əminəm ki, burada qəbul ediləcək qərarlar, müzakirə ediləcək mövzular çox vacib olacaqdır.

Avronest təşkilatının bəzi üzvləri Azərbaycana ilk dəfədir ki, səfər edirlər. Onlar Azərbaycanı daha yaxşı tanımaq, ölkəmizin reallıqları ilə tanış olmaq fürsətini əldə edəcəklər. Əlbəttə ki, bu sessiya birmənalı olaraq Azərbaycan ilə Avropa İttifaqı təsisatları arasında əməkdaşlıq ruhunu daha da gücləndirəcəkdir. Uzun illər ərzində əməkdaşlığımız inkişaf etmişdir. Azərbaycan Avropa İttifaqı ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Biz 10 ildən çoxdur ki, Avropa Şurasının üzvüyük. Fərəh hissi ilə qeyd etmək istəyirəm ki, mən Parlament Assambleyasında Azərbaycanın nümayəndə heyətinin ilk rəhbəri olmuşam.

Təbii ki, bizim gündəliyimizə gəldikdə, bir çox məsələlər mövcuddur və onlar bir çox sahələri əhatə edir. Əməkdaşlığımızın yaxşı tarixi və gələcəyi vardır. Çünki yüksək səviyyədə olan daimi təmaslarımız, yüksək səviyyədə həyata keçirilən səfərlər, parlamentarilərin səfərləri Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığı daha da gücləndirir.

Biz siyasi islahatları birgə həyata keçiririk. Azərbaycan siyasi islahatlara sadiqdir. Biz müstəqillik illərimizdə bütün sahələrdə sabit siyasi təsisatlar yaratmışıq. Çoxpartiyalı sistemimiz mövcuddur. Bir çox partiyaların nümayəndələrindən ibarət parlamentimiz, ifadə, yığıncaq azadlıqlarımız, azad internetimiz vardır. Mən çox şadam ki, Azərbaycanda internet istifadəçilərinin sayı aydan-aya artır. Əhalimizin 50 faizindən

çoxu məhz internet istifadəçisidir və genişzolaqlı internetdən istifadə edir. Gələcəkdə siyasi islahatlar birmənalı olaraq davam edəcəkdir. Avropa təsisatları ilə əməkdaşlıq çox vacibdir. Avronest formatı vacibdir. Burada keçmiş Sovet İttifaqı ölkələri ilə Avropa İttifaqına üzv dövlətlər arasında əməkdaşlıq qurulub və onlar vahid heyət kimi işləyirlər. Sizin Bakıda bu toplantınızın keçirilməsi müsbət addımdır. Burada tədbir çərçivəsində müzakirə olunacaq məsələlər Avronest daxilində əməkdaşlıq ruhunu daha da gücləndirəcəkdir. Bu, nadir bir təşkilatdır.

Azərbaycanın «Şərq Tərəfdaşlığı» Proqramının üzv dövlətləri, xüsusən də GUAM üzvləri ilə sıx əməkdaşlığı və münasibətləri vardır. 10 ildən artıqdır ki, biz GUAM-ın üzvüyük və bu təşkilata Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna daxildir. Bu ölkələrlə ikitərəfli və çoxtərəfli münasibətlərimiz çox yaxşıdır. Avropalı həmkarlarımızla apardığımız əməkdaşlıq çox mühüm bir mühit yaradır. Əminəm ki, Avropa İttifaqının hüdudlarından kənarda keçirilən bu sessiya çox yaxşı əməkdaşlıq ruhu yaradacaqdır. Biz birgə əməkdaşlıq üçün mühüm şəraitləri yaradacağıq. Əminəm ki, həmçinin sessiya iştirakçıları da Azərbaycanı daha yaxşı tanımaq fürsətini əldə edəcəklər. On dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır. Siz Azərbaycanın reallığı, necə dəyişdiyi, islahatları, qarşımızda duran çağırışları, Azərbaycan xalqının arzu və istəkləri, ümumiyyətlə, gələcək planlarımızla tanış olacaqsınız.

Müstəqilliyimizin 20 illik dövrünə gəldikdə, ilk illəri istisna edərək Azərbaycanın, ümumiyyətlə, inkişafı yaxşı olmuşdur. İlk illərdə xaos mövcud idi və ölkədə vəziyyət çox ağır idi. Ölkəmizi keçmiş sovet-kommunist ölkəsindən müasir cəmiyyətli ölkəyə çevirə bildik və gələcək planlarımız da aydın şəkildə müəyyən edildi. Təbii ki, siyasi sahədə aparılan islahatlar iqtisadi islahatlarla dəstəklənməlidir. Biz bu islahatları hazırda paralel şəkildə aparırıq.

Çünki keçmişdə imperiyaların bir hissəsi olan, totalitarizm şəraitində yaşayan ölkəni möhkəm iqtisadi zəmin olmadan azad və müasir cəmiyyətə çevirmək mümkün deyildi. Buna görə

həmin vaxtlar bizim çox ağır siyasi-iqtisadi və maliyyə böhranımız var idi. İqtisadiyyat dayanıqlı deyildi. XIX əsrdə dünyada birinci olaraq neft çıxaran ölkədə – Azərbaycanda hasilat aşağı düşürdü. Bu ağır ssenarinin qarşısının alınması üçün bizə vasitə lazım idi. Biz Azərbaycan xalqının güclü iradəsi və cəsarəti ilə ölkəmizi dəyişdirə bildik və gələcək üçün planlarımız tam aydın oldu. Artıq qeyd etdiyim kimi, siyasi sistem quruldu və iqtisadi islahatlar həyata keçirilməyə başlandı.

Bu islahatlar davam edir və davam edəcəkdir. İqtisadiyyatımızın şaxələndirilməsinə nail ola bildik və möhkəm iqtisadi əsaslar yaratdıq. Son 8 il ərzində iqtisadiyyatımız üç dəfə, ümumi daxili məhsul 300 faiz artmışdır. Bu əslində ən azı region tarixində rekord göstəricidir. Yoxsulluğu azalda bildik. Çünki ümumi daxili məhsulun artımı məhz o vaxt uğur hesab edilə bilər ki, sərvətlər düzgün şəkildə bölüşdürülsün.

İqtisadi və sosial sahəyə gəldikdə yoxsulluğun, işsizliyin azaldılması bizim ilk məqsədlərimiz oldu. Biz son 8 ildə yoxsulluğu 49 faizdən 7,6 faizə qədər endirə bildik. Səkkiz il ərzində Azərbaycanda 1 milyondan artıq iş yeri açılmışdır. Hazırda işsizliyin səviyyəsi ölkəmizdə 5,3 faiz təşkil edir.

Ölkəmizin iqtisadiyyatına çoxmilyardlıq sərmayələr yatırılmışdır. Açıq qapı siyasətini həyata keçiririk. Biz qapılarımızı dostlarımız və sərmayədarlar üçün geniş şəkildə açdıq. Keçmiş Sovet İttifaqı məkanında Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə ilk yeri tutur. Yalnız ötən il iqtisadiyyatımıza 21 milyard dollardan artıq sərmayə qoyulmuşdur və həmin sərmayələrin təxminən 30 faizi xarici sərmayələrdir. Bu onu göstərir ki, xarici sərmayədarların Azərbaycana böyük marağı vardır. Mən çox məmnunam ki, biz enerji sektoruna deyil, daha çox qeyri-enerji sektoruna sərmayələrin qoyuluşunun şahidiyik. Bu bizim şaxələndirmə siyasətimizin nəticəsidir. Biz nəhəng təbii sərvətlərimizdən xalqımızın, ölkəmizin rifahı üçün istifadə edirik və öz iqtisadiyyatımızı şaxələndiririk.

Ötən ilin statistik göstəricilərinə baxsaq görərik ki, ümumi daxili məhsul çox artmamışdır. Lakin ümumi daxili məhsul qeyri-neft və qaz sektorunda 10 faiz təşkil etmişdir. Növbəti onilliklərlə də bağlı planlarımız olduqca aydındır. Biz qarşıdakı on ildə ümumi daxili məhsulumuzu iki dəfə artırmağı planlaşdırırıq. Başqa sözlə desək, artıq üç dəfə artmış ümumi daxili məhsulumuzu gələn illərdə iki dəfə də artıracağıq. Məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir. Düşünürəm ki, bunu həyata keçirmək üçün bütün imkanlarımız vardır. Sabit siyasi sistemimiz vardır, cəmiyyətimiz ölkəmizin hansı yollarla inkişaf etməsini aydın şəkildə bilir. Güclü iqtisadiyyatımız, sabit sosial siyasətimiz, təbii sərvətlərimiz, müasir infrastrukturlarımız, əlverişli coğrafi mövqemiz, peşəkar insanlarımız və savadlı gənclərimiz var.

Avropa təsisatları ilə əməkdaşlıq planlarımız bizim üçün mühüm əhəmiyyət kəsb edir. Fikrimcə, Avropa İttifaqının timsalı müasir dünyanın ən yaxşı nümunələrindən biridir, ola bilsin, hətta ən yaxşı nümunədir. Onlarda siyasi azadlıqlar iqtisadi azadlıqlarla bir araya gəlir. Avropa ölkələrində maliyyə böhranı ilə bağlı problemlərə baxmayaraq bilirik ki, bu böhran müvəqqəti xarakter daşıyır və əminəm ki, bu, yaxın zamanlarda həllini tapacaqdır.

Bizim gələcəklə bağlı planlarımız aparıcı beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənir və həyata keçirdiyimiz işlər yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu MDB ölkələri arasında bizim iqtisadiyyata rəqabət qabiliyyətinə görə birinci yeri verir. «Standard&Poors» reytinq agentliyi bu yaxınlarda bizim kredit reytinqimizi daha da yaxşılaşdırmışdır və sizin də bildiyiniz kimi, bu, son vaxtlarda bir o qədər də çox rast gəlinən hal deyildir. İqtisadi sahədə gördüyümüz işlər müvafiq beynəlxalq maliyyə təşkilatları tərəfindən qeyd olunur və dəstəklənir. Buna görə də biz gələcəyimizlə bağlı çox nikbinik. Biz qarşıya qoyduğumuz məqsədləri və onlara necə nail olmağı bilirik. Bizim bunu həyata keçirmək üçün siyasi iradəmiz və maliyyə imkanlarımız vardır.

Biz tam şəkildə bazar iqtisadiyyatına sadiqik. Sovet İttifaqı süqut etdikdən sonra bazar iqtisadiyyatının ümumi daxili məhsuldakı payı sıfır dərəcəsində idi. İndi isə bu, 83 faiz təşkil edir. Əslində bu, enerji resursları kimi strateji imkanlarımıza əlavə olaraq, geniş özəlləşdirmə siyasətinin həyata keçirilməsində və özəl sektorun yaradılmasında vacib amil oldu. Qeyri-enerji sektorunun inkişafını da stimullaşdırdıq. Lakin bazar iqtisadiyyatına güclü şəkildə sadiq olaraq, biz sosial ədaləti də yaddan çıxarmalı deyilik. Bəzi hallarda bazar iqtisadiyyatının prinsipləri məhz hökumətdən, dövlətdən yardım gözləyən təbəqələrə bir çox çətinliklər yaradır. Buna görə sosial məsələlər gündəliyimizdə vacib yer tutur. Biz müxtəlif çoxsaylı sosial proqramları həyata keçirmişik. Əslində yoxsulluq səviyyəsindən aşağı olan vətəndaşların sayı azalır və ildən-ilə bu say daha da aşağı düşür. Azərbaycanda hələ də dövlətin dəstəyinə ehtiyacı olan insanların sayı 7 faizdir. Yarım milyondan artıq vətəndaşımız aylıq əsaslarla maliyyə dəstəyini dövlətimizdən alır. Eyni zamanda, biz olduqca müasir pensiya islahatları həyata keçiririk. Hazırda bu sahədə orta göstərici orta əməkhaqqının 40 faizini təşkil edir. Bu da zənnimcə, Avropa meyarlarına çox yaxındır.

Ümumiyyətlə, fiskal və büdcə siyasətimizdə Avropa İttifaqında olan meyarlar Azərbaycanda təmin edilir. Bizim, demək olar ki, büdcə kəsirimiz yoxdur. Xarici borcumuz ümumi daxili məhsulun təxminən 7 faizini təşkil edir. Bu, olduqca çox yaxşı göstəricidir. Çalışırıq ki, inkişaf etmiş Avropa ölkələrinin təcrübəsindən istifadə edək, müasir sosial infrastruktur yaradırıq. Son bir neçə il ərzində Azərbaycanda 2 mindən artıq orta məktəb tikilmişdir. Təkcə bu il 400-dən artıq məktəb bərpa və inşa ediləcəkdir. Ölkə üzrə 400-dən artıq yeni xəstəxana və 34 Olimpiya İdman Kompleksi yaradılıb.

Bizim sosial və siyasi problemlərimizdən biri Ermənistanın təcavüzü və işğalından əziyyət çəkən qaçqınların və məcburi köçkünlərin problemidir. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə

düşmüşdür. Təxminən 50 min azərbaycanlı Dağlıq Qarabağdan qovulmuşdur. 700 mindən artıq insan Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı 7 rayonundan qovulmuşdur. 250 min azərbaycanlı isə etnik təmizlənməyə məruz qalaraq Ermənistandan çıxarılmışdır. Ümumi olaraq, bir milyondan çox insan qaçqın və məcburi köçkündür. Bu rəqəm 1994-cü ilin göstəricisidir. Təxminən 20 il keçir və Azərbaycanda müsbət demoqrafik vəziyyəti götürsək, onlar hazırda bir milyondan çoxdur. Təbii ki, bu, böyük siyasi, iqtisadi və sosial yükdür. Bu insanların öz yurdlarına qayıtmaq hüququ var. Təxminən 20 ildir ki, bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimiz ermənilərin işğalı altındadır. Bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Artıq qeyd etdiyim kimi, bir milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkündür. Beynəlxalq təşkilatlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çoxsaylı qərarlar qəbul etmişlər. BMT Təhlükəsizlik Şurası Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Avropa Parlamenti və Avropa Şurası da bu cür qətnamələr qəbul etmişdir. ATƏT-in zirvə görüşlərində və digər beynəlxalq təşkilatlarda oxşar qərarlar qəbul edilmişdir. Lakin əfsuslar olsun ki, Ermənistan rəhbərliyi həmin qərarlara məhəl qoymur və bu qətnamələri yerinə yetirmir, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal altında saxlamaqda davam edir. Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənilərin Dağlıq Qarabağa kütləvi şəkildə köçürülməsi XIX əsrdə başlamışdır. Bu bölgə Azərbaycanın tarixi ərazisidir. «Qarabağ» sözü bizim sözdür. Erməni dilində bunun heç bir mənası yoxdur. Tarixi baxımdan tamamilə aydındır ki, bu məsələ belədir. Hüquqi baxımdan da Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan BMT-yə Dağlıq Qarabağla birgə üzv olmuşdur. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Tarixi və hüquqi baxımdan tamamilə aydındır ki, bu məsələ belədir.

ATƏT-in Minsk qrupu 20 ildir, hətta dəqiq olsaq, iyirmi il və bir həftə öncə yaradılıb. Bu təşkilat münaqişənin nizamlanması məqsədilə yaradılmışdır. Əfsuslar olsun ki, 20 il ötüb və bu münaqişə həll olunmayıb. Torpaqlarımız hələ də işğal altındadır. Dağlıq Qarabağla qonşu olan rayonlar da dağıntılara məruz qalıb. Şəhərlərimiz yerlə yeksan edilib, məscidlərimiz, əcdadlarımızın qəbiristanlıqları dağıdılıb. Bunlar ATƏT-in qiymətləndirmələrində və hesabatlarında əks olunub. İki dəfə ATƏT öz heyətlərini göndərib. Birinci dəfə faktaraşdırıcı, ikinci dəfə sahədə qiymətləndirmə missiyası olub. Həmin dağıntılar hesabatda aydın şəkildə qeyd edilib. Orada Ermənistanın işğalçı qüvvələrinin yerli və dinc əhaliyə qarşı etdiyi hərəkətlər öz əksini tapıb. İyirmi il öncə biz müasir tariximizdə ən faciəli anları yaşadıq – Xocalı soyqırımını. Xocalı şəhərinin 613 dinc sakini, o cümlədən 106 qadın və 63 uşaq ermənilər tərəfindən qətlə yetirilmiş, 100-dən artıq vətəndaşımız itkin düşmüşdür. Xocalı soyqırımı barbarlıq aktı və faşizm əyləmidir. Bu, XX əsrin sonunda baş verən ən böyük faciədir. Müxtəlif ölkələrin parlamentləri bu məsələni müzakirə edir. İki parlamentdə Xocalı faciəsi soyqırımı aktı kimi qeyd edilibdir. Əminəm ki, bu məsələ digər parlamentlərin qərarlarında da öz əksini tapacaqdır.

Dağlıq Qarabağ münaqişəsinin həlli çox aydın görünür. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri işğal olunmuş ərazilərdən çıxmalıdır. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə yerinə yetirilməlidir. Dağlıq Qarabağdan qovulmuş şəxslər öz yerlərinə qayıtmalı, sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamalıdırlar. Azərbaycanda çoxmillətli və çoxkonfessiyalı cəmiyyət mövcuddur. Bizim tariximizdə heç vaxt milli və dini zəmində toqquşma və münaqişə olmayıb. Biz müxtəlifliyimizdən fərəhlənirik və fərəh hissi ilə qeyd edirik ki, bir çox millətlərin nümayəndələri ölkəmizdə bir ailə kimi yaşayırlar. Bu fakt, həmçinin beynəlxalq təşkilatların hesabatlarında əksini tapmışdır. Dinlərarası dialoqa həsr

olunmuş beynəlxalq tədbirlərin keçirildiyi yerin məhz Azərbaycan olması təsadüfi deyil. Biz multikulturalizmlə bağlı çox mühüm beynəlxalq forumlar keçirmişik. Hesab edirəm ki, bu nümunədən, həmçinin digər ölkələrdə də istifadə edilə bilər. O ölkələrdə ki, müxtəlif millətlərin nümayəndələri yaşayır və bir araya gəlir. Bəzi ölkələrdə siyasətçilərin bəyanatlarında deyilir ki, çöxmədəniyyətlilik artıq ölüb, mövcud deyil. Bu bəyanatlar çox təhlükəlidir. Biz bundan çox narahatıq. Əslində multikulturalizmin alternativi yoxdur. Multikulturalizmə alternativ özünü təcridetmə, ksenofobiya və dini, milli zəmində toqquşma deməkdir. Buna görə də Azərbaycanın və eyni vəziyyətdə olan bir çox digər ölkələrin nümunəsi əsasında sübuta yetirmək vacibdir ki, biz çoxmədəniyyətli ölkədə və dünyada yaşamalıyıq.

Əgər biz Azərbaycan haqqında danışırıqsa, digər iki sahəni də yaddan çıxarmamalıyıq. Bu, enerji və daşınma siyasətidir. Bu sahələrdə bizim çox aydın siyasətimiz var. Bu cür təşəbbüslərimiz çox müsbət regional mühit yaradır. Bu layihələr olduqca müsbət əməkdaşlıq formatı yaradır. Çalışırıq ki, coğrafi mövqemizdən maksimum dərəcədə istifadə edək. Avropa ilə Asiya arasında yerləşən ölkəyik. Müasir logistika və daşıma infrastrukturumuzu yaratmışıq. Bu günə nəzərdə tutduğumuz planlar həyata keçirilib. Hazırda Azərbaycanda 5 beynəlxalq hava limanı vardır. Xəzər dənizinin sahilində ən böyük limanı tikməkdəyik. 1-2 ildən sonra bu liman istismara veriləcəkdir.

Bizi qonşu ölkələrlə birləşdirəcək magistral yollar çəkirik. Azərbaycanı, Gürcüstanı və Türkiyəni dəmir yolları ilə birləşdirəcək strateji layihəni həyata keçirməkdəyik. Bu, Bakı–Tbilisi–Qars layihəsi adlanır və ümid edirik ki, bir ildən az müddətdə bunun istismara verilməsini qeyd edəcəyik. Bu bizim nəinki daşıma imkanlarımızdan maksimal dərəcədə istifadə etmək, həmçinin tərəfdaşlarımız üçün əlverişli logistika şəraiti yaradacaqdır. Bunu bir növ müasir İpək yolu adlandırırıq. Bu, Asiyanı Avropa ilə birləşdirir. Əminəm ki, dostlarımız və tərəfdaşlarımız bundan istifadə edəcəklər. Azərbaycan bu layihələrin

başında dayanıb və üzərinə əsas yükü və maksimal dərəcədə böyük maliyyə öhdəliklərini götürüb. Bu layihə fəal şəkildə həyata keçirilir.

Enerji siyasətinə gəlincə, tamamilə aydındır ki, biz bu istiqamətdə siyasətimizi milli maraqlarımıza uyğun həyata keçiririk. Qeyd etdiyim kimi, Azərbaycan tarixdə ilk dəfə neft hasil edən ölkədir, dənizdə də neft hasil edən ilk ölkəyik. Əfsuslar olsun ki, Sovetlər İttifaqı süquta uğrayandan sonra bizim əsas neft ehtiyatlarımız tükənmişdi. Qaz sahəsində isə özümüzü təmin etmirdik. Bu, sovet vaxtlarından qalan bir miras idi. Çalışmalı idik ki, əsas xarici şirkətləri dəvət edək və bir çox ölkələrdə uzun illərdən bəri mövcud olan tərəfdaşlıq formatını quraq. Bu nəinki milli maraqlarımızı qorumağa və təmin etməyə imkan yaratdı, həmçinin Azərbaycanı enerji qıtlığı ilə üzləşən ölkədən müvafiq yardım edən, regionda mühüm neft və qaz təminatçısı olan ölkəyə çevirdi. Bu gün bəzi Avropa ölkələrində neftimizin həcmi enerji balansının təxminən 30 faizini təşkil edir. Biz Azərbaycanın hüdudlarından kənarda fəal şəkildə sərmayələr yatırırıq. Bu gün milyardlarla dollar həcmində sərmayə qoyulur – xüsusilə də Avropada və təbii ki, regionda. Neft və qaz boru kəmərlərinin tikintisi nəticəsində biz bir dəhliz yarada bildik. Xəzər dənizini Qara dənizlə və ilk dəfə olaraq, Aralıq dənizi ilə boru kəmərlərimizlə birləşdirə bildik. İnfrastrukturumuzun Xəzərin digər sahilindəki qonşular tərəfindən istifadəsinə imkanlar yaratdıq. Onlar öz neftini Azərbaycandan nəql edir və biz artıq tranzit ölkəyə çevrilmişik.

Biz son 6 ildə çox böyük səylər göstərdik ki, qazdan asılı olan ölkədən özünü təmin edən, öz sərvətlərini ixrac edən ölkəyə çevrilək. Hazırda təbii qazı qonşu ölkələrə ixrac edirik. Mühüm layihələri həyata keçirməklə Avropada etibarlı qaz təminatçısına çevrilməkdəyik. Ehtiyatlarımız böyükdür. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, təsdiq edilmiş ehtiyatların göstəricisidir. Kəşfiyyat işlərini bundan sonra da davam etdirəcək və yeni ehtiyatları aşkara çıxaracağıq. Artıq dörd qaz boru kəmərimiz

var və onlar müxtəlif istiqamətlərdə ixraca imkan yaradır. Şaxələndirmə siyasətimizi tam şəkildə həyata keçirmişik. Çünki şaxələndirmə nəinki istehlakçılar, həmçinin hasilatçılar üçün də vacibdir. Xüsusən də burada açıq dənizə çıxışları olmayan hasilatçılar nəzərdə tutulur. Hazırda «Cənub Qaz Dəhlizi»ni reallaşdırmaq üçün Avropa İttifaqı ilə sıx surətdə çalışırıq. Ötən il «Cənub Qaz Dəhlizi» haqqında Birgə Bəyannamə imzaladıq. Orada Azərbaycan Avropanın mühüm qaz təchizatçılarından biri və «Cənub Qaz Dəhlizi»nin başında duran ölkə kimi təsvir olunur.

Bunlar milli maraqlarımıza xidmət edir. Biz kifayət qədər maliyyə imkanlarına malik olan ölkəyə çevrilmişik. Əvvəllər maliyyə resurslarını alan ölkə idik. İndi isə donor ölkəyə çevrilirik. Gələn illər də maliyyə vəsaitlərimiz artacaqdır.

Bilirik ki, istehsalatımız hansı sahələrdən ibarətdir, özümüz də bir neçə il əvvəl istehlakçı idik. Bilirik ki, istehlakçı bir mənbədən asılı olanda bu o qədər də yaxşı olmur, bir ixrac marşrutundan asılı olmaq kifayət deyildir. Ona görə bir neçə neft və qaz kəməri tikdik. Şaxələndirmə rəqabət, yaxşı əməkdaşlıq mühiti, rahatlıq və həmçinin siyasi münasibətlər imkanı yaradır. Enerji siyasətimizin mühüm elementinə gəldikdə, bu ondan ibarətdir ki, biz öz enerji potensialımızı, bu potensialı da bilirik, heç vaxt biznesdən fərqlənən məqsədlərə istifadə etmərik. Bu çox vacibdir. Çünki enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin mühüm amilinə çevrilib. Bu xüsusən də o ölkələrə aiddir ki, kifayət qədər enerji resursları yoxdur və onlar bir təchizatçıdan asılıdır. Ona görə hesab edirik ki, tranzit ölkələrin, hasilatçıların maraqlarının tarazlığı nəzərə alınmalıdır. Biz bu istiqamətdə işləyirik. Bu, enerji sahəsində siyasətimizin, əgər belə demək olarsa, fəlsəfəmizin əsasını təşkil edir. Biz tərəfdaşlarımıza təchizatı təmin etmək və apardığımız əməkdaşlıqdan təzyiq göstərmək deyil, bəhrə gətirmək məqsədini qarşımıza qoyuruq. Hesab edirəm ki, istehlakçılarımız dediklərimizi təsdiqləyə bilər. Azərbaycan etibarlı tərəfdaşdır. Biz enerji şirkətlərinin özəlləşdirilməsinə,

Avropada bu işdə iştirak etməyə dəvət olunuruq. Neft şirkətimizin də çox nüfuzu və potensialı var. Bu, dostluq və qarşılıqlı dəstəyə əsaslanan bir siyasətdir.

Azərbaycan artıq öz təşəbbüsləri və layihələri ilə regionda enerji xəritəsini dəyişibdir və Avropanın enerji xəritəsini dəyişir. Azərbaycan sabit, dost və etibarlı tərəfdaşdır. Avropa İttifaqı ilə apardığımız əhatəli əməkdaşlığın bir hissəsi olan enerji sahəsi çox vacibdir. Nəinki bu, digər məsələlər də vardır.

Mən dünən Avronest qrupunun liderləri ilə görüşdüm. Mühüm məsələləri müzakirə etdik. Müzakirə mövzularından biri də ondan ibarət idi ki, Azərbaycan yalnız neft və qaz ölkəsi deyil. Səfəriniz bunu təsdiqləyəcək və siz bunu görəcəksiniz. Mən bunu dünən dostlarımıza dedim ki, biz gündəlik həyatımızı sürürük. İstəmirik ki, daimi olaraq neft və qaz haqqında danışaq. Neft və qaz yataqları sahildən uzaq məsafələrdə yerləşir. İndi isə günümüz haqqında söhbət aparmalıyıq. Avropalı dostlarımız Azərbaycan haqqında neft və qaz ölkəsi kimi danışırlar. Bu da təbiidir, amma bunu dəyişməliyik. Necə? Əməkdaşlıq yolu ilə! Bunun üçün insanları dəvət etməliyik, təmaslar qurmalıyıq, qarşımızda duran mühüm məsələləri müzakirə etməliyik. Həmçinin özümüz üçün müəyyən etməliyik ki, güclü tərəfdaşlığımızı hansı yolla daha da inkişaf etdirək.

Xarici siyasət prioritetlərimizə gəldikdə, maraqlı dairələr məhz müşahidə edə bilərlər ki, biz dostlarımız və tərəfdaşlarımızla necə əməkdaşlıq aparırıq? Azərbaycanın rolu beynəlxalq səhnədə nədən ibarətdir? Regiondakı rolumuza gəldikdə tamamilə aydındır ki, təşəbbüslərimiz regional və qlobal layihələrə çevrilib. Coğrafi mövqemiz, iqtisadi vəziyyətimiz göstərir ki, istər iqtisadi, istər siyasi, istər enerji sahəsi olsun, Azərbaycanın iştirakı olmadan bu layihələrin heç biri uğurla həyata keçirilə bilməz.

Bu gün Azərbaycan beynəlxalq səviyyədə daha mühüm rol oynayır. Çalışırıq və bundan sonra da çalışacağıq ki, mümkün qədər çox ölkə ilə dostluq mühiti yaradaq. Hesab edirəm ki, səylərimiz, uzun illər ərzində gördüyümüz işlər məhz səsvermə

zamanı beynəlxalq ictimaiyyətin namizədliyimizin lehinə səs verməsilə nümayiş etdirildi. Ondan bir həftə sonra müstəqilliyimizin bərpasının iyirminci ildönümünü qeyd etdik. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yeni üzvü oldu. Bu, sadə rəqabət deyildi, lakin ədalətli oldu. 155 ölkə namizədliyimizin lehinə səs verdi, bizi dəstəklədi, onlar bizə inandı və Azərbaycanı etibarlı dost və tərəfdaş bildi.

Bu bizim gördüyümüz işlərə münasibət idi. Həmin 155 ölkə ilə bizim çox sıx əlaqələrimiz mövcuddur. Bütün bunlar bizə yüksək etimadın və inamın göstəricisidir. Təbii ki, bu həm də böyük məsuliyyətdir. Biz bundan çox fərəhlənirik. 20 il müstəqil olduqdan sonra BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən biriyik. Bu da ölkəmizin apardığı siyasətin nəticəsidir. Bu, qarşımızda yeni bir məsuliyyət qoyur, tamamilə anlayırıq ki, tərəfdaşlarımızla birgə işləyərək beynəlxalq gündəlikdə mühüm məsələləri müzakirə etməliyik. Azərbaycan etibarlı dost ölkədir və ədalət, demokratiya, insan haqları ideallarını, beynəlxalq hüququ qoruyacaqdır. Təhlükəsizlik Şurasına seçildikdən sonra mən bəyanat verdim ki, biz beynəlxalq hüququ və ədaləti dəstəkləyəcəyik. Biz bunu etmişik və edəcəyik.

Əminəm ki, Avronest sessiyası çərçivəsində bir-birimizlə daha yaxından tanış olacağıq, Azərbaycanı daha yaxşı tanıyacaqsınız.

Mən sizin hamınıza uğurlar arzulayıram. Ümidvaram ki, ölkənizə xoş təəssüratlarla gedəcəksiniz. Çox sağ olun.

## DÖVLƏT BAYRAĞI MEYDANI VƏ İDMAN-KONSERT KOMPLEKSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 3-də Dövlət Bayrağı Meydanı, onun ətrafında görülmüş abadlıq, quruculuq tədbirləri və İdman-Konsert Kompleksində həyata keçirilmiş inşaat işlərinin gedişi ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verildi. Qeyd edildi ki, Bakı–Ələt avtomobil yolunun Dövlət Bayrağı Meydanınadək hissəsi 8 zolaqdan ibarət olacaq və ən müasir standartlara cavab verəcəkdir. Burada rahat gediş-gəlişi təmin etmək məqsədi ilə yolboyu piyada keçidlərinin inşa olunacağı nəzərdə tutulub.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanında və onun ətrafında həyata keçirilmiş abadlıq və quruculuq işlərinə baxdılar. Dövlət başçısı və xanımı ərazidə inşa olunan İdman-Konsert Kompleksində aparılan tikinti işlərinin gedişi ilə də tanış oldular.*

*İnşaat işləri ilə tanışlıqdan sonra prezident İlham Əliyev həyata keçirilən tədbirlərlə bağlı müvafiq tapşırıqlarını verdi.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

*Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov Bakıda keçirdiyi görüşlər zamanı ikitərəfli münasibətlərimizin genişləndirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etdiklərini vurğuladı. Ölkələrimizin bütün strukturları arasında yaxşı əməkdaşlıq əlaqələrinin olduğunu deyən Rusiyanın Xarici İşlər naziri bu əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluğunu bildirdi. Sergey Lavrov ölkəsinin Azərbaycan ilə mövcud əlaqələrinin daha da dərinləşdirilməsində maraqlı olduğunu dedi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələrin mehriban qonşuluq prinsiplərinə əsaslandığını və strateji xarakter daşıdığını dedi. Ölkələrimizin bütün strukturları arasında yaxşı əlaqələrin mövcud olmasından məmnunluğunu bildirən dövlətimizin başçısı iqtisadi, siyasi və humanitar sahələrdə qarşılıqlı fəaliyyətin önəmini qeyd etdi. Prezident İlham Əliyev ötən il ölkələrimiz arasında siyasi sahədə əməkdaşlığın daha da möhkəmləndiyini, ticarət dövriyyəsinin artdığını, Azərbaycan ilə Rusiyanın ayrı-ayrı subyektləri arasında əlaqələrin intensiv şəkildə davam etdirildiyini vurğuladı. Dövlətimizin başçısı Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun Azərbaycana səfərinin bu münasibətlərin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

## UKRAYNA RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOLAY AZAROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Ukraynanın Baş naziri Nikolay Azarovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ukraynanın Baş naziri Nikolay Azarovun böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməsini ölkələrimiz arasında əməkdaşlığın yaxşı əlaməti kimi dəyərləndirən dövlətimizin başçısı səfərin uğurlu olacağına və münasibətlərimizin daha da genişləndirilməsi işinə təkan verəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığı da siyasi əlaqələr səviyyəsinə yüksəltməyin önəmini qeyd etdi.*

*Baş nazir Nikolay Azarov Ukrayna prezidenti Viktor Yanukoviçin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin dövlət başçısının prezident İlham Əliyevə və Azərbaycan xalqına dərin hörmət bəslədiyini dedi. Baş nazir ölkəmizin paytaxtında həyata keçirilən böyük tikinti və quruculuq işlərinin şahidi olduğunu bildirdi.*

*Görüşdə enerji, infrastruktur, ticarət və iqtisadi əməkdaşlıq sahələri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Viktor Yanukoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ÇEXİYA RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*4 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Çexiya Respublikasına dövlət səfərinə yola düşdüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Çexiya Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Çexiyanın dövlət bayraqlarının dalğalandığı Praqanın «Stara Ruzine» Hökumət Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Çexiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Praqa*

*5 aprel 2012-ci il*

*Çexiya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 5-də Praqa qəsrində rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Çexiyanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Çexiya dövlətinin başçısına raport verdi.*

*Çexiya prezidenti Vatslav Klaus və xanımı Livia Klausova Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

*Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Çexiyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan dövlətinin başçısı çex əsgərlərini salamladı.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Çexiyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Çexiya prezidenti Vatslav Klausa təqdim olundu.*

*Sonra dövlət hədiyyələri təqdim edildi.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Praqa qəsrinin fəxri qonaqlar kitabını imzaladılar.*

## ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUS İLƏ GÖRÜŞ

*Praqa*

*5 aprel 2012-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Çexiya Respublikasının Prezidenti Vatslav Klaus və xanımı Livia Klausova ilə birgə görüşü olmuşdur.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Praqa*

*5 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Çexiya Respublikasının Prezidenti Vatslav Klaus və xanımı Livia Klausova ilə birgə görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunduğu görüşdə əlaqələrimizin siyasi, iqtisadi və digər sahələrdə möhkəmləndiyi bildirildi.*

*Görüşdə Azərbaycan ilə Çexiya arasında iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Ölkələrimiz arasında əlaqələrin Avropa İttifaqı çərçivəsində də uğurla davam etdirildiyi bildirildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Praqa*

*5 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çexiya Respublikasının Prezidenti Vatslav Klausun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Çexiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Çexiya Respublikasının Regional İnkişaf Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Çexiya Respublikasının Regional İnkişaf naziri Kamil Yankovski imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Çexiya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Çexiya Respublikasının Mədəniyyət naziri Alena Hanakova imzaladılar.*

*«Milli Azərbaycan Tarixi Muzeyinin və Çexiya Respublikasının Milli Muzeyi arasında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Çexiya Respublikasında səfiri Tahir Tağızadə və Çexiya Respublikası Milli Muzeyinin direktoru Mixal Lukeş imzaladılar.*

*«M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası və Çexiya Respublikasının Milli Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycan Respublikasının Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiya Respublikası Milli Kitabxanasının baş direktoru Tomaş Böhm imzaladılar.*

## ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUS İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA İŞTİRAK

*Praqa*

*5 aprel 2012-ci il*

*Azərbaycan–Çexiya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çexiya Respublikasının Prezidenti Vatslav Klausun birgə mətbuat konfransı olmuşdur.*

*Çexiya prezidenti ötən ilin mayında Azərbaycana səfərini xatırladaraq bildirdi ki, iki ölkə arasındakı münasibətlər bir çox sahələrdə intensiv inkişaf edir.*

*Çexiya prezidenti Vatslav Klaus Azərbaycan prezidenti İlham Əliyevin Praqaya səfərinin əlaqələrin bundan sonra da inkişafına təkan verəcəyinə əminliyini ifadə etdi.*

**V a t s l a v  K l a u s:** Onu bildirmək istəyirəm ki, görüşümüz zamanı ölkələrimizin daxili siyasi vəziyyəti haqqında bir-birimizə məlumat verdik. Həmçinin məmnunluq hissi ilə bildirmək istəyirəm ki, bir çox beynəlxalq məsələlərlə bağlı mövqelərimiz üst-üstə düşür.

Yekun olaraq qeyd etmək istəyirəm ki, mən Azərbaycan Respublikasının cənab Prezidentini əmin etdim ki, biz Çexiya Respublikası olaraq, Azərbaycanın Avropa məkanına inteqrasiya planlarını alqışlayırıq. Bu baxımdan, xüsusilə də Avropa ilə münasibətlərdə, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrində biz dəstəyimizi verəcəyik və bundan sonra da əlimizdən gələni etməyə hazırıq.

*Çexiyaya səfərə dəvətə görə prezident Vatslav Klausa minnətdarlığını bildirən prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin getdikcə genişləndiyini diqqətə çatdırdı.*

**İ l h a m  Ə l i y e v:** Mən çox şadam ki, Çexiya Respublikası ilə Azərbaycan arasındakı əlaqələr çox dinamik şəkildə və

sürətlə inkişaf edir. Keçən il Sizin ölkəmizə dövlət səfəriniz və səfər zamanı apardığımız danışıqlar, əldə edilmiş razılaşmalar bugünkü sürətli inkişafı müəyyən etmişdir. Bizim siyasi əlaqələrimiz çox sürətlə inkişaf edir. Yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi bunun əyani sübutudur. Keçən illə müqayisədə ticarət dövriyyəmiz bir neçə dəfə artmışdır. Bu da iqtisadi sahədəki uğurlu əməkdaşlıqdan xəbər verir. Bu gün imzalanan sənədlər mədəniyyət və turizm sektorunu əhatə edir və beləliklə, humanitar sahədəki əməkdaşlığa da böyük diqqət göstərilir.

Bu gün regional məsələlərlə, regional təhlükəsizlik məsələləri ilə bağlı biz Sizinlə çox səmimi və geniş söhbət aparmışıq. Azərbaycan Avropa İttifaqı və NATO ilə sıx əməkdaşlıq edir. Biz Çexiya Respublikasının bu əməkdaşlığa verdiyi dəstəyi də həmişə yüksək qiymətləndiririk. Eyni zamanda, bu gün enerji təhlükəsizliyi məsələlərinə də diqqət ayrıldı. Bu sahədə aramızdakı əlaqələr çox sürətlə inkişaf edir. Əminəm ki, gələcəkdə bu inkişafın yeni sahələri də açılacaqdır.

Bir daha bu dəvətə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l** *(Çexiya radiosunun müxbiri Dorozin):* **Mənim ilk sualım Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevədir. Biz bilmək istərdik ki, Azərbaycanda, Azərbaycan iqtisadiyyatında Çexiya şirkətləri üçün hansı sərmayə imkanları vardır? Ticarət dövriyyəsinə gəldikdə, bilirik ki, hazırda bu o qədər də ürəkaçan deyildir.**

**V a t s l a v  K l a u s:** Bildirmək istəyirəm ki, biz cənab Prezidentlə söhbətimiz zamanı bu məsələni təfərrüatı ilə müzakirə etdik. Söhbət məhz Çexiya şirkətlərinin Azərbaycanda sərmayə qoymaq və ümumiyyətlə, fəaliyyət göstərmək

imkanlarından gedir. Biz məmnunluqla qeyd etdik ki, bundan sonra xüsusi, birgə layihələrin həyata keçirilməsi imkanları mövcuddur, ticarət imkanlarımız da genişləndirilməlidir. Xüsusən də Çexiya şirkətləri mühəndis işlərinin aparılması sahəsində işləyə bilər.

Siz burada, həmçinin ticarət balansına toxundunuz. Mən demək istəyirəm ki, bu elə də mütləq deyildir ki, ölkəmizin dünyada bir çox ölkələrlə olan ticarət dövriyyəsi məhz bizim xeyrimizə olsun, yaxud da müsbət istiqamətdə getsin. Əgər bugünkü rəqəmlərə baxsaq görə bilərik ki, Çexiya Respublikasının idxal etdiyi neftin 25 faizi məhz Azərbaycanın neftidir. Bu, təbii olaraq, ticarət balansının məhz daha çox Azərbaycanın xeyrinə olduğunu göstərir. Mən bunu tamamilə məntiqi hesab edirəm.

**İ l h a m Ə l i y e v:** Əlavə edə bilərəm və Sizinlə razıyam ki, aramızda olan ticarət dövriyyəsi hər iki ölkənin iqtisadi potensialını əks etdirmir. Ancaq dinamikaya baxdıqda görərik ki, son bir il ərzində ticarət dövriyyəsi bir neçə dəfə artmışdır. Mən bu gün söhbət əsnasında qeyd etdim ki, biz Çexiya şirkətlərini Azərbaycanda görmək istəyirik və onların uğurlu fəaliyyəti – istər investor, istər kontraktçı kimi fəaliyyəti üçün lazım olan şəraiti yaratmağa hazırıq.

Azərbaycanda çoxsaylı infrastruktur layihələri icra edilir və Çexiya şirkətlərinin çox gözəl iş təcrübəsi, çox gözəl nüfuzu vardır və biz onları tərəfdaşlarımız arasında görmək istəyirik. Əminəm ki, bu səfərin gözəl nəticələrindən biri də məhz bu olacaqdır.

**S u a l** *(Azərbaycan Televiziyasının müxbiri Yunis Orucov):* **Sualım Çexiya prezidentinədir. Cənab Prezident, Ermənistanın Azərbaycana qarşı təcavüzü 20 ildən çoxdur ki, davam edir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə sülhə və təhlükəsizliyə ciddi maneədir. Çexiya bu münaqişənin nizamlanması perspektivlərini necə görür?**

**V a t s l a v K l a u s:** İcazə verin, mən sizin sualınıza belə cavab verim. Ümumiyyətlə, bu məsələ bizim söhbətimiz zamanı

təbii ki, müzakirə olundu. Lakin məhz münaqişəyə gəldikdə və onunla bağlı olan vəziyyət hələ mənim ötən il Bakıya səfərim çərçivəsində müzakirə edilmişdir. Biz məsələ ilə bağlı mövcud vəziyyəti yenidən bir daha müzakirə etdik.

İcazənizlə, mən aydın şəkildə sizə bəyan edim. Mən Azərbaycanın mövqeyini yaxşı anlayıram. Təbii ki, mən də tam və qəti olaraq heç cür razılaşa bilməzdim ki, ölkəmin bir hissəsi işğal altında olsun. Amma əfsuslar olsun ki, bu vəziyyətin məhz nizamlanması ilə bağlı mənim hər hansı bir xüsusi, möcüzəli həll variantım yoxdur, təklif edə bilmərəm.

**S u a l** *(«Pravo» qəzetinin müxbiri Şvets):* **İcazənizlə, mənim sualım hər iki Prezidentədir. Sizin görüşünüz zamanı Suriya ilə bağlı məsələ müzakirə edildimi? Bilirik ki, hazırda beynəlxalq sülh və təhlükəsizlik məsələləri sırasında məhz həmin məsələ də dayanır. Xüsusi olaraq, mən cənab prezident Əliyevdən soruşmaq istərdim ki, Suriya məsələsi ilə bağlı Sizin mövqeniz nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, bu məsələ də müzakirə edildi. Qeyd etdiyim kimi, söhbət əsnasında biz beynəlxalq məsələlərə də geniş şəkildə toxunduq. Suriyadakı vəziyyətlə bağlı bizim kifayət qədər açıq və birmənalı mövqemiz var. Bu mövqe BMT Təhlükəsizlik Şurasındakı səsvermə zamanı da ifadə edilmişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yeni üzvü kimi, Ərəb Liqasının təkliflərini birmənalı şəkildə dəstəkləmişdir və Suriya ilə bağlı qətnamənin qəbul edilməsində fəal rol oynamışdır. Eyni zamanda, biz bəyan etmişdik ki, Kofi Annan planını dəstəkləyirik və bu dəstək çox genişdir. Ümid edirik ki, Suriyadakı vəziyyət tezliklə tənzimlənəcəkdir və günahsız insanların qırılması dayandırılacaqdır.

**S u a l** *(Azərbaycan Dövlət Teleqraf Agentliyinin müxbiri Albina Atlıxanova):* **Mənim sualım Çexiya prezidentinədir. Cənab Prezident, Çexiya Avropa İttifaqının üzvü, həmçinin Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» ideyasının təşəbbüskarlarından biridir. Azərbaycan–Çexiya münasibətlərini Avropa**

**İttifaqı–Azərbaycan çərçivəsində əməkdaşlıq baxımından necə qiymətləndirirsiniz? Çox sağ olun.**

**V a t s l a v  K l a u s:** Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramı müsbət bir layihədir. Biz həmin layihənin yaradıcılarından biriyik. Bildirmək istəyirik ki, Çexiya tərəfi Azərbaycanın həmin proqram çərçivəsində iştirakını geniş şəkildə müzakirə etmişdir. Biz də Azərbaycanın mövqeyini alqışlayırıq ki, bu çərçivədə aparılan əməkdaşlığa müsbət yanaşır. Nəzər yetirsək görərik ki, ümumiyyətlə, tərəfdaşlıq bu proqramın adındadır. Bu o deməkdir ki, proqramın məqsədi tərəfdaşlıq aparmaqdır, tərəfdaşlığın baş tutması üçün bütün lazımi şəraitlərin yaradılmasıdır. Biz görürük ki, bu tərəfdaşlıq Azərbaycanın mövqeyi, maraqları ilə də üst-üstə düşür. Azərbaycanın bu sahədə mövqeyini bilirik. Əminik ki, Azərbaycan bu istiqamətdə qəti addımlarını sonadək davam etdirəcəkdir. Biz Azərbaycanın bu sahədə mövqeyini dəstəkləyirik.

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*Praqa*

*5 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə aprelin 5-də Çexiya Respublikası Parlamenti Senatının sədri Milan Ştex və xanımı İvana Ştexova tərəfindən nahar verilmişdir.*

*Çexiya Parlamenti Senatının sədri Milan Ştex və xanımı İvana Ştexova prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

*Sonra Senatın üzvləri Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təqdim olundu.*

*Senatın sədri Milan Ştex çıxış edərək Azərbaycan ilə Çexiya arasında əlaqələrin müxtəlif sahələrdə inkişafının əhəmiyyətini vurğuladı. O, parlamentlərarası əməkdaşlıq məsələlərinə toxunaraq bildirdi ki, Azərbaycan ilə Çexiya arasında iqtisadi sahədə də əlaqələr uğurla inkişaf edir. Senatın sədri dedi ki, ölkəsi Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Çexiya regionda Azərbaycanın rolunu yüksək qiymətləndirir.*

*Prezident İlham Əliyev naharda çıxış edərək, 2 il əvvəl «Şərq Tərəfdaşlığı» sammitində iştirak etmək üçün Praqada səfərdə olduğunu, bu dəfə isə bu ölkəyə dövlət səfərinə gəldiyini bildirdi.*

**İ l h a m Ə l i y e v:** Cənab Sədr, Siz tamamilə doğru qeyd etdiniz ki, münasibətlərimiz son bir neçə ildə çox fəal və dinamik müstəviyə keçmişdir. Prezident Klausun keçən il Azərbaycana dövlət səfəri, mənim isə Çexiya Respublikasına dövlət səfərim bu əlaqələrin hər iki ölkə üçün nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Bu günlər əlaqələrin necə dinamik inkişaf etdiyinin şahidiyik. Bizim həmçinin cənab Sobotkanın Bakıya səfəri ilə bağlı xoş xatirələrimiz vardır.

Fürsətdən istifadə edərək mən Sizi, cənab Sədr, Bakıya dəvət etmək istərdim. Biz çox fəal siyasi dialoq aparırıq və demək istəyirəm ki, ölkələrimiz arasındakı siyasi əlaqələr ən yüksək səviyyədədir.

Siz həmçinin ölkələrimizin iqtisadi potensialını qeyd etdiniz. Bizim olduqca sürətli iqtisadi inkişafımızın və iqtisadi dövriyyəmizin artımına baxmayaraq, hər iki ölkənin mövcud potensialı xarici ticarət dövriyyəmizdən daha artıqdır. Biz Çexiya şirkətlərini Azərbaycanda işləməyə çağırırıq. Onları tərəfdaşlarımız, sərmayədarlarımız və podratçılarımız olmağa dəvət edirik. Bu gün əməkdaşlığımızın iqtisadi tərəfini müzakirə etdik. Əminəm ki, bu səfər qarşılıqlı faydalı iqtisadi əlaqələrin daha da inkişafına böyük təkan verəcəkdir. Biz çox şadıq ki, Azərbaycan Çexiya Respublikası üçün Cənubi Qafqazda bir nömrəli iqtisadi tərəfdaşdır.

Mədəniyyət, turizm və humanitar sahələri əhatə edən sənədlər imzaladıq. Bu onu göstərir ki, həmin sahələr də diqqətdən kənarda qalmır. Buna görə də münasibətlərimiz, əlaqələrimiz olduqca geniş və ümidvericidir.

Bu gün burada – Senatda olmaqla mən hər iki ölkənin parlamentləri arasında təmasların nə dərəcədə əhəmiyyətli olduğunu qeyd edirəm. Azərbaycan parlamentinin keçmiş üzvü kimi, deyə bilərəm ki, ölkələrimizin parlamentariləri arasındakı əlaqələr çox uğurludur və xatırlayıram ki, 10 il bundan əvvəl Azərbaycan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) üzvü seçildi və Çexiya parlamentinin üzvləri o vaxt bizim ən böyük dəstəkçilərimiz olmuşdur.

*Nahardan sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Senatın fəxri qonaqlar kitabını imzaladılar.*

## ÇEXİYA PARLAMENTİ DEPUTATLAR PALATASININ SƏDRİ XANIM MİROSLAVA NEMTSOVA İLƏ GÖRÜŞ

*Praqa*

*5 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Çexiya Respublikası Parlamenti Deputatlar Palatasının sədri xanım Miroslava Nemtsova ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Çexiya arasında müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Siyasi, iqtisadi, humanitar, mədəniyyət və təhsil sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı bazanın olduğu vurğulandı.*

*Azərbaycan ilə Çexiya arasında Avropa Parlamenti strukturları çərçivəsində, eləcə də Azərbaycan–Avropa İttifaqı çərçivəsində əməkdaşlığın əhəmiyyəti qeyd olundu. Parlamentlərarası dostluq qruplarının bu əlaqələrin genişlənməsində rolunun vurğulandığı görüşdə hər iki ölkənin qanunverici orqanlarının bu münasibətlərin inkişafına töhfə verdiyi bildirildi.*

*Görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyev Çexiya Parlamenti Deputatlar Palatasının Fəxri qonaqlar kitabını imzaladı.*

## QƏDİM KARL KÖRPÜSÜ İLƏ TANIŞLIQ

*Praqa*

*5 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Çexiyaya dövlət səfəri çərçivəsində Praqa şəhərindəki qədim Karl körpüsü ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Çexiyanın paytaxtında turistləri ən çox cəlb edən tarixi abidələrdən biri də Praqa şəhərini iki hissəyə ayıran Vltava çayı üzərində salınmış Karl körpüsüdür. 1357–1400-cü illərdə Çexiya kralı və Müqəddəs Roma imperatoru IV Karlın əmri ilə memar Peter Parler tərəfindən inşa olunmuş körpünün uzunluğu 516, eni isə 10 metrdir. Paytaxtın qərbi ilə şərqini qovuşduran bu körpü 1841-ci ilə qədər Praqanın qəsrlərlə zəngin olan hissəsi ilə köhnə məhəllələrini Vltava çayı üzərindən birləşdirən yeganə vasitə olmuşdur.*

*Körpünün Köhnə Şəhərə girişi təmin edən şərq tərəfindəki qüllə orta əsrlər Avropasının ən gözəl tikililərindən biri sayılır. Qüllənin üzərini imperator IV Karla tabe olan ərazilərin hakimlərinə məxsus gerblər bəzəyir. Qüllənin ikinci mərtəbəsində körpünün himayədarı müqəddəs Vita, IV Karl və IV Vatslavın heykəlləri qoyulmuşdur. Körpünün qərb hissəsində inşa olunmuş digər qüllə də öz gözəlliyi ilə diqqəti cəlb edir. Körpünün kənarlarında 1700-cü ildə barokko üslubunda irili-xırdalı 30-a qədər heykəl quraşdırılmışdır. Bu heykəllər körpünün cəlbediciliyini daha da artırır.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, gündüzlər qələbəlik olan körpüdə küçə sənətkarları öz bacarıqlarını nümayiş etdirir, insanlarda xoş ovqat yaradırlar. Əsrlərin sınağına sinə gərən bu qədim möhtəşəm qurğu onunla tanış olanlarda zəngin təəssürat doğurur.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ DÖVLƏT NAHARINDA İŞTİRAK

*Praqa*

*6 aprel 2012-ci il*

*Çexiya prezidenti Vatslav Klaus və xanımı Livia Klausovanın adından aprelin 6-da Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət naharı verilmişdir.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı bir daha salamlayan Çexiya prezidenti bir il əvvəl Bakıya səfəri zamanı başlanan dialoqu davam etdirmək, beynəlxalq münasibətlərin aktual məsələləri, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın imkan və perspektivləri barədə müzakirələr aparmaq baxımından Azərbaycanın dövlət başçısının Praqaya səfərinin əhəmiyyətindən danışdı.*

**Vatslav Klaus***:* Hörmətli cənab Prezident! Bilirəm ki, Praqaya dövlət başçısı qismində ilk dəfə səfər etmisiniz. Mən ölkəmizin Avropa İttifaqında sədrliyi çərçivəsində təşkil edilmiş «Şərq Tərəfdaşlığı» sammiti zamanı Sizinlə görüşümü xatırlayıram. İnanıram ki, Sizin bugünkü səfəriniz əminliklə inkişaf edən Çexiya–Azərbaycan münasibətlərinə yeni mühüm təkan verəcəkdir.

Bizim münasibətlərin dərin əsasları vardır. İqtisadi əməkdaşlığımız artıq sosializm dövründə başlamış, Çexiya sənayesinin məhsulları Azərbaycan bazarında və Sizin sənaye sahəsində yaxşı tanınır. Münasibətlərimizin inkişaf etdirilməsi yalnız son 20 ildə – Sizin ölkəniz müstəqilliyini bərpa etdikdən sonra mümkün olmuşdur.

Çox təqdirəlayiqdir ki, qarşılıqlı münasibətlərimizin intensivliyi bütün səviyyələrdə artmaqdadır. Buna həm də Praqada və Bakıda nümayəndəliklərimizin açılması, səfirlərin

yaxşı işi və iki paytaxt arasında birbaşa hava əlaqəsinin təşkili yardımçı olmuşdur. Bundan əlavə, yüksək səviyyəli qarşılıqlı səfərlərin sayının artmasını və güclənən işgüzar əlaqələri də qeyd etməyə dəyər. Bunların zirvəsi, sözsüz, prezidentlərin dövlət səfərləridir ki, buna misal kimi, mənim Bakıya ötənilki səfərimi və Sizin bu gün burada olmağınızı göstərmək olar.

Keçən ilin mayında Sizin gözəl ölkənizin sürətli və dinamik inkişafının şahidi olmaq imkanı əldə etdik. Sizin hazırladığınız və artıq həyata keçirdiyiniz möhtəşəm layihələrlə tanış ola bildik. Çexiya şirkətləri Sizin iqtisadiyyatın inkişafında iştirak etməyə böyük maraq göstərirlər. Artıq sənaye, infrastrukturun yaradılması, texnologiya və avadanlığın, həmçinin istehlak mallarının təchizatı sahələrində uğurlu əməkdaşlıq nümunələri vardır ki, onlara əsaslanaraq ortaya yeni imkanlar çıxara bilərik. Burada qeyd etmək istərdim ki, Azərbaycan Çexiyanın təsərrüfatının ən mühüm tədarükçülərindən birinə və strateji tərəfdaşına çevrilmişdir.

Hörmətli cənab Prezident!

Arzu edirik ki, çox mürəkkəb siyasi regionda yerləşən ölkəniz sabitlik və sülh şəraitində inkişaf etsin. Uzun müddət ölkənizdə vəziyyəti çətinləşdirən münaqişənin sülh yolu ilə həllinə nail olunsun. Çexiya Respublikası bu məqsədlərə yönəlmiş bütün beynəlxalq tədbir və təşəbbüsləri daim dəstəkləmiş və gələcəkdə də dəstəkləməyə davam edəcəkdir.

*Çexiya prezidenti Azərbaycan dövlət başçısının Praqaya dövlət səfərinin iki ölkə arasında qarşılıqlı münasibətlərə əhəmiyyətli təkan verəcəyinə və Azərbaycan nümayəndə heyətinin Çexiyadan xoş təəssüratlarla ayrılacağına inamını bildirdi.*

*Prezident Vatslav Klausun çıxışından sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı zəngin tarixi və mədəniyyəti ilə seçilən dost Çexiyaya səfərindən məmnun qaldığını bildirdi. Qeyd etdi ki, ölkələrimiz arasındakı əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoyub.*

**İ l h a m  Ə l i y e v:** Son illər birgə səylərimizlə əlaqələrimiz daha da intensivləşmişdir. Ötən il Hökumətlərarası Komissiya yaradılmış və ilk iclasını keçirmişdir. Ölkələrimiz arasında ticarət dövriyyəsi 2010-cu illə müqayisədə 2011-ci ildə bir neçə dəfə artmışdır. Azərbaycanda həyata keçirilən mühüm layihələrdə Çexiya banklarının iştirakı, həmçinin Çexiya Respublikasının enerji təminatında Azərbaycanın oynadığı rol iqtisadi əlaqələrin səviyyəsinin göstəricisidir. Energetika, ticarət, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və digər sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın yaxşı perspektivləri vardır. Əminəm ki, mənim səfərim, əldə olunan razılaşmalar və bu gün mədəniyyət, turizm sahələrində imzalanan sənədlər də əlaqələrimizin inkişafına yeni təkan verəcəkdir.

Gələn il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Ümidvaram ki, biz bu əlamətdar tarixə Azərbaycan və Çexiya arasında əməkdaşlıqda müxtəlif sahələrdə əldə olunmuş yeni nailiyyətlərlə daxil olacağıq.

Ölkələrimiz BMT, ATƏT, Avropa Şurası kimi beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır. Bu mötəbər təşkilatın ali orqanında ilk dəfə təmsil olunan ölkəmizin səyləri beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsinə, dünyada sülh və ədalətin bərqərar olmasına kömək edəcəkdir.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlarla münasibətlər önəmli yer tutur. Əfqanıstanda əsgərlərimiz sabitliyin keşiyində çiyin-çiyinə dayanıblar.

Fürsətdən istifadə edərək Çexiya Respublikasına Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafına verdiyi dəstəyə görə minnətdarlığımı bildirirəm. Artıq regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan, həmçinin enerji sahəsində etibarlı tərəfdaşdır və Avropanın enerji təhlükəsizliyinin təmin

olunması üçün töhfəsini bundan sonra da verməyə hazırdır. 2011-ci ilin yanvar ayında Avropa Komissiyası ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» haqqında Birgə Bəyannamənin imzalanması bunun bariz nümunəsidir. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik.

Azərbaycan regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasının və qorunmasının tərəfdarıdır. Ancaq bildiyiniz kimi, tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı digər 7 rayon 20 ildən artıqdır ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Bu ərazilərdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, NATO və digər beynəlxalq təşkilatların qərar və qətnamələri vardır. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

*Azərbaycan dövlətinin başçısı səfər zamanı göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi və çex xalqına firavanlıq arzuladı.*

*Prezident İlham Əliyevin çıxışından sonra Çexiyanın Dövlət himni səsləndi.*

## ÇEXİYA RESPUBLİKASININ BAŞ NAZİRİ PETR NEÇAS İLƏ GÖRÜŞ

*Praqa*

*6 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Praqada Çexiya Respublikasının Baş naziri Petr Neças ilə görüşmüşdür.*

*Çexiyanın Baş naziri Azərbaycan dövlətinin başçısını qarşıladı.*

*Sonra prezident İlham Əliyev və Baş nazir Petr Neças xatirə şəkli çəkdirdilər.*

*Azərbaycan prezidenti və Çexiyanın Baş naziri Praqanın mənzərəsini seyr etdilər.*

*Daha sonra Azərbaycan dövlətinin başçısı Çexiyanın Baş nazirinin fəxri qonaqlar kitabını imzaladı.*

*Görüşdə Azərbaycan ilə Çexiya arasında ikitərəfli münasibətlərin inkişafı baxımından bu səfərin mühüm əhəmiyyət daşıdığı bildirildi. Azərbaycan prezidentinin Çexiyaya dövlət səfəri çərçivəsində keçirdiyi görüşlərin əməkdaşlıq əlaqələrinin strateji səviyyəyə qalxmasına töhfə verəcəyi vurğulandı.*

*Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafının zəruriliyinin bildirildiyi görüşdə bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.*

## PRAQANIN VİTKOV MİLLİ MEMORİALINI ZİYARƏT

*Praqa*

*6 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Çexiya Respublikasına dövlət səfəri çərçivəsində Praqanın Vitkov Milli Memorialını ziyarət etmişdir.*

*Praqanın qədim hissəsində yerləşən Vitkov Milli Memorialı 1929–38-ci illərdə inşa olunmuşdur. Şəhərin ən hündür nöqtəsi olan bu təpədə 1420-ci ildə ağır döyüşdə qalib gələn sərkərdə Yan Jijkanın abidəsi qoyulmuşdur.*

*Azərbaycanın və Çexiyanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Sonra Azərbaycan dövlətinin başçısı Vitkov Milli Memorialı Muzeyinin Xatirə kitabını imzaladı.*

*Muzeylə tanışlıq zamanı Azərbaycan prezidentinə məlumat verildi ki, bu memorial Çexiyanın qəhrəmanlıq tarixini əks etdirir. Ölkə tarixinin ən şanlı hadisələri bu memorialda əks olunmuşdur. Çex xalqının azadlıq mübarizəsi bu muzeyin ekspozisiyasının əsas hissəsini təşkil edir. Burada azadlıq hərəkatının önündə gedən çex ziyalılarının xatirəsi dərin ehtiramla yad olunur, onların həyat və fəaliyyəti haqqında buraya gələnlərə ətraflı məlumat verilir.*

*Ekspozisiyaya, həmçinin müxtəlif sənədlər, tarixi anları əks etdirən qiymətli fotolar və digər zəngin eksponatlar daxildir. İldə on minlərlə turist bu muzeyə gəlir və çex xalqının milli mübarizə tarixi haqqında ətraflı məlumat əldə edir.*

**Səfər başa çatdı**

*Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çexiya Respublikasına dövlət səfəri başa çatmışdır.*

*Azərbaycanın və Çexiyanın dövlət bayraqlarının dalğalandığı Praqanın «Stara Ruzine» Hökumət Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Çexiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında münasibətlərin dinamik şəkildə inkişaf etdiyini, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlərin uğurla həll olunduğunu vurğuladı. Prezident İlham Əliyev Valentina Matviyenkonun ölkəmizə səfərinin Azərbaycan ilə Rusiya arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Xanım Valentina Matviyenko ölkəmizə səfəri zamanı ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı səmərəli müzakirələr apardıqlarını vurğuladı. O, Azərbaycan prezidenti İlham Əliyevin MDB ölkələri arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə ötən ilin dekabrında Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının qərarı ilə təşkilatın «Birlik» ordeninə layiq görüldüyünü dedi və ordeni dövlətimizin başçısına təqdim etdi.*

*Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının yüksək ordeni ilə təltif olunması ilə bağlı təşkilatın qərarına görə minnətdarlığını bildirən prezident İlham Əliyev bunu MDB məkanında əməkdaşlığın genişləndirilməsində Azərbaycanın fəaliyyətinə verilən qiymət kimi dəyərləndirdi.*

## XV AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və XV Avrasiya İqtisadi zirvə toplantısının işə başlaması münasibəti ilə təbrik edirəm.

Müasir dünyada sülhün və əmin-amanlığın qorunmasına, sosial-iqtisadi tərəqqiyə öz əməli töhfəsini verən Türkiyə Cümhuriyyətində hər il Mərmərə vəqfinin təşkilatçılığı ilə keçirilən zirvə görüşləri regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, Avrasiya bölgəsində xalqlar və dövlətlərarası siyasi və mədəni əlaqələrin möhkəmləndirilməsi işinə müsbət təsir göstərir. Sonuncu zirvə toplantısından ötən müddət ərzində region ölkələri arasında iqtisadi, siyasi və humanitar əlaqələr daha da güclənmiş, genişmiqyaslı yeni-yeni transmilli layihələrin əsası qoyulmuşdur. Azərbaycan həmişə olduğu kimi, bu layihələrin reallaşdırılmasında, iqtisadi əməkdaşlığın dərinləşdirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak edir. Son illərdə intensiv həyata keçirilən və inşası başa çatmaqda olan Bakı–Tbilisi–Qars dəmiryol layihəsi, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında imzalanmış «Trans-Anadolu» qaz xəttinin tikintisinə dair Anlaşma Memorandumu da bu məqsədə xidmət edir.

Dünyada cərəyan edən mürəkkəb proseslər, geosiyasi, geoiqtisadi və strateji maraqların mübarizəsi, ekoloji vəziyyət bir sıra təhlükəli meyillərin meydana çıxmasına, iqtisadi böhranların və sosial gərginliyin yaranmasına yol açır, sülhün və təhlükəsizliyin qorunmasını çətinləşdirir. Qlobal inkişafın yeni çağırışlarına cavab verilməsi üçün dünyanın görkəmli ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin, iş adamlarının və aparıcı «beyin mərkəz»lərinin müxtəlif formatlarda müzakirələr aparmasına və adekvat qərarlar çıxarmasına ehtiyac duyulur. Bu baxımdan, çoxsaylı ölkələri və beynəlxalq

təşkilatları təmsil edən mötəbər nümayəndə heyətlərinin iştirak etdiyi Avrasiya zirvə toplantılarının səmərəli fəaliyyəti gözlənilən ümidləri doğruldur.

İnanıram ki, bugünkü yığıncaqda hamımızı düşündürən regional problemlərin həllinə, dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına təkan verən, xalqlarımızın mənafelərinə xidmət edən yeni ideyalar irəli sürüləcək və qərarlar qəbul olunacaqdır.

Bu yolda hər birinizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *9 aprel 2012-ci il*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ APARILMIŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*10 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da paytaxtın Nərimanov rayonunda Heydər Əliyev Mərkəzində aparılmış inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Mərkəzdə həyata keçirilən işlərin hazırkı vəziyyəti barədə dövlətimizin başçısına məlumat verildi. Tikinti işlərinin ən müasir standartlara uyğun şəkildə həyata keçirildiyi bildirildi.*

*Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzində görülən işlərlə yaxından maraqlandı. Azərbaycan prezidenti inşaat işlərinin aparıldığı ayrı-ayrı sahələri gəzdi, görülən işlərlə yerindəcə tanış oldu. İnşaatda istifadə olunan tikinti materialları barədə prezident İlham Əliyevə məlumat verildi. Dövlət başçısı inşaat materiallarının keyfiyyəti ilə maraqlandı.*

*Qeyd edək ki, Mərkəzin ərazisində yol-nəqliyyat və digər infrastruktur ən müasir standartlara uyğun şəkildə qurulacaq, ərazidə yaşıllıq zolaqları salınacaq. Buraya gələn qonaqların rahat gediş-gəlişini təmin etmək üçün müasir eskalatorlar quraşdırılıb.*

*Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin adını daşıyan müasir memarlıq nümunəsi müxtəlif beynəlxalq tədbirlərin, konfransların, müsabiqələrin, festivalların, sərgi, konsert və ziyafətlərin yüksək səviyyədə təşkil olunmasına imkan verəcəkdir.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev ətraf ərazilərin abadlaşdırılması ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## YENİ NEFT-QAZ EMALI VƏ NEFT-KİMYA KOMPLEKSİNİN İNŞASINA HƏSR OLUNMUŞ FORUMUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi ölkəmizdə yeni Neft-Qaz Emalı və Neft-Kimya Kompleksinin inşasına həsr olunmuş forumun öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə işlərinizdə uğurlar arzu edirəm. 18 il əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın yeni neft strategiyasının bünövrəsi qoyulmuş və respublikamızın uzunmüddətli inkişaf perspektivləri müəyyənləşdirilmişdir.

Ötən dövr ərzində ölkəmiz dünyada enerji daşıyıcılarının etibarlı təchizatçısı kimi tanınmışdır. Neft sahəsində nüfuzlu şirkətlərlə bağlanan sazişlər, tərəfdaşlıq müqavilələri və neft-qaz layihələrinə yatırılan sərmayələr bəhrəsini vermiş, qeyri-neft sektorunun inkişafına əlverişli zəmin hazırlamışdır.

Əldə edilən gəlirlərin saxlanılması və səmərəli idarə olunması üçün ölkəmizdə Dövlət Neft Fondu yaradılmışdır. Fondun vəsaitləri xalqımızın rifah halının yüksəldilməsi naminə ən zəruri layihələrin gerçəkləşdirilməsinə yönəldilir.

Neft strategiyasının hasilatı və nəqletmə sahələrində qazanılan nailiyyətlərin məntiqi davamı olaraq, bu gün əsas məqsədlərimizdən biri rəqabətədayanıqlı, müasir standartlara cavab verən neft və neft-kimya məhsulları istehsal edəcək yeni Neft-Qaz Emalı və Neft-Kimya Kompleksinin inşa edilib istismara verilməsidir.

Əminəm ki, forum çərçivəsində aparılan dolğun müzakirələr, geniş təhlillər və təcrübə mübadiləsi iqtisadi inkişaf istiqamətində qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsində əhəmiyyətli rol oynayacaqdır.

*Ən xoş arzularla,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2012-ci il*

## ŞİMAL-QƏRB BÖLGƏSİNƏ SƏFƏR

*12 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də respublikamızın şimal-qərb bölgəsinə səfəri çərçivəsində Qazax rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qazax Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov prezident İlham Əliyevə ulu öndərin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Bildirildi ki, dörd hektar ərazini əhatə edən parkda tikinti işləri bu ilin yanvar–aprel aylarında aparılmışdır. Burada 10 min kvadratmetr sahədə yaşıllıq zolağı salınmış, dekorativ ağac və gül kolları əkilmişdir.*

*Görülmüş işləri yüksək qiymətləndirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi*

### Qazaxbəyli–Aşağı Salahlı yolunun açılışı mərasimi

*Qazax rayonuna səfəri çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də Qazaxbəyli–Aşağı Salahlı yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına Qazax rayonunda yolların yenidən qurulması sxemləri təqdim olundu.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, əsaslı şəkildə yenidən qurulmuş Qazaxbəyli–Aşağı Salahlı yolu 5 minə yaxın əhalisi olan 3 kəndi birləşdirir. Uzun müddət təmir olunmadığından yol istismara yararsız vəziyyətə düşmüşdü. Qısa müddətdə yenidən qurulan yol əhalinin gediş-gəlişini xeyli asanlaşdıracaqdır.*

*Prezident İlham Əliyevə təqdim olunan üçüncü layihə Ağstafa–Poylu–Gürcüstan dövlət sərhədi avtomobil yolunun yenidən qurulması layihəsi oldu. Bildirildi ki, 53 kilometrlik yol*

*ən müasir standartlar səviyyəsində qurulur. Yolun üzərində bir ötürücü əsaslı şəkildə təmir olunur, iki yeni körpü tikilir.*

*Sonra prezident İlham Əliyev Qazaxbəyli–Aşağı Salahlı yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı inşaatçılarla görüşdü və aprelin 10-da imzaladığı sərəncamla fəxri adlara layiq görülmüş bir qrup inşaatçını təbrik etdi.*

*Azərbaycan prezidenti kənd sakinləri ilə görüşdü.*

*Sakinlər prezident İlham Əliyevi hərarətlə qarşıladılar, onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq etdilər.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən təbrik edirəm. Çox gözəl yol çəkilib. İndi gediş-gəliş rahat olacaqdır. Biz ölkə üzrə bütün kəndlərdə yollar çəkirik. Elə rayon yoxdur ki, orada kənd yolları çəkilməsin. Ucqar rayonlara, paytaxtdan uzaqda yerləşən bölgələrə xüsusi diqqət yetirilməlidir.

**S a k i n l ə r:** Çox sağ olun. Siz bizim bütün problemlərimizin həllinə diqqət yetirirsiniz. Biz Sizdən çox razıyıq. Allah da Sizdən razı olsun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bilirsiniz ki, mən Qazax rayonunda dəfələrlə olmuşam. Keçən il də gəlmişdim. Çox şadam ki, işlər yaxşı gedir, daha da yaxşı getməlidir. Bütün sahələrdə qarşıya qoyulan vəzifələr icra edilməlidir. Yaxşı yaşayış üçün bütün şərait olmalıdır. Yaxşı yollar, yaxşı məktəblər, tibb məntəqələri, iş yerləri olmalıdır. Bu gün Qazaxda böyük bir konserv zavodu açılır, orada da yüzlərlə iş yeri yaradılacaqdır. Sement zavodu tikilir. Ölkə üzrə çox böyük bir layihədir. Bu həm ölkə iqtisadiyyatına böyük töhfədir, həm iş yerlərinin açılması üçün çox vacibdir, orada da yüzlərlə insan işləyəcəkdir. Çalışırıq ki, hər yerdə işlər yaxşı getsin, iş yerləri açılsın, insanların yaşayış səviyyəsi yüksəlsin və gözəl şərait olsun. Bu yol inkişaf deməkdir.

**S a k i n l ə r:** Sizə çox minnətdarıq, cənab Prezident! Yaxşı yaşamağımız üçün bizə hər cür şərait yaradırsınız. Siz ulu

öndərimizin qurub-yaratdığı müasir Azərbaycanı daha firavan ölkəyə çevirirsiniz. Çox sağ olun.

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də şimal-qərb bölgəsinə səfəri çərçivəsində Qazax Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Gənclər Mərkəzinin tikintisinə bu ilin yanvarında başlanılmış, apreldə sona çatdırılmışdır. Mərkəzin ikimərtəbəli binasının ümumi sahəsi 1160 kvadratmetrdir. Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Qazax rayonuna səfərlərini, ölkəmizdə idmanın inkişafına göstərdikləri diqqət və qayğını, gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılmışdır. Burada həmçinin ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Bütün lazımi avadanlıqla təchiz edilən konfrans zalında müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi və 3D formatlı filmlərin nümayişi nəzərdə tutulmuşdur. Mərkəzdə yaradılan rəsm qalereyasında gənc rəssamların sərgiləri təşkil olunacaqdır.*

*Dövlətimizin başçısı Mərkəzin binasının ikinci mərtəbəsində fəaliyyət göstərən elektron kitabxana ilə tanış oldu. Bildirildi ki, kitabxananın fondunda ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin siyasi fəaliyyətinə həsr edilən, eləcə də uşaqlar üçün və digər sahələrə dair kitablar yer almışdır. Həmçinin kompüter otağında sürətli internetə qoşulmuş 9 kompüter vardır.*

*Mərkəzdəki kafe-barda gənclərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Buradakı linqafon otağında isə gənclər üçün xarici dil kurslarının təşkili nəzərdə tutulmuşdur. Mərkəz gənclərin asudə vaxtlarının səmərəli təşkilində, onların ictimai fəallığının yüksəldilməsində mühüm rol oynayacaqdır.*

*Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

**Şahmat Mərkəzinin açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də Qazax rayonuna səfəri çərçivəsində Şahmat Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş Mərkəzin tikintisinə 2011-ci ilin dekabrında başlanılmışdır. Mərkəzin foyesində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü ucaldılmışdır, həmçinin ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Qazax rayonuna səfərlərini, gənclərlə görüşlərini, ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğını əks etdirən fotoşəkillərdən ibarət stendlər quraşdırılmışdır.*

*Diqqətə çatdırıldı ki, Qazax Şahmat Mərkəzi əvvəllər məşğələlərin keçirilməsi üçün lazımi şəraiti olmayan, ötən əsrin başlanğıcında tikilmiş 57 kvadratmetrlik köhnə binada yerləşirdi. Buna görə də şəhərin mərkəzində ümumi sahəsi 750 kvadratmetr olan yeni bina inşa edilmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Qazax Şahmat Mərkəzində uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələri üçün hər cür şərait yaradılmışdır. Mərkəzdə şahmat dərslərinin keçirilməsi üçün zəruri avadanlıqla təchiz olunmuş beş tədris, xidmət, müəllim otaqları, yeməkxana və oyun zalı fəaliyyət göstərir. Yüksək standartlara cavab verən, ümumi sahəsi 167 kvadratmetr olan oyun zalında yerli, regional və beynəlxalq səviyyəli yarışların keçirilməsi üçün bütün şərait mövcuddur. Şahmatla bağlı biliklərin əldə olunması və müasir yeniliklərin qavranılması üçün ayrıca kompüter otağı da yaradılmışdır. Bu da dərslərin*

*kompüter vasitəsilə tədrisinə, ən son yeniliklərin qısa müddətdə öyrənilməsinə şərait yaradır.*

*Dövlətimizin başçısı gənc şahmatçıların oyunlarını izlədi və Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirərək kollektivə uğurlar arzuladı.*

## İnşası davam etdirilən Qazax sement zavodu ilə tanışlıq

*Aprelin 12-də prezident İlham Əliyev inşası davam etdirilən Qazax sement zavodu ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının imzaladığı «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın uğurla həyata keçirilməsi nəticəsində ölkəmizdə bütün sahələrdə olduğu kimi, inşaat işlərinin də həcmi ilbəil genişlənir. Bu səbəbdən inşaat materiallarına, xüsusilə sementə olan tələbat durmadan artır. Hazırda respublikamızda sement istehsalı bu məhsula olan tələbatı ödəmir. Bunu nəzərə alaraq dövlətimizin başçısının tapşırığı əsasında 2007-ci ildən Qazax rayonu ərazisində yeni sement zavodunun layihələndirmə işləri aparılmış, 2010-cu ilin martından isə tikintisinə başlanılmışdır.*

*Müəssisənin direktoru Hikmət Qəribov məlumat verdi ki, «Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» ASC və «Azərbaycan Beynəlxalq Bankı» ASC tərəfindən inşa edilən, ümumi ərazisi 56 hektar olan Qazax sement zavodunda işlərin xeyli hissəsi artıq başa çatdırılmışdır. Zavodun gündəlik istehsal gücü 2500 ton, illik gücü isə bir milyon ton olacaqdır. Burada sementin istehsalı müasir texnologiya əsasında quru üsulla aparılacaqdır.*

*Prezident İlham Əliyev zavodun idarə edilməsində istifadə olunan yüksək texnologiya əsasında hazırlanmış aparatlara baxdı.*

*Diqqətə çatdırıldı ki, bu avadanlıq zavodun kompüter vasitəsilə mərkəzləşdirilmiş qaydada idarə olunmasına şərait*

*yaradır. Bu eyni zamanda, təhlükəsizlik normalarının da tam təmin olunmasına imkan verir.*

*Şirkətin nümayəndəsi Fan Rüi Min məlumat verdi ki, sement istehsalında müəssisənin mineral xammala olan tələbatını uzun müddət ödəmək məqsədi ilə faydalı qazıntı yataqları üçün 287,5 hektar torpaq sahəsi ayrılmışdır. Texnoloji avadanlığın 4 min 033 tonu, yəni 95 faizi idxal olunmuş və zavodun anbarında saxlanılır. 5,5 min ton qeyri-standart metal konstruksiyaların istehsalı üçün «Akkord»un Mingəçevir və Xırdalan zavodlarına sifarişlər verilmiş və istehsala başlanılmışdır. İndiyədək 2,8 min ton metal konstruksiyalar hazırlanaraq, zavodun anbarına göndərilmişdir. Texnoloji proses xəttində və qeyri-istehsal binalarında inşaat işlərinin 80 faizi uğurla başa çatdırılmışdır.*

*Layihənin sosial və iqtisadi əsaslandırılmasına görə, dağ-mədən, nəqliyyat və digər infrastrukturlar nəzərə alınmaqla, zavodda işçilərin ümumi sayı 650 nəfərə yaxın olacaqdır. İşçilərin 80 faizi Qazax və ona yaxın olan rayonlardan seçiləcəkdir. Onların bir çoxu təlim proqramı çərçivəsində Türkiyə və Çinə göndəriləcəkdir. Zavod ərazisində mühəndislər və işçilər üçün ümumi sahəsi 3,7 min kvadratmetr olan 75 otaqdan ibarət altımərtəbəli, dörd ulduzlu mehmanxana, müasir avadanlıqla təchiz olunmuş 250 yerlik üçmərtəbəli yeməkxana, beşmərtəbəli inzibati bina, tibbi klinika, uşaqlar üçün əyləncə meydançasının tikintisi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev Qazax sement zavodu ilə bağlı texnoloji prosesin videotəsvirlərinə baxdı.*

*Bildirildi ki, layihənin tələblərinə uyğun olaraq müvafiq dövlət qurumlarından infrastruktur mənbələrin texniki şərtləri alınmışdır. Bu şərtlərə uyğun layihələr hazırlanmışdır. Artıq həmin obyektlərdə inşaat-quraşdırma işlərinə, o cümlədən 8 kilometrlik avtomobil yolunun, 18 kilometrlik dəmir yolunun, 14,2 kilometrlik xarici su xəttinin, 26 kilometrlik yüksək-gərginlikli xarici elektrik xəttinin, avtomatlaşdırılmış qaz-paylayıcı stansiyanın, sel bəndinin tikintisinə və suvarma kanalının kənarlaşdırılmasına başlanılmışdır.*

*Prezident İlham Əliyev Qazax sement zavodunun tikintisi ilə bağlı görülmüş işlərdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

**«Azərsun-Holdinq» MMC-nin Qazax konserv zavodunun açılışı mərasimi**

*Prezident İlham Əliyev aprelin 12-də kənd təsərrüfatı məhsulları emal edən «Azərsun-Holdinq» MMC-nin Qazax konserv zavodunun açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, illik məhsulu istehsal gücü 21,5 min ton olan zavodun ümumi dəyəri 14 milyon manatdır. Layihənin həyata keçirilməsi üçün İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 6,8 milyon manat güzəştli kredit verilmişdir. Zavod meyvə-tərəvəzin dondurulması, çoxçeşidli kartof məhsullarının istehsalı sexləri, soyuducu anbar və digər yardımçı binalardan ibarətdir. Ümumi sahəsi 4,7 hektar olan müəssisədə bütün infrastruktur, mühəndis qurğuları ən müasir səviyyədə qurulmuşdur. Zavodun fəaliyyətə başlaması respublikamızda meyvə-tərəvəz istehsalının artmasına, daxili bazarın yüksək keyfiyyətli məhsullarla təmin olunmasına şərait yaradacaqdır.*

*«Azərsun-Holdinq»in İdarə Heyətinin sədri Abdulbari Gozel bildirdi ki, İtaliya, Hollandiya və Türkiyə texnologiyaları əsasında inşa olunmuş zavodun tikintisinə ötən ilin yanvarında başlanılmış, bu ilin aprelində sona çatdırılmışdır. Müəssisədə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin iştirakı ilə 1996–2011-ci illərdə «Azərsun-Holdinq»ə məxsus müəssisələrin açılışlarını əks etdirən fotoguşə yaradılmışdır.*

*Dövlətimizin başçısı müəssisədə meyvələrin dondurulması sahəsi, avadanlığın yerləşməsi və kartof çipsi istehsalı layihələri ilə tanış oldu və sonra çipsi istehsalı və meyvə-tərəvəzin dondurulmasını əks etdirən qısa filmə baxdı.*

*Azərbaycan prezidenti dövlətin güzəştli krediti hesabına Gəncə–Qazax iqtisadi rayonu üzrə maliyyələşdirilən və maliy-*

*yələşdirilməsi nəzərdə tutulan investisiya layihələrini əks etdirən stendlə də tanış oldu.*

*İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev Gəncə–Qazax iqtisadi rayonu üzrə ümumilikdə 2 min 351 sahibkarlıq subyektinə 83,2 milyon manat, o cümlədən yeni texnologiyalara əsaslanan 25 investisiya layihəsinin maliyyələşdirilməsinə 38,7 milyon manat güzəştli kreditin verildiyini bildirdi. Bu kreditlər hesabına 17 mindən çox yeni iş yeri açılmışdır. Güzəştli kredit hesabına maliyyələşdirilən yeni texnologiyalara əsaslanan 25 investisiya layihəsindən 15-i istifadəyə verilmişdir ki, bu da müxtəlif sahibkarlıq sahələrini əhatə edir.*

*Diqqətə çatdırıldı ki, həyata keçirilən layihələr nəticəsində regionda məşğulluğun səviyyəsi artmış, müasir texnologiyalara əsaslanan yeni istehsal, emal müəssisələri yaradılmış, rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalına başlanılmışdır.*

*Müəssisənin laboratoriyası ilə tanışlıq zamanı bildirildi ki, keyfiyyətə nəzarət laboratoriyasının əsas fəaliyyəti istehsal edilən bütün məhsulların fiziki, kimyəvi və orqanoleptik göstəricilərinin sınağını aparmaqdır. Müasir avadanlıq və kimyəvi maddələrlə təchiz edilən laboratoriyada zavoda daxil olan bütün xammalın analizi aparılır, keyfiyyəti yoxlanılır.*

*Prezident İlham Əliyev laboratoriya ilə tanış olduqdan sonra müəssisəni işə saldı və istehsal prosesini izlədi.*

*Məlumat verildi ki, istehsal olunacaq konserv məhsulları və dondurulan meyvələr daxili bazarla yanaşı, xarici ölkələrə də ixrac ediləcəkdir. Xammal bazası yerli istehsalla yanaşı, Gürcüstanın azərbaycanlıların yığcam yaşadığı bölgələrindən də tədarük olunur. Bu isə öz növbəsində qonşu ölkədə yaşayan həmvətənlərimizin işlə təmin edilməsinə və maddi rifahının daha da yaxşılaşmasına imkan verəcəkdir. Layihələrin icrası nəticəsində 158 nəfər işlə təmin olunmuşdur. Zavod istismar müddəti başa çatmış köhnə tikililərdən ibarət avtomobil bazasının ərazisində inşa olunmuşdur. Bu ərazidə 1994-cü ildən*

*məskunlaşan 17 məcburi köçkün ailəsinin yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədi ilə onların yeni inşa olunmuş mənzillərə köçürülməsi və zavodda işlə təmin edilməsi nəzərdə tutulmuşdur.*

*Sonra prezident İlham Əliyev zavodun işçiləri ilə söhbət etdi.*

**Zavodun işçisi:** Xoş gəlmisiniz, hörmətli Prezidentimiz! Sizi görməyimizə şadıq. Çox yaxşı şəraitimiz vardır. Aylıq maaşımız vaxtında verilir. Ayda bir dəfə ərzaq payı alırıq. İşə gəlib-getmək üçün nəqliyyatımız, hər cür şəraitimiz vardır. Ümummilli liderimiz də Qazaxa gələrdi, bizimlə maraqlanardı. O bizim qayğımıza qalardı. Bu qayğını bu gün Sizin simanızda görürük və Sizə öz təşəkkürümüzü bildiririk. Bu gün Qazax rayonu Sizin sayənizdə gündən-günə gözəlləşir, yeni iş yerləri açılır, istirahət parkları salınır. Gənclər Mərkəzinə görə də Sizə Qazax camaatı adından çox dərin təşəkkürümüzü bildiririk. Allahdan Sizə və ailənizə uzun ömür, möhkəm cansağlığı arzu edirik. Sağ olun.

**İlham Əliyev:** Sağ olun. Sizi təbrik edirəm. Bu, gözəl müəssisədir. Çox şadam ki, burada işləyənlərin əksəriyyəti qadınlardır. Qadınları da işlə təmin etməliyik. Gənc ölkəmizdə böyük işlər gedir, işsizlik aradan qaldırılır. Görürəm ki, burada qadınlar əksəriyyət təşkil edir. Özü də əksər qadınlar gənclərdir. Aranızda orta nəslin nümayəndələri də vardır. Yaxşı maaş verilir, yaxşı iş şəraiti vardır. Müasir müəssisədir. Həm sizin üçün, həm bölgə üçün, həm də dövlət üçün çox vacib olan sahədir.

Əvvəlki dövrlərdə biz əsas ərzaq məhsullarını idxal edirdik, idxaldan asılı idik. İndi özümüz özümüzü təmin edirik və ixrac imkanlarımız da vardır. Bu məsələdə həm dövlət, həm özəl qurumlar, həm də yerli icra orqanları bir yerdədirlər. Dövlət dəstək göstərir, kreditlər ayırır, özəl qurumlar bu dəstəkdən faydalanaraq vəsait qoyurlar, həm dövlətdən alınan kreditlər, həm də öz vəsaitləri hesabına iş yerləri açırlar. Yerli icra

orqanları isə işlərin daha yaxşı getməsi üçün bütün lazımi şəraiti yaradırlar.

Bu gün burada bəlkə də yüzlərlə insan işləyir.

Gələn il Qazaxda böyük sement zavodu işə salınacaqdır. Orada da təqribən 600 yeni iş yeri açılacaqdır. Yəni bu cür faktlar çoxdur. Mən istəyirəm bütün qərb zonasında belə gözəl müəssisələr yaradılsın ki, həm insanlar yaxşı maaş alsınlar, işləsinlər, həm də ölkəmiz inkişaf etsin. Belə müəssisələrin yaradılmasında biz bir neçə vacib məqsədi nəzərə alırıq və ona çatırıq. İşsizlik aradan qaldırılır, yerli istehsal artır, biznes qurumları fəaliyyətlərini genişləndirirlər. Qeyri-neft sektoru inkişaf edir, idxalı əvəzləyən yerli məhsul istehsal olunur və ölkəmizin uğurlu inkişafı təmin edilir.

İndi bütün ölkəmizdə soyuducu anbarlar tikilir. Əgər tikilməsəydi, o məhsullar bata bilərdi. Yəni kəndli zəhmət çəkib məhsul istehsal edir, sonra da saxlamağa yeri olmadığı üçün mallar batır. İndi gətirir verir soyuducu anbarlara, orada saxlayırlar. Bunun istehlak qiymətlərinə də çox müsbət təsiri vardır. Əgər bu mallar boldursa, deməli, istehlak qiymətləri də normal səviyyədə olacaqdır. Sizə bir daha uğurlar arzulayıram.

## AĞSTAFA RAYONUNA SƏFƏR

*12 aprel 2012-ci il*

*Aprelin 12-də Azərbaycan prezidenti İlham Əliyev Qazax rayonuna səfərini başa çatdıraraq Ağstafa rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Ağstafa şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev prezident İlham Əliyevə abidənin ətrafında aparılmış yenidənqurma və abadlıq işləri barədə ətraflı məlumat verdi.*

### Yenidən qurulmuş Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında görülmüş işlərlə tanışlıq

*Prezident İlham Əliyev aprelin 12-də Ağstafaya səfəri çərçivəsində rayon mərkəzində tamamilə yenidən qurulmuş Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında görülmüş işlərlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, parkın ətrafında əsaslı yenidənqurma işləri görülmüşdür. Parkın yerləşdiyi Hüseyn Arif küçəsinə asfalt döşənmiş, səkilər, məhəccərlər ən müasir səviyyədə yenilənmişdir. Yol boyunca abadlıq və yaşıllaşdırma işləri görülmüş, ətrafdakı bütün binalar yenidənqurmadan sonra müasir görkəm almışdır.*

*Bildirildi ki, parkın ümumi ərazisi 4,8 hektardır. Burada hər birinin uzunluğu 12, eni isə 5 metr olan üç fəvvarə inşa edilmişdir. Fəvvarələrin ətrafında sakinlərin istirahətinin yüksək səviyyədə təmin olunması məqsədi ilə yarımkürə formasında mərmərlə üzlənmiş on oturacaq qurulmuşdur. Gəzinti yerlərinə 8,5 min kvadratmetr yanmış qranit döşənmişdir. Bütün bu tədbirlər nəticəsində park yeni görkəm almışdır. Parkda işıqlandırma və yaşıllıqların suvarılması sistemləri tamamilə*

*yenidən qurularaq ən müasir avadanlıqla təchiz edilmişdir. Ərazidə həmçinin müasir tipli 124 işıq dirəyi quraşdırılmışdır. İstirahət guşəsindəki müxtəlif xidmət obyektlərində 50 nəfər işlə təmin olunmuşdur.*

*Parkda ulu öndər Heydər Əliyevin abidə kompleksi ucaldılmışdır. Abidənin fonunda hər birinin hündürlüyü 7, uzunluğu 25 metr olan 12 qranit sütundan ibarət xüsusi guşə yaradılmışdır. Burada bir metr hündürlüyündə və 11 metr uzunluğunda fəvvarə quraşdırılaraq qranitlə üzlənmişdir. Sütunların arxası boyunca əkilmiş həmişəyaşıl ağaclar abidə kompleksini tamamlayır. Parkın ərazisində Gənclər Mərkəzi, yay kinoteatrı, həmçinin «Ana və uşaq» kafesi, veteranlar klubu fəaliyyət göstərir. Bu obyektlər müasir tikinti materialları ilə işlənərək modern üslublu istirahət guşələrinə çevrilmişdir. Ərazidə simsiz internet şəbəkəsi də yaradılmışdır.*

*Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Aprelin 12-də prezident İlham Əliyev Ağstafa şəhərində Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ümumi sahəsi 450 kvadratmetr olan Mərkəzin birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin gənclər siyasətinin uğurlarını, eləcə də Ağstafa rayonuna səfərlərini əks etdirən fotoguşələr yaradılmışdır. Bu mərtəbədə fəaliyyət göstərən karaoke-diskoteka salonunda ən müasir səs-akustika sistemi quraşdırılmışdır. İkinci mərtəbədə kafe, interaktiv və pnevmatik stend atıcılığı salonu yaradılmışdır. Ən son avadanlıqdan istifadə olunmuş salonda ümummilli liderimiz Heydər Əliyevin*

*«Sərrast atıcı qələbənin təminatçısıdır» kəlamı başlıca meyar götürülərək gənclərin bu sahədə ibtidai hazırlıq keçmələrində və onların interaktiv, pnevmatik avtomat və tapançadan atəşaçma bacarıqlarının yüksəldilməsi üçün məqsədyönlü işlər aparılacaqdır.*

*Bildirildi ki, Azərbaycan Atıcılıq Federasiyası respublikamızın regionlarında atıcılığın olimpiya idman növləri üzrə perspektivli gənclərin aşkar olunması və onların bu sahədə inkişafı istiqamətində hərtərəfli kömək göstərilməsi ilə bağlı konkret tədbirlər həyata keçirir. Bundan başqa, Mərkəzdəki 3D formatlı sinema-klub da orijinallığı ilə diqqəti cəlb edir. Klubda ABŞ, Fransa və Yaponiya istehsalı olan ən son avadanlıq quraşdırılmış, 2D və 3D formatlı filmlərin nümayişi üçün hər cür şərait yaradılmışdır. Burada yüksək sürətli internet-kafe də fəaliyyət göstərir.*

*Gənclər Mərkəzində yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## Səməd Vurğun adına Mədəniyyət və istirahət parkının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də Ağstafa şəhərində yenidən qurulmuş Səməd Vurğun adına Mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir.*

*Parkda Xalq şairi Səməd Vurğunun büstü qoyulmuşdur. Büstün fonunda görkəmli şairin yaradıcılığını əks etdirən möhtəşəm «Kitab abidəsi» kompleksi tikilmişdir.*

*Dövlətimizin başçısı Səməd Vurğunun abidəsi önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Heydər Əliyev prospektində yerləşən park 2,8 hektar sahəni əhatə edir. Parkın gəzinti sahəsinə 4,5 min kvadratmetr piltə döşənmişdir. Parkın ərazisi qarşı tərəfdən 140 metr uzunluğunda, fasadı aqlay daşı ilə üzlənmiş dekorativ hasarla əhatə olunmuşdur. Yanlardan və arxa hissədən isə parkı uzunluğu 300, hündürlüyü 3,5 metr olan*

*qədim memarlıq nümunələrimizdən* hesab *edilən «*qala *divarları» dövrələmişdir.* Burada *yaraşıqlı fəvvarə quraşdırılmış, hər* biri *4,5* metr *uzunluğunda yarımkürə* for*masında* doqquz, metaldan *hazırlanmış 20* oturacaq qoyul*muşdur.* Parkda dekorativ *bəzək və gül kolları əkilmiş, işıqlandırma və yaşıllığın suvarılması sistemləri müasir* standartlara *uyğunlaşdırılmış, müasir* tipli *73 işıq dirəyi quraşdırılmışdır.*

Parkda simsiz internet *şəbəkəsi yaradılmış, Yazıçılar* evi *və «Vurğun»* kafesi *inşa edilmişdir.*

## YAZIÇILAR EVİNDƏ BÖLGƏ ZİYALILARI İLƏ GÖRÜŞ

*12 aprel 2012-ci il*

*Parkla tanışlıqdan sonra dövlətimizin başçısı Yazıçılar evində bölgə ziyalıları ilə görüşmüşdür.*

**İlham Əliyev:** Mən yenidən qərb bölgəsində olmağımdan çox məmnunam. Birinci dəfə deyil ki, sizinlə görüşürəm. Hər dəfə qərb bölgəsində olarkən və burada inkişafı görərkən çox sevinirəm. Bu gün səhər Qazaxda, indi burada – Ağstafada tədbirlərdə iştirak edirəm. Bundan sonra Tovuza gedəcəyəm. Bir gün ərzində həm bölgə, həm də ölkəmiz üçün çox vacib tədbirlər keçirilir, çox vacib açılışlar təşkil edilir – kənd yollarının, yeni sənaye, emal müəssisələrinin açılışları. Bütün bu işlər ölkəmizin dinamik inkişafını göstərir. Azərbaycanın inkişafı bölgələrin inkişafından asılıdır. Uzunmüddətli dayanıqlı inkişaf istəyiriksə, mütləq qeyri-neft sektoru inkişaf etməlidir. Mən çox şadam ki, həm Ağstafada, həm Qazaxda, digər bölgələrdə bu sahədə görülən işlər təqdirəlayiqdir.

Ümumiyyətlə, ölkə iqtisadiyyatı sürətlə inkişaf edir. Bölgələrdə proseslər müsbət istiqamətdə gedir. Vaxtilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. Azərbaycan bu gün, sözün əsl mənasında, öz inkişaf dövrünü yaşayır. Çalışmalıyıq ki, bu dinamik inkişaf templərini saxlayaq.

İndi qarşımızda yeni məsələlər dayanır. Ümumi daxili məhsuldakı struktur islahatları bundan sonrakı dövrdə də aparılmalıdır. Biz növbəti 10 il ərzində inkişafımızı daha çox qeyri-neft sektoru hesabına təmin etməliyik. Belə olan halda, əminəm ki, 10 ildən sonra Azərbaycan dünya miqyasında yüksəkgəlirli ölkəyə çevriləcəkdir. Bu gün açılan yeni müəssisələr – bu bölgədə yerləşən yeni müəssisələr minlərlə iş yeri deməkdir. Hər bir iş yerinin açılması ölkə iqtisadiyyatına da

böyük töhfədir, hər bir ailəyə də böyük dəstəkdir. İş yeri olan zaman, əlbəttə ki, insanlar yaxşı maaş alırlar, işləyirlər və biz idxaldan asılılığımızı daha da azaldırıq. İqtisadi sahədəki bütün bu müsbət meyillərlə yanaşı, başqa sahələrdə də uğurlar göz qabağındadır. Ölkəmizin ümumi inkişafı artıq dünya birliyi tərəfindən qəbul edilir və tanınır. Dünya birliyi Azərbaycanı çox dəyərli və etibarlı, dost və tərəfdaş kimi qəbul edir.

Bizim 20 illik müstəqillik tarixində ən böyük diplomatik uğurumuz BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimizdir. Çox gərgin, amma ədalətli mübarizədə biz dünya birliyinin böyük dəstəyini əldə etmişik. 155 ölkə Azərbaycanı dəstəkləmişdir. Gənc müstəqil ölkə üçün bu, həddindən artıq çox böyük nəticədir. Bizim bu mötəbər quruma seçilmək cəhdlərimiz də uğurla nəticələndi. Birinci dəfədən Azərbaycan böyük səs çoxluğu ilə seçilibdir. Bu fakt özlüyündə bir çox məsələlərə eyham vurur.

Birinci növbədə, Azərbaycanın dünyadakı mövqeləri möhkəmlənir, Azərbaycanı daha da çox tanıyırlar. İkinci tərəfdən, Azərbaycanda gedən müsbət işlər, islahatlar ölkəmizin gücünü artırır. İndi bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı çoxalır. Bu sahədə də görülən işlər müsbətdir. Beləliklə, Azərbaycan indi nəinki regionda, dünyada da qlobal məsələlərin həllində öz sözünü deyir və deyəcəkdir. Biz birinci gündən Təhlükəsizlik Şurasında fəallığımızla seçilirik və prinsipial mövqemizi ortaya qoyuruq. Deyə bilərəm ki, müstəqillik tarixinin, bu 20 ilin ən yaddaqalan məqamlarından biri odur ki, biz müstəqil siyasət aparırıq. Artıq bu siyasətlə hesablaşmaq lazımdır, bu siyasət öz düzgünlüyünü təsdiq etmişdir və 20 il ərzində həm ölkə daxilində, həm regionda, həm dünyada Azərbaycan özünü göstərmişdir.

Azərbaycan dövləti güclü dövlətdir, güclü dövlətçilik əsaslarımız vardır. Elə etməliyik ki, bu müsbət dinamikanı gələcək illərdə də saxlayaq, ölkəmizin hərtərəfli inkişafına nail olaq və ölkə qarşısında duran bütün məsələləri həll edək. Bu məsələlər var, həm sosial, həm iqtisadi sahədə islahatların

aparılması davam etdirilməlidir. Bunlar haqqında kifayət qədər açıq və geniş proqrama malikik. Bu proqram vətəndaşlara təqdim edilib və vətəndaşların dəstəyi ilə bu işləri aparırıq.

Bu gün bu görüşdə bölgə ziyalıları toplaşmışlar. Mən ziyalılarla tez-tez görüşürəm, həm bölgələrdə, həm Bakıda. Bu görüşlərin çox böyük mənası, çox böyük əhəmiyyəti vardır. Həm xarici, həm daxili siyasətlə, həm də sosial sahə ilə bağlı bütün məsələlər həll olunur. Ancaq dövlətimizin əsası bizim milli-mənəvi dəyərlərimizdir. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm ki, bu sadəcə, gözəl sözlər deyil, həqiqətdir. Əgər biz dövlətçiliyimizi güclü milli dəyərlər üzərində qurmasaydıq, bugünkü inkişaf yarımçıq olardı, uzunmüddətli olmazdı.

Xüsusilə indiki zamanədə dünyada gedən proseslər, əlbəttə ki, dünyanın həm siyasi xəritəsini dəyişdirir, həm ölkələr arasındakı münasibətlər yeni müstəviyə keçir. Qloballaşma meyilləri güclənir. Qloballaşmanın həm müsbət, həm mənfi tərəfləri vardır ki, biz bu barədə açıq danışmalıyıq və hər halda, mən fürsət olanda bu barədə öz fikirlərimi ifadə edirəm. Belə olan halda mütləq hər bir dövlət, hər bir xalq öz mənəvi dəyərlərinə daha da bağlı olmalıdır.

Bugünkü uğurlu inkişaf, bizim hər sahədəki nailiyyətlərimiz, qələbələrimiz hər bir vətəndaşı daha da çox ruhlandırır. Hər bir vətəndaş öz ölkəsini daha çox sevir, ölkəsinə daha çox bağlı olur. Biz tariximizi yaxşı bilməliyik. Əfsuslar olsun ki, bizim nəsil, məndən yaşlı olanlar çox məhdud ideoloji çərçivələr arasında böyümüşdür. Müstəqillikdən sonra tariximizlə bağlı olan reallıqları dərk etməyə başlamışıq. Görmüşük ki, doğrudan da Azərbaycan xalqı nə qədər böyük əziyyətlər çəkib, bizə qarşı nə qədər ədalətsizliklər olub. Azərbaycan xalqının iradəsini sındırmaq istəyənlərin səyləri nə qədər çox olub. Amma buna baxmayaraq, biz milli mənliyimizi, dəyərlərimizi, ənənələrimizi saxlaya bilmişik.

Mən çox istərdim ki, bizim ziyalılar bundan sonra da əsərləri, fikirləri, baxışları ilə bu müsbət meyilləri daha da

gücləndirsinlər. Azərbaycan cəmiyyətində ziyalılara bütün dövrlərdə böyük hörmət olub – ictimai-siyasi quruluşdan asılı olmayaraq, sovet dövründə də, ondan əvvəlki dövrdə də, müstəqillik dövründə də. Bu çox müsbət bir haldır. Biz heç də hər bir cəmiyyətdə buna rast gələ bilmərik. Bu bizim xüsusiyyətimizdir və biz bu ənənəni yaşatmalıyıq.

Dövlət tərəfindən ziyalılara olan qayğı, dəstək artır, son zamanlar özünü daha da çox büruzə verir. Sovet İttifaqı dağıldıqda və müstəqilliyin ilk illərində imkanlarımız yox idi. Dövlətin imkanları yox idi ki, ziyalılara daha da çox diqqət göstərsin. İmkanlar artdıqca bu məsələyə diqqət göstərilir. Yüzlərlə ziyalımız Prezident təqaüdü alır, mükafatlandırılırlar. Müxtəlif tədbirlər keçirilir. Uzun fasilədən sonra kitabların nəşri bərpa edilib və bu gün daha geniş vüsət almalıdır. Ziyalılar da öz növbəsində, əlbəttə, vətəndaşlıq mövqeyi ilə ümumi işimizə töhfəsini verməlidir və verirlər. Öz əsərləri, fikirləri ilə qarşıda duran məqsədlərimizə çatmaq üçün səylərini daha da artırmalıdırlar.

Keçən il müstəqilliyimizin 20 illiyi qeyd olundu. Bu, tarix baxımından çox qısa bir dövrdür. İyirmi il tarix üçün bir an, bir saniyədir. Amma dövlət quruculuğunda 20 il ərzində çox iş görmək olar və çox iş də görülübdür. Haradan haraya gəlmişik. Biz dağıdılmış, xaos içində çabalayan, heç bir dövlətçilik əsası olmayan ölkədən bu gün dünyanın sayılıb-seçilən ölkələri sırasına daxil olmuşuq, həm ölkədə gedən islahatlarla, həm beynəlxalq mövqelərimizin gücləndirilməsi hesabına.

Bu 20 illik müstəqillik tarixi, hesab edirəm ki, bizim həm ədəbiyyatda, həm publisistikada, həm də digər sahələrdə daha da çox öz əksini tapmalıdır. Əgər biz bunu düzgün, dəqiq təhlil etsək, həm tarixi həqiqətə töhfəmizi verərik, eyni zamanda, gələcək üçün də bir yol açılar. 20 il arxada qaldı. Bundan sonra 20 il ərzində bizi nələr gözləyir?! Bizim planlarımız, ideyalarımız, fikirlərimiz nədir?! Əlbəttə ki, ölkə siyasətini siyasi hakimiyyət müəyyən edir. Ona görə də insanlar siyasi lideri–prezidenti seçirlər, ona etimad göstərib seçirlər. Gələcəyə

baxışlarımızın spektri çox geniş olmalıdır. Burada cəmiyyətin ziyalı zümrəsi, elitası öz rolunu oynamalıdır. Mən çox istərdim ki, həm bizim 20 illik müstəqillik tariximizlə, həm də əvvəlki tariximizlə bağlı daha da dolğun, daha da mənalı və çoxsaylı materiallar üzə çıxsın.

Əsas istiqamətlər müəyyən edilib. Azərbaycan müstəqil ölkə kimi, bundan sonra əbədi yaşayacaqdır. Müstəqil siyasət aparan ölkə kimi, Azərbaycan dünya miqyasında özünü tanıtdıra bilibdir və bu reallıqlarla istər-istəməz bütün ölkələr hesablaşmalıdır. Bizi müstəqil siyasətdən döndərə biləcək bir qüvvə yoxdur. Bizim siyasətimiz xoşniyyətlidir, milli maraqlarımızı müdafiə edəndir, əməkdaşlığa geniş mənada hazırıq.

Biz gərək perspektivlərimiz haqqında dəqiq proqramları tətbiq edək. Bu proqramlar var, onlar daha çox iqtisadi və sosial məsələləri əhatə edir. O ki qaldı dövlətimizin ideoloji əsasları ilə bağlı məsələlərə, biz bu sahədə daha da çox işləməliyik. Biz 20 il sonra ölkəmizi necə görmək istəyirik?! Bu gün yeniyetmə yaşında olan gəncləri biz necə tərbiyə edəcəyik?! Onlar hansı ruhda tərbiyə olunacaqlar, onlar öz dövlətinə nə qədər bağlı olacaqlar, öz milli mənliyini necə qoruyub saxlayacaqlar!? Çünki qloballaşma meyilləri gedir və bəzi hallarda böyük güc mərkəzləri qloballaşma adı altında öz siyasətlərini yeridirlər. Bu da heç kimə sirr deyil ki, bəzi çox gözəl şüarlar altında kənar qüvvələrin maraqlarını təmin etmək üçün səylər göstərilir. Gənclərimiz buna hazır olacaqlarmı?! Biz buna hazırıq və istənilən təzyiqə dözürük, dözəcəyik və öz seçimimizi müdafiə edirik və edəcəyik.

Qloballaşma dövründə təhsil, mədəniyyət, yenə də deyirəm, ziyalıların sözü müstəsna əhəmiyyətə malikdir. Ona görə də hesab edirəm ki, bugünkü görüşdə biz bu məsələlər ətrafında danışmalıyıq. Azərbaycanın bugünkü reallıqları belədir ki, yenə də demək istəyirəm, bizi gələcəkdə ancaq və ancaq inkişaf gözləyir. Bizim 2023-cü ilə qədər artıq konkret proqramlarımız

vardır. Yəqin ki, 2014-cü ildə yeni onillik inkişaf proqramı təsdiq olunacaq.

Ancaq sosial və iqtisadi məsələlərdən başqa, yenə də demək istəyirəm ki, ideoloji, siyasi məsələlər, daxili siyasətlə bağlı məsələlər vardır. Bizim uğurlu inkişafımızı təmin etmək üçün, bax, bütün bu vacib amillər olmalıdır.

Mən bir daha sizi salamlayıram. Mən çox şadam ki, qərb bölgəsinin ziyalıları həmişə olduğu kimi, çox fəaldırlar. Bu gün də belədir, istəyirəm ki, gələcəkdə də belə olsun.

**F i r d o v s i H e y d ə r l i** *(«Ağstafa» qəzetinin redaktor müavini):* Çox hörmətli cənab Prezident, sonsuz məhəbbətlə, böyük səbirsizliklə yolunuzu gözləyirdik. Bu bir neçə gündə çox xoşbəxt anlar yaşayan bütün ağstafalılar adından, Ağstafanın ziyalıları, ağsaqqalları adından Sizi ürəkdən salamlayır və bu təravətli bahar günlərində elimizə, obamıza «Xoş gəlmisiniz!» – deyirəm.

Siz bizim bölgədə bir neçə dəfə olmusunuz. Amma mən bu gözəl gündə o səfərlərinizdən birini yada salmaq istəyirəm. Siz o vaxt Bakı–Ceyhan neft kəmərinin çəkilişi ilə əlaqədar «Qızıl qaynaq» mərasimində iştirak etmək üçün Böyük Kəsik ərazisinə gəlmişdiniz. Əlbəttə, oradakı böyük təntənədən sonra Siz Bakıya qayıtmaq üçün həmin bu Ağstafa vağzalına gəldiniz və gördünüz ki, burada çoxlu insanlar toplaşıb. Siz onlarla səmimi söhbət etdiniz. O səmimi söhbət zamanı Siz onları dinlədiniz, onlara sözünüzü dediniz, onlar Sizə öz sözlərini çatdırdılar və axırda, gedənə yaxın çox gözəl söz dediniz. Bildirdiniz ki, bu Ağstafanın gözəl, füsunkar təbiəti, onun gözəl coğrafi mövqeyi, mehriban, hər şeyə düzgün qiymət verməyi bacaran insanları mənim çox xoşuma gəldi. Mən bugünkü görüşdə sizə söz verirəm ki, yaxın zamanlarda Ağstafanı respublikanın qərb qapısında ən gözəl bir diyara çevirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu qiymətli sözlər mənim yadımdadır və onu xatırlatmaqda məqsədim vardır. Bu gün iftixar, çox böyük fəxarət hissi ilə demək olar ki, Siz ölkənin doğrudan da gözəl Prezidenti, həmişə

xalqın güzəranını, yaşayışını fikirləşən dövlət başçısı kimi, o vədə əməl etdiniz. Özünüz gəldiniz, gəzdiniz, görülən işlərə baxdınız. Əminəm ki, bu da son tədbir deyildir.

Həm Ağstafa ziyalıları, həm ağsaqqalları adından əmin edirəm ki, Sizin hər bir addımınız, hər bir tədbiriniz ağstafalılar tərəfindən çox böyük razılıq hissi ilə qarşılanır. Minnətdarlıq bildirmək üçün adam söz tapmaqda çətinlik çəkir. Bu qədər gözəl işin müqabilində Prezidentə nə qədər böyük minnətdarlıq etsək də azdır. Çünki qədim tarixə malik Ağstafanın həyatında indiyədək belə yenilik, belə inkişaf heç vaxt görünməyibdir. Ona görə, biz ziyalılar, ağsaqqallar öz aramızda söhbət edəndə həmişə deyirik ki, Ağstafa yeni bir həyat yaşamağa başlayıb.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, xoş sözlərinizə görə çox minnətdaram. Mən çox şadam ki, doğrudan da Ağstafada gözəl, sürətli inkişaf vardır. Mən beşinci dəfədir ki, prezident kimi Ağstafadayam. Çox istəyirəm ki, bu rayon daha sürətlə inkişaf etsin. Bilirsiniz, indi bütün vacib olan proqramlar qəbul edilib.

Dövlət İnvestisiya Proqramında, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında bütün məsələlər öz əksini tapır.

Burada, əlbəttə ki, kadrların düzgün seçilməsi məsələsi gündəmə gəlir. Mən çalışıram ki, bu kadrlar maksimum təhlil aparmaq şərti ilə seçilsin, təyin edilsin. Hər dəfə hər bir yerə, hər bir rayona icra başçısı təyin edərkən dəvət edirəm, tövsiyələrimi, göstərişlərimi, istiqamətləri verirəm ki, necə işləməlisən. Tapşırıram ki, təmiz işləməlisən, insanlarla bir yerdə olmalısan, insanların qayğıları ilə yaşamalısan, öz təşəbbüsünü də göstərməlisən. Çünki indi bölgələrdə layihələrin bir çoxu dövlət qurumları tərəfindən icra edilir – qazlaşdırma, su, kanalizasiya layihələri, elektrik xətlərinin çəkilişi, böyük investisiya layihələri.

Ancaq yerli icra orqanlarının da öz imkanları vardır. Onlar bu imkanlardan istifadə etməlidirlər. Harada ki seçim düzgündür, orada işlər daha yaxşı gedir. Harada ki bu seçimdə səhvə yol verilib, orada işlər o qədər də yaxşı getmir, yaxud da ki, pis gedir. Mən sizə deyə bilərəm ki, 8 ildən artıqdır ki,

prezidentəm. Bu illər ərzində elə yerlər var ki, orada icra başçısı bir neçə dəfə dəyişilib. Bir neçə dəfə. Etimadı doğrultmaq lazımdır. Harada ki icra başçısı bunu doğruldur, o mənim tərəfimdən qiymətləndirilir, dəstəklənir. Harada ki özünü doğrultmur, əlbəttə ki, orada biz tədbirlər görürük və mənim bölgələrə səfərlərimin səbəblərindən biri də məhz bundan ibarətdir ki, gedim öz gözümlə görüm. Özüm görüm ki, insanların əhval-ruhiyyəsi necədir?! Abadlıq işləri, ümumən işlər necə gedir?! Prezidentin çox geniş, gərgin iş qrafiki vardır. Ancaq bölgələrə səfərlərim çox əhəmiyyətlidir, həm mənim üçün, həm də burada yaşayan insanlar üçün. Bu, dövlət məmurlarını da daim səfərbər vəziyyətdə saxlayır. Belə də olmalıdır.

Mən, misal üçün, bu gün həm Qazaxda, həm Ağstafada görürəm ki, bax, bir il keçməyib həm ora, həm bura yeni icra başçılarını təyin etmişəm. Görürəm ki, inkişaf vardır. İnsanlar da görürlər, reaksiya da müsbətdir. Ona görə ziyalılar da, rayon fəalları da, bütün vətəndaşlar da bir yerdə olmalıdırlar. Dövlət nümayəndələri, vətəndaşlar, ziyalılar bir yerdə olmalıdırlar. Onda bütün işlərimiz daha da uğurla gedəcəkdir.

**B a r a t  V ü s a l** *(Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin sədri):* Qərb bölgəsində Siz dəfələrlə olarkən biz hiss etmişik ki, sənətə və sənət adamlarına çox böyük ehtiram göstərirsiniz. Respublikada Heydər Əliyev dövründən qalan ənənəni yaşadırsınız. Mənim yadımdadır, Siz hakimiyyətə gələndə dediniz ki, mən Azərbaycanın gələcəyinə inanıram. Amma bu gələcək bircə şeydən asılıdır – Heydər Əliyev siyasətini davam etdirməkdən.

Siz həmin siyasəti çox böyük qüdrətlə dünya səviyyəsində Azərbaycana böyük nüfuz gətirəcək şəkildə davam etdirirsiniz və biz Sizi alqışlayırıq. Demək istəyirəm ki, qərb bölgəsi, Qazax–Ağstafa bölgəsi tarixən birlikdə Qazax mahalı adlanır. Bu mahaldan çox böyük ədəbi simalar çıxıbdır.

Xalq şairi Səməd Vurğun bu bölgəni vaxtilə «Şairlər vətəni» adlandırmışdır. Səməd Vurğun onların içərisində xüsusi yer

tutur. Ulu öndər Heydər Əliyevin dediyi bir sözü xatırlatmaq istəyirəm: «Xalq şairi Səməd Vurğun millətimizin başını uca edən şəxsiyyətlərdəndir». Bəli, ölkəmizdə millətinin, xalqının başını uca edən hər bir adama böyük hörmət, ehtiram, qayğı vardır. Sizin verdiyiniz sərəncamlar əsasında Qazaxda Mütəfəkkirlər parkı, xalq yazıçıları Mehdi Hüseynin, İsmayıl Şıxlının həm heykəlləri ucaldılıb, həm də onların adını daşıyan parklar salınıb, Dədə Qorqud meydanı yaradılıbdır. Heydər Əliyev tərəfindən əsası qoyulmuş Poeziya evi Sizin tövsiyələriniz əsasında yüksək şəkildə bərpa olunub istifadəyə verilmişdir.

Bu qayğını və diqqəti bölgəmizin əhatə etdiyi 5 rayonun ədəbi qüvvələrinin timsalında da aydın görürük. Bu bölgədə yaşayanlar Səməd Vurğun ədəbi məktəbindən öyrənirlər. Bayaq Siz dediyiniz kimi, mənəvi dəyərlərimizə nəsə əlavə etmək üçün əllərindən gələni edirlər. Deyim ki, burada olan yazıçıların hamısının kitabları çap olunur, onların bir çoxu Prezident təqaüdünə layiq görülmüşdür, mükafatlar, fəxri adlar almışlar. Hətta təvazökarlıqdan uzaq olsa da, deyim ki, keçən il 60 illiyimdə Siz mənə «Əməkdar incəsənət xadimi» Fəxri adını verdiniz. Fürsətdən istifadə edib bütün bölgə yazarları adından təşəkkürümü bildirirəm.

Bu ehtiram, bu diqqət, əlbəttə ki, Azərbaycan dövlətinin möhkəmlənməsi, millətimizin milli dəyərlərinin artması üçündür. Biz bu sahədə həmişə Sizə yardımçıyıq, köməkçiyik. Sizin tövsiyələriniz bizim üçün həmişə əsasdır. Deyim ki, bu etimadı vaxtilə Səməd Vurğunun dediyi bir söz daha çox doğruldur. Nə mənada? Bu gün biz Ağstafadayıq. Ağstafada Səməd Vurğunun adını daşıyan möhtəşəm park təzədən bərpa olunmuşdur. İnandırım ki, göz oxşayır. Üstəlik də, Ağstafada indi söhbət etdiyimiz yer Poeziya evi adlanır. Bunlar çox böyük hörmət hissi doğurur. Səməd Vurğunun o misralarını xatırlatmaq istəyirəm: «Bizdə şeir də var, sənət də vardır. Şairə, sənətə hörmət də vardır!»

Bütün bunların hamısı üçün Sizə təşəkkürümüzü bildiririk. «Var olun!» – deyirik. İcazə versəniz, mən Qazax ziyalıları adından bir təklifi deməк istərdim. Qazaxda – Siz özünüz də vaxtilə ziyarət etmisiniz – Mütəfəkkirlər parkı heykəllər, büstlərdən ibarət möhtəşəm bir parkdır. O parkda əgər məsləhət bilsəydiniz, biz çox istərdik ki, gələcəkdə Bakıdakı Ədəbiyyat Muzeyinin filialı yaradılsın. Çünki Qazax elə bir strateji nöqtədə yerləşir ki, qonaq-qarası çox olur. Bizdə Vaqif Xatirə Muzeyi köhnə bir binada yerləşir. Yazıçılar Birliyinin filialı da onun kimi. Məsələn, məsləhət olsaydı və belə bir bina tikilsəydi, Vaqif Xatirə Muzeyi də, Yazıçılar Birliyinin filialı da oraya köçürülərdi. Sonra orada ayrı-ayrı otaqlar müxtəlif yazıçılara ayrılardı, əlyazmaları toplanardı, Mütəfəkkirlər parkına ziyarətə gələnlər həmin muzeyin timsalında böyük bir mədəni xəzinə ilə tanış olardılar. Əgər məsləhət bilsəydiniz. Bunu bir təklif kimi deyirəm.

Sonda icazə versəydiniz, bölgə yazarlarının, yəni həm Qazax, həm Ağstafa yazarlarının əsərlərindən ibarət, Səməd Vurğunun bir misrası ilə adlanan «Şairlər vətəni–bizim tərəflər» antologiyasını Sizə hədiyyə edərdim.

Sizə bütün işlərinizdə müvəffəqiyyətlər və cansağlığı arzulayıram. Var olun! Millətimiz var olsun! Azərbaycanımız var olsun!

**İ l h a m Ə l i y e v:** Dediyiniz xoş sözlərə və verdiyiniz təklifə görə çox sağ olun. Mən bu təklifə mütləq baxacağam. Siz bəlkə bunu daha da konkretləşdirəsiniz və orada yeni bir muzey tikmək o qədər də böyük problem olmaz. Əsas odur ki, bunun daxili tərtibatı və funksional tərəfi də müsbət olsun. Filial kimi də öz fəaliyyətini göstərə bilər. Ümumiyyətlə, bu, müsbət təklifdir.

Qeyd etdiyiniz kimi, bu gün biz Səməd Vurğun parkında toplaşmışıq. Bu park doğrudan da yenidən qurulub. Yeni büst qoyulub. Abadlıq işləri aparılıb. Gözəl bir kitab yaradılıb. Səməd Vurğunun ölməz əsərləri orada əks olunub. Doğrudan da bu, böyük milli sərvətimizdir. Ulu öndərin dediyi sözlər tam

həqiqətdir. Bu sözləri ondan yaxşı heç kim deyə bilməzdi. Bir daha demək istəyirəm ki, siz də xatırlatdınız, mənim prezidentlik dövrümün əvvəlində və ondan əvvəl prezident seçkiləri ərəfəsində, 2003-cü ildə demişdim ki, əgər xalq etimad göstərərsə, mən Heydər Əliyev siyasətinə sadiq olacağam. Çalışıram ki, bu illər ərzində bu siyasəti davam etdirim. Bu siyasət bu gün yaşayır, sabah da yaşayacaqdır. Biz vaxtilə ulu öndər tərəfindən göstərilən təşəbbüsləri də davam etdiririk. Məsələn, Səməd Vurğun Poeziya evi vaxtilə ulu öndər tərəfindən tikdirilmişdir. Bəlkə xatırlayırsınız, 2004-cü ildə mən Gürcüstandan qayıdarkən yolüstü Ağstafada, Qazaxda oldum, Poeziya evinə baş çəkdim və oradakı vəziyyətlə tanış oldum. Sözün düzü, bu məni heç açmadı. Çünki vaxtilə tikilmiş gözəl bina artıq yararsız vəziyyətə düşmüşdü. Bütün ekspozisiyalar köhnəlmişdi. Divarlar, demək olar ki, tökülürdü. Qabağındakı parkda bütün daşlar sındırılmışdı. Bakıya qayıdarkən dərhal göstəriş verdim və sərəncam imzaladım ki, biz bu Poeziya evini bərpa edək. Bərpa etdik də. Ondan sonra yenidən orada oldum və gördüm ki, artıq bu, dahi şairimiz Səməd Vurğunun adına layiq olan bir Poeziya evidir. Bu park da Səməd Vurğunun adını daşıyır.

Bu gün Səməd Vurğun sevgisi Azərbaycan xalqının ürəyində yaşayır. Dahi şəxsiyyət, dahi insan idi. Çox gözəl insan idi. Əlbəttə, onun ölməz əsərləri əbədi yaşayacaqdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu gün biz gənc nəslin tərbiyə olunmasından söhbət açdıq. İnsanlarımız Səməd Vurğunun, bizim digər görkəmli ədiblərimizin, şairlərimizin əsərləri əsasında tərbiyə almalıdırlar. Yəni Azərbaycan dilini onlardan öyrənməliyik. Biz buna da çox böyük diqqət göstərməliyik, xüsusilə ziyalılar. Çünki sovet dövründə Azərbaycan dilinə istər-istəməz başqa dilin kəlmələri daxil edilmişdi. Əlbəttə, o vaxt təsir var idi. İndi televizora baxanda bəzən görürəm ki, başqa təsirlər də göstərilir. Biz Azərbaycan dilinin saflığını qorumalıyıq. Bu çox ciddi məsələdir.

Azərbaycan xalqı böyük xalqdır. Dünyada 50 milyondan artıq azərbaycanlı yaşayır.

Bu azərbaycanlılar, bizim qardaşlarımız Azərbaycan dilində danışırlar. Azərbaycan dilində. Yəqin xatırlayırsınız ki, ulu öndər hakimiyyətə gələndən bir qədər sonra Azərbaycan dili ilə bağlı yeni diskussiyalar aparılırdı. Bəzi insanlar bizim dilimizin adını dəyişdirmək istəyirdilər.

Məhz ulu öndərin qətiyyəti, qətiyyətli mövqeyi və onun daxildən gələn duyğuları və inamı, bax, indiki vəziyyəti bərpa etdi. Bizim dilimiz Azərbaycan dilidir. Bizim dilimiz türk dilləri qrupuna aiddir. Bunu indi filoloqlar, dilçilər, ziyalılar yaxşı bilirlər ki, müxtəlif dil qrupları var. Roman, slavyan, türk dilləri qrupları vardır. Bütün bu dil qruplarına aid olan dillər ancaq ayrı-ayrı dillərdir. Mən yenə də deyirəm, Azərbaycan dilində danışan insanların sayı 50 milyondan çoxdur. Bizim çox zəngin dilimiz vardır. Əlbəttə ki, şairlər bunu hamıdan yaxşı bilirlər. Yəni dilimiz o qədər zəngindir ki, biz indi başqa türkdilli dövlətlərə gedərkən bir çox hallarda onların nə dediyini anlayırıq, başa düşürük. Onlar da bizi başa düşürlər. Azərbaycan dili sinonimlərlə zəngindir. Bir məfhumun bir neçə sözlə ifadəsi vardır. Bu, dilimizin zənginliyidir. Ona görə də biz Azərbaycan dilini qorumalıyıq. Mən bu barədə dəfələrlə demişəm. Mən son dəfə Milli Elmlər Akademiyasının illik iclasında da demişəm. Digər elmi istiqamətlərlə, elmin inkişafı ilə bağlı digər məsələlərlə yanaşı, biz ilk növbədə, bu məsələyə diqqət verməliyik. Bizim dilimizə kənardan təsir artır və ola bilər ki, artacaqdır. Bəzi hallarda bu, təbii, bəzi hallarda süni xarakter daşıyır. Biz dilimizi qorumalıyıq. Kim bunu qorumalıdır? İlk növbədə ziyalılar, ədiblər, şairlər, eyni zamanda, nüfuzlu insanlar, söz sahibləri, bizim televiziya kanalları. Mən də baxıram bizim kanallara. Başqa qüsurlarla yanaşı, bax, bu məni çox incidir. Bizim dilimizə aid olmayan kəlmələr işlədilir. Nə üçün?! Axı bizim eyni məna daşıyan bir neçə kəlməmiz vardır. Sən Azərbaycan sözündən istifadə et. Başqa dili bilmək lazımdır. Mən hesab edirəm ki, bizim vətən-

daşlarımız nə qədər çox dil bilsə, o qədər də yaxşıdır. Xüsusilə gənclərimiz. Həm rus dilini, ingilis dilini, həm türk dilini bilməlidirlər. Ancaq biz dilimizi qorumalıyıq. Ona görə ki, bu çox ciddi məsələdir.

Mən müvafiq göstərişlər vermişəm. Yəqin siz də bilirsiniz ki, keçmişdə də olub. Azərbaycan dilinin qorunması ilə bağlı, dilimizin saflığı ilə bağlı müvafiq göstərişlər verilmişdir. Bəzən bunlar mətbuatda da dərc edilib, bəzi şifahi göstərişlər də olmuşdur. Hesab edirəm ki, burada biz hamımız, xüsusilə mətbuata çıxışı olan insanlar daha da diqqətli olmalıyıq. Ziyalılar öz sözünü deməlidirlər. Nəinki öz əsərləri, şeirləri ilə, həm də biz bir ziyalı kimi, Azərbaycan dilini qorumalıyıq. Hesab edirəm ki, bu, dövlət işi olmalıdır. Belə də olacaqdır. Azərbaycan dilinin nə qədər zəngin dil olduğunu həm bizim insanlara, həm türk dünyasına, həm də bütün dünyaya göstərməliyik.

**C ı ğ a t e l Q a s ı m o v a** *(şairə):* Biz şairlər ilhamı gözəllikdən alırıq. Sizin xüsusi qayğınız, xüsusi göstərişiniz sayəsində ölkəmizin bütün bölgələri kimi, bizim Ağstafamız da inanılmaz dərəcədə gözəlləşmiş və gözəlləşməkdədir. Bu da biz şairlərin, yaradıcı insanların daha gözəl yazıb-yaratmağına böyük təkan verir.

Siz bizi mənən ruhlandırmaqla yanaşı, həm də gözəl yazıb-yaratmağımıza böyük şərait yaradırsınız. Təkcə bunu demək kifayətdir ki, Qazax mahalının, Ağstafanın, Azərbaycanın deyil, bütün türk dünyasının şairi olan bizim dahi Səməd Vurğunun adını daşıyan bu gözəl parkda Sizin göstərişinizlə yeni quruculuq işləri aparılmışdır. Bu parkda yeni fəvvarələr, Səməd Vurğunun yeni büstü, indi əyləşdiyimiz Poeziya evi, Vurğun kafesi və açıq etiraf etsək, ölkəmizin heç bir yerində olmayan Kitab abidəsi qurulmuşdur. Bu da ağstafalıları çox sevindirir və biz yazıçıları daha gözəl yazıb-yaratmağa ruhlandırır.

Cənab Prezident, bizim ulu öndərimiz «keçmişi qoru, gələcəyi qur» – demişdir. Mən bir azərbaycanlı kimi, keçmişini qoruyan və gələcəyini milli-mənəvi dəyərlər üzərində quran

insanlar adından Sizə və Sizinlə çiyin-çiyinə çalışan Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya dərin təşəkkürümü bildirirəm. Siz layiq olanı layiqincə qiymətləndirir və onun qayğısına qalırsınız. Azərbaycan gəlininin – bəli, mən Mehriban xanıma Azərbaycan gəlini deyirəm, çünki Heydər Əliyev elə Azərbaycan deməkdir – bizim ana laylamız olan muğamımızı, Dədə Qorqud yadigarı olan sazımızı dünyaya tanıtması bütün azərbaycanlılar kimi, biz ağstafalıları da çox sevindirir.

Cənab Prezident, anadan rəhbər doğulan ulu öndərimiz keçmişi yaxşı bilir, gələcəyi gözəl görür və deyirdi: «Azərbaycan dünyaya günəş kimi doğacaqdır!» Mən Ağstafanın bir şair qızı olaraq Sizin şeirə, sənətə verdiyiniz qiymətdən ürəklənib istəyirəm ki, ulu öndərin bu kəlamını bir bənd şeirlə ifadə edim. Əlbəttə, Sizin icazənizlə.

**İlham Əliyev:** Buyurun.

**Cığatel Qasımova**:

Yurdum Odlar yurdudur, rəmzidi altun buta,
Butaya kəc baxanı, butanın ahı tuta,
Görürdü gələcəyi, deyirdi Heydər ata:
«Mən azərbaycanlıyam, başım qar, sinəm ocaq,
Azərbaycan dünyaya Günəş kimi doğacaq».

**Nizami Cəfərov** (*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*): Cənab Prezident, Ağstafa şairləri Qazax şairlərindən çox güclüdür. Bir dəfə hesabladıq, Qazaxda Səməd Vurğundur, amma Hüseyn Arif, Nəriman Həsənzadə, Vidadi Babanlı, İsa Hüseynov – hamısı ağstafalıdırlar.

**İlham Əliyev:** İndi Qazax şairinin buna cavabı olacaq?!

**Barat Vüsal:** Amma Ağstafa da Qazax mahalıdır. Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Mehdi Hüseyn, Vaqif, Vidadi...

**Nizami Cəfərov:** Onlar keçmişin şairləridir.

**İlham Əliyev:** Əlbəttə, sağlam rəqabət olmalıdır.

**Barat Vüsal:** Cənab Prezident, icazə versəydiniz, yəni elə söhbət gəlib yerinə çıxdı. Nizami müəllim, yadınızda olar,

1991-ci ildə yazıçıların qurultayında mən Heydər Əliyevin dərin yaddaşına bir daha heyran oldum. Heydər Əliyev Moskvadan yeni gəlmişdi. Qurultayda fasilə zamanı bir nəfər dedi ki, Siz nəyə görə Moskvadan qayıtdınız. Cavab konkret idi: «İstidir hər quşun doğma yuvası». Oradakı ya alimlərdən, ya da ki, şairlərdən biri dedi: «Bu, Vaqifin sözüdür». Ulu öndər cavab verdi: Xeyr, bu, Səməd Vurğunun «Vaqif» dramında Vidadinin sözüdür».

**N i z a m i   C ə f ə r o v:** Ulu öndərimiz bir dəfə Səməd Vurğunu çox qəribə müdafiə etdi. Çünki Səməd Vurğunun kommunizm ruhunda şeirləri çoxdur. Bu söhbətlər olanda dedi ki, heç kim Səməd Vurğunun əvəzindən üzr istəməsin. Müdrik söz idi. Yəni ki, dövr ayrı şeydir və heç kimi günahkar çıxarmaq lazım deyil.

**İ l h a m   Ə l i y e v:** Bilirəm, bu barədə mənim xəbərim var, onu eşitmişəm. Sonra ailəmizdə də bu barədə söhbət olubdur. Onu o vaxt çox dərindən incitmişdi ki, belə cəhdlər olub və o buna çox dərindən kədərlənmişdi.

**S a m i r   H ü s e y n o v** *(Qazax şəhər 2 saylı orta məktəbin müəllimi, «İlin ən yaxşı müəllimi» müsabiqəsinin qalibi):* Gənclərin formalaşmasında biz müəllimlərin də böyük rolunu, xidmətini əvəzsiz hesab edirəm. Sizin biz müəllimlərə, ziyalılara böyük diqqət və qayğınız və 2008-ci ildən «İlin ən yaxşı müəllimi», «İlin ən yaxşı məktəbi» müsabiqəsinin qaliblərinin sərəncamlarınızla mükafatlandırılması biz müəllimlərə daha da böyük ruh verir. Biz gələcək nəslin təlim-tərbiyəsində, onun formalaşmasında əlimizdən gələni edəcək, var gücümüzlə çalışacaq, gələcəkdə qloballaşan dünyada ölkəmizi təmsil edəcək, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında bilik və bacarığımızı ortaya qoyacağıq.

Cənab Prezident, mən rayonumuzun bütün ziyalıları adından Sizə cansağlığı, bizə olan bu diqqət və qayğınız qarşısında minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, biz ziyalılar gənc nəslin tərbiyəsində və təhsil almasında əlimizdən gələni edəcəyik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Əminəm ki, Ağstafa, Qazax ziyalıları həmişə olduğu kimi, ölkəmizin güclənməsi işində öz səylərini göstərəcəklər. Bizim ümumi işimiz vardır. Ümumi işimiz ondan ibarətdir ki, ölkəmizi daha da gözəl, abad, firavan görmək, Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirmək, daxildəki vəziyyəti daim sabit saxlamaqdır. Mən əminəm ki, biz gələcəkdə bundan böyük hədəflərə çatacağıq. Biz həmişə qarşıya bəlkə də əlçatmaz kimi görünən çox böyük hədəfləri qoyuruq və o hədəflərə çatırıq. Əminəm ki, biz həyatda bütün hədəflərimizə çatacağıq və Azərbaycan dünya miqyasında daha da qüdrətli dövlətə çevriləcəkdir.

**Ş a h i n ə H ə s ə n z a d ə** *(gənc yazıçı)*: Möhtərəm cənab Prezident, mən də Ağstafa gəncləri adından Sizi salamlayıram, doğma Ağstafamıza «Xoş gəlmisiniz!» – deyirəm. Sizin rəhbərliyiniz altında, xüsusən ulu öndərimiz Heydər Əliyevin ölməz idealları sayəsində Azərbaycanımız bu gün inkişafın ən yüksək mərhələsini yaşayır. Bu inkişafın nəticəsidir ki, Ağstafa rayonunda da geniş abadlıq-quruculuq işləri həyata keçirilir. Xüsusən inşa edilib bu gün istifadəyə verilən Gənclər Mərkəzi Ağstafa gənclərinin intellektual səviyyəsinin yüksəldilməsinə, yaradıcılıq potensialının artmasına xidmət göstərəcəkdir. Buna inanırıq. Biz Ağstafa gənclərinə bu Mərkəzi bəxş etdiyiniz üçün Sizə bütün Ağstafa gəncləri adından dərin təşəkkürümüzü bildiririk, «Çox sağ olun» – deyirik.

Mən istərdim ki, bir şeyi də qeyd edim. Yoldaşlar da qeyd etdilər ki, Siz dahi mütəfəkkirlərimizə, yazıçı və şairlərimizə həmişə qayğı-diqqət göstərmisiniz. Bunun ən bariz nəticəsidir ki, dahi mütəfəkkirlərimizin, yazıçı və şairlərimizin kiril əlifbası ilə olan kitablarının kütləvi surətdə latın qrafikası ilə nəşrinə sərəncam verdiniz və o kitablar nəşr olundu. Həmin kitablar respublika kitabxanalarına hədiyyə olaraq verildi. Bu, Azərbaycanın yazıçı və şairlərinə, o cümlədən Azərbaycan oxucusuna göstərilən ən böyük ehtiramdır. Mən gənc yazıçı olduğum üçün Sizin gənc yazıçılara xüsusi diqqətinizi də vurğulamaq istəyirəm. Xüsusən gənc yazıçılara, gənc şairlərə

Prezident təqaüdünün verilməsi biz gənc yazıçıları çox ruhlandırır. Buna görə də çox sağ olun, bir daha minnətdaram, var olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun ki, bu məsələyə toxundunuz. Doğrudan da çox ciddi məsələdir. Mən xatırlayıram, o vaxt – prezident seçkiləri ərəfəsində kiril əlifbasında dərc edilmiş kitabları latın əlifbasında yenidən dərc etmək üçün mənə ziyalılar tərəfindən müraciət olmuşdu. Ziyalılarla görüşdə Yazıçılar Birliyinin sədri Anar bu məsələni qaldırdı. Çünki doğrudan da çox böyük problem yaranmışdı. Bizim məktəblərdə oxuyan uşaqlar latın əlifbasında dərs alırlar, amma bütün kitablar kiril əlifbasında olduğundan oxuya bilmirdilər. Çox qısa müddətdə bütün kitabları – həm Azərbaycan müəlliflərinin, həm də dünya müəlliflərinin kitablarını biz latın qrafikasında çap etdirdik və bu problem artıq öz həllini tapmışdır. Yəni bu, ziyalıların təşəbbüsü idi və mən bu təşəbbüsü dəstəklədim. Doğrudan da çox qısa müddət ərzində biz buna nail olduq. Bəziləri inanmırdı ki, biz buna nail olacağıq. O vaxt bizim dövlət büdcəmiz o qədər də böyük deyildi, indikindən 20 dəfə az idi. O vaxt bu məsələyə diqqət göstərmək və bu məqsədlər üçün pul ayırmaq çox çətin bir məsələ idi.

Bir neçə ay ərzində müzakirə edildi, nə qədər vəsait ayrılacaq, necə ayrılacaq?! Mən o vaxt dedim ki, bir halda, bu lazımdır və bir halda, mən söz vermişəm, mütləq biz buna nail olacağıq.

İkinci qaldırdığınız gənclər evlərinin, gənclər mərkəzlərinin tikintisi məsələsi də Azərbaycanda çox geniş vüsət alıb. Bu da çox böyük layihədir. Bildiyiniz kimi, keçən il «Azərbaycan gəncliyi» Dövlət Proqramı qəbul edilmişdir. O proqramda hər bir yerdə gənclər evlərinin tikintisi nəzərdə tutulur, artıq Gənclər Fondu təsis edilib. Prezidentin ehtiyat fondundan ilkin ödəmə təşkil edilib, 5 milyon manat ayrılıb və əminəm ki, hər bir bölgədə bu vəsaitdən istifadə edəcəklər. Əlbəttə ki, sonra biz bu məbləği artıracağıq.

Bu gün həm Qazaxda, həm Ağstafada gənclər mərkəzləri açılıbdır. Çox gözəl mərkəzlərdir. Həm istirahət etmək üçün internet-klub, həm də karaoke vardır. Yəni gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl şərait yaradılıb.

Gənclər bizim gələcəyimizdir. Gələcəkdə bizim ölkəmizi gənclər idarə edəcəklər. Ona görə, bir daha qayıdıram söhbətimizin əvvəlinə, gənclər həm bilikli, savadlı, həm də vətənpərvər olmalıdırlar. Şadam ki, bizim gənclər belədirlər.

## Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Aprelin 12-də prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, YAP Ağstafa rayon təşkilatının yeni inzibati binası şəhərin Heydər Əliyev prospektində inşa edilmişdir. Təşkilatın ikimərtəbəli binasının ümumi sahəsi 450 kvadratmetrdir. Binanın fasadı aqlay daşı ilə klassik üslubda üzlənmiş, milli ornamentli naxışlarla bəzədilmişdir. Binanın birinci mərtəbəsində partiyanın yaradıcısı ulu öndər Heydər Əliyevin və prezident, YAP-ın sədri İlham Əliyevin fəaliyyətlərini, Ağstafa rayonuna səfərlərini əks etdirən fotoguşələr yaradılmışdır.*

*Bildirildi ki, binanın ikinci mərtəbəsində müxtəlif tədbirlərin keçirilməsi üçün 50 yerlik konfrans zalı yaradılmışdır. Binanın inzibati bölməsində işçilərin səmərəli fəaliyyəti üçün geniş imkanlar vardır. Burada İKT-nin ən son nailiyyətlərindən istifadə edilmişdir.*

*YAP Ağstafa rayon təşkilatının yeni inzibati binasında yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## «Ağstafa Aqroservis» MMC-nin açılışı mərasimi

*Aprelin 12-də Azərbaycan prezidenti İlham Əliyev «Ağstafa Aqroservis» MMC-nin açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, «Ağstafa Aqroservis» MMC-nin istifadəyə verilməsi rayonda aqrotexniki xidmətlərin müasir standartlara uyğun qurulmasına, məhsuldarlığın artırılması və torpaq ehtiyatlarından daha səmərəli istifadə edilməsinə imkan yaradacaqdır. Eyni zamanda, müəssisə kompleks aqrotexniki xidmətlər, o cümlədən əkilməsi məqsədəuyğun olan bitki növü və sortlarının, istifadəsi zəruri gübrə və digər preparatların müəyyənləşdirilməsi, düzgün əkin metodunun seçilməsi, şum, səpin və suvarma işlərinin aparılması, məhsulun yığımı və aqronom xidmətləri göstərməklə fermerlər və torpaq sahibləri üçün «vahid pəncərə» rolunu oynayacaqdır. Müəssisə tərəfindən əkinçilik təsərrüfatlarına keyfiyyətli və yüksək məhsuldarlığı təmin edən toxum, gübrə və kimyəvi preparatlar təklif ediləcəkdir.*

*Diqqətə çatdırıldı ki, cəmiyyətin inzibati bölməsi də yüksək tələblər səviyyəsində qurulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Ağstafa rayonuna səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılmışdır. İnzibati bölmədə iki bufet, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı, laboratoriya fəaliyyət göstərir.*

*Bildirildi ki, ümumi sahəsi bir hektardan çox olan «Ağstafa Aqroservis» MMC-nin tikintisinə 2010-cu ilin iyununda başlanılmışdır. Müəssisəyə Almaniyanın aparıcı şirkətlərinin istehsalı olan və müasir standartlara cavab verən texnika və avadanlıqlar alınmışdır. Burada ümumilikdə 75 traktor, qoşqu və digər texnika vardır. Müəssisə 14 min hektar sahəyə xidmət göstərmək gücünə malikdir.*

*Qeyd olundu ki, bu cür kənd təsərrüfatı texnikaları Cənubi Qafqazda yalnız «Ağstafa Aqroservis» MMC-də vardır. Müasir tələblər səviyyəsində hazırlanan bu texnikaların tətbiqi ilə daha az yanacaq və vaxt sərf etməklə yüksək iqtisadi səmərə əldə etmək mümkündür. Buradakı texnikanın əksəriyyəti eyni zamanda 4-5 əməliyyat yerinə yetirə bilir. Müəssisənin ixtiyarında üç mobil*

servis maşını da vardır. Almaniyada istehsal olunan bu avtomobillər istənilən yerdə texnikaya xidmət göstərmək üçün kompüter və digər zəruri avadanlıqlarla təchiz edilmişdir.

Dövlətimizin başçısı müəssisənin anbarı ilə də tanış oldu. Məlumat verildi ki, burada fermerlərə kimyəvi və orqanik maddələr təklif olunur. Anbarda boytənzimləyici, torpaqların xüsusiyyətlərinə uyğun gübrələr, alaq otlarına qarşı maddələr, həmçinin yüksək keyfiyyətli buğda və arpa toxumları vardır. Fermerlərə müəssisənin mütəxəssisləri tərəfindən aqrar işlərlə bağlı məsləhətlər verilir və onların hazır məhsulları alınır.

Prezident İlham Əliyev «Ağstafa Aqroservis» MMC-nin strukturu, müəssisənin göstərdiyi xidmətlər və aqrotexniki tədbirlərin qiymət cədvəli ilə tanış oldu. Bildirildi ki, 30 nəfərin işlə təmin olunduğu müəssisə yalnız Ağstafa rayonunda deyil, Qazax və Tovuz ərazisində də aqroservis xidmətləri göstərməyə qadirdir.

Dövlətimizin başçısına gələcəkdə «Ağstafa Aqroservis» MMC-nin tərkibində yaradılacaq «Taxıl anbarı, emalı və un istehsalı» bölməsi barədə də məlumat verildi. Burada aqrar laboratoriyanın yaradılması, ümumi saxlama gücü 30 min ton olan üç taxıl və 6 min tonluq üç toxum anbarının tikintisi nəzərdə tutulmuşdur. Bundan başqa, ümumi sahəsi 6 min hektar olan taxılçılıq təsərrüfatının yaradılması qarşıya məqsəd qoyulmuşdur. Avadanlığı Almaniya istehsalı olan dəyirmanın və saatda 10 ton istehsal gücünə malik çörək-qənnadı zavodunun tikilməsi planlaşdırılır. Müəssisədə 28 nəfər işlə təmin ediləcəkdir.

Prezident İlham Əliyev Ağstafa rayonunun Böyük Kəsik qəsəbəsində inşa ediləcək «Ağstafa Süd» ASC-nin layihəsi ilə də tanış oldu.

Qeyd edildi ki, dünyanın ən müasir aqrar texnikalarından olan bu aqreqatın işçi eni 6 metr, gavahının cərgələri 48, toxum bunkerinin həcmi 4,5 tondur. Cənubi Qafqazda bənzəri olmayan bu avadanlıq eyni zamanda 5 əməliyyat həyata keçirə bilir.

*«Ağstafa Süd» ASC-nin maketi ilə tanış olan dövlətimizin başçısına bildirildi ki, buradakı süd emalı zavodunda istehsal ediləcək çoxçeşidli məhsullar həm daxili bazara, həm də Avropa bazarlarına çıxarılacaqdır. Bütövlükdə regionun iqtisadi inkişafına töhfə verəcək müəssisədə ümumilikdə 114 nəfər işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, layihə üç mərhələdə reallaşdırılacaqdır. Artıq birinci mərhələ başa çatmışdır. İkinci mərhələyə isə avqustda start veriləcəkdir.*

*Müəssisənin fəaliyyəti və gələcək layihələrlə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Poylu, Xətai, Yenigün və Aşağı Göyçəli kəndlərini birləşdirən avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də Ağstafa rayonuna səfəri çərçivəsində Poylu, Xətai, Yenigün və Aşağı Göyçəli kəndlərini birləşdirən avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə yol ilə bağlı stendlərə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ümumi uzunluğu 7,5 kilometr olan yolun qısa müddətdə müasir tələblər səviyyəsində qurulması üçün bütün qüvvələr səfərbər olunmuşdur. Yolun əhatə etdiyi kəndlərdə 11 mindən çox əhali yaşayır. Yolun istifadəyə verilməsi onlar üçün həm rahatlıq, həm də təhlükəsizlik baxımından mühüm əhəmiyyət daşıyır. Burada tikinti işləri zamanı abadlıq tədbirlərinə də xüsusi diqqət yetirilmiş, yolboyu görkəmsiz tikililər təmir olunmuş, yaşıllıq zolaqları salınmışdır.*

*Prezident İlham Əliyevə gələcək yol layihələri haqqında məlumat verildi.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Poylu, Xətai, Yenigün və Aşağı Göyçəli kəndlərinin sakinləri ilə görüşdü. Sakinlər*

*göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.*

**İ l h a m  Ə l i y e v**: Mən çox şadam ki, burada gözəl yol çəkilib. Yolun əvvəlki vəziyyəti şəkillərdə göstərilir. Çox bərbad vəziyyətdə idi. Yəqin ki, əziyyət çəkmisiniz. Amma indi çox rahat, ən müasir standartlara cavab verən yoldur. Bir neçə kəndi birləşdirir. Bu kəndlərdə 11 min nəfər əhali yaşayır. Çox yaxşı yoldur.

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident. Allah Sizi qorusun. Sizə minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** İndi rayon mərkəzinə getmək üçün gözəl şərait vardır. Yeni bir proqram icra edilir. Bütün bölgələrdə, bütün rayonlarda kənd yolları tikilir. Təkcə bu ilin birinci rübündə Prezidentin ehtiyat fondundan bir neçə rayonda kənd yollarının tikintisi üçün vəsait ayrılmışdır. Buraya vəsait daha əvvəl ayrılmışdır. Bu yol gözəl tikilib. İndi Ağstafa rayonunda 58 kilometrlik başqa yolun tikintisi də gedir. Ağstafada əksər kənd yolları abadlaşır. Bizim kəndlərimizdə əksər yollar torpaq yollardır. Siz bunu yaxşı bilirsiniz, qar, yağış yağanda çətinlik yaranır. Artıq sizin ən yüksək standartlara cavab verən rahat yolunuz vardır.

# TOVUZ RAYONUNA SƏFƏR

*12 aprel 2012-ci il*

*Aprelin 12-də Azərbaycan prezidenti İlham Əliyev respublikamızın şimal-qərb bölgəsinə səfəri çərçivəsində Tovuz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Tovuz şəhərindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov məlumat verdi ki, Heydər Əliyev adına Mədəniyyət və istirahət parkı şəhərin sakinlərinin və qonaqlarının sevimli istirahət mərkəzidir.*

*Sonra dövlətimizin başçısı rayon ərazisində aparılan tikinti-abadlıq işlərini, Tovuzun xəritəsini, Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolunun layihəsini və tikintisi davam etdirilən obyektləri əks etdirən stendlərlə tanış oldu.*

*Bildirildi ki, Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolunun yenidən qurulmasına ötən il başlanılmışdır. Artıq bu yolun 13 kilometrlik hissəsinə asfalt-beton örtük döşənmişdir.*

## «Ayan Palace» otelinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də Tovuzda «Ayan Palace» otelinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə bildirildi ki, avanqard arxitektura üslubunda inşa edilmiş binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunub. Oteldə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılıb, 120 nəfərlik restoran fəaliyyət göstərir. Otelə bitişik 700 nəfərlik salon da inşa olunub.*

*Salonla tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin,*

*konfransların keçirilməsi üçün lazımi şərait yaradılıb. Bu salonda, həmçinin müxtəlif ziyafətlərin, təqdimat mərasimlərinin keçirilməsi də mümkündür. Salon ən müasir səs və işıq sistemləri ilə təchiz olunub. Oteldə günün istənilən vaxtında müştərilərə xidmət göstərən 70 nəfərlik bar, müxtəlif ofis və mağazalar da fəaliyyət göstərəcəkdir.*

*Diqqətə çatdırıldı ki, «Ayan Palace» otelində 65 nömrə vardır. Nömrələr otelin 1–5-ci mərtəbələrində yerləşir və ən yüksək standartlara cavab verir. Prezident nömrəsi isə üçüncü mərtəbədə yerləşir.*

*Otaqlarla tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, burada dünya otel biznesində mövcud olan ən yüksək xidmət göstəriləcəkdir. Otaqlarda qonaqların istirahəti üçün maksimum şərait yaradılıb. Bütün otaqlar rəqəmli seyf, mini-bar, havalandırma sistemləri, peyk televiziya antenası, beynəlxalq telefon xətti, kabelsiz internetlə təchiz edilib. Qonaqlar otaqlardan Tovuz rayonunun gözəl mənzərəsini də seyr edə biləcəklər.*

*Məlumat verildi ki, hazırda oteldə 50 nəfər işləyir. İşçilərin 90 faizi rayon sakinidir. Onlara xarici mütəxəssislər tərəfinndən kurslar keçilmişdir. Yaxın aylarda işçilərin sayının 110-a çatdırılması nəzərdə tutulub. «Ayan Palace» otelinin istifadəyə verilməsi ölkəmizin şimal-qərb bölgəsinə gələn turistlərin sayına da müsbət təsir göstərəcəkdir.*

*Otel ilə yaxından tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## Göytəpə neolit dövrü arxeoloji abidəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 12-də Tovuz rayonu ərazisində Göytəpə neolit dövrü arxeoloji abidəsi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, qədim Göytəpə arxeoloji abidəsi Azərbaycan ərazisində və Cənubi Qafqazda neolit dövrünün erkən mərhələsinə aid yaşayış məskənlərinin ən*

*böyüyüdür. Bu yaşayış məskəni 2 hektardan çox ərazini əhatə edir.*

*Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası 2006-cı ildə Fransa mütəxəssisləri ilə birlikdə Göytəpə qədim yaşayış məskənində kəşfiyyat müşahidələri apararaq, təpənin topoplanını çəkmiş, yerüstü materiallar toplamışlar. Abidənin dəqiq tarixinin təyin edilməsi üçün üst qatdan götürülən kömür qalıqlarının üzərində Fransanın Milli Araşdırmalar Mərkəzində radiokarbon analizi aparılmışdır. Analizin nəticəsinə əsasən, Göytəpə yaşayış məskəninin bizim eradan əvvəl VI minilliyə aid olduğu müəyyən edilmişdir. Bu da onu deməyə əsas verir ki, Tovuzun 8 min illik şəhər mədəniyyəti tarixi vardır.*

*Prezident İlham Əliyev Göytəpə neolit dövrü arxeoloji abidəsinin ərazisini gəzdi.*

*Məlumat verildi ki, abidənin qədimliyi dünyanın bir çox nüfuzlu elm adamlarının və mütəxəssislərin ciddi marağına səbəb olmuşdur. 2008-ci ildən başlayaraq hər il Fransa Milli Araşdırmalar Mərkəzinin, Tokio Universitetinin əməkdaşlarının iştirakı ilə stasionar arxeoloji qazıntılar aparılmışdır. Göytəpə yaşayış yeri Azərbaycanda və Qafqazın cənubunda neolit dövründə baş verən inkişaf prosesinin əsas xüsusiyyətlərinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Burada aparılan arxeoloji qazıntı işləri neolit dövrünə aid tikinti mədəniyyətinin, Kür çayının orta axarı boyunca erkən neolit həyat tərzinin öyrənilməsinə imkan yaratmışdır.*

*Sonra dövlətimizin başçısı yaşayış məskənində aşkar edilən daş və sümük alətlərə baxdı. Bildirildi ki, aşkar olunan maddi-mədəniyyət nümunələrinin elmi təhlili Tovuz ərazisinin Qafqazın ən qədim yaşayış məskəni olduğunu sübut edir. Dünya arxeologiyasında Göytəpə yaşayış məskəni tipli neolit dövrünə aid arxeoloji abidələr ilkin sivilizasiyanın başlanğıc nöqtəsi, proto-şəhər, yəni insanların yığcam yaşayış tərzinin bərqərar olduğu ilkin şəhər mədəniyyətinin formalaşması dövrü kimi dəyərləndirilir.*

*Daha sonra prezident İlham Əliyev Göytəpə qədim yaşayış məskənində bu günə qədər görülmüş işlər və əldə olunmuş nəticələri, eləcə də aşkar olunmuş tikililərin bərpası, abidənin açıq səma altında muzeyə – arxeoparka çevrilməsi istiqamətində təklifləri əks etdirən stendlərə baxdı. Qeyd olundu ki, 2008–2011-ci illərdə Göytəpədə aparılan qazıntılar qədim yaşayış yerinin neolit dövrünə aid olan mükəmməl memarlığını üzə çıxarmışdır. Tədqiqatçıların fikirlərincə, Göytəpədə aşkar olunan tikililərin möhkəmliyinə Azərbaycanın heç bir neolit dövrü abidələrində rast gəlinməmişdir. Dəyərli maddi-mədəniyyət nümunələri ilə zəngin olan abidənin 2009-cu ildə Tokio Universitetində, 2010-cu ildə Londonda fəaliyyət göstərən «Britaniya Muzeyi»ndə, həmin ildə Parisdə «Kollec-de-Frans» təhsil müəssisəsində, 2011-ci ildə Rusiya Elmlər Akademiyasının Arxeologiya İnstitutunda və Gürcüstanın Milli Tarix Muzeyində təqdimatı olmuşdur. Ötən ilin avqustunda Rusiya, Ukrayna, Moldova, Gürcüstan, Özbəkistan və Qırğızıstan nümayəndələrinin iştirakı ilə Azərbaycanda ilk dəfə olaraq «Cənubi Qafqazın qədim mədəniyyətləri» mövzusunda beynəlxalq layihə çərçivəsində MDB-nin gənc mütəxəssislərindən ibarət «Gənc arxeoloqların yay məktəbi» tədbiri Göytəpə yaşayış məskəni ərazisində keçirilmişdir.*

*Məlumat verildi ki, abidə rayonun turizm marşrutuna daxil edilmişdir. Ölkəmizdə «2010–2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq, cari ildə abidənin ətrafının abadlaşdırılması, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant-layihəsinə uyğun olaraq əsaslı şəkildə elmi-tədqiqat işlərinin davam etdirilməsi və ərazidə arxeoparkın yaradılması nəzərdə tutulmuşdur.*

*Yaşayış məskəni ilə tanışlıqdan sonra dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

**AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA**

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluqlarını, dil və mədəniyyətlərini qoruyub saxlayırlar. Dərin tarixi kökləri olan tolerantlıq və multikulturalizm ənənələri müasir cəmiyyətimizin başlıca ictimai dəyərlərindəndir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün milli azlıqları, o cümlədən pravoslav xristianlar millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir, vətəndaş cəmiyyəti quruculuğunda fəallıq nümayiş etdirirlər.

Pasxa bayramı əmin-amanlığı, həmrəyliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2012-ci il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə öz inkişafını davam etdirəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2012-ci il*

## NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT II BEATRİKSƏ

Ülyahəzrət!

Milli bayramınız – Kraliça Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Niderland münasibətlərinin inkişafı, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin genişlənməsi daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2012-ci il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında münasibətlərin inkişafı dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2012-ci il*

## «AİTF–2012» XI AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*13 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Bakı Sərgi Mərkəzində «AİTF–2012» XI Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə tanış olmuşdur.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, 62 turizm istiqamətini təqdim edən «AİTF–2012» sərgisinə dünyanın 32 ölkəsindən 201 şirkət qatılmışdır. Ölkələrin və turizm istiqamətlərinin müxtəlifliyinə görə bu, rekord göstəricidir.*

*Bildirildi ki, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, «İTE Group plc» və onun tərəfdaşı «İteca Caspian» MMC şirkətlərinin təşkilatçılığı ilə keçirilən sərgidə tərəfdaş ölkə kimi Türkiyə, rəsmi hava yolları qismində isə «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti çıxış edir. Builki sərgi «Bütün dünya–bir sərgi» devizi altında keçirilir.*

*Prezident İlham Əliyev sərginin pavilyonları ilə yaxından tanış oldu.*

*Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, milli motivlərlə zəngin olan bu stend Azərbaycan xalqının qonaqpərvərliyini əks etdirir. Burada genişləndirilmiş «GoMap.az» elektron onlayn naviqatorunun rəsmi təqdimatı da keçirildi. Onlayn naviqatora ilk dəfə Gürcüstanın da elektron xəritəsi daxil edilmişdir. Bu xəritədə Azərbaycan və Gürcüstan ərazisində mədəni, tarixi obyektlərə rahat şəkildə gedib çıxmağa imkan verən məlumatlar vardır.*

Qeyd edildi ki, Dünya Turizm Təşkilatının sərgidə ayrıca stendlə çıxış etməsi bu qurumla Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin mühüm göstəricilərindən biridir.

Prezident İlham Əliyev «Gilan» turizm şirkətinin stendi ilə də tanış oldu. Bildirildi ki, bu şirkət hazırda Azərbaycanın iqtisadi inkişafına öz töhfəsini verən «Gilan» MMC-yə məxsusdur.

Diqqətə çatdırıldı ki, «Four seasons Hotel Baku»nun stendi bulvarın yaxınlığında yerləşən bu otelin imkanlarını nümayiş etdirir. İnşası davam etdirilən bu otel Bakının tarixi zənginliyi və müasirliyi ilə həmahəngdir.

Azərbaycan prezidenti sərgidə Dubay stendinə də baxdı. Bu stenddə Dubay Əmirliyində turizm sektorunun planlaşdırılması, idarə olunması və inkişafı üzrə məlumatlar əksini tapmışdır. Dövlətimizin başçısına Dubayda Azərbaycan haqqında ingilis və ərəb dillərində nəşr edilən jurnal təqdim edildi. Bu jurnalda da Azərbaycanın turizm imkanları haqqında məlumatlar əksini tapmışdır.

Məlumat verildi ki, sərgidə təmsil olunan «Çex turizm» şirkəti Çexiyada jurnalistlər, səyahət agentlikləri və bu sahənin digər mütəxəssisləri ilə təmas quraraq onlar üçün tanışlıq səfərləri təşkil edir.

Dövlətimizin başçısı Hindistana məxsus stendə də baxdı. Fərqli adət-ənənələrin, vəhşi təbiət və ekosistemlərin heyran-edici kaleydoskoplarının yerləşdiyi Hindistan turistləri ən çox cəlb edən ölkələrdəndir.

Diqqətə çatdırıldı ki, builki sərginin daha bir özəl xüsusiyyəti ondan ibarətdir ki, ekspozisiyanın bir hissəsi sağlamlıq mərkəzləri və sanatoriyalarda istirahətə həsr olunmuşdur. Rusiyanın Stavropol diyarının stendində müxtəlif xəstəliklər sahəsində sanatoriya müalicəsi üzrə özünəməxsus metodlarla məşhur olan Yessentuki, Jeleznovodsk, Kislovodsk, Mineralnıye Vodı kimi kurort-şəhərlərin təklifləri ilə tanış olmaq mümkündür.

Gürcüstana məxsus stendlə tanışlıq zamanı bildirildi ki, bu dövlətin Milli Turizm Administrasiyasının məqsədi ölkəni dünya miqyasında turizm məkanı kimi təbliğ etməkdir.

Sərgidə müalicə turizmi istiqamətində fəaliyyət göstərən bir sıra debütantlar da təmsil olunur. Onların arasında Litvanın Milli SPA Assosiasiyası da vardır. Burada prezident İlham Əliyevə Litvadakı müalicə kurortları, müalicəvi palçıqlar haqqında məlumat verildi.

Sloveniya stendinə baxan dövlətimizin başçısının diqqətinə bu ölkənin kurortları və orada göstərilən xidmətlər barədə məlumat çatdırıldı. Bu stenddə termik müalicəvi SPA və sağlamlıq kurortları, dəniz sahilində məzuniyyət, xizək mərkəzləri və digər qış kurortları haqqında informasiyalar əksini tapmışdır.

Bildirildi ki, «AİTF–2012» sərgisində qonaq ölkə qismində Bolqarıstan iştirak edir. Bu ölkəyə məxsus stenddə Bolqarıstanda kurort və müalicəvi istirahətin bütün xüsusiyyətlərindən bəhs edilir.

Məlumat verildi ki, sərgidə dünyanın aparıcı aviaşirkətləri də təmsil olunur. Regionun ən böyük aviaşirkəti olan «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti də burada xidmətlərini təqdim edir. Beynəlxalq uçuş təhlükəsizliyi standartlarına cavab verən «Azərbaycan Hava Yolları» keyfiyyətli xidməti və genişmiqyaslı uçuş coğrafiyası ilə diqqəti cəlb edir.

Bildirildi ki, ardıcıl olaraq 3-cü ildir sərginin tərəfdaş ölkəsi qismində çıxış edən Türkiyə öz milli stendində 16 aparıcı turizm şirkətini təqdim edir.

Qeyd olundu ki, «AİTF–2012» hər il dünya turizm sənayesinin nümayəndələrini bir araya gətirir və Azərbaycanın müasir turizm infrastrukturu sahəsində nailiyyətlərini nümayiş etdirir.

Turizm sənayesinin mütəxəssisləri və qonaqlar bu sərgidə tur-operatorların xüsusi təklifləri ilə tanış olur, turizm marşrutları və əlverişli qiymət təklifləri haqqında məlumat əldə edirlər.

# DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Dünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul etmişdir.*

*Azərbaycanın Dünya Gömrük Təşkilatının çox fəal üzvü olduğunu vurğulayan prezident İlham Əliyev Dünya Gömrük Təşkilatı Avropa regionu gömrük xidmətləri rəhbərlərinin növbəti 2012-ci il konfransının Bakıda keçirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Dünya Gömrük Təşkilatı Avropa regionu gömrük xidmətləri rəhbərlərinin Bakı konfransının Azərbaycan ilə bu təşkilat arasında əməkdaşlığın daha da gücləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycanın iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini vurğulayan Dünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ölkəmizə səfərindən məmnunluğunu bildirdi. O, prezident İlham Əliyevin dəstəyi ilə ötən il Bakıda «Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə» mövzusunda uğurla keçən beynəlxalq konfransın Dünya Gömrük Təşkilatı üçün çox faydalı olduğunu dedi və həmin tədbirin nəticələri əsasında Brüsseldə mötəbər bir konfransın təşkil olunduğunu qeyd etdi.*

*Görüşdə ölkəmizin Dünya Gömrük Təşkilatı ilə əməkdaşlığının daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

## LİTVA SEYMİNİN KEÇMİŞ SƏDRİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ VİTAUTAS LANDSBERGİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*
*14 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Litva Respublikası Seyminin keçmiş sədri, Avropa Parlamentinin üzvü Vitautas Landsbergisi qəbul etmişdir.*

*Görüşdə ölkəmizin Avropa Şurasına üzv seçilərkən Vitautas Landsbergisin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi məmnunluqla xatırlandı. Müstəqillikdən sonrakı ötən dövr ərzində Azərbaycanda bütün sahələrdə böyük dəyişikliklərin baş verdiyi vurğulandı.*

*Görüşdə həmçinin Azərbaycan ilə Avropa Parlamenti arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASDA İŞTİRAK*

*Prezident sarayı*

*16 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 16-da Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

– Bugünkü iclasda biz birinci rübün sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. 2012-ci il uğurlu başlayıbdır. Deyə bilərəm ki, birinci rübdə bütün vəzifələr icra edilib. Əsas iqtisadi göstəricilərimiz də çox müsbətdir.

Ümumi iqtisadi inkişaf çox yüksək templərlə ölçülməsə də, qeyri-neft iqtisadiyyatımız sürətlə artmaqdadır. Birinci rübdə ümumi daxili məhsul 0,5 faiz artmışdır. Ancaq qeyri-neft sektorunda ümumi daxili məhsul 7,7 faiz artmışdır. Bu çox gözəl göstəricidir və son ayların, illərin göstəricisidir.

İqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində atılmış addımlar bəhrəsini verir. Əgər sənaye istehsalına nəzər salsaq görərik ki, ümumi sənaye istehsalı 0,3 faiz azalmış, ancaq qeyri-neft sənayemiz 16,5 faiz artmışdır. Bu, səhv etmirəmsə, müstəqillik dövründə ən yüksək, rekord göstəricidir və yenə də son illər ərzində apardığımız islahatların məntiqi nəticəsidir.

---

* Назирляр Кабинетинин 2012-ъи илин биринъи рцбцнцн сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында Верэиляр назири Фазил Мяммядов, Сящиййя naziri Oqtay Şirəliyev чыхыш етдиляр.

Çünki qeyri-neft sənayesinin inkişafı ilə bağlı mənim tərəfimdən dəfələrlə müvafiq göstərişlər verilmişdir, konkret addımlar atılmışdır. Dövlət İnvestisiya Proqramında bu məsələlər öz həllini tapmışdır. Özəl sektora göstərilən dəstək – həm siyasi, həm maddi dəstək, kreditlərin verilməsi qeyri-neft sənayesinin inkişafına gətirib çıxarır. Çox şadam ki, bu sahə yüksək templərlə inkişaf edir.

Ölkəmizdə yaradılan həm orta, həm kiçik, həm iri müəssisələr bu yeni reallıqları təmin edir. Beləliklə, demək olar ki, artıq sənayeləşmə siyasətinin gözəl nəticələri vardır. Hazırda tikilməkdə olan iri sənaye müəssisələri gələcəkdə fəaliyyətə başlayandan sonra bizim qeyri-neft sənayemizin inkişafına daha da böyük töhfə verəcəkdir.

Makroiqtisadi göstəricilər müsbətdir. İnflyasiya cəmi 3,1 faizdir. Əhalinin pul gəlirləri isə təxminən 14 faizdir. Bu da, ümumiyyətlə, son illər ərzində ənənəvi bir balansdır. Çünki inflyasiyanı əhalinin pul gəlirlərinin həcmindən ayrı hesablamaq düzgün olmaz. Əhalinin pul gəlirləri inflyasiyanı on faiz, ondan da çox üstələyir. Bütövlükdə bu onu göstərir ki, bizim büdcəmiz ildən-ilə artır və bu ilin dövlət büdcəsi 20 milyard dollardan çoxdur. İcmal büdcə təqribən 25 milyard dollara bərabərdir. Sosial proqramlar uğurla icra edilir. Xüsusilə, sovet dövründən qalmış əmanətlərin qaytarılması prosesi başlayır. İnflyasiyanı belə aşağı səviyyədə saxlamaq çox böyük nəticədir. Beləliklə, insanların rifah halının yaxşılaşdırılması istiqamətində yeni, mühüm addımlar atılır.

Bizim strateji valyuta ehtiyatlarımız artır. O da bizim strateji xəttimizdir ki, biz daim – hər il və hər rüb strateji ehtiyatlarımızı artırmalıyıq. Baxmayaraq ki, Dövlət Neft Fondundan bu il də dövlət büdcəsinə kifayət qədər böyük transfer olunmuşdur və bu proses davam etməkdədir. Ancaq gəlirlər xərclərimizi üstələyir. Bu da çox müsbət göstəricidir. Biz imkan daxilində öz maddi resurslarımızdan istifadə edirik.

Dünyada davam edən qlobal maliyyə və iqtisadi böhran onu göstərir ki, kim öz hesabına yaşamır, borc hesabına yaşayır,

proqramları borcun götürülməsi hesabına icra edir, nəticədə bu ölkələr böyük çətinliklərlə üzləşəcəklər. Çünki gec-tez bu borclanma gəlib son həddə çatacaqdır.

Biz isə investisiya proqramlarımızı və sosial proqramları öz imkanımızla icra edirik. Bu ilin birinci rübündə strateji valyuta ehtiyatlarımız daha da artmışdır və 43 milyard dollardan çoxdur. Bu nəinki ölkəmiz üçün, dünya miqyasında strateji valyuta ehtiyatlarına malik olan suveren ölkələr arasında çox gözəl göstəricidir. O ehtiyatları ildən-ilə, rübdən-rübə daha da artıracağıq. Bu vəsaitin səmərəli işləməsi və bu vəsaitdən əldə ediləcək əlavə gəlirlər, əlbəttə ki, gələcəkdə maliyyə vəziyyətimizi daha da yaxşılaşdıracaq, ölkədə yeni investisiya layihələrinin həyata keçirilməsi üçün şərait yaradacaqdır.

Dövlət Neft Fondunun yeni strategiyası müəyyən edilibdir. Bu strategiya müasir dövrün tələblərinə uyğundur. Biz daim qabağa baxmalıyıq. Əlbəttə, Dövlət Neft Fondu yarandıqda, ilk növbədə oraya yığılan vəsaitin mühafizəkar şəkildə qorunması məsələsi gündəmə gətirilmişdi. Bu məsələ bu gün də çox aktualdır. Bizim əsas məqsədimiz bu vəsaiti qorumaqdır. Dünyada baş verən böhran faiz dərəcələrini əhəmiyyətli dərəcədə aşağı saldığı üçün biz yeni formalara müraciət edirik. Bu gün Dövlət Neft Fondunun investisiya və yerləşdirmə portfeli də genişlənir. Bu təbiidir. Necə ki, biz ölkə iqtisadiyyatını şaxələndiririk, yeni sahələrə üstünlük veririk, strateji valyuta ehtiyatlarımız da həm əmniyyətli, həm də daha səmərəli şəkildə lazım olan sahələrə qoyulmalıdır.

Gələcəkdə böyük valyuta ehtiyatlarımızın idarə edilməsi və ölkə maraqlarına daha da çox xidmət göstərilməsi işində daha da çevik siyasət aparılmalıdır. Bu barədə mənim müəyyən fikirlərim vardır. Yaxın gələcəkdə bu fikirlər ortaya qoyulacaqdır. Hesab edirəm ki, Azərbaycan artıq özünü dünyada, dünyanın iqtisadi-maliyyə bazarlarında daha da qabarıq şəkildə göstərməlidir.

Azərbaycan artıq qlobal məsələlərin həllində siyasi güc kimi iştirak edir. Biz maliyyə resurslarımızı nəzərə alaraq maliyyə

güc kimi də iştirak etməliyik. Artıq ilkin təşəbbüslər göstərilmişdir. Biz əvvəlki dövrlərdə – müstəqilliyimizin ilk illərində islahatları daha çox xaricdən gələn kreditlər, köməklər, qrantlar hesabına aparırdıq. Hazırda Azərbaycan donor ölkəsinə çevrilir və bu, yeni bir dövrdür. Biz buna hazırıq. Bu dövrü biz başlayırıq və bu bizim təşəbbüsümüzdür. Bu təşəbbüs bizə həm iqtisadi, həm siyasi dividendlər gətirir və gələcəkdə daha da çox gətirəcəkdir.

Ölkəmizdə bütün istiqamətlərdə işlər plan üzrə, proqramlar üzrə gedir. Dövlət İnvestisiya Proqramı icra edilir və çalışmaq lazımdır ki, ilin sonuna qədər tam şəkildə icra edilsin. İndi son illərin reallıqları bundan ibarətdir ki, biz bəzi hallarda Dövlət İnvestisiya Proqramını tam şəkildə icra edə bilmirik. Bəzi hallarda vəsait bizim texniki imkanlardan artıqdır. Yaxud da ki, bəzi hallarda müvafiq nazirliklər və dövlət qurumlarının hökumətə verdikləri sifarişlər o qədər böyük olur ki, onların icrasını il ərzində təmin edə bilmirlər. Biz buna da diqqət yetirməliyik. Real sifarişlər verilməlidir. Hər bir nazirlik, hər bir dövlət qurumu öz imkanlarını ölçüb-biçməlidir, qeyri-real təkliflər verməməlidir. Mən başa düşürəm, hər bir qurum, hər bir nazirlik istəyir ki, onun sahəsində daha da sürətli işlər getsin və beləliklə, Dövlət İnvestisiya Proqramı formalaşdıqda daha da böyük təkliflər irəli sürürlər. Ancaq bu təkliflər reallıqlara əsaslanmalıdır.

Əlbəttə ki, hökumətdə təhlillər aparılır. Ancaq hər bir dövlət qurumu, dövlət məmuru daha da məsuliyyətli olmalıdır ki, Dövlət İnvestisiya Proqramı tam şəkildə, vaxtında və ən önəmlisi, yüksək keyfiyyətlə icra edilsin. Çünki bizim bugünkü uğurlu inkişafımız artıq reallıqdır. Əsas infrastruktur layihələrimiz ya başa çatıb, ya başa çatmaq üzrədir, yaxud da ki, o layihələrin icrası başlanmışdır.

Bir müddət əvvəl qarşıya vəzifə qoyulmuşdur ki, əsas infrastruktur layihələri növbəti iki il ərzində Azərbaycanda başa çatsın və ondan sonra biz Dövlət İnvestisiya Proqramına yeni prizmadan yanaşacağıq. Hazırda bütün bölgələrdə böyük

infrastruktur layihələri icra edilir. Onların tam əksəriyyəti dövlət tərəfindən maliyyələşdirilir. Yollar, su-kanalizasiya layihələri, qazlaşdırma, elektrik xətlərinin, kənd yollarının çəkilməsi. Bu da son illər ərzində daha çox diqqət tələb edən məsələdir. İndi mən bölgələrdə olarkən, demək olar ki, hər dəfə yeni kənd yolunun açılışında iştirak edirəm. Bu, müasir Azərbaycanın reallıqlarıdır. Əlbəttə ki, biz yol təsərrüfatına investisiya qoymağa başlayanda ilk növbədə, magistral yollara diqqət yetirirdik. Ancaq vaxt gəlib çatıb ki, biz kənd yollarını da abadlaşdıraq. Hazırda Azərbaycan kəndlərinə çəkilən yollar çox keyfiyyətlidir, yaxşıdır, rahatdır. Bu yollar insanlara rahatlıq gətirir və bölgələrin daha da sürətli inkişafını təmin edir.

Bir sözlə, Dövlət İnvestisiya Proqramı bizim üçün əsas inkişaf mexanizmidir. Dövlət tərəfindən qoyulan vəsait milyardlarla ölçülür. Əlbəttə ki, özəl sektor da bu inkişafı gördükdə, öz vəsaitini ölkə iqtisadiyyatına daha da böyük həvəslə, maraqla qoyur. Mən çox şadam ki, Azərbaycanın investisiya paketində daxili investisiyalar üstünlük təşkil edir. Bu təbiidir. Çünki daxili investisiyaların mütləq əksəriyyəti dövlət investisiyalarıdır. Bu da təbiidir. Ancaq vaxt gələcək ki, investisiyaların tərkibində özəl investisiyalar üstünlük təşkil edəcəkdir. Biz buna çalışmalıyıq. Nəzərə almalıyıq ki, gələcəkdə dövlət tərəfindən qoyulacaq investisiyaların həcmi azalmalıdır. Bir daha demək istəyirəm ki, əsas infrastruktur layihələrinin icrasını biz 2014-cü ildə başa çatdırmalıyıq. Özəl sektor isə daha da böyük həcmdə vəsait qoyacaqdır.

Azərbaycanda çox böyük ixrac potensialı formalaşır. Biz də bu potensialın güclənməsində maraqlıyıq və öz növbəsində Azərbaycan dövləti bu işdə çox fəal rol oynayır. Azərbaycan şirkətlərinin, o cümlədən özəl şirkətlərin xarici bazarlara çıxması üçün çalışırıq və çalışacağıq.

Sahibkarlığın inkişafı ilə bağlı hazırda ciddi problem yoxdur. Sahibkarlar sinfi güclənir, formalaşır və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu il 200 milyon manat güzəştli kreditlər nəzərdə tutulub. Bu kreditlər işləyir, yaxşı işləyir,

qaytarılır və yeni iş yerlərinin açılmasına gətirib çıxarır. İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 24 min yeni iş yerləri açılmışdır ki, onlardan təxminən 20 mini daimi iş yerləridir. Mənim bölgələrə mütəmadi səfərlərim də hər dəfə yeni iş yerlərinin açılmasına gətirib çıxarır və iştirak etdiyim zavodların, fabriklərin açılışlarında həmişə maraqlanıram ki, nə qədər yeni iş yerləri açılır və açılacaqdır. Qərb bölgəsinə son səfərim də Azərbaycanın iqtisadi sahədə ümumi inkişaf dinamikasını göstərmişdir. Həm kiçik müəssisələr, ortahəcmli emal müəssisələri və həm də böyük müəssisələr açılır və tikilir.

Bizim iqtisadi siyasətlə bağlı planlarımız, bax, bundan ibarətdir. Biz bu siyasəti uzun illərdir ki, aparırıq, iqtisadi islahatları davam etdiririk. Bu islahatların davam etdirilməsi prosesi hələ getməlidir. Çünki xüsusilə sistem xarakterli islahatlara böyük ehtiyac vardır. Azərbaycan beynəlxalq iqtisadi inkişafla bağlı reytinqlərdə həmişə yüksək yerlər tutur. Dünya İqtisadi Forumu, Davos İqtisadi Forumu iqtisadiyyatların rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı MDB məkanında birinci yerə layiq görür. «Standard and Poors» beynəlxalq reytinq agentliyi Azərbaycanın kredit reytinqini artırıb, halbuki inkişaf etmiş Avropa ölkələrinin kredit reytinqləri aşağı salınıb.

Biznesin sadələşdirilməsi və biznes imkanlarının genişləndirilməsi istiqamətində atılan addımlar da qiymətləndirilir. Bu il biznes proqramında Azərbaycan yüksək yerlərdədir. Mən müvafiq göstərişlər verdim, əlavə tədbirlər görülsün ki, bizim yerimiz daha da yüksək olsun. Bir sözlə, infrastruktur layihələri, regional inkişaf və ümumi iqtisadi təşəbbüslər Azərbaycan iqtisadiyyatını daha da gücləndirir. İqtisadiyyatımız ildən-ilə güclənir və çox şadam ki, biz bu gün qeyri-neft sektorunun da böyük uğurları haqqında danışa bilərik. Bu uğurları görürük. Bu uğurlar daha da əhəmiyyətli olmalıdır.

Birinci rübdə sosial məsələlərin həllində vacib addımlar atılmışdır. Bu sahə daim diqqət mərkəzindədir. Azərbaycan siyasəti bundan ibarətdir ki, ilk növbədə siyasətimizin

mərkəzində insan amili dayanır. Sosial məsələlərin həlli üçün bundan sonra da səylərimizi əsirgəməyəcəyik.

Birinci rübdə sovet dövründən qalan əmanətlərin qaytarılması təşəbbüsü irəli sürülmüşdü. Bu çox ədalətli və müsbət təşəbbüsdür. Mən hesab edirəm ki, müstəqil Azərbaycan dövləti sovet dövründə yığılan əmanətlərə cavabdehlik, məsuliyyət daşımır. Buna baxmayaraq, Azərbaycan dövlətinin güclü sosial siyasətini və yenə də deyirəm, insan amilinin diqqət mərkəzində olduğunu bir daha nəzərə alaraq qərar verildi və mənim tərəfimdən sərəncam imzalandı ki, batmış əmanətlərə görə kompensasiya ödənilsin. Deyə bilərəm ki, bu çox əhəmiyyətli kompensasiyadır. Postsovet məkanında bir neçə ölkədə buna oxşar təşəbbüslər irəli sürülmüşdür. Ancaq deyə bilərəm ki, Azərbaycandan başqa, heç bir yerdə cəmi iki il ərzində bu məbləğ qaytarılmayıb. Biz kompensasiya üçün təxminən bir milyard manat həcmində vəsait nəzərdə tutmuşuq və iki il ərzində bu vəsaitin insanlara verilməsi prosesi təşkil edilməlidir. Onu da qeyd etməliyəm ki, mən, adətən, başqa ölkələrlə müqayisə aparmağı o qədər də istəmirəm. Hesab edirəm ki, bu o qədər də düzgün addım olmaz. Yəqin fikir vermisiniz, Azərbaycan, demək olar, bütün göstəricilərinə görə bir çox ölkələrdən üstündür, heç vaxt mən müqayisə üçün, yaxud da ki, uğurlarımızı daha da qabarıq göstərmək üçün kiminsə problemlərini üzə çıxarmıram, hesab edirəm ki, bu, qeyri-etik davranışdır.

Ancaq ümumi sözlərlə deyə bilərəm ki, heç bir yerdə bizim qədər yüksək əmsal tətbiq edilmir. Müqayisə üçün deyə bilərəm ki, bizdə bu barədə kifayət qədər məlumatlar verilmişdir, mətbuatda da dərc edilmişdir. Bir daha xatırlatmaq istəyirəm ki, hələ 1992-ci ildə milli valyutaya keçid dövründə on sovet rublu bir Azərbaycan manatı nisbətində əvəz olunmuşdur – birə on. 2006-cı il yanvarın 1-də manatın denominasiyası həyata keçirilmişdir. Beləliklə, 5 min Azərbaycan manatı – köhnə manat bir yeni manata bərabər olmuşdur. Buna baxmayaraq, hazırda min rublu olan əmanətçiyə 150 manat, yaxud da ki, 180

dollara yaxın kompensasiya ödənilir. İki min rublu olan 300 manat, yaxud da ki, 400 dollar alacaqdır. Bu cədvəli davam etdirmək olar. Yəni bu özlüyündə onu göstərir ki, ən yüksək əmsal və ən qısa dövr Azərbaycandadır. Bu bir daha Azərbaycan dövlətinin həmin məsələyə nə qədər həssas olduğunu göstərir. Mən bilirəm ki, Azərbaycan vətəndaşları bu təşəbbüsü alqışlayırlar. Əlbəttə, bunun insanların yaşayış səviyyəsinə müsbət təsiri olacaqdır. Bir də ki, biz bir növ, ədaləti bərpa edirik. Bütövlükdə, sovet dövründə 2 milyon 400 şəxsi hesab olmuşdur. İndi bizi böyük texniki işlər gözləyir ki, bu vəsait vaxtında və tam dəqiqliklə verilsin.

Birinci rübdə ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmlənmişdir. Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Biz bu ildən başlayaraq BMT Təhlükəsizlik Şurasının üzvüyük və bu vəzifəyə çox böyük məsuliyyətlə yanaşırıq. Bu mötəbər quruma üzv seçildikdə mən demişəm, bir daha demək istəyirəm ki, biz Təhlükəsizlik Şurasında ilk növbədə, beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik və müdafiə edirik. Bizim mövqemiz ədalətlidir, ölkəmizin müstəqil siyasəti üzərində qurulubdur. İlk günlərdən Azərbaycan Təhlükəsizlik Şurasında öz prinsipial mövqeyi ilə seçilir. Biz heç vaxt öz mövqemizi gizlətməmişik və heç vaxt gizlətməyəcəyik, çünki bizim mövqemiz ədalətli mövqedir.

Gələn ay Azərbaycan Təhlükəsizlik Şurasında sədrlik funksiyasını üzərinə götürəcəkdir. Bu da tarixdə ilk dəfə olan bir addımdır. Azərbaycan dünyanın ən böyük, ən mötəbər, ən vacib qurumuna sədrlik edəcəkdir və əminəm ki, uğurlu sədrlik edəcəkdir.

Birinci rübdə Azərbaycan dövləti çox vacib olan beynəlxalq tədbirlərdə iştirak etmişdir. Koreyada keçirilmiş Nüvə sammitində iştirak etmişdir. Baxmayaraq ki, Azərbaycanda nüvə sənayesi, atom stansiyaları yoxdur, Azərbaycan bu mötəbər toplantıya dəvət edilmişdir və bizim ədalətli mövqemiz bu qurumda səsləndi. Azərbaycan dünya birliyinin vacib oyunçusu kimi, öz sözünü dedi.

Birinci rübdə ölkəmiz dünyanın iki ən böyük tədbirində – Davos Dünya İqtisadi Forumunda və Münhen Təhlükəsizlik Konfransında iştirak etmişdir. Deyə bilərəm ki, Avropada və bəlkə də dünyada bu hər iki tədbir çox böyük əhəmiyyət daşıyır. Biri iqtisadi, ikincisi isə təhlükəsizlik və siyasi məsələləri əhatə edir. Hər ikisində Azərbaycan təmsil olunmuşdur. Hər ikisində mən ölkəmizin baxışlarını, mövqeyini və siyasi xəttini ifadə etmişəm. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər, torpaqlarımızın işğal altında qalması və bir milyon soydaşımızın əziyyət çəkməsi məsələlərinə toxunmuşam, dünya birliyinin diqqətini bu məsələlərə cəlb etmişəm.

Birinci rübdə Bakıda Avronest Parlament Assambleyasının ikinci sessiyası keçirilmişdir. Deyə bilərəm ki, bu sessiya Avropa İttifaqının xaricində ilk dəfədir ki, keçirilir. Təsadüfi deyildir ki, sessiyanın birinci ünvanı Bakı seçilmişdir. Sessiya çox yüksək səviyyədə keçirildi və yenə də bu bizə imkan verdi ki, Avropa Parlamenti deputatlarına birbaşa müraciət edərək, Azərbaycanın həm gördüyü işlər, həm mövqeyi haqqında məlumat verək, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və həqiqətləri, azərbaycanlılara qarşı törədilən soyqırımı, erməni faşizmi haqqında mövqemizi bildirək. Xocalıda o qanlı faciəni, soyqırımını törədənlər faşistlərdir, bunun başqa adı ola bilməz. Mən bu imkanlardan istifadə edərək, həm həqiqətləri, həm Azərbaycanın mövqeyi və gələcəyə ümumi baxışları haqqında fikirlərimi bildirmişdim.

Bir sözlə, birinci rübdə beynəlxalq aləmdə də Azərbaycanla bağlı çox maraqlı və ciddi müzakirələr aparılmışdır. Ölkəmiz beynəlxalq aləmin dəyərli üzvü kimi, öz sözünü deyir və deyəcəkdir.

Bizim xarici siyasətimiz daxili siyasətimizin məntiqi davamıdır. Xarici siyasətimiz əməkdaşlığın dərinləşməsinə hesablanıb. Biz bu istiqamətdə addımlar atırıq. Bizim xarici siyasətimiz açıqdır, aydındır və birmənalıdır. Bölgədə, dünyada

rolumuz artır. Bu həqiqətdir və bu həqiqətlə hesablaşmaq lazımdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün beynəlxalq tədbirlərdə mən sözümü demişəm, Ermənistanın işğalçı siyasətini ifşa etmişəm. Bundan sonra da bütün beynəlxalq tədbirlərdə Ermənistanın işğalçı siyasətini ifşa edəcəyəm. Münaqişənin həlli ilə bağlı bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməli, işğalçı qüvvələr torpaqlarımızdan geri çəkilməlidir. Beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyümüz tam şəkildə bərpa ediləcəkdir. Mən buna şübhə etmirəm. Biz həm iqtisadi sahədə, həm beynəlxalq aləmdə güclənirik. Hərbi potensialımız da güclənir. Bu sahəyə daim böyük diqqət göstərilir və göstəriləcəkdir. Biz güclü hərbi sənaye yaradırıq, eyni zamanda, böyük həcmdə hərbi texnika, silah, sursat alırıq və alacağıq.

Mən hələ hava hücumuna qarşı silahlardan danışmıram, tanklar, artilleriya qurğuları, döyüş təyyarələri, müxtəlif silahlar, döyüş aparmaq üçün lazım olan bütün müasir ləvazimatlar alınır və alınacaqdır. Deyə bilərəm ki, hər bir yerdə olduğu kimi, bu sahədə də biz şaxələndirilmiş siyasət aparırıq, bir istehsalçıdan asılı deyilik. Bu sahədə bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır və imkanımız vardır. Biz bəzi başqa ölkələrdən fərqli olaraq heç nəyi müftə almırıq, pulla alırıq və bu siyasət davam edəcəkdir.

Azərbaycanın artıq güclü ordusu vardır. Bütün silahlı qüvvələr bu gün istənilən vəzifəni – ölkəmizin bütün maraqlarını müdafiə etmək üçün hazırdırlar, buna qadirdirlər. Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda Azərbaycanın suverenliyini bərpa etməyə hazırdırlar. Sadəcə olaraq, biz istəyirik ki, bunu qan tökülmədən, sülh, danışıqlar yolu ilə edək və hər an, hər gün biz qələbəyə yaxınlaşırıq. Hər gün Ermənistan daha da böyük tənəzzülə uğrayır, Azərbaycan daha da güclənir. Biz hər gün qələbə gününü yaxınlaşdırırıq. Gün

gələcək, Azərbaycan bayrağı Xankəndidə və Şuşada dalğalanacaqdır.

## YEKUN NİTQİ

Hesab edirəm ki, ikinci rübdə işlər daha da sürətlə gedəcəkdir. Çünki, adətən, hər ilin birinci rübündə işlərin başlanması prosesi gedir və eyni zamanda, Dövlət İnvestisiya Proqramı da birinci rübdə təsdiq edilir. Ümid edirəm ki, ikinci rübdə Dövlət İnvestisiya Proqramı daha da dolğun icra ediləcəkdir. Ümumiyyətlə, belə bir təklif irəli sürüldü, mən də bunu dəstəkləyirəm ki, Dövlət İnvestisiya Proqramı hər ilin sonunda təsdiqlənsin ki, ilin ilk aylarında biz vaxt itirmədən işə başlaya bilək.

İkinci rüb ilə bağlı bütün vəzifələr bəllidir, bütün göstərişlər verilibdir, bütün proqramlar vardır. Makroiqtisadi sabitlik qorunmalıdır, 3,1 faiz inflyasiya, bayaq dediyim kimi, yaxşı göstəricidir. Çalışmalıyıq ki, inflyasiyanı ilin sonuna qədər birrəqəmli səviyyədə saxlayaq. Əhalinin pul gəlirləri daim inflyasiyadan üstün olmalıdır.

Nəzərə alsaq ki, bu il və gələn il əmanətlərin qaytarılması prosesi aparılacaqdır, əlbəttə, inflyasiyaya daha da böyük təkan verə biləcək amillər olacaqdır. Əlavə yükdür, 1 milyard manata yaxın vəsait dövriyyəyə buraxılacaqdır. Elə etməliyik ki, istehsal qiymətlərinə nəzarət daha da güclü olsun. Bu nəzarət güclənir, istehsal qiymətlərinin səviyyəsi, demək olar ki, sabitdir. Hətta ənənəvi bayramlarımız ərəfəsində də bizim müvafiq qurumlar çalışırlar ki, qiymətləri sabit saxlasınlar. Çünki əvvəlki illərdə bayram ərəfəsində qiymətlər qaldırılırdı və bayramdan sonra da qiymətlər enmirdi. Hər il ildə iki dəfə – ən azı iki dəfə qiymətlər süni şəkildə şişirdilir. Biz bu xoşagəlməz meyillərlə ciddi mübarizə aparırıq və aparacağıq. Qiymətləri süni şəkildə şişirtmək istəyənlərə qarşı mübarizə daha da ciddi olmalıdır. Onlara qarşı cəza tədbirləri daha da təsirli olmalıdır.

Əmanətlərin qaytarılması inflyasiyaya əlavə təkan verəcək, eyni zamanda, maaşlar və pensiyalar qaldırılır. Keçən il orta pensiya təxminən 40 faiz artırılmışdır və pensiya islahatları bundan sonra da aparılacaqdır. Hazırda Azərbaycanda orta pensiyanın səviyyəsi 150 manat və ya 190 dollardır. Orta maaş 370 manat, yəni 470 dollardır. Bu artır, getdikcə daha da artacaq və beləliklə, qiymətlərin normal səviyyədə qalmasına daim diqqət göstərilməlidir.

Əlbəttə, müasir yanaşmalara keçid də böyük əhəmiyyət daşıyır. Posterminalların quraşdırılması, nağdsız ödəmələrin daha da geniş yayılması prosesi sürətlə getməlidir. Müvafiq göstərişlər verilmişdir və vergilər naziri çıxışında qeyd etdi. Qısa müddət ərzində 20 minə yaxın posterminal tətbiq edilib. Hazırda bu proses geniş vüsət alıbdır. Ümumiyyətlə, bizim həm istehlak bazarımız, həm maliyyə sistemimiz daha da şəffaflaşacaqdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Maaşların, pensiyaların mütləq əksəriyyəti plastik kartlarla ödənilir. Ancaq pensiyanı alan pensiyaçı dərhal gedir o terminaldan o vəsaiti nağd şəkildə çıxarır. Nəyə görə? Çünki birinci növbədə, bu, psixoloji bir məsələdir. Buna bir növ öyrəşmək lazım idi. Digər tərəfdən, o kartla bir çox yerlərdə o öz alış-verişini apara bilmir. Posterminallar olmadığı üçün bu kartlar sadəcə olaraq, bir funksiyanı daşıyırdı ki, pensiyaların, əməkhaqlarının verilməsi zamanı xoşagəlməz hallara son qoyulsun.

Çünki hamımız yaxşı xatırlayırıq ki, əvvəllər maaş, pensiya kassirlər vasitəsilə verilirdi və xoşagəlməz hallar kifayət qədər çox idi. Əslində bu bir ənənəyə çevrilmişdi. Hər bir maaş alan özünü borclu hesab edirdi ki, kassirə maaşından pul versin. Nə üçün o pulu verməli idi?! O, kassirin babasının puludur?! O, dövlətin puludur. Ancaq bir ənənə yaranmışdı və bu, geniş vüsət almışdı. Biz hamımız bunu yaxşı bilirik. Ona görə, maaşların, pensiyanın plastik kartlarla verilməsi artıq buna son qoydu. Ancaq maaşın, pensiyanın kartlarla verilməsi təkcə bu məqsədi güdmürdü. Eyni zamanda, nağdsız ödəmələrin

genişlənməsinə yol açmalı idi. Ona görə, posterminalların geniş şəkildə tətbiq edilməsi Bakıda, böyük şəhərlərdə və ondan sonra bütövlükdə ölkə üzrə bu məsələnin – nağdsız ödəmələrin həlli bizim bütün maliyyə sistemimizə çox müsbət təsir göstərəcəkdir.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Müvafiq göstərişlər verilmişdir, sərəncamlar imzalanmışdır. Beynəlxalq təcrübə tam şəkildə tətbiq edilməlidir. Burada həm inzibati tədbirlər, həm də cəza tədbirləri gücləndirilməlidir. Sistem xarakterli, institusional xarakter daşıyan islahatlar daha sürətlə aparılmalıdır. Mübarizə bir gün, bir dəqiqə səngiməməlidir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır.

Elektron xidmətlərin geniş şəkildə tətbiq edilməsi korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə çox böyük amildir. Müvafiq göstəriş verilmişdir, sərəncam imzalanmışdır ki, bütün qurumlar elektron xidmətlər göstərsin. Ancaq mənə bu yaxınlarda verilən arayışa görə, heç də hər yerdə bu belə deyildir. Elə qurumlar, nazirliklər vardır ki, tam şəkildə elektron xidmətləri göstərirlər. Məndəki siyahıda elə qurumlar var ki, elektron xidmətləri qismən göstərirlər. Elə qurumlar da var ki, ümumiyyətlə, elektron xidməti göstərmirlər. Mən o qurumların adlarını hələ ki, çəkmək istəmirəm, iki həftə vaxt verirəm, hər bir dövlət qurumunda elektron xidmət yaradılmalıdır. Mənim sərəncamlarım şərtsiz və yubanmadan icra edilməlidir. Sərəncam verilir və hər kəs bilməlidir ki, sərəncamın icrasına nəzarət də var və bu nəzarət güclüdür.

Biz müasirləşmə siyasəti aparırıq. Biz müasir dövlət qururuq. Güclü, ancaq öz imkanlarına söykənən müasir dövlət qururuq. Müasir dövlətə xas olan bütün məsələlər bizdə tətbiq edilməlidir, siyasi, iqtisadi islahatlarda, bütün başqa sahələrdə. Bu sahəyə çox böyük əhəmiyyət verilir. Biz korrupsiyaya və rüşvətxorluğa qarşı daha da geniş və ardıcıl mübarizə aparmalıyıq, aparırıq və aparacağıq.

Bu rübdə və əvvəlki dövrdə idxalı əvəzləyən məhsulların istehsalına diqqət göstərilir. Bu növdən olan məhsulların sayı Azərbaycanda artmaqdadır. Həm emal sahəsində, həm inşaat materialları sahəsində bizim çox güclü potensialımız, maliyyə imkanlarımız vardır. Kredit resurslarımız da kifayət qədər çoxdur. Çalışmalıyıq ki, hər bir sahədə, harada ki, mümkündür, idxalı əvəzləyən məhsulların istehsalına daha da çox dəstək verək. Bu həm özəl qurumlardan, həm dövlət dəstəyindən asılıdır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə verilən kreditlər məhz bu məqsədi güdür. Harada ki, biz hələ özümüzü hansısa məhsullarla təmin edə bilmirik, o məhsulların istehsalına daha da çox diqqət göstərilir.

Bu ilin əvvəlində – fevral ayında regional inkişaf proqramı ilə bağlı keçirilən müşavirədə bütün lazımi təkliflər, göstərişlər verilmişdir. Təkrar etmək istəmirəm, sadəcə olaraq, qeyd etmək istəyirəm ki, bu məsələ daim diqqət mərkəzindədir, o vaxta qədər ki, biz daxili bazarı maksimum şəkildə öz istehsalımız hesabına təmin edəcəyik.

Bu il texnoparkların yaradılması istiqamətində çox təsirli və ciddi addımlar atılmalıdır. Bütün müvafiq göstərişlər verildi, sərəncamlar imzalandı, torpaq sahələri ayrıldı. Artıq təcrübə də vardır, Sumqayıt texnoparkı çox gözəl təcrübədir. İndi Gəncədə, Balaxanıda və Sumqayıtda buna oxşar yeni texnoparkların salınması prosesi gedir. Mən hesab edirəm ki, bu il biz artıq konkret işlərə başlamalıyıq. Çünki bütün qanunvericilik, ondan sonra, infrastruktur bazası artıq yerindədir, torpaq sahələri də müəyyən edilibdir. Bu texnoparkların yaradılmasına biz özəl sektorun dəstəyi ilə nail olacağıq. Ancaq dövlət kredit resurslarını həmin istiqamətə yönəltməlidir ki, özəl sektor bu imkanlardan istifadə etsin. Yerli istehsal daha da güclənəcəkdir. Qeyri-neft sənayemizdə artım indi 16,5 faizdir, daha da artacaqdır. Biz Azərbaycanda, sözün əsl mənasında, çox güclü qeyri-neft sənayesi yaradacağıq.

Artıq müxtəlif istiqamətlər üzrə işlər yaxşı gedir. Bu yaxınlarda mən yeni sement zavodunun tikintisi ilə tanış oldum.

Bu sement zavodu və ondan sonra Bakıda tikilən yeni sement zavodu, Qaradağ sement zavodu, digər sement zavodları bizi sementlə tam təmin edəcək və gələcəkdə bizdə ixrac potensialı da yaranacaqdır. Ölkəmizdə belə istiqamətlər çox olmalıdır. Biz bu istiqamətləri bilirik, hədəfləri qoyuruq və hədəflərə çatmaq üçün ardıcıl fəaliyyət göstərilməlidir. Bu istiqamətdə, yəni texnoparkların yaradılması istiqamətində işlər pis getmir. Sadəcə olaraq, mən hesab edirəm ki, bu ilin sonuna qədər artıq konkret yerlərdə işlər başlamalıdır.

Kənd təsərrüfatı birinci rübdə 3,1 faiz artmışdır. Bu artım bitkiçilikdə 6,4 faiz, heyvandarlıqda 3,2 faiz olmuşdur. Müsbət dinamika vardır. Mən hesab edirəm ki, biz kənd təsərrüfatının inkişafı üçün ən müasir texnologiyaları tətbiq etməliyik. Yenə də deyirəm ki, bölgələrə son səfərim zamanı tanış olduğum yeni aqroservis müəssisəsi çox müsbət təsir göstərir. Burada ilk növbədə, bu şirkətin quruluşu çox müsbətdir. Burada özəl və dövlət tərəfdaşlığı özünü əks etdirir, Azərbaycan Dövlət İnvestisiya Şirkəti 25 faiz paya malikdir. Azərbaycan Dövlət İnvestisiya Şirkətini biz məhz bu məqsədlə yaratmışdıq ki, yerli və xarici investorlarda daha da güclü inam formalaşsın. Mən çox şadam ki, xarici investorlar da bu sahəyə vəsait qoyurlar. Orada mənə göstərilən texnika ən müasir standartlara cavab verir, ümumiyyətlə, bu sahəyə, aqrotexniki məsələlərə yanaşma da çox müsbətdir. Yəni əsaslı yanaşmadır. Bu müəssisə müsbət beynəlxalq təcrübənin əsasında yaradılıbdır. Mənə orada söz verildi ki, bu müəssisənin – Ağstafa Aqroservis Şirkətinin fəaliyyəti nəticəsində taxılçılıqda hər hektardan 50 sentner məhsulun götürülməsi mümkün olacaqdır. Bəlkə də ondan da çox. Əgər inkişaf etmiş, müsbət təcrübəyə malik olan ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, orada rəqəm daha da yüksəkdir. Bizdə isə ölkə üzrə məhsuldarlıq 25 sentnerdir. Çox aşağı səviyyədədir və bu məhsuldarlığı artıra bilmirik. Bir il artır, bir il azalır. Məhz bu məqsədlə iri fermer təsərrüfatlarının yaradılması ideyası da ortaya çıxmışdır ki, biz mövcud olan bütün torpaqlardan istifadə edək. Əgər biz bununla bərabər,

məhsuldarlığa daha da böyük diqqət göstərsək, eyni torpaqdan, indi dövriyyədə olan torpaqdan iki dəfə çox məhsul götürə və beləliklə, özümüzü taxılla tam şəkildə təmin edə bilərik.

Ona görə Ağstafa aqroservis müəssisəsinin timsalında biz ölkə üzrə geniş proqram icra etməliyik. Kənd Təsərrüfatı Nazirliyi və İqtisadi İnkişaf Nazirliyi birlikdə təkliflər versinlər. Lazım olarsa əlavə kreditlərin verilməsi də nəzərdə tutula bilər. Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalına əlavə vəsait qoyula bilər.

Mənə orada deyildi ki, yaradılan müəssisə və texniki imkanlar, aqrotexniki xidmətlər hesabına təqribən 15 min hektara yaxın əkin sahəsinə xidmət göstəriləcəkdir. Əgər biz 10, 20, 50 belə müəssisə yaratsaq bu, ərzaq təhlükəsizliyimizin təmin edilməsinə əhəmiyyətli dərəcədə şərait yaradacaq. Ona görə hər iki nazirliyə göstəriş verirəm, birinci rübdə mənə əlavə təkliflər verin: biz harada buna bənzər aqroservis şirkətləri yarada bilərik? Dövlət buna necə dəstək ola biləcək? Biz özəl sektoru necə stimullaşdıra bilərik?!

Ağstafada daha çox xarici investor vəsait qoyub. Mən hesab edirəm ki, yerli investorlar da maraqlı olmalıdırlar. Çünki bu yanaşma hər bir iştirakçıya xeyir gətirir – həm fermerə, həm bu şirkətin fəaliyyətinin gücləndirilməsinə, həm də ki, dövlətə. Bu, iqtisadi cəhətdən çox əlverişlidir. Biz beləliklə, ərzaq təhlükəsizliyimizi təmin edəcəyik.

Biz bütövlükdə kənd təsərrüfatı ilə bağlı ən müasir yanaşmaları tətbiq etməliyik. Bizim nümayəndə heyətlərimiz bu sahədə böyük təcrübəyə malik olan ölkələrə ezam edilmişlər, onların təcrübəsini öyrənmişlər. Damcılı suvarma texnologiyalarını öyrənmişlər. Vaxt gəlib çatıb ki, biz kütləvi şəkildə bu texnologiyaları Azərbaycanda tətbiq etməyə başlayaq və bu sahədə, yenə də deyirəm, hansısa bir yenilik icad etmək əvəzinə, inkişaf etmiş, müsbət təcrübəyə malik olan ölkələrin praktikasını tətbiq etməliyik.

Bütövlükdə subsidiyalarla, ondan sonra dövlət tərəfindən verilən güzəştlərlə bağlı yeni təkliflər yəqin ki, verilməlidir.

Birinci mərhələdə biz kənd təsərrüfatını, xüsusilə taxılçılığı stimullaşdırmaq üçün bu subsidiyaları ayırdıq. Həm yanacağa, həm gübrələrə, eyni zamanda, əkilən məhsullara hektarbaşı subsidiyalar pul şəklində verilir. Bu çox müsbət təşəbbüs idi və işgüzarlığın artmasına böyük təkan verdi. Mənim təklifim ondan ibarətdir ki, biz bu subsidiyaları daha da təkmilləşdirək. Söhbət ondan getmir ki, bunu azaldaq, yaxud da ki, aradan götürək. Yox, əksinə, söhbət ondan gedir ki, bunlar daha da səmərəli şəkildə işləsin. Bəlkə buna daha da böyük məbləğ ayrılsın. Ancaq verilən subsidiyalara görə nəticə daha da təsirli olsun. İndi subsidiyaların həcmi verilən nəticə ilə uyğun gəlmir. Nəticə daha da çox və təsirli olmalıdır. Ona görə, yenə də bu sahədə islahatların dərinləşməsi üçün əlavə təkliflər verin ki, biz orada da maksimum səmərə ilə işləyək.

Ərzaq təhlükəsizliyi dedikdə biz eyni zamanda, ərzağın keyfiyyətini də nəzərdə tuturuq. Çünki bu məsələyə də çox böyük diqqət göstərilməlidir. Son zamanlar bu sahədə ciddi dönüş yaradılmışdır. Əvvəlki dövrdə deyə bilərəm ki, bu sahə, ümumiyyətlə, diqqətdən kənarda qalmışdır və yoxlamaları aparan qurumlar əfsuslar olsun ki, vəzifə borclarını layiqincə yerinə yetirmirdilər. Onların yoxlamaları formal xarakter daşıyırdı. Yaxud da ki, gedib hansısa yoxlamanın aparılmasından sonra onlar qanunsuz tələblərdə də iştirak edirdilər. Beləliklə, həm yerli, həm keyfiyyətsiz xarici məhsullar bizim bazarımızı bürümüşdür.

Bu, insanların sağlamlığına çox böyük mənfi təsir göstərmişdir. Son müddət ərzində bu sahədə müsbətə doğru dəyişikliklər göz qabağındadır. Bu proses daim aparılmalıdır. Yerli sahibkarlar da bilməlidirlər ki, keyfiyyətsiz məhsul buraxsalar, onlar nəinki bazardan kənarlaşdırılacaqlar, həm də cəzalandırılacaqlar. İdxala nəzarət daha da güclü olmalıdır. Əlbəttə ki, bu məsələnin həll yolları, yenə də deyirəm, daxili istehsalın artırılmasından keçir. Biz buna bir neçə ildən sonra nail olacağıq. Ancaq hələ ki, müəyyən dərəcədə idxaldan asılıyıq. Baxmalıyıq ki, bizə gətirilən məhsullar yüksək

keyfiyyətə malik olsun. Çünki ərzaq təhlükəsizliyi insanların sağlamlığı deməkdir. Bizim insanlar təmiz, keyfiyyətli qida almalıdırlar, təmiz, keyfiyyətli su içməlidirlər.

Bu gün səhiyyə naziri də çıxışında dedi ki, səhiyyə sisteminin təkmilləşməsinə nə qədər böyük investisiyalar qoyulur. Nə qədər vəsait qoyulur və nə qədər gözəl nəticələr vardır. Dünya Səhiyyə Təşkilatı nailiyyətlərimizi çox böyük həvəslə qeyd edir və misal çəkir. Azərbaycanda bu sahədə görülən işlər doğrudan da bir örnək ola bilər. Diaqnostika mərkəzləri, rayon xəstəxanaları, mərkəzi xəstəxanalar, idman qurğuları tikilir, ekoloji tədbirlər görülür, içməli su layihələri icra edilir. Bu gün ekologiya və təbii sərvətlər naziri də bu barədə danışmışdır. Məişət tullantıları zavodu tikilir ki, havamız çirklənməsin.

Bütün bu addımlar insanın sağlamlığına birbaşa müsbət təsir göstərir. Bununla bərabər, keyfiyyətsiz ərzaq, əlbəttə ki, böyük təhlükə mənbəyidir. Mən hesab edirəm ki, bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Bir halda ki, bundan söz düşdü, bir məsələyə də diqqət yetirmək istəyirəm. Bizim televiziya kanallarımız, demək olar ki, onların hamısı indi belə verilişlər, yəni mətbəxlə, yeməklərin bişirilməsi, hazırlanması ilə bağlı verilişlər təqdim edir. Birincisi onu demək istəyirəm ki, bu da xaricdən gələn bir meyildir. O ölkələrdə ki, evlərdə yemək bişirilmir, onlar üçün bəlkə bu daha aktualdır. Təbii ki, Azərbaycanda evlərdə bişirilən yemək, indi istənilən restorandan daha da yaxşıdır, ləzzətlidir. Amma bu bir dəbdir, bizə də gəlib çatıbdır. Mən etiraz etmirəm, olsun. Bir şərtlə ki, orada göstərilən reseptlər və yeməklərin bişirilmə qaydaları insanların sağlamlığına mənfi təsir göstərməsin. Mən o verilişlərə hərdənbir baxıram və bəzi hallarda çox ürək ağrısı ilə görürəm ki, indi yağın içində üzən yeməklər təbliğ edilir. Axı olmaz. Bu yeməkləri gündə yeyən insan xəstələnəcəkdir. Nə qədər gülməlidirsə, bir o qədər də faciəvidir. Biz sağlam həyat tərzini təbliğ edirik. İnsanları pis vərdişlərdən çəkindirməyə çalışırıq, idmanı təbliğ edirik, siqaret çəkənə müsbət münasibət ola bilməz. Alkoqollu içkilərə aludə olanlar qınaq obyektinə

çevrilməlidir. Belə olan halda, bizim bəzi kanalların insanlara verdikləri təkliflər, əlbəttə ki, çox məyusedicidir.

Mən özəl kanalların siyasətinə qarışmaq fikrində deyiləm. Ancaq məsləhət verə bilərəm ki, insan orqanizmi üçün sağlam reseptləri daha çox tətbiq etsinlər.

Bu il məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılması istiqamətində çox dəyərli addımlar atılacaqdır. Bu il bu sahəyə ayrılan vəsait də rekord həddindədir. Bu il biz məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün 300 milyon manat ayırmışıq. İlin əvvəlində bu məbləğ 100 milyon manat ətrafında müəyyən edilmişdir. Sonra mənim təşəbbüsüm ilə biz bu rəqəmi üç dəfə artırdıq ki, hələ doğrudan da çətin vəziyyətdə yaşayan soydaşlarımızı daha tezliklə normal şəraitlə təmin edə bilək.

Bildiyiniz kimi, bu sahədə köklü dəyişikliklər baş vermişdir. Çadır şəhərcikləri artıq 5 ildir ki, ləğv edilibdir. Yeni evlər, qəsəbələr, yaşayış binaları, məktəblər və sair tikilir. Bütün bunlar haqqında kifayət qədər geniş məlumat verilir. Bu işləri daha da sürətləndirməliyik və beləliklə, 300 milyon manat Neft Fondundan ayrılır. Əsas vəzifə odur ki, biz bu məsələyə tezliklə və keyfiyyətlə nail olaq. Çünki bu məbləğ çox böyükdür. Yaxşı olardı ki, bu layihə ilin sonuna qədər tam şəkildə icra edilsin.

Bakının kənd və qəsəbələrinin inkişafı proqramı icra edilir. Bu məsələ ilə bağlı biz ayrıca yığışacağıq, danışacağıq. Deyə bilərəm ki, bu çox ciddi, vaxt baxımından çox məhdud proqramdır. Bu proqram 2013-cü ilin sonuna qədər icra edilməlidir. Çox böyük məsələlər vardır. İnfrastruktur, yollar, su-kanalizasiya xətləri, qazlaşdırma, elektrik xətləri, xəstəxanalar, tibb məntəqələri, məktəblər – yəni biz bütün qəsəbələrdə bu layihələri kompleks icra edirik. Burada da nəzarət həm Bakı Şəhər İcra Hakimiyyəti, həm İqtisadi İnkişaf Nazirliyi, hökumət tərəfindən olmalıdır. İşlər yüksək keyfiyyətlə aparılmalıdır.

Enerji təhlükəsizliyi ilə bağlı məsələlər Azərbaycanda uğurla həll edilir. Biz enerji təhlükəsizliyimizi çoxdandır ki, təmin

etmişik. Başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində iştirak edirik. Bu sahədə fəaliyyətimizi gələcəkdə də davam etdirəcəyik. Biz tərəfdaş ölkələrlə enerji təhlükəsizliyi ilə bağlı məsələləri qarşılıqlı maraqlar, qarşılıqlı mənfəət əsasında həll edəcəyik.

Bu gün Azərbaycan istər neft, istər qaz sahəsində çox önəmli, qlobal oyunçuya çevrilir, tərəfdaşlarımızın sayı artır. Əməkdaşlıq etdiyimiz ölkələrin sayı artmaqdadır. Azərbaycan bu sahədə çox etibarlı və çox gözəl tərəfdaş kimi tanınır. Biz bu sahədə fəaliyyətimizi davam etdirməyə hazırıq. Xarici bazarlara da çıxırıq. Xarici bazarlara da böyük investisiyalar qoyulur, ölkə daxilində də. Mən bizim enerji sahəsində fəaliyyət göstərən bütün qurumlara daim göstərişlər verirəm ki, ən böyük investisiyalar ilk növbədə Azərbaycana qoyulmalıdır, ondan sonra xarici bazarlara.

Birinci rübdə bu sahədə də çox vacib və deyə bilərəm ki, tarixi bir addım atıldı. Bakıda yeni neft-kimya, neftayırma və qaz emalı zavodlarının ilkin təqdimatı keçirildi. Bu layihələr üzərində Azərbaycan Dövlət Neft Şirkəti müəyyən müddətdir ki, işləyibdir. Bu layihələrin həyata keçirilməsi haqqında əvvəlki dövrdə mənim tərəfimdən göstərişlər verilmişdir. Hazırda bu göstərişlər artıq reallığa çevrilir. Bu sahəyə – sadaladığım yeni müəssisələrin yaradılmasına qoyulacaq investisiya milyardlarla ölçülür. Bəlkə, 10 milyard manatdan da artıq ola bilər.

Bu, gələcəyə yönəldilən investisiyalardır. Bu investisiyalar hesabına biz bu sahədə bütün işləri müasir səviyyədə qura biləcəyik.

Yeni böyük neftayırma zavodunun tikintisi bizə daha da keyfiyyətli məhsulun istehsalına şərait yaradacaqdır, ixrac potensialımız xeyli dərəcədə artacaqdır, uzun illər fəaliyyət göstərən iki neftayırma zavodunun fəaliyyətinin dayandırılmasına da gətirib çıxaracaqdır. Buna da böyük ehtiyac vardır. Yeni neftayırma zavodu tikilməyənə qədər bu iki zavod fəaliyyətini davam etdirəcəkdir. Çox istəyirəm ki, tezliklə yeni

neft emalı zavodu tikilsin. O zavodda ən müasir ekoloji standartlara uyğun yanacaq istehsal ediləcəkdir. Beləliklə, indiki zavodların əraziləri də abadlaşacaqdır. Çox güman ki, birinin ərazisi ümumi bulvarın genişlənməsinə veriləcəkdir. Dənizkənarı zolağı biz Zığa qədər davam etdirmək fikrindəyik. O biri zavodun ərazisində də – indi demək bəlkə də bir qədər tezdir – hesab edirəm ki, yeni, gözəl parkın yaradılması yerinə düşər. Biz, ümumiyyətlə, şəhərdə yeni parkların, meşə zolaqlarının yaradılmasına nail oluruq, buna böyük ehtiyac vardır. Harada mümkündür, park yaradılmalıdır.

İndi vaxtilə bəzi hallarda qanunsuz tikilmiş binaların köçürülməsi prosesi gedir. Bu məsələyə də toxunmaq istəyirəm. Bəzi hallarda bu məsələ ilə bağlı spekulyasiyalara yol verilir. Xüsusilə xarici mətbuatda. Bu da Azərbaycana qarşı bir növ qaralama kampaniyasının tərkib hissəsidir. Yalan məlumatlar verilir, böhtanlar yayılır. Təəssüf edirəm ki, özünü hörmətli mətbu orqanı sayan telekanallar, yaxud da ki, qəzetlər bu təxribata qarışırlar.

Azərbaycanda verilən kompensasiya ən yüksək səviyyədədir. Hər kvadratmetrinə görə 1500 manat vəsait ödənilir. Deyə bilərəm ki, kompensasiya alanların mütləq əksəriyyəti bu məbləğlərlə razıdırlar. Amma təxribatçı qüvvələr vardır ki, bundan öz məqsədlərinə çatmaq üçün istifadə etmək istəyirlər. Şəhərimizin ümumi abadlaşma prosesini hansısa tədbirlərlə bağlamaq istəyirlər. Bizim ümumi xəttimiz, siyasətimiz, şəhərsalma proqramlarımız vardır. Bakının inkişafı hansı istiqamətlərdə gedəcəkdir?! Bu barədə biz dəfələrlə danışmışıq, yığışmışıq. Mən Bakının yeni şəhərsalma konsepsiyasını təsdiq etmişəm. Bütün bu məsələlərə özüm baxmışam. Ona görə yenilik, quruculuq və köçürmə prosesləri artıq əvvəlki dövrdən müəyyən edilmiş qaydada aparılır. Bunun heç bir beynəlxalq tədbirlə əlaqəsi yoxdur. Biz nə qədər mümkündür hər yerdə parklar, yaşıllıq zolaqları salırıq. Şəhərin mərkəzindən köçürülən ərazilərdə avtomobil dayanacaqları, yeraltı avtomobil dayanacaqları yaradılır. Buna böyük ehtiyac vardır. Onun

üstündə gözəl yaşıllıq zolaqları, parklar, ictimai yerlər tikilir və biz bu siyasəti davam etdirəcəyik.

Su və kanalizasiya layihələrinin icrası bütün ölkə üzrə gedir. Hər bir yerdə, hər bir rayon mərkəzində işlər ya başlamışdır, yaxud da ki, bu yaxınlarda başlanacaqdır.

Ancaq burada bir məsələyə toxunmaq istəyirəm. Bu doğrudan da çox böyük layihədir. Şəhərlərimizin əksəriyyətində kanalizasiya sistemi, ümumiyyətlə, heç vaxt olmamışdır. İçməli su xətləri də heç vaxt olmamışdır. Yəni biz bunları sıfırdan yaradırıq. O cümlədən Bakıda içməli su problemi bu gün də vardır. Düzdür, biz bu problemi müəyyən dərəcədə yaxşılaşdırdıq, əminəm ki, yaxın iki il ərzində tamamilə aradan qaldıracağıq. Bakıda içməli su, keyfiyyətli su və kanalizasiya layihələrinin icrası uğurla gedəcəkdir.

Bölgələrdə isə bu layihə rayon mərkəzlərini, şəhərləri əhatə edir. Ancaq elə rayonlar var ki, əhalisinin 80–90 faizi kəndlərdə yaşayır. Elə rayonlar vardır ki, rayon mərkəzi ilə kəndlərdə yaşayan əhali əlli-əlliyə bölünür. Ona görə, biz bir qədər gələcəyə baxmalıyıq. İndi biz rayon mərkəzlərini, şəhərləri kanalizasiya və içməli su xətləri ilə təmin edəcəyik. Bəs kəndlərdə necə olacaqdır? Mən başa düşürəm, bilirəm, biz bütün bu investisiya imkanlarımızı götür-qoy edirik. Bu, böyük vəsait və texniki peşəkarlıq tələb edən layihədir. Ancaq biz buna da hazır olmalıyıq.

Birinci növbədə 2014-cü ilin sonuna qədər bütün şəhərlər və rayon mərkəzləri içməli su, kanalizasiya layihələri ilə təmin edilməlidir. Ancaq indidən hazırlıq işləri aparılmalıdır ki, rayon mərkəzlərinə yaxın yerləşən böyük yaşayış yerlərində də, kəndlərdə də bu layihələr icra edilsin. Burada modul tipli sutəmizləyici qurğulardan söhbət açılmışdır. Bu da bizim təşəbbüsümüz idi. Artıq yüz minlərlə insan bu layihələrin icrası nəticəsində təmiz su içir. Bu layihə daha da geniş vüsət almalıdır. Lazım gələrsə, bu il biz investisiyaları bir qədər artıra bilərik ki, çayların kənarında yerləşən kəndlərdə – təkcə Kür,

Araz çaylarından söhbət getmir – digər çayların yaxınlığındakı kəndlərdə də bu layihələr icra edilsin.

Xəzər dənizinin duzsuzlaşdırılması layihəsi başlayır. Bu da birinci təşəbbüsdür. Bildiyiniz kimi, bizim əsas su mənbələrimiz ölkəmizin hüdudlarından kənarda formalaşır. Belə olan halda Xəzər dənizinin suyundan istifadə etmək təbiidir. Baxmayaraq ki, bizim qonşu ölkələrlə əldə etdiyimiz razılaşmalar maraqlarımızı tam şəkildə təmin edir və su qıtlığı heç vaxt olmayacaqdır. Yeni rezervuarlar tikilir. Taxtakörpü su anbarı bu istiqamətdə atılan çox böyük addımdır. Şəmkirçay su anbarı həm meliorasiya, həm də içməli su məsələlərini təmin edəcəkdir. Ancaq eyni zamanda, biz Xəzər dənizinin suyundan da istifadə etməliyik. Burada da dünya praktikası vardır. Biz bu praktikanı tətbiq etməliyik. Mən pilot layihənin icrasını gözləyirəm. Hesab edirəm ki, pilot layihədən dərhal sonra genişmiqyaslı işlər aparılmalıdır. İlk növbədə suvarma üçün, ondan sonra lazım olarsa, içməli su məsələlərinin həlli üçün də biz bundan istifadə etməliyik.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu da hesab edirəm ki, indiki zamanda çox aktualdır – informasiya təhlükəsizliyi. Biz enerji, ərzaq təhlükəsizliyi haqqında geniş danışırıq. Bu çox vacibdir. İnformasiya təhlükəsizliyi də indiki dövrdə çox vacibdir. Çünki mən hesab edirəm ki, bu sahədə hələ çox işlər görülməlidir. Müxtəlif istiqamətlər üzrə işlər görülməlidir. Biz internet dövründə yaşayırıq. Bu reallıqdır və biz bu reallığa hazırıq. Azərbaycan o ölkələrdəndir ki, burada azad internet vardır. Bunu bəzən bizi tənqid etmək istəyənlər unutmasınlar.

İnternet istifadəçilərinin sayı getdikcə artır, 50 faizdən çoxdur. Biz indi hər bir kəndə, hər bir yaşayış məntəqəsinə genişzolaqlı internetin çəkilməsinə çalışırıq və buna nail olacağıq. İnformasiya təhlükəsizliyi məsələləri daha da çox aktuallaşır. Çünki qlobal informasiya məkanında informasiyalarla bərabər, təxribatlar da kifayət qədər çoxdur. Bu təxribatlar bəzi hallarda açıq, bəzi hallarda məxfi, yəni gizli xarakter daşıyır.

Bizə qarşı informasiya müharibəsi aparılır. Bu həqiqətdir. Mən buna tam əminəm, bu barədə iki fikir ola bilməz. Bu informasiya müharibəsinin aparılması işində, əlbəttə ki, ilk növbədə, erməni lobbisi öz fəallığı ilə seçilir. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycanı geridə qalmış, antidemokratik ölkə kimi dünyaya təqdim etmək cəhdləri, ilk növbədə, erməni lobbisinin çirkin əməllərindən qaynaqlanır.

Onların təsir dairəsi kifayət qədər genişdir. Onlar müxtəlif ölkələrin aparıcı mətbu orqanlarında təmsil olunurlar. Bəzən başqa familiyalarla təmsil olunurlar, öz mənşələrini gizlədirlər. Bu indi ikinci məsələdir. İnsan öz milli mənsubiyyətini gizlətməməlidir. İstənilən insan öz milli mənsubiyyəti ilə fəxr etməlidir. Amma onlar başqa ölkələrdə nədənsə bu sahədə də seçilirlər.

Bəzi hallarda Azərbaycana qarşı açıq şəkildə kampaniya aparırlar və çalışırlar ki, Azərbaycanın imicinə koordinasiya edilmiş şəkildə xələl gətirsinlər. Onların fəaliyyəti məqsəd-yönlüdür və bu gün erməni lobbisi üçün bir nömrəli hədəf Azərbaycandır. Bizim üçün də, bir daha demək istəyirəm ki, bir nömrəli düşmən erməni lobbisidir. Biz bu mübarizəyə də hazır olmalıyıq.

Son illər ərzində biz vəziyyəti böyük dərəcədə öz xeyrimizə dəyişdirə bilmişik. Azərbaycanın diaspor təşkilatları, bizim sağlam qeyri-hökumət təşkilatlarımız, Azərbaycanın xaricdəki səfirlikləri, bizim ictimaiyyətimiz, xarici mətbuata çıxış imkanlarımız və mövqemiz güclənir. Ancaq hələ ki, biz reallıqları da nəzərə almalıyıq. Erməni lobbisi Avropada və başqa ölkələrdə, böyük ölkələrdə onilliklər, bəlkə əsrlər boyu fəaliyyət göstərir, təşkilatlanmış çox aqressiv və mənfi bir qüvvədir. Bizə qarşı, necə deyərlər, mənfi informasiyanın təkanvericisi erməni lobbisidir. Erməni lobbisinin təsiri altında olan, onların çirkli pulları ilə dolanan bəzi ölkələrin siyasi xadimləridir. Biz onların adlarını bilirik, onları tanıyırıq. Onların qondarma «Dağlıq Qarabağ respublikası»na səfərlərinin

sayına baxmaq kifayətdir ki, hər bir adam bilsin, nə üçün onlar oraya gedirlər. Bu, ikinci qüvvədir.

Üçüncü qüvvələr – əfsuslar olsun ki, bəzi ölkələrdə islamofobiya meyilləri güclənir. Bu da reallıqdır. Çox mənfi reallıqdır, ancaq reallıqdır. Biz də bu reallıqla hesablaşmalıyıq. İslamofobiya meyilləri gücləndikcə müsəlman ölkələrinə münasibət də mənfiyə doğru istiqamətdə gedir. Biz bunu bilməliyik və deməliyik. İslamofobiya xəstəliyinə yoluxmuş siyasətçilərin sayı artmaqdadır. Bu qüvvələr müsbət mənada seçilən, öz müasirliyi, müstəqil siyasəti ilə fərqlənən, islam dəyərlərinə sadiq olan ölkə kimi, Azərbaycanı görəndə, əlbəttə ki, sevinmirlər, məyus olurlar. Biz bu amili də daim nəzərdə saxlamalıyıq və çalışmalıyıq ki, bu vəziyyəti öz siyasətimizlə xeyrimizə dəyişdirək.

Azərbaycanda bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycanda multikulturalizm yaşayır. Bunu biz yaşadırıq və yaşadacağıq. Multikulturalizmin iflasa uğradığını deyən siyasətçilər islamofobiya dəyirmanına su tökmüş olurlar. Bu çox təhlükəli meyildir. XX əsrdə buna bənzər meyillərin nəyə gətirib çıxardığını biz unutmamışıq.

Bizə qarşı informasiya müharibəsi aparan digər qüvvələr sadəcə olaraq, Azərbaycanın müstəqil siyasətini qəbul etməyənlərdir. Onlara elə gəlir ki, Azərbaycan kimi ölkə müstəqil siyasət aparmamalıdır. Kiminsə qanadının altına keçməlidir və müstəqil siyasətə malik olmamalıdır. Elə qüvvələr də vardır ki, biz onları tanıyırıq. Onların Azərbaycana qarşı gizli mübarizəsi gedir. Bu mübarizəni bəzi hallarda onlar açıq şəkildə yox, qorxaqcasına informasiya məkanında aparırlar.

Əlbəttə ki, Azərbaycanın müstəqil siyasəti, hər bir beynəlxalq məsələ ilə bağlı qəti mövqeyi və bu mövqenin güclü olması dünya birliyi tərəfindən Azərbaycana göstərilən böyük hörmətdir. BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz bizim böyük təntənəmizdir, zəfərimizdir. Bizi 155 ölkə dəstəklədi. Budur dünya ictimaiyyəti. Dünya ictimaiyyəti hansısa

regional təşkilat deyildir. Dünya ictimaiyyəti BMT-dir. BMT də bizi dəstəkləyir.

Əlbəttə, bizim müstəqil siyasətimizi qəbul etməyən qüvvələr vardır. Onları bizim siyasətimiz qıcıqlandırır. Onlar çalışırlar ki, yeni imkanlardan istifadə edib informasiya təxribatları ilə məşğul olsunlar, yalan, böhtan xarakterli məlumatları ötürsünlər. Mətbuat hazırda nəinki informasiya mənbəyidir, eyni zamanda, təxribat mənbəyidir. Əfsuslar olsun ki, bu belədir. Biz isə öz növbəmizdə buna hazır olmalıyıq. Biz hazırıq. Hər bir əsassız hücuma biz cavab verməliyik, veririk və verəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan öz yolu ilə gedir. Bizə qarşı informasiya təxribatları əfsuslar olsun ki, dediyim faktlarla məhdudlaşmır. Elə qüvvələr vardır ki, bölgədə vəziyyəti qarışdırmaq istəyirlər. Elə qüvvələr vardır ki, Azərbaycanı öz qonşuları ilə üz-üzə qoymaq istəyirlər. Burada da informasiya təxribatlarından istifadə edilir. Başqa necə istifadə edə bilərlər?! Mümkün deyildir. Çünki qonşularımızla əlaqələrimiz tarixi köklərə söykənir. Biz bütün qonşularla – Ermənistan təbii ki, istisna olmaqla – normal, yaxşı dostluq münasibətləri yaratmışıq və bu dostluq münasibətlərini gücləndiririk, gücləndirəcəyik. Heç bir qonşumuzla problemimiz yoxdur.

Azərbaycan heç vaxt başqa ölkələrin planlarında iştirak etməyəcəkdir. Mən bunu dəfələrlə demişəm. Hələ prezidentlik dövrümün əvvəlində demişəm. Azərbaycan qarşıdurma arenasına çevrilməyəcəkdir. Kim istəyir Azərbaycanı qarşıdurma arenasına çevirsin, getsin başqa yer axtarsın. Biz heç vaxt imkan verə bilmərik ki, ərazimizdən qonşulara qarşı hansısa mənfi planlarda istifadə edilsin və bunu hamı bilir. Belə olan halda yenə gəlir informasiya təxribatı məsələləri. Mötəbər, dünya səviyyəli mətbu orqanlarda çirkin yalanlar dərc edilir. Sonra bu yalanları təsir altında olan digər mətbu orqanlar yayır. Beləliklə, rəy formalaşır. Yaxud da ki, formalaşdırmağa

çalışırlar ki, Azərbaycan bölgədə hansısa başqa planlara malikdir.

Bizim bir istəyimiz var ki, bölgədə sülh, sabitlik, əmin-amanlıq olsun. Qonşularla münasibətlər prioritet xarakter daşıyır. Biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Mən qonşulardan da Azərbaycana ancaq müsbət münasibət görürəm və buna çox şadam. Ona görə biz bunu bilməliyik, bu barədə açıq deməliyik və buna qarşı biz öz prinsipial mövqemizi qoymalıyıq və qoyuruq.

Nəhayət, «Eurovision» mahnı müsabiqəsi ilə bağlı ölkəmizə qarşı mətbuatda çirkin kampaniya əfsuslar olsun ki, davam edir. Biz bu kampaniyanın arxasında hansı qüvvələrin dayandığını yaxşı bilirik. Yaxşı bilirik ki, hansı ölkənin mətbuatında bu kampaniya daha sürətlə gedir. Elə ölkələr var ki, orada nəinki hər həftə, hər gün Azərbaycan ilə bağlı çirkin, böhtan xarakterli yazılar gedir. Təbii ki, bu, əlaqələndirilmiş şəkildə aparılan bir siyasətdir. Ancaq bu siyasətin heç bir nəticəsi yoxdur və olmayacaqdır. Çünki bizim siyasətimizə təsir edə biləcək qüvvə yoxdur və nə qədər ki, mən bu kürsüdəyəm, heç vaxt olmayacaqdır. Biz öz yolumuzla gedəcəyik. Müstəqillik yolumuzla, azadlıq yolumuzla gedəcəyik!

Azərbaycanda bütün azadlıqlar vardır. Bizi bəzi hallarda nədəsə, yəni antidemokratik addımlarda ittiham etmək istəyənlər getsinlər öz ölkələrində nə baş verdiyini görsünlər. Orada hər gün, hər həftə nümayişə çıxan insanlar döyülür, əzilir, onların başı partlayır, yüzlərlə nümayişçi həbs edilir. Bu o ölkələrdir ki, onların bəzi mətbu orqanları Azərbaycana qarşı çirkin kampaniya aparır. Yaxşı atalar sözü var bizdə, deyir: «Öz gözündə tiri görmür, başqasının gözündə tükü seçir». Bax, yerinə düşər bu atalar sözü.

İndi bütün Azərbaycan ictimaiyyəti bunu da gördü ki, ölkəmizdə sərbəst toplaşmaq azadlığı vardır. Əgər bütün bu imkanlardan istifadə etmək istəyənlər normal davranış qaydalarını gözləsələr, şəhər meriyasının göstərdiyi yerdə öz tədbirlərini keçirsələr, onda sərbəst toplaşmaq hüququndan

yararlana bilərlər. Mən hesab edirəm ki, şəhər meriyası çox müdrik addımlar atıbdır və nümayişlər, mitinqlər üçün ən məqbul, yəni o insanlar üçün ən məqbul və onlara yaraşan yeri seçibdir. O yerdə istənilən tədbiri keçirmək mümkündür. Bu tədbirlər məhz o yerdə keçirilməlidir.

O ki qaldı bizim gələcək planlarımıza, bir daha demək istəyirəm ki, biz inamla qabağa gedirik. Bizə qarşı təxribatlar bundan sonra da olacaqdır. Bizə qarşı informasiya mübarizəsi bundan sonra da aparılacaqdır. Bu bizi narahat etmir. Sadəcə olaraq, biz bu barədə danışmalıyıq, öz tədbirlərimizi görməliyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin etməliyik.

## HİNDİSTANIN TİCARƏT VƏ SƏNAYE NAZİRİ VƏ AZƏRBAYCAN–HİNDİSTAN BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ CYOTİRADİTYA SİNDİAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hindistan Respublikasının Ticarət və Sənaye naziri, Azərbaycan–Hindistan ticari, iqtisadi, elmi və texnoloji əməkdaşlığa dair Birgə Hökumətlərarası Komissiyanın həmsədri Cyotiraditya Sindianı qəbul etmişdir.*

*Cyotiraditya Sindia Hindistan prezidenti Pratibha Patilin və Baş nazir Manmohan Sinqxin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələri əhatə etdiyini deyən hindistanlı nazir iqtisadi və mədəni sahələrdə əlaqələrimizin qədim tarixə malik olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan–Hindistan ticari, iqtisadi, elmi və texnoloji əməkdaşlığa dair Birgə Hökumətlərarası Komissiyanın sessiyasının keçirilməsinin iqtisadi sahədə əlaqələrimizin genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi üçün yaxşı fürsət yaratdığını dedi. Prezident İlham Əliyev Azərbaycan ilə Hindistan arasında informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, əczaçılıq, enerji, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Hindistan prezidenti Pratibha Patilin və Baş nazir Manmohan Sinqxin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Hindistanın dövlət başçısına və Baş nazirə çatdırmağı xahiş etdi.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Polşa münasibətləri bu gün dinamik inkişaf yolundadır. Siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın yüksək səviyyəsi məmnunluq doğurur. Avropa İttifaqının həyata keçirdiyi «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində, eləcə də enerji təhlükəsizliyinin təmin olunması istiqamətində qarşılıqlı işimiz ikitərəfli əlaqələrimizin əhatə dairəsini daha da genişləndirməkdədir.

Əminəm ki, Azərbaycan–Polşa əlaqələrinin mövcud potensialından daha səmərəli istifadə olunması, əməkdaşlığımızın inkişaf perspektivlərinin reallaşdırılması üçün bundan sonra da səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2012-ci il*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də bp şirkətinin icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzun illər həyata keçirilən uğurlu əməkdaşlıq məmnunluqla qeyd olundu.*

*bp şirkətinin icraçı direktoru Robert Dadli «Şahdəniz» yatağının işlənilməsi layihəsinin 2-ci fazası və icrada olan digər layihələrin gedişi barədə Azərbaycan prezidentinə məlumat verdi.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ XƏLİL AKINCI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Xəlil Akıncını qəbul etmişdir.*

*Görüşdə türkdilli ölkələr arasında əlaqələrin ikitərəfli və çoxtərəfli formatda daha da möhkəmlənməsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının həyata keçirdiyi tədbirlərin önəmi qeyd olundu, təşkilatın fəaliyyətinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU JOZE QRATSİANO DA SİLVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Joze Qratsiano da Silvanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında uğurlu əməkdaşlıqdan məmnunluğunu bildirən dövlətimizin başçısı təşkilatın Avropa üzrə 28-ci regional konfransının Bakıda keçirilməsinin bu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev konfransın uğurlu keçəcəyinə və nümayəndə heyətinin Azərbaycanı yaxından tanıması üçün tədbirin yaxşı fürsət yaradacağına əminliyini ifadə etdi.*

*BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Joze Qratsiano da Silva tədbirdə dünyanın 50-dən artıq region ölkəsindən 46-nın yüksək səviyyədə təmsil olunmasını konfransa olan marağın nəticəsi kimi qiymətləndirdi. O bildirdi ki, tədbirin əsas məqsədlərindən biri kənd təsərrüfatının inkişaf etdirilməsi üzrə prioritetlərin müəyyənləşdirilməsidir. Baş direktor konfrans çərçivəsində nazirlərin «dəyirmi masa»sında ərzaq təhlükəsizliyinə dair məsələlərin də müzakirə olunacağını qeyd etdi.*

*Joze Qratsiano da Silva Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

## UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Ukrayna Ali Radasının Sədri Vladimir Litvinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və əməkdaşlığımızın yaxşı nəticələr verdiyini vurğuladı. İqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd edən prezident İlham Əliyev parlamentlərarası əlaqələrin razılıq doğurduğunu dedi. Ölkələrimizin parlament nümayəndə heyətlərinin beynəlxalq strukturlarda, o cümlədən Avropa Şurasındakı fəaliyyətinin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu yaxınlarda Avronest Parlament Assambleyasının sessiyasının Bakıda keçirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin parlamentlərinin «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində də uğurlu əməkdaşlıq etdiyini və bu əməkdaşlığın Azərbaycan–Ukrayna çoxtərəfli əlaqələrinin genişləndirilməsi işinə töhfə verdiyini dedi.*

*Ukrayna Ali Radasının Sədri Vladimir Litvin Azərbaycana səfərindən və prezident İlham Əliyev ilə görüşündən böyük şərəf hissi keçirdiyini dedi, Ukraynanın ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da dərinləşməsində maraqlı olduğunu vurğuladı, Ukrayna ilə Azərbaycan arasında parlamentlərarası əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

# QEYDLƏR

**1. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı

xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 9, 17, 102, 104, 122, 123, 134, 162, 181, 182, 212–213, 215, 216, 241, 245, 246, 247, 248, 255, 256, 259, 298.

**2. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 5, 21.

**3. Tokay Məmmədov,** T o k a y H ə b i b o ğ l u (d.1927) – Azərbaycan heykəltəraşı. Azərbaycanın Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, professor. Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin sədri (1970–72) olmuşdur. Heykəltəraşlığın müxtəlif janrlarında – monumental abidə, portret, büst, qorelyef və s. əsərlər yaradır. Monumental heykəltəraşlıq T.Məmmədovun yaradıcılığında mühüm yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 6, 7, 9.

**4. Zivər bəy Əhmədbəyov,** Z i v ə r b ə y G ə r a y b ə y o ğ l u (1873–1925) – Azərbaycan memarı. Zivər bəy ali təhsil almış ilk azərbaycanlı memardır. 1918–22-ci illərdə Bakının Baş memarı olmuşdur. Göyçayda məscid (1906), Şamaxıda İmam məscidi (1909), BakıdaTəzəpir məscidi, Göy məscid (1912–13), Bakı və Şamaxıda bir sıra yaşayış evlərinin layihələrini vermişdir. Zivər bəy Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirmişdir. – 6.

**5. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 6.

**6. Babək,** B a b ə k ə l – X ü r r ə m i (795/798–838) – Babək hərəkatının (816–38) rəhbəri, görkəmli Azərbaycan sərkərdəsi. Babək xürrəmilərə qoşulmuş, Azərbaycanda azadlıq hərəkatına başçılıq etmişdir. Babəkin başçılığı ilə 20 ildən çox davam edən mübarizə Xilafətin ordusunu dəfələrlə darmadağın etmiş, Xilafəti zəiflətmiş və onun parçalanmasını sürətləndirmişdi. Lakin o, Şəki hakimi Səhl ibn Sumbatın xəyanəti nəticəsində ələ keçirilmiş və Samirə şəhərində edam olunmuşdu. – 6.

**7. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 6.

**8. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m- m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını,

təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. – 6.

**9. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın

Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 18, 26, 52, 93, 94, 102, 122, 126, 127, 134, 136, 138, 141, 142, 155, 159, 162, 212–213, 270, 274, 281–282, 283, 286, 292, 293, 299.

**10. Nizami Cəfərov,** Nizami Qulu oğlu (d.1959) – filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının akademiki. Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.– 8, 298, 299.

**11. Anar,** Rzayev Anar Rəsul oğlu (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Xalq yazıçısı. 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və komissiya sədri olmuşdur. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal», «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 8–9.

**12. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 10, 17, 18, 19, 25, 94, 102, 122, 134, 162, 212–213.

**13. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 11, 17, 19, 52, 59, 60, 61, 62, 81, 111, 112, 124, 143, 155, 156, 171, 184, 194, 210, 235, 236, 252, 262, 328, 329, 344, 345.

**14. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı

öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 11–12, 16–19, 55–57, 58, 147, 158, 236, 328.

**15. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 13, 19, 54–62, 237.

**16. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 13.

**17. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2.780 min km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayres şəhəridir. – 14, 66.

**18. Kristina de Kirşner** (d.1953) – 2007–2015-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 14.

**19. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 15.

**20. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 17, 190, 245, 265.

**21. Oqtay Əsədov,** Oqtay Sabir oğlu (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 17, 229.

**22. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının

üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 17, 245, 265.

**23. Leyla Əliyeva,** L e y l a   İ l h a m   q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 17, 18.

**24. Pakistan,** P a k i s t a n   İ s l a m   R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 19, 52, 53, 73, 158.

**25. Yəmən,** Y ə m ə n   R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 528 min km$^2$, əhalisi 25,4 milyon nəfərdir. İnzibati ərazisi 22 mühafazaya bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Sana şəhəridir. – 20.

**26. Abdurabbih Hadi** (d.1945) – Yəmənin dövlət xadimi. 2012–2015-ci illərdə Yəmən Respublikasının Prezidenti olmuşdur. – 20.

**27. Serbiya,** S e r b i y a   R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin

başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 21–22, 172.

**28. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 23.

**29. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 33, 50, 58, 60, 91, 96, 111, 124, 130, 156, 158, 171, 183, 184, 194, 210, 235, 236, 241, 253, 261, 262, 327.

**30**. **Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 54,56,58, 81,102,309.

**31. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qal-

dırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 62, 81, 111.

**32. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İqtisadi Əmək-daşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 63, 68.

**33. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktoru. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 64, 190.

**34. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 65, 82.

**35. Qətər,** Qətər dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmirdir, Paytaxtı Doha şəhəridir. – 67.

**36. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri olmuşdur. O, 1997-ci ildə regionda ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. – 67.

**37. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan

daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 68.

**38. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq Qadınlar Gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlamışdır. – 69–70.

**39. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 71.

**40. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 71, 80, 81, 149, 150, 207, 223, 224, 243, 266, 310, 316.

**41. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati

cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 72, 78.

**42. Bronislav Komorovski** (d.1952) – Polşanın siyasi xadimi. 2010–2015-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 72, 78.

**43. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 73.

**44. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 74.

**45. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstan Respublikasının Prezidenti olmuşdur. – 74.

**46. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min $km^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 75.

**47. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min $km^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 76.

**48. Zillur Rəhman (**1929–2013) – Banqladeşin siyasi və dövlət xadimi. 2009–2013-cü illərdə Banqladeş Xalq Respublikasının Prezidenti olmuşdur. – 76.

**49. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min $km^2$, əhalisi 11 milyon nəfərdir.

Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 77.

**50. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 83–96, 237, 310, 315.

**51. Mixeil Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 83–96.

**52. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır. – 110, 113, 120, 124, 228, 229, 230, 231, 233, 251.

**53. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbay-

can nümayəndə heyəti fəal iştirak edir. – 124,235,236, 261,262.

**54. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 109, 124, 251, 261, 262

**55. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 126, 302.

**56. Mübariz İbrahimov,** Mübariz Ağakərim oğlu (1988–2010) – Milli Qəhrəman. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin giziri Mübariz İbrahimov Tərtər bölgəsində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. – 154–155.

**57. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 170.

**58. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 170.

**59. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i- k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 171, 179, 304.

**60. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni «Beynəlxalq Novruz günü» elan etmişdir. – 173–174, 180–189.

**61. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici

orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 190–196.

**62. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 191, 193.

**63. Seneqal,** S e n e q a l  R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 196,7 min km$^2$, əhalisi 13,3 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakar şəhəridir. – 197.

**64. Qırğızıstan,** Q ı r ğ ı z  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 198–215, 310.

**65. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 108, 202, 203.

**66. Turgenev,** İ v a n  S e r g e y e v i ç (1818–1883) – rus realist yazıçısı, şair, publisist, dramaturq, tərcüməçi. XIX əsrin 2-ci yarısında rus ədəbiyyatının inkişafında mühüm rol oynamış klassiklərdən biri. Rus dilçiliyi və ədəbiyyatşünaslıq üzrə İmperator Akademiyasının müxbir üzvü, Oksford Universitetinin həqiqi üzvü olmuşdur. – 207.

**67. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma Papası olmuşdur. – 221.

**68. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 221.

**69. Danimarka,** D a n i m a r k a K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagen şəhəridir. – 222.

**70. II Marqrete** (d.1940) – 1972-ci ildən Danimarka Krallığının Kraliçası. Kral IX Frederikin qızıdır. – 222.

**71. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 223.

**72. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 243.

**73. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqa şəhəridir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 245–265, 316.

**74. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 245–265.

**75. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Xüsusi məqsədli dövlət qurumudur. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin etməkdir. – 270, 322, 358.

**76. Səməd Vurğun,** Səməd Yusif oğlu Vəkilov (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 283, 293, 294, 295.

**77. Mehdi Hüseyn,** Hüseynov Mehdi Əli oğlu (1909–1965) – tanınmış Azərbaycan yazıçısı, tənqidçi və ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. Azərbaycan Yazıçılar İttifaqının katibi və Birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 293.

**78. İsmayıl Şıxlı,** İsmayıl Qəhrəman oğlu (1919–1995) – Azərbaycan Yazıçılar İttifaqının Birinci katibi, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 293.

**79. İsa Hüseynov,** Hüseynov İsa Mustafa oğlu (1928–2014) – Xalq yazıçısı, Əməkdar incəsənət xadimi. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur. Onlarla povest və roman müəllifidir. – 298.

**80. Osman Sarıvəlli,** O s m a n A b d u l l a o ğ l u Q u r- b a n o v (1905–1990) – Xalq şairi. Əsasən lirik şeirlər yazmışdır. Yaradıcılığında Cənubi Azərbaycana həsr etdiyi lirik şeirlər xüsusi yer tutur. – 298.

**81. V a q i f,** M o l l a P ə n a h V a q i f (1717–1797) – görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şeirlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Vaqif şeirindəki realizmə meyil Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) Baş vəziri olmuşdur. – 298.

**82. Vidadi,** M o l l a V ə l i (təqr.1709–1809) – Azərbaycan şairi. Ədəbi irsinin az qismi məlumdur. Feodal zülmündən, xanlıqlar dövrünün hərc-mərcliyindən doğan kədər və ümidsizlik, mənəvi tənhalıqdan şikayət Vidadi yaradıcılığının əsas motivləridir. Vidadi lirikası yüksək bədii sənətkarlıq nümunəsidir. – 298.

**83. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 312.

**84. Şimon Peres** (1923–2016) – İsrail siyasətçisi və dövlət xadimi. 2007–2014-cü illərdə İsrailin prezidenti olmuşdur. «Avoda» Partiyasının yaradıcısı və lideri idi. – 312.

**85. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$,

əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 313.

**86. II Beatriks** (d.1938) – 1980–2013-cü illərdə Niderland Krallığının Kraliçası olmuşdur. – 313.

**87. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 55 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Pretoriya şəhəridir. – 314.

**88. Ceykob Zuma** (d.1942) – Cənubi Afrika Respublikasının siyasi xadimi, 1999–2005-ci illərdə CAR-da vitse-prezident, 2005-ci ildən CAR Milli Konqresinin sədri, 2009-cu ildən CAR-ın Prezidentidir. – 314.

**89. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 226,319.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 208
**Abutalıbov Hacıbala** – 64,190
**Ajibalis Audronyus** – 226,245
**Ağazadə Gövhər** – 154
**Ahlers Teodor** – 82
**Aksanov** – 207
**II Albert** – 170
**Anar** – 8–9
**Annan Kofi** – 253
**Atambayev Almazbek** – 198–215
**Atambayeva Raisa** – 198,212
**Atlıxanova Albina** – 208
**Azarov Nikolay** – 244
**Babək** – 6
**Barat Vüsal** – 292–293
**Beatriks** – 313
**XVI Benedikt** – 221
**Besesku Trayan** – 23
**Bradtken Robert** – 81
**Böhm Tomaş** – 249
**Bülbül** – 6
**Camali Mir Can** – 52
**Cəfərov Nizami** – 8,298,299
**Çaçiç Radimir** – 108,113
**Çelidze Zaza** – 87
**Çiriç Neboyça** – 172
**De Kirşner Kristina** – 14
**Degercan Yüksel** – 54–62
**Divats Vlade** – 21–22
**Əhmədbəyov Zivərbəy** – 6

**Əl-Mərzuqi Munsef** – 77
**Əl-Tani Həməd** – 67
**Əliyev Heydər** – 6,18,26,52,93,94,102,122, 126,127,134,136,138,141,142, 155,159,162,212–213,270,274, 281–282,283,286,292,293,299
**Əliyeva Leyla** – 17,18
**Əliyeva Mehriban** – 5,9,17,102,104,122,123,134, 162,181,182,212–213,215, 216,241,245,246,247,248, 255,256,259,298
**Əliyeva Nigar** – 148–149
**Əliyev Yalçın** – 149
**Əmirov Fikrət** – 6
**Ərdoğan Rəcəb Tayyib** – 13
**Əsədov Oqtay** – 17,229
**Əsgərov Ayaz** – 271
**For Jak** – 81
**Fota Vulian** – 23
**Füle Ştefan** – 228
**Hacıbəyli Üzeyir** – 5,21
**Hadi Abdurabbih** – 20
**Hanakova Alena** – 249
**Heydərli Firdovsi** – 290–291
**Həsənov Cəbrayıl** – 127
**Həsənova Aliyə** – 134
**Həsənzadə Nəriman** – 298
**Həsənzadə Şahinə** – 300
**Higgins Maykl** – 75
**Hüseyn Arif** – 298
**Hüseynov İsa** – 298
**Hüseynov Samir** – 299
**Xalikov İldar** – 80
**İbrahimov Mübariz** – 154–155
**İsmayılov Nazim** – 108

**İsmayıl Şıxlı** – 293
**Kapitsa Sergey** – 10
**Kasprşik Anji** – 81
**Kazakbayev Ruslan** – 202,203
**Kərimov Tahir** – 168
**Kim Yun-Okun** – 193
**Klaus Vatslav** – 245–265
**Klausova Livia** – 247,248
**Klisoviç Yoşko** – 108
**Komorovski Bronislav** – 72,78
**Koroğlu** – 5–9
**Kuprin** – 207
**Kurbanbekov Bermet** – 208
**Qarayev Əbülfəs** – 249,315
**Qarayev Qara** – 6
**Qasımova Cığatel** – 297,298
**Qauk Yoaxim** – 179
**Qrozaliyev Vitali** – 202
**Quliyev Məhərrəm** – 281
**Quliyev Məmmədsadıq** – 138
**Qurbanzadə Uğur** – 152–153
**Laqos Rikardo** – 79
**Lavrov Sergey** – 243
**Levitin İqor** – 224
**Li Men Bak** – 191,193
**Lukeş Mixal** – 249
**II Marqrete** – 222
**Matviyenko Valentina** – 266
**Mitteran Frederik** – 102
**Medvedev Dmitri** – 223
**Mehdi Hüseyn** – 293
**Mehdiyev Ramiz** – 17,245,265
**Məmmədov Şaiq** – 114
**Məmmədov Tokay** – 6,7,9
**Məmmədyarov Elmar** – 108,202,203

**Mikuriya Kunio** – 318
**Mohamad Mahathir** – 68
**Mustafazadə Könül** – 149–150
**Neças Petr** – 263
**Nemtsova Miroslava** – 257
**Nikoliç Draqan** – 113
**Osman Sarıvəlli** – 298
**Papulyas Karolos** – 74
**Paviç Milorad** – 22
**Peres Şimon** – 312
**Popov İqor** – 81
**Putin Vladimir** – 71
**Rzayev Baba** – 175
**Rasizadə Artur** – 17,190,245,265
**Rəhimov Azad** – 87
**Rəhman Zillur** – 76
**Rinkeviçs Edqars** – 15
**Saakaşvili Mixeil** – 83–96
**Salahov Tahir** – 9
**Sall Məkki** – 197
**Sassu-Nqesso Deni** – 97
**Səməd Vurğun** – 283,293,294,295
**Svanberq Karl-Henrik** – 99
**Şahin İdris** – 13
**Şirzadova Sevinc** – 158–159
**Ştex Milan** – 255
**Tadiç Boris** – 21,172
**Tağızadə Tahir** – 249
**Tesla Nikola** – 22
**Timerman Hektor** – 66
**Timofti Nikolaye** – 178
**Tulebayev Balbak** – 209
**Turgenev** – 207
**Tuomioya Erkki** – 225
**Usubov Ramil** – 202

**Vaqif** – 294,298
**Vardzelaşvili Vladimir** – 87
**Vayn Xalid** – 53
**Vestervelle Guido** – 171
**Vəliyev Arif** – 87
**Vidadi** – 298
**Vigeni Kristian** – 227
**Yankovski Kamil** – 249
**Yanukoviç Viktor** – 244
**Yefimiyeviç-Drinyakoviç Bişerka** –172
**Yosipoviç İvo** – 104–125
**Yosipoviç Tatyana** – 104,122,123
**Zatlers Valdis** – 15
**Zuma Ceykob** – 314
**Zərdari Asif** – 73

## Coğrafi adlar göstəricisi


**Ağcabədi** – 41
**Ağstafa** – 281–306
**Almaniya** – 171,179,304
**Amerika Birləşmiş Ştatları** – 81,91
**Aralıq dənizi** – 120,121,237
**Argentina** – 14,66
**Asiya** – 121,210,237,238
**Astara** – 126–137,140,146
**Avropa** – 19,33,58,89,91,111,113, 120,121,210,237,238
**Balkan(yarımada)** – 21,111
**Baltik dənizi** – 15
**Banqladeş** – 76
**Belqrad** – 21,22
**Belçika** – 170
**Biləsuvar** – 140
**Böyük Britaniya** – 19
**Brazzavil** – 97
**Cəlilabad** – 140
**Cənubi Afrika** – 314
**Cənubi Qafqaz** – 309,310
**Çexiya** – 245–265,316
**Çili** – 79
**Dağlıq Qarabağ** – 11,17,19,52,59, 60,61,62,81, 111,112,124,143,155,156, 171,184,194,210,235,236, 252,262,328,329,344,345
**Danimarka** – 222
**Dubay Əmirliyi** – 316

**Finlandiya** – 225
**Fransa** – 54,56,58,81,102,309
**Gəncə** – 46,150
**Göyçə** – 61
**Göytəpə** – 308–310
**Gürcüstan** – 83–96,237,310,315
**Haaqa** – 98
**Hindistan** – 316
**Xankəndi** – 11,17
**Xatin** – 17
**Xəzər dənizi** – 15,106,111,189,237,238,342
**Xocalı** – 11–12,16–19,55–57,58,147, 158,328,236
**Xorvatiya** – 104–125
**İrəvan xanlığı** – 61
**İrlandiya** – 75
**İsrail** – 312
**İzmir** – 59
**Jeleznovodsk** – 316
**Konqo** – 97
**Koreya Respublikası** – 190–196
**Kislovoqsk** – 316
**Kulevi** – 92
**Kür çayı** – 310
**Qafqaz** – 107,111,310
**Qara dəniz** – 120,238
**Qazax** – 271–280
**Qətər** – 67
**Qırğızıstan** – 198–215,310
**Qobustan** – 39
**Quba** – 42
**Latviya** – 15
**Lerik** – 140,149,150,151
**Lənkəran** – 140
**Liditse** – 17

**Litva** – 226,319
**London** – 310
**Malayziya** – 68
**Masallı** – 138–161
**Meksika** – 19,35,158
**Mineralnıye Vodı** – 316
**Moldova** – 178,310
**Monteneqro** – 22
**Moskva** – 149,155
**Naxçıvan MR** – 25
**Niderland** – 98,313
**Novi Pazar** – 21
**Novi Sad** – 21
**Oş** – 209
**Özbəkistan** – 310
**Pakistan** – 19,52,53,73,158
**Paris** – 310
**Polşa** – 72,78
**Poti** – 92
**Praqa** – 245–265
**Rumıniya** – 23
**Rusiya** – 10,71,80,149,150,207,223, 224,243,266,310,316
**Salyan** – 162–169
**Sarayevo** – 22
**Seneqal** – 197
**Seul** – 190–196
**Serbiya** – 21–22,172
**Sonqmi** – 17
**Stavropol** – 316
**Suriya** – 253
**Şərqi Avropa** – 113
**Tatarıstan** – 80
**Tokio** – 309,310
**Tovuz** – 307–310

**Tunis** – 77
**Tümen** – 223
**Türkiyə** – 13,19,54–62,237
**Ukrayna** – 9,244,310
**Vatikan** – 221
**Yardımlı** – 140
**Yəmən** – 20
**Yunanıstan** – 74
**Zəngəzur** – 61

# MÜNDƏRİCAT

BAKIDA XALQ QƏHRƏMANI KOROĞLUNUN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*21 fevral 2012-ci il* ............................................................................ *5*

FİZİKA-RİYAZİYYAT ELMLƏRİ DOKTORU, AKADEMİK SERGEY KAPİTSAYA

*22 fevral 2012-ci il* ............................................................................ *10*

XOCALI SOYQIRIMININ 20-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*23 fevral 2012-ci il* ............................................................................ *11*

TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİ İDRİS NAİM ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2012-ci il* ............................................................................ *13*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*24 fevral 2012-ci il* ............................................................................ *14*

LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ EDQARS RİNKEVİÇS İLƏ GÖRÜŞ

*24 fevral 2012-ci il* ............................................................................ *15*

XOCALI SOYQIRIMININ 20-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2012-ci il* ............................................................................ *16*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ

*27 fevral 2012-ci il ........................................................................ 20*

SERBİYA OLİMPİYA KOMİTƏSİNİN SƏDRİ VLADE DİVATSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 fevral 2012-ci il ........................................................................ 21*

RUMINİYA PREZİDENTİNİN TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ YULİAN FOTA İLƏ GÖRÜŞ

*27 fevral 2012-ci il ........................................................................ 23*

REGİONLARIN 2009–2013-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ ÜÇÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*28 fevral 2012-ci il ........................................................................ 24*

YEKUN NİTQİ ........................................................................ *36*

PAKİSTAN SENATININ SƏDR MÜAVİNİ MİR CAN CAMALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2012-ci il ........................................................................ 52*

PAKİSTANIN BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ XALİD ŞAMİM VAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 fevral 2012-ci il ........................................................................ 53*

TÜRKİYƏNİN TRT TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*29 fevral 2012-ci il ........................................................................ 54*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN «BEYİN MƏRKƏZLƏRİ»NİN III FORUMUNUN İŞTİRAKÇILARINA

*1 mart 2012-ci il*...........................................................................................*63*
NİZAMİ VƏ XƏTAİ RAYONLARINDA KÖRPƏLƏR EVİ VƏ UŞAQ BAĞÇALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*1 mart 2012-ci il*...........................................................................................*64*

II İQTİSADİ SİYASƏT FORUMUNUN İŞTİRAKÇILARINA

*2 mart 2012-ci il*...........................................................................................*65*

ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ HEKTOR TİMERMAN İLƏ GÖRÜŞ

*2 mart 2012-ci il*...........................................................................................*66*

QƏTƏR ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİ İLƏ GÖRÜŞ

*2 mart 2012-ci il*...........................................................................................*67*
MALAYZİYANIN KEÇMİŞ BAŞ NAZİRİ MAHATHİR MOHAMAD İLƏ GÖRÜŞ

*2 mart 2012-ci il*...........................................................................................*68*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*5 mart 2012-ci il*...........................................................................................*69*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*5 mart 2012-ci il*...........................................................................................*71*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ

*5 mart 2012-ci il*...........................................................................................*72*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SİF ƏLİ ZƏRDARİYƏ

*5 mart 2012-ci il* ........................................................................ *73*
YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

*5 mart 2012-ci il* ........................................................................ *74*

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*5 mart 2012-ci il* ........................................................................ *75*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA

*5 mart 2012-ci il* ........................................................................ *76*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ

*5 mart 2012-ci il* ........................................................................ *77*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*5 mart 2012-ci il* ........................................................................ *78*

ÇİLİNİN KEÇMİŞ PREZİDENTİ, DEMOKRATİYA VƏ İNKİŞAF FONDUNUN SƏDRİ RİKARDO LAQOSLA GÖRÜŞ

*5 mart 2012-ci il* ........................................................................ *79*

RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLDAR XALİKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2012-ci il* ........................................................................ *80*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*5 mart 2012-ci il* ........................................................................ *81*

DÜNYA BANKININ STRATEGİYA VƏ ƏMƏLİYYATLAR ÜZRƏ DİREKTORU TEODOR AHLERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2012-ci il*.......................................................................................*82*
GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*6 mart 2012-ci il*.......................................................................................*83*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 mart 2012-ci il*.......................................................................................*84*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*6 mart 2012-ci il*.......................................................................................*85*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*6 mart 2012-ci il*.......................................................................................*87*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*6 mart 2012-ci il*.......................................................................................*88*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*6 mart 2012-ci il*.......................................................................................*94*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*6 mart 2012-ci il*.......................................................................................*95*

KONQO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DENİ SASSU-NQESSOYA

*7 mart 2012-ci il*.......................................................................................*97*

NİDERLAND KRALLIĞININ İNFRASTRUKTUR VƏ ƏTRAF MÜHİT NAZİRİ XANIM MELANİ ŞULTZ VAN HAEDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 mart 2012-ci il*.......................................................................................*98*

*bp*-nin İDARƏ HEYƏTİNİN SƏDRİ KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞ

*7 mart 2012-ci il ........................................................................... 99*

DÜNYA AZƏRBAYCANLI GƏNCLƏR BİRLİYİNİN TƏSİS QURULTAYININ İŞTİRAKÇILARINA

*9 mart 2012-ci il ........................................................................... 100*

FRANSANIN MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA NAZİRİ FREDERİK MİTTERANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 mart 2012-ci il ........................................................................... 102*

TOFİQ BƏHRAMOV ADINA RESPUBLİKA STADİONUNDA HƏYATA KEÇİRİLMİŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*9 mart 2012-ci il ........................................................................... 103*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 mart 2012-ci il ......................................................................... 104*

XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 mart 2012-ci il ......................................................................... 105*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 mart 2012-ci il ......................................................................... 106*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 mart 2012-ci il ......................................................................... 108*

XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*12 mart 2012-ci il*...........................................................................*109*
AZƏRBAYCAN–XORVATİYA BİZNES-FORUMUNDA
İŞTİRAK

*12 mart 2012-ci il*...........................................................................*116*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*12 mart 2012-ci il*...........................................................................*122*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*12 mart 2012-ci il*...........................................................................*123*

CƏNUB BÖLGƏSİNƏ SƏFƏR

*13 mart 2012-ci il*...........................................................................*126*

MASALLI RAYONUNA SƏFƏR

*13 mart 2012-ci il*...........................................................................*138*

MASALLIDA «MASERA» MMC-nin SOYUDUCU ANBAR
VƏ İSTİXANA KOMPLEKSLƏRİNİN AÇILIŞI
MƏRASİMİNDƏ İŞTİRAK

*13 mart 2012-ci il*...........................................................................*161*

SALYAN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR
ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*13 mart 2012-ci il*...........................................................................*162*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*14 mart 2012-ci il*...........................................................................*170*

ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ GUİDO
VESTERVELLE İLƏ GÖRÜŞ

*15 mart 2012-ci il*...........................................................................*171*

SERBİYA PREZİDENTİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ
MÜŞAVİRİ BİSERKA YEFTİMİYEVİÇ-DRİNYAKOVİÇ VƏ

İQTİSADİ VƏ REGİONAL İNKİŞAF NAZİRİ NEBOYÇA ÇİRİÇ İLƏ GÖRÜŞ

*15 mart 2012-ci il*..........................................................................*172*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*16 mart 2012-ci il*..........................................................................*173*

«BAKIELEKTRİKŞƏBƏKƏ» ASC-nin «GƏNCLİK» YARIMSTANSİYASININ, TƏDRİS MƏRKƏZİNİN VƏ «İÇƏRİŞƏHƏR» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*16 mart 2012-ci il*..........................................................................*175*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAYE TİMOFTİYƏ

*17 mart 2012-ci il*..........................................................................*178*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA

*19 mart 2012-ci il*..........................................................................*179*

BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2012-ci il*..........................................................................*180*

KOREYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*25 mart 2012-ci il*..........................................................................*190*

NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ İŞTİRAK

*26 mart 2012-ci il*..........................................................................*191*

NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ ÇIXIŞ

*27 mart 2012-ci il*..........................................................................*192*

NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ NİTQ

*27 mart 2012-ci il*......................................................................................*194*
SENEQAL RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏKKİ SALLA

*30 mart 2012-ci il*......................................................................................*197*

QIRĞIZ  RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK
ATAMBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*30 mart 2012-ci il*......................................................................................*198*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK
ATAMBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*30 mart 2012-ci il*......................................................................................*199*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*30 mart 2012-ci il*......................................................................................*200*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*30 mart 2012-ci il*......................................................................................*202*

QIRĞIZ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ
BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA
ÇIXIŞLAR

*30 mart 2012-ci il*......................................................................................*204*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*30 mart 2012-ci il*......................................................................................*212*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*30 mart 2012-ci il*......................................................................................*214*

BAKIDA BEŞULDUZLU «JW MARRİOTT ABSHERON»
OTELİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*1 aprel 2012-ci il*........................................................................................*216*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

*2 aprel 2012-ci il* ......................................................................................*221*
DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT
II MARQRETEYƏ

*2 aprel 2012-ci il* ......................................................................................*222*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*2 aprel 2012-ci il* ......................................................................................*223*

RUSİYA FEDERASİYASININ NƏQLİYYAT NAZİRİ İQOR
LEVİTİN İLƏ GÖRÜŞ

*2 aprel 2012-ci il* ......................................................................................*224*

FİNLANDİYANIN XARİCİ İŞLƏR NAZİRİ
ERKKİ TUOMİOYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2012-ci il* ......................................................................................*225*

LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS
AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*2 aprel 2012-ci il* ......................................................................................*226*

AVRONEST PARLAMENT ASSAMBLEYASININ
HƏMSƏDRİ KRİSTİAN VİGENİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2012-ci il* ......................................................................................*227*

AVROPA İTTİFAQININ GENİŞLƏNMƏ VƏ AVROPA
QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN
FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*2 aprel 2012-ci il* ......................................................................................*228*

AVRONEST PARLAMENT ASSAMBLEYASININ İKİNCİ SESSİYASININ RƏSMİ AÇILIŞINDA İŞTİRAK

*3 aprel 2012-ci il ...................................................................................229*

DÖVLƏT BAYRAĞI MEYDANI VƏ İDMAN-KONSERT KOMPLEKSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 aprel 2012-ci il ...................................................................................242*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*3 aprel 2012-ci il ...................................................................................243*

UKRAYNA RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOLAY AZAROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2012-ci il ...................................................................................244*

ÇEXİYA RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*4 aprel 2012-ci il ...................................................................................245*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*5 aprel 2012-ci il ...................................................................................246*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUS İLƏ GÖRÜŞ

*5 aprel 2012-ci il ...................................................................................247*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*5 aprel 2012-ci il ...................................................................................248*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*5 aprel 2012-ci il ...................................................................................249*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUS İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA İŞTİRAK

*5 aprel 2012-ci il*.......................................................................................*250*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*5 aprel 2012-ci il*.......................................................................................*255*

ÇEXİYA PARLAMENTİ DEPUTATLAR PALATASININ SƏDRİ XANIM MİROSLAVA NEMTSOVA İLƏ GÖRÜŞ

*5 aprel 2012-ci il*.......................................................................................*257*

QƏDİM KARL KÖRPÜSÜ İLƏ TANIŞLIQ

*5 aprel 2012-ci il*.......................................................................................*258*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ DÖVLƏT NAHARINDA İŞTİRAK

*6 aprel 2012-ci il*.......................................................................................*259*

ÇEXİYA RESPUBLİKASININ BAŞ NAZİRİ PETR NEÇAS İLƏ GÖRÜŞ

*6 aprel 2012-ci il*.......................................................................................*263*

PRAQANIN VİTKOV MİLLİ MEMORİALINI ZİYARƏT

*6 aprel 2012-ci il*.......................................................................................*264*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 aprel 2012-ci il*.......................................................................................*266*

XV AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

*9 aprel 2012-ci il* ........................................................................ *267*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ APARILMIŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*10 aprel 2012-ci il* ........................................................................ *269*

YENİ NEFT-QAZ EMALI VƏ NEFT-KİMYA KOMPLEKSİNİN İNŞASINA HƏSR OLUNMUŞ FORUMUN İŞTİRAKÇILARINA

*9 aprel 2012-ci il* ........................................................................ *270*

ŞİMAL-QƏRB BÖLGƏSİNƏ SƏFƏR

*12 aprel 2012-ci il* ........................................................................ *271*

AĞSTAFA RAYONUNA SƏFƏR

*12 aprel 2012-ci il* ........................................................................ *281*

YAZIÇILAR EVİNDƏ BÖLGƏ ZİYALILARI İLƏ GÖRÜŞ

*12 aprel 2012-ci il* ........................................................................ *285*

TOVUZ RAYONUNA SƏFƏR

*12 aprel 2012-ci il* ........................................................................ *307*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*13 aprel 2012-ci il* ........................................................................ *311*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*13 aprel 2012-ci il* ........................................................................ *312*

NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT II BEATRİKSƏ

*13 aprel 2012-ci il* ........................................................................ *313*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

*13 aprel 2012-ci il* ........................................................................ *314*

«AİTF–2012» XI AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*13 aprel 2012-ci il* ........................................................................... *315*

DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*13 aprel 2012-ci il* ........................................................................... *318*

LİTVA SEYMİNİN KEÇMİŞ SƏDRİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ VİTAUTAS LANDSBERGİS İLƏ GÖRÜŞ

*14 aprel 2012-ci il* ........................................................................... *319*

NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASDA İŞTİRAK

*16 aprel 2012-ci il* ........................................................................... *320*

YEKUN NİTQİ ........................................................................... 330

HİNDİSTANIN TİCARƏT VƏ SƏNAYE NAZİRİ VƏ AZƏRBAYCAN–HİNDİSTAN BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ CYOTİRADİTYA SİNDİAN İLƏ GÖRÜŞ

*16 aprel 2012-ci il* ........................................................................... *348*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ

*17 aprel 2012-ci il* ........................................................................... *349*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİN İLƏ GÖRÜŞ

*17 aprel 2012-ci il* ........................................................................... *350*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ XƏLİL AKINCI İLƏ GÖRÜŞ

*17 aprel 2012-ci il* ......................................................................................*351*

BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLA-
TININ BAŞ DİREKTORU JOZE QRATSİANO DA

SİLVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*18 aprel 2012-ci il* ........................................................................... *352*

UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR
LİTVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*18 aprel 2012-ci il* ........................................................................... *353*

QEYDLƏR............................................................................................ *348*

*Şəxsi adlar göstəricisi*........................................................................ *373*

*Coğrafi adlar göstəricisi* ..................................................................... *378*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.